DÜNYA ƏDƏBİYYATI

LOPE de VEQA

Seçilmiş əsərləri

III6(4)
V-36

LOPE DE VEQA

SEÇİLMİŞ ƏSƏRLƏRİ

252345

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Bu kitab "Lope de Vega. Pyeslər" (Bakı, Azərnəşr, 1974) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır

Tərcümə edənləri: **Tələt Əyyubov**
Fərhad Əliyev

ISBN 978-9952-34-137-9

863.3-dc22
İspan ədəbiyyatı – XVI-XVII əsrlər

Lope de Vega. Seçilmiş əsərləri.
"Şərq-Qərb", Bakı, 2007, 384 səh.

Kitaba ispan milli dramaturgiyasının banisi Lope de Veqanın "Sevilya ulduzu", "Valensiya divanələri" və "Fuente Ovexuna" pyesləri daxil edilmişdir. Bu əsərlərdə İntibah dramının başlıca prinsipləri ifadə olunmuş, o dövrün qabaqcıl, humanist ideyaları əks edilmişdir.

© "Şərq-Qərb", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ÖN SÖZ

Görkəmli ispan dramaturqu, İntibah dövrünün şöhrətli sənətkarı Lope de Veqa Karpo dünyada ən çox pyes yazan müəllifdir. Hətta belə rəvayət var ki, Lope de Veqa teatra gəlib təzə komediya yazmağa başlayır. O, səhnələri, pərdələri bitirdikcə aktyorlar səhnədə məşq edirlər və beləcə, axşama əsər tamama yetir.

Onun tələbəsi, haqqında ilk böyük tərcümeyi-hal əsərinin müəllifi Xuan Peres de Montalvanın yazdığına görə Lope de Veqa 1800-dən çox ailə-məişət, dörd yüz isə dini mövzulu səhnə əsəri yazıb. Yaradıcılığı haqqındakı elmi-nəzəri əsərləri, tədqiqatları nəzərdən keçirəndə o qənaətə gəlmək olar ki, Lope de Veqanın beş yüzə yaxın pyesi dərc olunub, iki yüzə qədərinin isə yalnız adı bəllidir. 1979-cu ildə dramaturqun "İkinci Davidin rəşadəti" pyesinin tam avtoqrafı tapılmışdır.

Lope de Veqa 1562-ci il noyabr ayının 25-də Madriddə anadan olub. Dövrünün orta səviyyəli təhsil ocaqlarında dərs keçib. Yeniyetməlik dövründən müxtəlif elmlərlə yanaşı, dinə böyük maraq göstərib, hətta 1614-cü ildə keşiş rütbəsi alıb. Buna baxmayaraq o, bütün varlığı ilə ədəbiyyata bağlanmış, ömrü boyu ilhamla yaşayıb-yaratmış, ispan milli dramaturgiyasının banisi olmuşdur. Lope de Veqa 1635-ci il avqust ayının 27-də Madriddə həyatdan köçmüşdür.

Ədibin yaradıcılığında nəsr və poeziya da xüsusi yer tutur. Onun "Arkadiya", "Öz vətənində qərib", "Doroteya", "Viflieeli naxırçıları" romanları, iyirmidən çox poeması, çoxlu şeri var. "Bizim dövrümüzdə yeni komediya yazmaq sənəti" (1609) traktatında İntibah dram sənətinin əsas prinsiplərini, başlıca estetik göstəricilərini, mövzu, janr məsələlərini, sənətkarlıq xüsusiyyətlərini araşdırıb.

Bununla belə, Lope de Veqa dünya mədəniyyətinə klassik dramaturq kimi daxil olub. Yaradıcılığının ilk illərində əsərləri hindu, fransız, alman, ingilis dillərinə tərcümə edilib və dövrünün öncül teatrlarında tamaşaya qoyulub. XIX əsrin axırlarında Malıy, Aleksandrinsk teatrları Lope de Veqanın komediyalarını öz səhnələrində göstərib.

Sağlığında istedadı, dramaturq qüdrəti "təbiətin möcüzəsi", "poeziya okeanı", "istedad təşnəsi", "teatr imperiyasının titanı"... kimi dəbdəbəli epitetlərlə qiymətləndirilən Lope de Veqanın dramaturgiyasının mövzu dairəsi, janrı çox geniş və rəngarəngdir. O, əsərlərində xalq ruhunu, xalq dil-ifadə vasitələrini çiçəkləndirmişdir.

Lope de Veqa ilk pyeslərində – "Kral Vamba", "Qraf Fernan Qonsales və ya Bastiliyanın xilası", "Yelbeyin qız", "Günahsızların qanı", "Sevilya ulduzu", "Kastiliya məhkəmə hakimləri", "Salameya hakimi", "Qoyun bulağı" ... əsərlərində şəxsiyyət və cəmiyyət problemini genişliyi ilə qorur. Həmin əsərlərdə başlıca ideya budur ki, öz təbəələrinin şəxsiyyətlərini tapdalayan, hisslərini, səylərini boğmağa çalışan, ləyaqətlərini alçaldan hakim tənəzzülə düçardır. Onların aqibəti məhvə gedir. Var-dövlət hərisliyinin insanı alçaltması "Don Xuanın çiçəkləri", "Şöhrət əvəzi pul" komediyalarında poetik vüsətlə təcəssüm tapıb.

Tarixi mövzulu pyeslərində dövlət rəhbəri, qəhrəmanlıq və cinayət məsələlərini qabarıq verən Lope de Veqa həmçinin xalq içərisindən çıxan ləyaqətli, səmimi, insanpərvər, xeyirxah obrazlar qalereyası yaradıb. Müəllif onlara böyük rəğbət bəsləyir. "Şöhrətli asturiyalılar", "Ölümdən sonra nikah", "Simonkaslı qarımışlar", "Pedro Karbonero" və bu səpkili pyeslərdə mürəkkəb insan xarakterləri, həm qız, həm də gənc qəhrəmanların şux, ağıllı, uzaqgörən obrazları ilə qarşılaşırıq.

"Florensiya villası" və bu səpkili pyeslərində ailə-məişət mövzularını eskizvari, illüstrativ süjet təsvirləri, dəqiq, ancaq tam bitməyən cizgilərlə verən Lope de Veqa "Fuente Ovexuna", "Salameya hakimi", "Perivanes və komandor Okani", "Xoşsifət hakim – kral" komediyalarında güclü xarakterlər yaradır. Konflikt, əqidə mübarizələrinin toqquşması zəminindən rişələnən münaqişələr, ictimai kəsər aparıcı rol oynayır.

Lope de Veqanın əksər pyesləri müasir mövzulardadır. Öz dövrünün əxlaqi görüşlərini, məişət qayğılarını, həyata bağlılığı tərənnüm edən "Dəliqanlı Kastruço", "Sevəsən, ancaq bilməyəsən kimi sevirsən", "Sirsiz məhəbbət də yoxdur", "Nə yardan doyur, nə əldən qoyur", "Məşhur tərsanə", "Rəqs müəllimi", "Kastelvinas və Monteses", "Xatafeli kəndli qadın", "Kuzəli qız", "Tolododa gecə", "Madrid hücrəsi", "Universitet təlxəyi", "Öz sevgisinin əsiri", "Min oyundan çıxan məşuqə", "Səfərə çıxan evdə qaldı" kimi komediyalarında müəllifin

həyat həqiqətlərinə sadiqliyi dəqqəti cəlb edir. Mübarizə xəttinin mərkəzində real həyat həqiqətləri duran komediyalarda məhəbbətin ilahiliyi, yenilməz qüvvəsi, insanın ülviliyi geniş tərənnüm olunur və əsas ideyaya çıraq tutur.

Bütün bədii məziyyətləri ilə yanaşı, Lope de Veqanın komediyaları rejissor təxəyyülünün qanadlanması, aktyor yaradıcılığının pardaqlanması üçün əvəzsiz xəzinədir. Azərbaycan teatrı da bu xəzinədən bəhrələnmiş. "Sevilya ulduzu", "Rəqs müəllimi", "Qoyun bulağı", "Nə yardan doyur, nə əldən qoyur", "Valensiya divanələri" (bizdə "Dəlilər" adı ilə gedib) komediyaları teatrlarımızın repertuarını bəzəmişdir.

İlham Rəhimli
1988

Sevilya ulduzu

İŞTİRAK EDƏNLƏR:

Kral don Sançe Cəsur	
Don Aryas	
Don Pedro de Qusman	– baş alkald
Farfan de Ribera	– baş alkald
Don Qonsalo de Uloa	
Fernan Peres de Medina	
Don Sançe Ortis	
Klarindo	– onun nökəri
Busto Tabera	
Estrelya	– onun bacısı
Natilda	– Estrelyanın qulluqçuları
Teodora	
Don İniqo Osoryo	
Don Manuel	
Dustaqxana rəisi	
Məiyyət	
Xidmətçilər	
Müğənnilər və musiqiçilər	
Camaat	

Hadisə Sevilyada baş verir.

BİRİNCİ PƏRDƏ

SARAYDA SALON

BİRİNCİ SƏHNƏ

Kral, don Aryas, don Pedro de Qusman, Farfan de Ribera.

Kral

Mən Sevilya şəhərinə
Minnətdaram, cənablar!
Bu hörmətə, qayğıya
Dərin təşəkkürüm var.
Bu yerdə biz çox gördük
Təntənələr, hörmətlər.
Bizə möhkəm istinadgah
Oldu bu gözəl şəhər.
Mən başıma tac qoyuram,
Məndədir hər ixtiyar.
İndi mənəm Kastilyaya
Əbədilik hökmdar...
Çünki bilin, Sevilyada
Kim olarsa qüvvətli –
Ona daim baş əyəcək
Kastilya əyaləti.
Təntənəylə qarşıladı
Ordumuzu bu torpaq.
Mən Sevilya şəhərinə
Bir mükafat olaraq
Əmr edirəm: sarayım
Bu şəhərdə qurulsun.
Bu şəhərə bizim qalib
Bayrağımız vurulsun!
İspaniyada, Sevilyaya
Heç bir şəhər deyil tay...
Sevilyada hökm eyləsin
Həm bu kral, həm saray!

Don Pedro

Bütün Sevilyanın adından bu an,
Bütün hakimlərdən, rexidorlardan.
Deyirik: Nə qədər bu yerdə varıq,
Göstərərik sənə daim sədaqət,
And içirik, sizə sadiq olarıq.
Atırıq sərvəti qədəminizə,
Hamı təsdiq edir: hakimsən bizə.
Bircə şərt ilə ki, hər bir zaman sən,
Xalqın bu müqəddəs azadlığını,
Qədim zamanlardan, bütün haqqını
Gərək hər bir zaman hifz eyləyəsən.

Kral

Bilin, mən sizlərdən hədsiz razıyam.
. . . . . [1]

Don Pedro

Mərhəmətli kral, izin ver bizə,
Yıxılaq mübarək qədəminizə!

Kral

Özünüzə sadiq oldunuz müdam,
Sizin sidqinizlə mən bəxtiyaram,
Bəli, fəxr edirəm, a dostlar, sizlə.
Sizin bu misilsiz köməyinizlə
Cəbəllüttariqi fəth edəcəyəm,
Şöhrətimdən xəbər tutacaq aləm!

Farfan

Çatasınız deyə siz bu arzuya,
Bilin ki, hər şeydən keçər Sevilya!

[1] Orijinalda bir misra çatmır.

Sənin məqsədinə xidmət edərik,
Sənin bir sözünlə keçərik, inan
Bütün canımızdan, qılıncımızdan.

Don Aryas

Kral kövrəlmişdir. Artıq gedin siz.
Bəli, hər ikiniz hisslərinizlə,
Krala çox yaman təsir etdiniz!

Kral

Deyin Sevilyaya siz, əvəzimdən,
Onun köməyinə arxayınam mən.

Don Pedro de Qusman və Farfan de Ribera gedirlər.

İKİNCİ SƏHNƏ

Kral, don Aryas.

Don Aryas

Sizə xoş gəldimi, bizim Sevilya?

Kral

Bəli, Sevilyanı heç görməmişdən,
Elə bil, heç kral deyil idim mən.
Bir həqiqət oldu əfsanə indi...

Don Aryas

Sizin lütfünüzlə, bu şəhər, gerçək,
Daha da parlayıb, gözəlləşəcək.

Kral

Şəhər çox gözəldir, haqlısan, haqlı...
Hər yan cah-cəlallı və təmtəraqlı...
Yaxşı tanıyanda biz bu şəhəri,
Daha da artacaq gözəllikləri...
Mən öz varlığımla əminəm buna.

Don Aryas

Bəli, gözəllikdə bizim Sevilya
Qədim Romanı da ötmüşdür belə.
Geniş küçələri, qəsrləriylə!

Kral

Gözəl Sevilyanın gözəllərindən
Niyə danışmırıq, dinmirik nədən?
Nədən şirin dilin birdən tutuldu?
Onları tərifə sözün yox oldu?
Onların şöləsi bizi yaxanda,
Nə əcəb, yanmadın sən də bir anda,
Ya da isinmədin?

Don Aryas

Yox, səmalara
Bir pərdə çəkmişdi o Leonora!
Hüsnündən, gözünün şüalarından
Elə bil günəşdi... Kor oldum inan.

Kral

Yaxşıydı... Amma ki heç yeri varmı,
Ağ bəniz, günəşə heç tay olarmı?
Günəş istisindən onda bir əsər, –
Mən görə bilmədim. Dediyin dilbər
Donmuşdu yerində soyuq qar kimi...

Yox-yox, mən günəşin hərarətini
Buza dəyişmərəm... Onun hüsnünə
Mən əgər yanaşsam, nə taparam, nə?
Qar kimi ağ olan o xanım, tamam,
Buz kimi içməli sudur, vəssalam.

Don Aryas

Bəs sizə gül atan donya Koronel,
Odamı sizə bir əsər etmədi?

Kral

Yox, sənin dediyin ideal deyil...

Don Aryas

Sözləriniz məndə heyrət doğurur!
Bəs onun yanında, atəşlə dolu,
İki qarayanız dayanmışdı ha,
Onlar cüt bacıdır, bəli, Mexiya,
Gündüzdən nurluydu gözəllikləri...
Yəni, doğrudanmı, o bir cüt pəri
Valeh eləmədi sizi bir anda?
Biri Beatrisdir, biri də Anna.

Kral

Anna adlı qadın nə qədər çoxdur!
Bunlardan qəlbimə sıxıntı dolur.
Bu adlar tutmuşdur burda hər yanı,
Onlardan fərqlənsə qadının adı –
Beatris olrsa, daha xoş olar.

Don Aryas

Qadının adına bağlıdır məgər,
Ki, qadınlar sizi cəzb eyləyələr?

Kral

Bəli, şıltaqlıq var biz kişilərdə.
Sevgidə hər şeyin öz mənası var.
Təəccüb eyləmə: var belə adlar
Ki, onlardan nifrət yaranır, inan,
Elə ad da var ki, bizdə hər zaman
Bir həyəcan doğurur, bir də ki, maraq...

Don Aryas

Hökmdar, orada biri də vardı,
Özü sarıbəniz, sifəti ağdı...

Kral

Onu çox həvəssiz xatırladım mən.
Soyuqluq keçirdi mənim qəlbimdən.
Qızıla tutulmuş soyuq mərmərdi.
Yalnız biri mənə eylədi təsir.
Onun məftun oldum məlahətinə!
Sarıbənizlərdən çox dedin, niyə
O qara saçlını unutdun amma?
Vüqarla durmuşdu öz eyvanında.
Hamıdan vüqarlı, hamıdan gözəl...
Onu görən kimi qaldım məəttəl.
Çıxardım önündə mən şlyapamı,
Bildirdim heyrət və həyəcanımı...
Onun alov dolu şux baxışları
Mənim ürəyimi bərk yaraladı.
Qara geyinmişdi o, başdan-başa.
Lakin tamaşaydı hüsnü, tamaşa.
Nurlu Avroradan o, işıqlıydı,
İşıqlı gündüzdən yaraşıqlıydı!
O, qara paltarda göründü mənə,
Göylərin ilahi gözəlliyiylə.
O, dərhal qaraltdı görünən kimi
İspaniyanın parlaq, al günəşini.

Don Aryas

Hə! O qara saçaqlı paltardakımı?

Kral

Tanımağa nə var? Bəli, o gözəl,
Hüsnüylə hamını qoydu məəttəl.

Don Aryas

O parlaq camalı tanıyıram mən.

Kral

Gözəllər içində o tək gözəldən,
Danış... Əzab vermə mənim ruhuma.

Don Aryas

Sevilya ulduzu deyərlər ona...

Kral

Ulduz? Heç günəşə bənzərmi ulduz?
Onu təhqir etmə! Bəsdir, uğursuz...
Sevilyanın zövqü yoxdurmu məgər?
Hüsnündən nurlanır onun bütün yer...
Dünyaya nur saçır o, günəş kimi,
İnci tək parlayır al-əlvan rəngi.

Don Aryas

Kral, onun adı Estrelyadır,
Estrelya isə ulduz deməkdir.
Sevilyalılar da həmən bu adı
Münasib görmüşlər gül camalına,
Sevilya ulduzu demişlər ona.

Kral

Gərək o, günəşə bənzədiləydi.

Don Aryas

Gəlinlik yaşına çatmışdır yaşı,
Şəhərdə ər gəzir ona qardaşı.

Kral

Onun qardaşı var?

Don Aryas

Bəli.

Kral

Evlidirmi?

Don Aryas

Xeyr, hökmdar.
Hər zaman mehriban, hər zaman da bir,
Birisi ulduzdur, biri günəşdir.
Onların nuruyla, əzəldən bəri
Parlar Sevilyanın bütün göyləri.

Kral

Görünür, uğurlu ulduz altda mən
Bu yerə gələrək, salmışam məskən.
Qarşımda açmışdır ümid – qanadlar,
Ollam Sevilyada, yəqin, bəxtiyar.
Bu ulduz saçdıqca nurunu müdam
Mən daim bəxtiyar yaşayacağam.
Bəs onu görməkçin, söylə, neyləyim?
Onunla bəs necə söhbət eyləyim?

252345

Don Aryas

Əmin edirəm ki, ey hökmdar, siz,
Günəşin özü də mane olarsa,
Öz ulduzunuzla görüşərsiniz.
Onun qardaşına eyləyin hörmət,
Namus, çox qürurlu olsa da, fəqət,
Ona ləkə vurmaq olar bir təhər...
Güclü, şöhrətlidir hökm eyləyənlər...
Cavab vermək gərək hər hədiyyəyə,
Əgər qəbul etsə, o, bircə dəfə
Sizə zidd getməyə heç haqqı varmı?
Kralın borcundan azmaq olarmı?

Kral

Çağır hüzuruma həmin oğlanı!
Bir də ki fürsət tap, Estrelyanı –
Mən bir gecə görüm. Görüm o qızı.
Ah, məni yandırdı sevgi ulduzu!

Don Aryas gedir.

ÜÇÜNCÜ SƏHNƏ

Kral və matəm paltarı geyinmiş Don Qonsalo de Uloa.

Don Qonsalo

Qoyunuz, diz çöküm kral önündə!

Kral

Yox, dostum, qalxınız, belə bir gündə,
Hər tərəfdə hər kəs şadlıq edərkən,
Söyləyin bir görək, bəs nə üçün siz
Tutqun bir kölgəyə bənzəyirsiniz.

M.F.Axundov adına
Az[illegible] Mil[illegible]

Don Qonsalo

Hökmdarım, dünən atam öldü, ah...

Kral

Elə sərkərdəni itirdim, Allah!

Don Qonsalo

Onun bu ölümü ağırdır bizə...
Çox xələl gələcək işlərimizə.
Bəs kim vuruşacaq bu sərhədlərdə?
Düşmənə açılar yollar bu yerdə...

Kral

Hayıf o igidə! Baxtıma bax bir!
Qonsalo, bu, mənə ağır zərbədir!

Don Qonsalo

Vətən təhlükəyə düşmüşdür artıq,
Bir qəhrəman yoxdur atama layiq.
Lakin mənim atam, əzəldən mənə,
Şərəfi, şöhrəti vermiş hədiyyə.
Razı olmayın ki, başqa birisi
Gəlib sahib olsun, tutsun bu irsi...
O rütbə mənimdir, mənimdir yalnız.

Kral

Bəli, inanıram, sizin atanız
Şərəfi, qeyrəti irs qoymuş sizə...
Yas tutub, son verin bu itkinizə...
Sonra da gəliniz siz sarayıma.

[illegible]

Don Qonsalo

Yox, kral, Fernando Peres Medina
Həmin bu xahişi edəcək sizdən.
O, sizə yalvarıb deyəcək hökmən,
Bu matəmli oğul, möhtərəm kral,
Öz ata irsindən əl çəksin dərhal.
O da mükafata nalayiq deyil,
Sərkərdəlik edib, ölkədə on il,
Parlaq sədəfləri Qrenadada
Yaquta döndərmiş amansızlıqla.
Mən ondan qabağa düşmək istərəm.

Kral

Nə hə, nə də ki, yox demirəm bu dəm,
Mən öz cavabımı düşünməliyəm.
Belə ciddi işi, əlbəttə, gərək
Şuranı çağırıb, orda həll edək.

DÖRDÜNCÜ SƏHNƏ

Əvvəlkilər və Fernan Peres de Medina

Fernan

Mən çox gecikmişəm, aydın məsələ...
Sizə düz çökürəm pak hörmətimlə.
İkicə söz deyib sizə mən, ancaq
Dərhal gedəcəyəm...

Kral

Senyor, lap nahaq...
Hələ verilməmiş heç nəyə qərar.
Belə ciddi işi, inanın, bəli,
Çox möhkəm, çox dərin fikirləşməli...

Taxtın əsasıdır məşvərətçilər...
Çağırram onları, qərar verərlər.
Görək Arçidona kimin hökmüylə,
Yaşayar daima möhkəm ümidlə.
Siz burda əyləşin, hələ dincəlin.

Don Qonsalo

Budur, ey hökmdar, ərizəm mənim.

Fernan

Bu da mənimkidir, güzgüdəki tək,
Mənim bu xahişim göstərsin gərək
Hər bir əməlimi, hər xidmətimi –
Namusumu, sizə sədaqətimi.

Don Qonsalo

O rütbə mənimdir. Ey hökmdar, siz,
Yəqin, ədalətli hökm edərsiniz.

Don Qonsalo və Fernan gedirlər.

BEŞİNCİ SƏHNƏ

Kral, don Aryas, Busto Tabera.

Don Aryas

Ey böyük hökmdar, baxınız, budur:
Qarşınızda Busto Tabera durur.

Busto

Sizin qarşınızda, böyük hökmdar,
Heyrəti deməyə sözmü tapılar?
Ümumi qanuna tabe olub bəs –
Bəs, hansı insanın qəlbi titrəməz?
Yanımda durarkən kral surəti,

Heyrətə salmazmı biz rəiyyəti?
Mənsə, ey hökmdar, indi bu saat,
Həycana düşürəm, bilin ikiqat.
Bu böyük mərhəmət, bu lütfkarlıq,
Məni sarsıtmışdır ikiqat artıq.

Kral

Yox, ayağa qalxın...

Busto

Edirəm rica,
Krala hörmətdir qanun və qayda.
Övliya önündə olduğu kimi,
Mütləq bükməliyəm mən dizlərimi.

Kral

Şanlı əsgərsiniz, kavalyero, siz!

Busto

Bunu yaxşı bilir bütün ölkəmiz.
Layiq olduğumdan artıqsa, fəqət,
Mənə gərək deyil nə şan, nə şöhrət.

Kral

Ucaltmaq istərəm sizi mən özüm...

Busto

Göylərin hökmüylə yerlərin hökmü
Verir krallara böyük qüdrəti,
Onların hər fikri ucadır, uca,
Borcu itaətdir biz rəiyyətin.
İstəmirəm artıq nə şan, nə şöhrət,
Mənim istədiyim: yalnız ədalət.

Kral

Tabera, artmağı, de, kim istəməz?

Busto

Əgər istəsəydim ucalmaq, onda,
Bu gözəl sarayda, gözəl salonda,
Mən də şlyapalı gəzərdim, ancaq
Sadə rəiyyəttək indi, budur bax,
Durmuşam başaçıq mən qarşınızda...
Mənə gərək deyil heç bir şey əsla!

Kral (*Don Aryasa, yavaşdan*).

Doğru bir fəlsəfə, diqqət eylə bir,
Böyük bir şərəflə nə birləşmişdir!

Don Aryas (*Krala, yavaşdan*).

Fəlsəfə deyildir, şıltaqlıqdır bu...
Nə şərəf, nə namus saymıram bunu...

Kral

Tabera! Doğrusu, istəməzdim mən
Belə bir şərəfə xidmət etmədən,
Gələrək, kralın qarşısında siz
Başı şlyapalı dayanaydınız.
Tabera, mən sizi çox ucaldaram,
Lakin qazanmaqçın bu haqqı sizə,
Bir qəhrəman kimi, məqsədinizə
İgidliklər üçün yollar açaram...
Qanuni olmalı hər qəhrəmanlıq.
Siz sadə Tabera deyilsiz artıq.
Mənim iradəmlə, bundan sonra siz,
Bu Arçidonaya canişinsiniz.

Ölkəmiz gözləyir yeni xətəri,
Tez gedin, qoruyun siz sərhədləri.
Məni əvəz edib, orda siz yalnız,
Yaxşı, açıqgörən göz olarsınız.

Busto

Mənim hökmdarım! Bir igid kimi
Hansı şücaəti eyləmişəm ki,
Belə bir rütbəyə layiq olum mən?

Kral

Yalnız dava üçün deyil, sülhdə də,
Yaxşı, mərd adamlar gərəkdir mənə
Ki, bizim ölkəni qorusun onlar.
Buna layiqsiniz, heç şübhəmi var?
Bu ərizə verən iki nəfərdən,
Sizi daha üstün tutmaqdayam mən.
Sizin sözünüzü gözlərəm bu dəm,
Buyurun, oxuyun, rica edirəm:
Dediyim rütbəyə, üç nəfər adam,
Verəcəyim hökmü gözləyir müdam.
Onlardan ikisi sizə rəqibdir.
Bunu da, onu da oxuyunuz bir.

Busto (*oxuyur*).

"Ədalətli hökmdar!" Mən, don Qonsalo de Uloa, Siz əlahəzrətdən acizanə rica edirəm ki, sizin tac-taxtınıza on beş il qulluq edib, döyüşdə həlak olan atamın xidmətləri naminə, məni Arçidonaya vali təyin edəsiniz".

Əgər atasının xidmətlərini
Özündə saxlamış olsa Qonsalo,
Bir rəhbər olmağa çox layiqdir o.

Kral

Hələ oxuyunuz lap axıradək.

Busto (*oxuyur*).

"Ey senyor! Mən, Peres de Medinayam,
Sizin atanızın qoşunlarında
Mən düz iyirmi il xidmət etmişəm.
Xidmət istəyirəm indi oğluna.
Sizə and içirəm, böyük hökmdar,
Nə qədər ürəyim və nəfəsim var,
Bizim İspaniyaya xidmət edəcək
Mənim bu qılıncım, bu əlim gerçək.
Mən hakim olmuşam Qrenadada,
Çox dava etmişəm mən mavrlarla.
Üç il zillət çəkdim mən əsirlikdə,
Hərbdə eylədiyim xidmət naminə
O rütbə mənimdir, mənə qismətdir.
Döyüşkən qılıncım bir zəmanətdir".

Kral

İndi, özünüzdən söyləyin aydın.

Busto

Məni, hökmdarım, siz bağışlayın!
Özümdə ləyaqət görmürəm əsla!
Ən böyük, ən yüksək mükafatlara
Mənim haqqım yoxdur. Dövlətim-varım
Bircə yalnız budur: şanı-şöhrəti,
Mənə miras qoymuş mərd babalarım.
Onlardan deməyə mənim haqqım var!
Onlar fəth eyləmiş möhkəm qalalar.
Qanı dizə çıxan sərt döyüşlərdə
Qanlı bayraqları keçirmiş ələ.
Mənim babalarım yaşayan zaman
Qazanmış həm şərəf, həm şöhrət, həm şan.
Onlardan törənən mənimtək nəsil
Elə şan-şöhrətə heç layiq deyil!
Böyük yaradanın həqiqətitək

Sizin də hökmünüz düz olsun gərək.
Bu müqəddəs, gözəl hədiyyə isə,
Hökmdən asılı olur həmişə.
Öyrənib onların hər ricasını,
Təyin edərsiniz görək hansını.
Yox, təyin etsəniz məni əgər siz,
Onda ədalətsiz iş görərsiniz.
Sevilyalılardan belə şərəfə,
Ey böyük hökmdar, layiq deyiləm.
Sadə əsgər oldum hərbdə həmişə.
Sadə vətəndaşam, bəli, indi də.
Amma, şübhəsiz ki, ikisindən siz,
Yalnız Medinanı seçməlisiniz.
O, çox hərb eyləmiş, çox da yaşı var,
O getsə, sərhədlər lap sakit olar.
Lakin Qonsalonun yaşı azsa da,
Kordovada adı məşhurdur onun.
O, çox namusludur, cəsarətlidir,
Qoyun, Kordovaya o, hakim olsun.

Kral

Bütün dediyinizə eylərəm əməl.

Busto

Mənim bir arzum var: yalnız ədalət.
Başqa arzum yoxdur.

Kral

Ey əzizim, gəl,
Məni utandırma, bu, kifayətdir.

Busto

Yox, sizə mən ancaq böyük hökmdar,
Həqiqət aynası göstərirəm ki,

Sakit və qərəzsiz baxışlar ilə
Görün özünüzü olduğu təki.

Kral

Ağıllı, xeyirxah adamsınız siz.
Mənim sarayıma, könlünüz nə vaxt
İstəsə, rahatca gələ bilərsiz.
Mən sizi lap tez-tez görmək istərəm.
Siz evlisinizmi?

Busto

Xeyr, hökmdar,
Mənimlə yaşayan bircə bacım var.
Hələ onu ərə verməyincə mən
Evlənə bilmərəm.

Kral

Mərd qardaşsınız!
Razı ol, qoy onu mən ərə verim.
Onun adı nədir?

Busto

Estrelyadır.

Kral

Elə bir ulduza necə tapaq ər?
Yalnız günəş durar ona bərabər.

Busto

Hökmdar, o yalnız yer adamıdır,
Başqa bir qismətə marağı yoxdur.
Axı onun özü yer ulduzudur.

Kral

Gedib söyləyin ki, adaxlı məndə.
Tapdığım şəxs ona çox layiq olar.

Busto

Səcdə eyləyirəm ayağınıza.

Kral

Özüm eyləyərəm ona elçilik.

Busto

Məni ancaq bir şey narahat edir;
Mənim hökmdarım, deyin görək siz,
Məni niyə dəvət eyləmişsiniz?

Kral

Çağırdım Tabera... hə, haqlısınız...
Sizinlə danışmaq istədim, hə... hə...
Sevilya barədə... Belə... Bir iş var.
Lakin bunu sonra danışmaq olar.
Bu sülh günlərində hələ dincələk,
Sonraya saxlayaq bu işləri biz.
Deməli, Tabera, elə bu gündən,
Mənim əyanlarım içindəsiniz.
Di, gedin.

Busto

Əlvida, böyük hökmdar.

Kral

Əvvəl qucaqlayın, əzizim, məni.

Busto (*kənara*)

Belə bir şərəfin nədir səbəbi?
Almışdır qəlbimi qara şübhələr:
Mənə mehribandır bu qədər nədən?
Burda uğursuzluq hiss edirəm mən!

(*Gedir.*)

ALTINCI SƏHNƏ

Kral, don Aryas.

Kral

Onu görən kimi etdim etibar,
Görünür, namuslu və ağıllıdır.

Don Aryas

Mənimsə xoşuma gəlməyir əsla!
Onda bir kobudluq, bir lovğalıq var.
Hamı namusludur təsadufədək...
Hamı ağıllıdır təsadüfədək...
Bəli, hökmdarım, ağıllıdırlar,
Ağıllı deyillər hər şeydə, amma!
Dünən bir amala səcdə edənlər,
Bu gün həmin şeyi inkar edirlər.
Tabe olduqları qanunu bir an,
Silib yer üzündən aparır zaman.
Tərifli Bustonun namusunu siz
Mədhlərinizlə qıyas ediniz.
Bir tərəfdə onun namus-şöhrəti,
Və kral dostluğu, eşqi, hörməti.

Kral

Üzümü plaşla möhkəm örtərək,
Onların evinə mən gedəm gərək.

O parlaq ulduzun nur şəfəqləri
Ah, məni yandırdı bir günəş kimi.
Yaşamaq istərəm, Kastilyadasa,
Deyiləcək sözlər boş şeydir əsla!
Bir kral olsam da, kor kimi bu dəm,
O ulduz ardınca mən getməliyəm!

TABERA BUSTONUN EVİNDƏ OTAQ

BİRİNCİ SƏHNƏ

Don Sanço Ortis, Estrelya, Natilda, Elarindo.

Don Sanço

Söylə, ey mələyim, ey parlaq ulduz,
Bəs nə vaxt olacaq bizim toyumuz?
Qəlbimdə qaynayan ehtirasa sən,
Nə vaxt bu yarama əlac edərsən?
Mərcantək al olan dodaqlarınla
Mənə bircə "bəli" de, Estrelya.
Tökdüyüm bu qəmli yaşlar yerinə
Bürünüm səadət incilərinə.

Estrelya

Ah, əgər zaman da, qəlb sevdiyi tək,
Sürətlə getsəydi, günəş göylərdə
Qalardı özünün gəzdiyi yerdə!
O zaman Sevilya şəhəri belə,
Biz toy edərdi bir təntənəylə.
Eşq yuvası tikən göyərçinlərə
Baxaraq, mən əsla qibtə etməzdim.

Don Sanço

Ömrümü verərəm bu cavabına!
Sənin bu sevimli ayaqlarına,

Başımı qoysaydım, ömür versəydim,
Ən böyük bir şərəf olardı mana.

Estrelya

Mən də öz ömrümü, sevgilim, dinlə,
Verirəm, ən sadiq məhəbbətimlə.

Don Sanço

Ey mənim ulduzum, ey Estrelya!
Alov, günəş, atəş sənsən dünyada!

Estrelya

Məni həlak edən ey sevgilim, ah!

Don Sanço

Mənə işıq saçan mehriban mələk,
Yan, ömrüm uzunu qütb ulduzu tək!

Klarindo (*Natildaya*)

Bura bax! Bizə də heç pis olmazdı,
Eşqin alovunda yanaraq, hərgah,
Ağalarımız kimi, iki-üç dəfə,
Çəksəydik bir nalə, çəksəydik bir ah...
Ey mənim gözəlim, ey sehrkarım,
Məhəbbət əmrinə qulaq as hər an.

Natilda

Ey mənim gözəlim, qaşov səsiylə,
Tövlənin içində şair olmusan!

Klarindo

Mənim səadətim!

Natilda

Eh, məndən əl çək!

Klarindo

Ahların borcundan biz çıxdıq gerçək.

Don Sanço

Bəs bizə nə deyir sənin qardaşın?

Estrelya

Qardaşım deyir ki, hələlik başı
Cürbəcür işlərlə qarışıqdır çox.
Lakin hər bir şeyi hazırlayır o,
Və arzu edir ki, ürəkdən, müdam,
Mən sənin sevimli arvadın olam.
Bilmirəm bu işlər çəkər neçə gün,
Amma vaxt gərəkdir toy etmək üçün.

Don Sanço

Hüdudsuz eşqimə düşməndir fələk,
Yaxşı olardı ki, bu gün toy edək.
Biz bu gün girəydik gərək nikaha,
Gündə min-min dəfə dəyişir hava.

Estrelya

Əgər gecikdirsə toyumuzu o,
Onunla mən özüm danışım ancaq.

Don Sanço

Bəli bəli. Mütləq! Yoxsa hicranın
Əlindən, mənzilim məzar olacaq!

Klarindo

Ağa! Senyorumuz gəlmişdir bizim!

İKİNCİ SƏHNƏ

Əvvəlkilər və Busto

Busto

Ah, Sanço! Burdasan, mənim əzizim!

Estrelya

Ah, yarəb! Bürümüş onu qayğılar!

Don Sanço

Bir söylə, əzizim, de, nə dərdin var?

Busto

Kədər və nəşənin tez gəlişindən,
Doğrusu, başımı itirmişəm mən.
Sən öz otağına get, Estrelya!

Estrelya

Mənə rəhmin gəlsin, ey qadir Allah!
Ah, bütün bu sirlər, ah, bu gözləyiş,
Qəlbimə əbədi bir əzab vermiş.

Estrelya və Natilda gedirlər.

ÜÇÜNCÜ SƏHNƏ

Don Sanço Ortis, Busto, Klarindo.

Busto

Don Sanço Ortis...

Don Sanço

Nə? Bəlkə, indi sən,
Mənə "əziz yeznə" demək istərsən?

Busto

Yüyəni itirmiş bir köhlən at ki,
Atlını, durmadan qaçırıb gedir,
Məni də taleyim birdən apardı...
Bir qulaq as: Kral çox rica etdi
Ki, bu gün mən onun yanına gedim.
Getdim, səbəbisə məlum olmadı.
Suallarım ondan cavab almadı.
Arçidonada məni orduya dərhal,
Baş komandan qoymaq istədi kral.
Rica etməmişdim bunu mən ondan,
Amma ki, rəddimə əsla baxmadan,
Məni təyin etdi...

Don Sanço

Davam eylə bir,
Dediyin bu sözlər çox fərəhlidir.
Bir anlat ki, burda hansı pis iş var?
Nədəndir səndəki dərdlər, qayğılar?

Busto

Məni daxil etdi şuraya özü...

Don Sanço

Bu da çox yaxşıdır...

Busto

Bəli, yox sözüm...
İndi biz bir dərdə yaxınlaşırıq...

Don Sanço (*kənara*).

Bəli, hiss edirəm, şübhəm yox artıq,
Həmin bu dərd, kədər mənimdir gerçək.

Busto

O, mənə dedi ki, vaxt gələnədək,
Bacımı mən ərə verməyim... Ancaq
Ona adaxlını özü tapacaq.
Ona veriləcək çox cehizi var,
Olacaq həm elçi, həm himayədar.

Don Çanço

Mənə söylədin ki, şadlıqla kədər
Səndə qarışmışdır biri-birinə.
Yox, haqlı deyilsən, şadlıq sənindir.
Kədər və qəm isə qismətdir mənə.
Qoy olsun, neyləmək? Bu mərhəmətlə,
Xoşbəxt olacaqsan, sarayda bir vaxt.
Bacına yaxşı bir ər tapacaqsan.
Mənisə bu dərdlə gəl sən tək burax.
Amma sən unutdun mənim haqqımı,
Müqəddəs dostluğu unutdun, inan.
Sən ona deməyə məcbur idin ki,
Yeganə bacına mən nişanlıyam.

Busto

Ağlıma gəlmədi, deyəydim gərək...
Özümü, doğrudan, itirdim...

Don Sanço

Demək,
Sənin bu bacınla, nikahım heç vaxt,
Bu, mənə aydındır, baş tutmayacaq.

Busto

Kralın yanına indi gedərəm,
Ona deyərəm ki, mən söz vermişəm,
Və öz sözlərimdən dönmərəm əsla!
Hər şeyi, biz hazır etmişik toya.
Yox, tapdaya bilməz qüdrəti onun
Bizim haqqımızı, bizim qanunu...

Don Sanço

Qanunu pozarsa əgər hömdar,
Ona söz deməyə kimin haqqı var?

Busto

Necə kimin? Buna heç şübhə yoxdur,
Cürətlə, qaldırram mən öz səsimi,
Sən də qaldırarsan, deyərik artıq,
Burda yaranmışdır anlaşılmazlıq.

Don Sanço

Aman! Mən ölməyə hazıram daha.
Bayaq doğru dedim öz dildarıma –
Həyatda hər bir şey kölgələr kimi,
Dəyişir, dəyişir daim, əbədi...
Kral, cinayətə gedirsə əgər,
Demək ki, burda bir...

Busto

Kral, kraldır,
Ortis, sükut eylə, sükut və səbir!

(*Gedir*)

DÖRDÜNCÜ SƏHNƏ

Don Sançо Ortis, Klarindo

Don Sançо

De, kim çəkə bilər bu cür qəmləri?
De, kim çəkə bilər bu dərd-kədəri?
Kral! Bizim yurda gəlmişsən ki, sən
Səadət yolumu mənim kəsəsən?
Zülmkar! Xalq sənin qarşında laldır,
Hamı tabe olmuş əmrlərinə.
Sən almış olsan da cəsur adını,
Bu adın altında çox ləkələr var.
Hökmdar! Bu qara əməllərinə
Tale hazırlayır ağır cəzalar...
Sənin səadətinçin,
Kastilyanın bircə imperiyası,
Deyəsən, azdı?
Bizim Sevilyada, təntənəyə də
Nəyin çatmazdı?
Ah, gözlənilməz zərbə!
Sevilyadan uzaq! Uzaq! Birbaşa!
Cəbəlüttariqin qalım qoynunda,
Orada baş qoyum, bəlkə də, elə
Kral yolunda!

Klarindo

Bundan da bir kömək gəlməyəcək, ah.
Sən özün bizlərə kömək ol, Allah!

Don Sançо

Estrelya, səndin mənim ulduzum,
Mənə nur saçardın sehrkarlıqla,
İndi düşmən ulduz qovlayır məni,
Ulduz gözlərini görmərəm daha!

Klarindo

Ulduz gözləriylə bizi,
Məhv eylədi sehrkar.
Gəl bir daha deməyək,
Deməyək, baxtımız var.
Başımı verərəm,
Dediyim sözə.
Zərbə! Guya ki, bu baş
Verilməmişdi bizə!

Don Sançо

Bu kral, nə yaramazdır!
Kastilya onunçün, görünür, azdır...

KÜÇƏ

Kral, don Aryas, əyanlar, sonra Busto.

Kral

Mənim gəldiyimi tez xəbər verin.

Don Aryas

Hökmdar, orada bilirlər, yəqin.
Budur, qarşımıza gəlir Tabera.
Bizi qarşılayır özü... Odur ha...

Busto gəlir.

Busto

Ah, nə böyük şərəf, nə lütfkarlıq!
Hökmdar, mənim evimdə?

Kral

Üzümü, plaşla örtüb bu gün mən,
Sevilya şəhrini gəzməyə çıxdım,
Sizin evinizin, biz, təsadüfən,
Yanından keçirdik. Eşitmişdim ki,
Sizin gözəl, əla eviniz vardır...
Elə bunun üçün arzu etdim ki,
Sizin evinizə bir gəlib baxım.

Busto

Sadə əsgər evidir bu...

Kral

Keçək içəri.

Busto

Ey hökmdarım,
Mənim yoxsul evim heç layiq deyil
Belə bir gəlişə... Burda nə vardır?
Siz, əlahəzrətçin, mənim bu evim
Həmi çox yoxsuldur, həm də ki, dardır.
Əgər bilsələr ki, sevilyalılar
Kral bizim evə qonaq gəlmişdir,
Şəhərdə min cürə söz danışarlar.

Kral

Sevilyanın deyil, mən sizin evə
Gəlmişəm...

Busto

Bir durun, ey hökmdarım!
Layiq olmadığım belə şərəfi,
İnanın, mən qəbul edə bilmərəm.
Sadə təbəəsinin evinə gəlmək

Krala layiq iş deyildir amma,
Bəli, rəiyyət də, belə bir lütfü
Qəbul edə bilməz heç vaxt, heç zaman.
Mən sizə bir nökər və rəiyyətəm,
Belə bir şərəfə layiq görülsəm,
Mən sizin saraya özüm gələrəm.
Əgər lütfkarlıq şübhəlidirsə,
Bu, çox təhlükəli, çox qorxuludur.

Kral

Şübhəmi? Söyləyin, nə şübhədir o?

Busto

Hökmdar, çox şübhə yaradar bu iş...
Camaat deyər ki, mənim bacımı
Görməkçin gəldiniz... Belə bir gəliş –
Mənim tək bacımın, Estrelyanın
Pak, təmiz adına ləkələr salar.
Bəli, büllur kimi şəffafdır namus,
Bircə nəfəs dəysə büllura əgər,
O nadir gözəllik tez ləkələnər...

Kral

Lakin mən iş üçün gəlmişəm sizə,
Sizə bir sözüm var. İçəri keçək.

Busto

Kral, izn verin, sizi ötürüm,
Yolda eyləyərik söhbətimizi.
Mənim yoxsul evim, lap doğrudan da,
Hazır deyil qəbul etməyə sizi.

Kral (*Don Aryasa, astadan*)

Bu müqaviməti mən gözləməzdim.

Don Aryas (*Krala astadan*)

Siz, onu bir yana çəkiniz, Kral,
Sizin adınızdan Estrelyayla
Özüm danışaram.

Kral

Yavaş, eşidər!
Özün bilirsən ki, bu axmaq adam
Təpədən-dırnağa namusdur, namus.

Don Aryas

Onu partladacaq elə bu namus!

Kral (*Bustoya*)

Necə bilirsiniz... Mən sizin evə
Güclə ki girmirəm... Əmin olun siz.

Busto

Hökmdar! Mən, bacım Estrelyanı
Ərə verən zaman bizim evimiz –
Gözəl bəzənəcək... O zaman bu yer,
Sizi layiqincə qəbul eyləyər.

Don Aryas

Sizin karetanız gəlmişdir, kral.

Kral

Busto! Pilləkənə mininiz dərhal.

Busto

Ey mənim kralım, ey möhtəşəmim,
Qoyun, ardınızca piyada gəlim.

Kral

Yox, bu, nahaq sözdür. Öz karetamda
Hökmlər verməyə haqqım var mənim.

Don Aryas

Kareta gözləyir.

Kral

Birbaş saraya!

Busto (*kənara*)

Kral mənə qarşı nə lütfkardır?
Nə böyük mərhəmət! Bunun axırı
Təki xeyir olsun – Allah eyləsin!

BUSTONUN EVİNDƏ OTAQ

BİRİNCİ SƏHNƏ

Estrelya, Natilda, sonra don Aryas

Estrelya

Sən nə deyəcəkdin, mənə Natilda?

Natilda

Senyora, kralın özüymüş burda.

Don Aryas (*içəri gələ-gələ*)

Bəli, o, burdaydı. O, düz deyir, düz.
Kralı cəzb edir parlaq bir ulduz.
O, bir gözəlliyə aşıq olaraq
Sizin evinizə gəlmişdi bu vaxt.

Əgər o, Kastilya kralıysa, siz,
Siz də gözəlliyin məlakəsisiz.
Bizim şanlı kral, Sançо qəhrəman,
Bir də ki, əzazil Sançodur, inan.
Bu yeganə adda xalqın möhrü var...
Ondan tir-tir əsir məğrur mavrlar...
O da sizdə olan bu gözəlliyin
Önündə yarpaq tək titrəyir, bilin.
O, sizi eyvanda görmüşdür, xanım,
Quşların mahnısı, pak Avroranı
Ayıltdığı zaman... Şirin yuxudan,
Ayrıldığı üçün Avrora zar-zar,
Tökürkən gözündən qəm dolu yaşlar,
Şəfəq sarayını xatırladırdı...
Hərçənd ki, sizin bu gözəlliyiniz,
Kastilyadan daha güclüdür, gerçək,
O, sizə, senyora, bu Kastilyanın
Bütün sərvətini peşkəş verəcək.
Budur istədiyi o hökmdarın,
Onun arzusuna tabe olsanız,
İndi bir ulduzkən Sevilyamızda,
Dəyişib, bir günəş olacaqsınız.
O, sizə verəcək çox hədiyyələr,
Qəsrlər, saraylar, qəşəng şəhərlər,
Adını dediyim yerlərin yalnız
Müstəqil hakimi olacaqsınız.
İspaniyanın məşhur, qüdrətli ərı –
Ərıniz olacaq. Tabera nəsli
Artıb ucalacaq. Kral da bu vaxt,
Sizi özü üçün bir tac sayacaq.
Senyora, bu sözə nələr buyurur?

Estrelya *(ona arxasını çevirir.)*

Nəmi buyururam? Cavabım budur!

Don Aryas

Dayanın bir qədər, bir ağla gəlin!

Estrelya

Eşidin, bu cürə təhqirlərə tək
Bircə cavab vardır. O da budur ki,
Onlara arxamı çevirəm gərək!

(*Gedir.*)

İKİNCİ SƏHNƏ

Natilda, don Aryas

Don Aryas (*kənara*)

Gör, necə bənzəyir bacıya qardaş...
Məəttəl qalmışam, olmuşam çaşbaş...
Qədim rimlilərin əzəmətini
Sevilya bunlara vermişdir sanki.
Hərdən ürəyimə gəlir ki, mənim,
Məğlub edə bilməz kral bunları...
Lakin inad ilə birləşsə qüvvət
Dağları-daşları uçurar, əlbət!
Qoy bir söhbət edim qulluqçularla,
Çox vaxt açılmayan möhkəm qapılar
Qızıl qüvvətiylə, yəqin, açılar!

(*Natildaya*)

Söylə, sən bu evin qulluqçususan?

Natilda

Bəli, qulluqçuyam bədbəxtliyimdən.

Don Aryas

Necə? İstəmədən?

Natilda

Mən bir köləyəm.

Don Aryas

Sən bir kölәsən?

Natilda

Hə, azadlıqdan
Əbədi məhrumam... Qəlbimi, inan,
Ya ölüm gözləyir, ya da ki məhbəs.

Don Aryas

Belə de! Azadlıq istəmirsən bəs?
Əgər sən krala qulluq eyləsən,
Səni köləlikdən o, azad eylər,
Hələ üstəlik də, min dukat verər.

Natilda

Azadlıq, bir də ki yaxşı qiymətə,
İnanın, gedərəm hər cinayətə.
Söyləyin, neyləyim? Nədir qüdrətim?
Eylərəm, hər nəyə çatsa qüvvətim.

Don Aryas

Bu gecə, kralı sən burax evə.

Natilda

Sözünüz üstündə dursanız əgər,
Bütün qapıları açaram sizə.

Don Aryas

Eşit, kral bura girmədən belə,
Onun imzasıyla və möhrü ilə
Alarsan bir anda həmin fərmanı.

Natilda

Onu xanımımın yatağına mən
Özüm ötürərəm bu saat, desən.

Don Aryas

Nə zaman yatmağa gəlir bəs Busto?

Natilda

Səhər açılanda evə gəlir o.
Gecələr kef edir lap sübhə qədər...
Belə kef-damaq, eyş-işrətlər,
Vaxtını çox alır bu kişilərin...

Don Aryas

Hə, saat neçədə, söylə bir görüm,
Kral bura gəlsə, daha yaxşıdır?

Natilda

Deyin ki, düz saat on birdə gəlsin,
Yataqda olacaq bizim xanım qız.

Don Aryas

Bu zümrüd üzüyü hələlik bəh al,
Sonra çox olacaq mükafatımız.

(*Gedir.*)

SARAYDA SALON

BİRİNCİ SƏHNƏ

Don İniqo, Osoryo, Busto, əlində qızıl açarlar olan don Manuel

Don Manuel

Senyor, izin verin bu açarları,
Sizə təhvil verim. Qəbul eyləyin.

Busto

Nəylə cavab verim belə bir lütfə?
Heç başa düşmürəm... Bu lütfkarlıq,
Mənim xidmətimdən artıqdır, artıq.

Don İniqo

Xidmətiniz vardır, deyildir əbəs,
Kral heç bir zaman səhv edə bilməz.

Busto (*kənara*)

Açarlar... Kralın bu etibarı...
Azadca gəzişmək bu sarayları!
Mən bu mərhəmətdən yaman qorxuram,
Ayağım altından yer qaçıb gedir,
Bunların hamısı çox qəribədir!..
Mən bir dəyişiklik gözləməliyəm,
Gözlənilməz qayğı göstərən şəxslər,
Bəli, qəfildən də dəyişə bilər.

İKİNCİ SƏHNƏ

Əvvəlkilər, Don Aryas.

Don Aryas

Senyorlar, siz artıq gedə bilərsiz!
Kral hələ çoxlu yazı yazacaq.

Don Manuel

Çox gözəl! Gecəmiz keçmədi nahaq...
Gəlin, gedək senyor, yolumuz birdir.

Busto, Don İniqo və Don Manuel gedirlər.

ÜÇÜNCÜ SƏHNƏ

Don Aryas, kral

Kral

Söylə, doğrudanmı, öz ulduzumun
Nurunu bu gecə mən görəcəyəm?

Don Aryas

Həmin kölə qadın söz vermiş bu dəm.

Kral

Mən həmin köləyə heykəl qoyaram.

Don Aryas

Bir möhür qoysanız, xoş olar, ağam.

Kral

Tez, fərman hazırla! Mənim bu eşqim
Daha dözə bilmir, gözləyə bilmir.
İstərəm fərmana tez imza atam.

Don Aryas

Balaca kölənin baxtı gətirir...
Həm azadlıq alır, həm də ki, qızıl.

Kral

Sevilya ulduzu adıyla kölə
Mənə səmalardan bir günəş verir!

İKİNCİ PƏRDƏ

KÜÇƏ

BİRİNCİ SƏHNƏ

Kral, don Aryas, Bustonun evinin qapısında dayanmış Natilda.

Natilda

Siz təkcə girsəniz daha yaxşıdır,
Hamı artıq yatmış, hər yer qaranlıq...

Kral

Estrelya hanı?

Natilda

Yatmışdır artıq.
İşığı söndürüb... Gəl ehtiyatla!

Kral

Buyur, əlinə al öz taleyini!
Mənim bircə sözüm kafi olsa da,
Buyur al! Fərmanın hazırdır daha.
Bustoya başqa bir kölə verərəm.

Don Aryas

Burda pul da var.

Natilda (*Kralın qarşısında diz çökür.*)

Razıyam sizdən,
Öpürəm möhtərəm əllərinizdən.

Don Aryas (*Krala, yavaşca*).

Bu da hamı kimi belədir, padşah,
Hər şeydən artıqdır onların tamah.

Kral

Göylərin hökmüdür kralın hökmü.

Don Aryas

Onların önündə kim diz çökməz, kim?

Kral

Mən indi tək qalmaq istərdim...

Don Aryas

Necə?
Burada, təkcəmi? Elə bu gecə?
Budur qərarınız?

Kral

Anlamıram mən,
Burda qorxacağam nədən, de, nədən?
Min qorxu gəlsə də mənə burda, bil,
Özüm özümləyəm. Məgər bəs deyil?
Sən get!

Don Aryas

Bəs harada gözləyim sizi?

Kral

İndi gəldiyimiz yolda.

Don Aryas

Getdim, San Markosa.

(*Gedir.*)

Kral

Tabera evinə tezmi gələcək?

Natilda

Sübh olub xoruzlar banlayanadək,
Günəş saçmayınca öz işığını,
O, evə qayıtmır... Burda hər gecə,
Darvaza açıqdır ağam gəlincə.

Kral

Bilirəm, qətidir hərəkətlərim,
Lakin məhəbbətim, eşqim və sevgim
Mənə ürək verir, güc verir, bilin.

Natilda

Tez olun, hökmdar! Bir az tez olun.
Qaranlıq dəhlizlə arxamca gəlin!

Gedirlər.

İKİNCİ SƏHNƏ

Don Manuel, Busto, don İniqo Osoryo.

Busto

Evə gəlib çatdım.

Don İniqo

Çox şərəfyabam.

Busto

Nə tezcə gəlmişəm bu gecə evə!

Don Manuel

Ey mənim əzizim, bizimlə gedək.

Busto

Yox, yox, mənə bəsdir.

Don Manuel

Təəssüf, gerçək...

Don İniqo

Hələ ikimizi elə bu gecə
Gözləyir ən gözəl, dadlı əyləncə.

Busto

Deyin, gözəldimi, Felisiana?

Don Manuel

Qoyun, bu söhbətlər qalsın sabaha...
Söhbət eyləyərik sabah sarayda.
O xanım, əzizim, gizlətmirəm mən,
Artıqdır, ucadır çox təriflərdən.

Don Manuel və don İniqo Osoryo gedirlər.

ÜÇÜNCÜ SƏHNƏ

Busto tək.

Busto

Nə tez girəcəyəm bu gün yatağa!

(*Giriş qapısına nəzər salır.*)

Doğrudanmı, hamı yatmışdır daha?
Zülmət bürümüşdür bu evi artıq...
Bəs bunlar hardadır? Boşluq, qaranlıq...
Lüxan! Osorio! Andres! Ey-hey!
Andres hardadır? Yoxamı çıxdı?
Ey İnesa? Xusta! Heç biri yoxdur!
Natilda! Natilda! Yatır o qul da...
Yuxu hökm eyləyir hakim tək burda.

(*Evinə keçir.*)

BUSTONUN EVİNDƏ OTAQ

BİRİNCİ SƏHNƏ

Kral, Natilda, sonra Busto.

Natilda

Gəlmişdir, gəlmişdir... Ağamdır, ağam...
Aman, ah, yarəbbi, məhv olacağam...

Kral

Bəs sən deyirdin ki, yaramaz, alçaq,
Tabera yatmağa gec qayıdacaq?

Natilda

Mənim baxtımdandır!

Busto daxil olur, Kral plaşla üzünü örtür.

Busto

Natilda!

Natilda

Neyləyim, aman?

Kral

Gizlən, darıxma!

Natilda

Mən qaçım!

Kral

Qorxma!

Natilda qaçır.

İKİNCİ SƏHNƏ

Kral, Busto.

Busto

Ey, burada kim var?

Kral

Mən.

Busto

Kim? Bu gecə vaxtı, zülmət içində,
Nə işiniz vardır mənim evimdə?
Söyləyin, kimsiniz? Adınız nədir?

Kral

Uzaq!

Busto

Ha! Mənim sözümü saya salmamaq!
Yox, sizə yol verməz mənim qılıncım,
Mənə müqəddəsdir mənim bu evim,
Onu ləkələyən olarsa, inan,
Qan tökərəm, qan.

Kral

Qılıncı burax!

Busto

Hələ sən bundakı cürətə bir bax!
Yaşadığım evi, məsum bacımı
Həyasızcasına təhqir edərkən,
Qılıncdan qurtarmaq istəyirsən sən?
Gözlənilməz qonaq, de görüm kimsən?
Kimi öldürdüyümü bilməliyəm mən.

Kral

Mənim adım-sanım ucadır, çəkil!

Busto

Burada hökmdar mənəm, bunu bil,
Bu evdə yeganə hökmdar mənəm.

Kral

Mənsə, adlı-sanlı bir nəsildənəm,
Təhqirçin gəlmədim buraya, inan,
Sizin evinizi mən ucaldaram!

Busto

Mənsə, elə bir ev bilmirəm hələ,
Artsın və ucalsın ləkələnməklə.

Kral

Mənə etibar et öz namusunu.

Busto

İtirməmək üçün, burada onu,
Etibar edirəm öz qılıncıma.
Şərəfyab etməkçin gəldinizsə siz,
İçəri girərkən bizim qapıdan,
Bəs niyə gəldiniz siz gizli-gizli?
Plaşın altında bərk gizləndiniz?
Nədir bu hiylələr? Namusumdur bu!
Sizi ifşa edir dərhal bu qorxu:
Namusla, vicdanla daxil olan şəxs,
Heç nədən utanmaz bir oğru kimi,
O küncdə, bu küncdə qaçıb gizlənməz!
Çıxart qılıncını! Namus naminə!
Yoxsa, öləcəksən!

Kral

Ağılsız, dayan!

Busto

Haqq-hesab çəkəcək qılıncım, inan,
Ya da bu durduğum yerdəcə qalım!

(*Qılıncını çəkir.*)

Kral (*kənara*)

Açıb deməliyəm.

(*Bustoya*)

Tərsliyi burax!
Qarşında dayanan kraldır, bir bax!

Busto

Aman!
Kral? Təkcə? Gizlin? Yalandır, yalan!
Mənə rüsvayçılıq gətirmiş kral?
Yox-yox, ola bilməz! Ey qaniçən, sən –
Kralı nahaqdan rüsvay edirsən?
Parlaq əzəməti qaranlıqlara –
Salırsan dediyin bu böhtanlarla?
Yox, kral özünün təbəələrini,
Bu namussuzluqla ləkələməz, yox!
Xalq etibarını, yox, itirməz o!
Bu təhqir önündə sussam mən əgər,
Salardım adıma çirkin ləkələr...
Sən, kralı təhqir edirkən, əlbət,
Edirsən ən ağır, müdhiş cinayət.
Özün bilirsən ki, bizdə qanun var,
Kralın adına ləkə vuranlar,
Bəli, o qanunla cəzalanarlar.

Kral (*kənara*)

Bəs indi neyləyim? Bir baxtıma bax!

(*Bustoya*)

Yenə də deyirəm, kralam, kral.

Busto

Bəsdir, bu yalandan sən əl çək dərhal.
Axı hər bir işi bizim kralın
Şərəf gətirərkən ürəyimizə,
Sən bir rüsvayçılıq gətirdin bizə.

Kral (*kənara*)

İşlər çətindir,
Bunda cəsarətə, hünərə bax bir!

Busto (*kənara*)

Kraldır, kraldır... Şübhəsiz odur...
Onu mən buradan buraxam gərək.
Sonrasa namusa hansı ləkəni
Vurmuşdur, bax bunu gərəkdir bilək.
Qəzəbdən qaynayır, çağlayır ruhum...
Ağır xərclər çəkən icarədar tək,
Gərək səbr eyləyim ürəyimdə qəm...
Mənə təbiətin verəcəyini
Torpaqdan gözləyəm, gərək gözləyəm.

(*Krala*)

Get, amma sən bunu saxla yadında.
Kralın adını, böhtanlarınla –
Bir də ləkələmə heç zaman əsla!
Söylə, bundan böyük varmı xəyanət?
İspaniyalıların fəxr eylədiyi,
Şanı və şöhrəti çox parlaq olan
Kralın adından danışaraq, sən –
Rüsvayçı, həyasız işlər görürsən!
Kral mənə qarşı oldu lütfkar,
Etdi açarını mənə etibar.
Ona açarımı verməyincə mən,
O, bizim bu evə gəlməzdi hökmən.

Kralın müqəddəs adı altında
Sən bir miskin kimi gizləndin müdam.
İndi də bu, mənim vəzifəmdir ki,
Bu adın önündə gərək mən susam...
Hirsi və qılıncı mütləq saxlaram.
O işıqlı, o pak adın eşqinə,
Mən aman verirəm sənə, mən aman.
Onun qarşısında qılıncımı mən
Əyirəm. Bir daha pozma qanunu,
Kral hamisidir rəiyyətinin,
Qoruyur o, xalqın pak namusunu.

Kral

Yox, artıq dözməyə yoxdur taqətim,
Ah, mən həlak oldum, məhv oldum qəti...
Çox ehtiyatsızsan, ey ağılsız, sən –
Bu adla sən mənə aman verirsən?
Qoy olsun, fikrimdən mən çəkilmərəm,
Burdan getməliyəm mən artıq daha,
Lakin bu adı mən saxlayacağam.
Bəli, bu, yaraşır yalnız krala!
Ad nədir? Bir sözdür. Bircə söz ancaq.
Səni bircə anda sakit etdi, bax.
Titrə! Taleyində olanı hələ
Görəcəksən daha ağır dəhşətlə.
Mən bir hökmdaram, bəli, hökmdar,
O, mənim ruhumu dərhal ucaldar.
Öl, qurtar!

(*Qılıncını çəkir.*)

Busto

Mənim namusumdur hakimim mənim,
Mən onun yolunda ölərəm, yəqin!

Vuruşurlar.

ÜÇÜNCÜ SƏHNƏ

Əvvəlkilər, Natilda, əllərində məşəl tutmuş nökərlər.

Nökərlər

Burda nə olmuşdur?

Kral (*kənara*)
Tanınmamışkən,
Mən gərək gizlənəm. Səbr eylə, bir səbr!
Dəhşətli olacaq mənim qisasım!
Yerdə qalmayacaq belə bir təhqir!

(*Gedir.*)

Nökər

Cinayətkar qaçdı, tez gözdən itdi.

Busto

Gedin! Cəza verin! Ardınca gedin!
Yox, yox, gərək deyil. Qaçan düşmənə
Bizim yollarımız daim açıqdır.
Verin məşəlləri siz Natildaya.

Nökərlər məşəlləri qoyub gedirlər.

DÖRDÜNCÜ SƏHNƏ

Busto, Natilda.

Busto (*kənara*)

Məni satan adam budur, bax, budur,
Bax, buna görə də saralır, solur...
İndi hər bir sirri mən açmalıyam.

(*Natildaya*)

Tez ol, qapıları tez ol, get, bağla.
Ömrünə vida et!

Natilda

Ah, senyor, aman!

Busto

Sən məndən gizlətmə! Danışma yalan!
Kral, hamısını danışdı mənə.

Natilda (*kənara)*

Əgər o, sirrini saxlamadısa,
Mən bədbəxt neyləyim? Neyləyim, nə? Nə?

(*Bustoya*)

Kralın dediyi bir həqiqətdir.

Busto (*kənara*)

Mənə aydın oldu güc-qüvvət nədir.

(*Natildaya*)

Demək, sən buraxdın onu bu evə?

Natilda

Bəli, o, azadlıq vəd etdi mənə.

Busto

Bunu bilirdimi, de, Estrelya?

Natilda

Ah, əgər o, bunu bilsəydi hərgah,
Məni atəşlərə döndərərdi o,
Cismimi bir torpaq, kül edərdi o!

Busto

Belədir, əlbət,
Nuruna güc gəlməz onun heç zülmət.
Al-əlvan göylərdən bir günəş kimi,
Çıxıb, nurlandırır bu üfüqləri
Onun o günahsız, saf gözəlliyi.

Natilda

Qüdrətli taleyi, lütfkar əli,
Onun nur üzünü qoruyur, bəli.
Mənə kral verdi yalnız bir kağız,
Hələ bircə addım atmamışdan o,
Elə həmin saat gəlib çıxdınız.

Busto

Kral kağız verdi? Nə kağızdır, nə?

Natilda

Fərmanla azadlıq verir o, mənə.
Dedi əgər onu evə buraxsam,
Bir ildə min qızıl peşkəş alaram.

Busto (*kənara*)

Kralda lütfə bax! Namusum üçün
Pulu əsirgəməz, az verməz əsla!

(*Natildaya*)

Gedək.

Natilda

Hara?

Busto

Kral həmin yerdə, görsün ki, bu dəm,
Vəzifəmi necə icra edirəm.

Natilda

Aman! Tələf oldu həyatım mənim!

Busto

Kral, *Sevilyanın* pak *ulduzunun*
Nurunu söndürmək istədi... Ancaq
O nur İspaniyada qaralmayacaq!

SARAYA GEDƏN KÜÇƏ

Kral, don Aryas.

Kral

Bəli, belə oldu bu gün əhvalat.

Don Aryas

Oraya nahaq tək getdiniz, heyhat...

Kral

Özünü elə tərs apardı qəddar,
Guya ki, müti bir rəiyyət deyil,
Elə bil o imiş burda hökmdar,
Məni sərt sözlərlə o yaraladı,
Bilirəm, yəqin ki, məni tanıdı.

Taxt-tac əzəmət istəyir... Amma
Mən də doğulmuşam, mən də insanam,
Özümü saxlaya bilmədim, əsla.
Atıldım üstünə bu qılıncımla
Adamlar məşəllə töküldü bu an,
Mənim kim olduğum tanınmamışdan,
Plaşla üzümü bürüyərək mən,
Dərhal uzaqlaşdım həmin o evdən.
Taberayla belə oldu əhvalat.

Don Aryas

Onun tək cəzası ölümdür, inan,
Qoy başı ayrılsın onun boynundan.
Qoy, sabah göylərdə parlayan məşəl,
Edam hökmü versin burda əlbəəl.
Onu qətl etməyə vardır haqqınız,
Bütün İspaniyada bircə qanun var –
Kral arzusudur yalnız və yalnız.

Kral

Yox, əgər biz onu edam eyləsək,
Xalqın ürəyində kin törəyəcək.

Don Aryas

Qiyamçı ruhunu o, sərt sözlərlə
Açıb göstərmişdir. Bizim Sevilya
Önündə, heç bir kəs dayanmaz, əsla!
Gəlin, müdrik olun: göstərin ki, siz,
Qəddarlığı kökdən rədd edirsiniz.

Kral

Lakin onu burda çox, çox sevirlər,
Şanlı-şöhrətlidir bu yerdə o ər,
Xalqın çox böyükdür ona inamı,
Kinlə doldurarıq biz Sevilyanı.

Don Aryas

Gizlincə öldürün siz Taberanı!

Kral

Eləmi? Mümkünmü? Bu işi, söylə,
Mən kimə tapşırım, kimə, de, kimə?

Don Aryas

Bu işi boynuma mən götürürəm.

Kral

Yox, belə bir işi qəbul etmərəm.
Bu, böyük cürətdir.

Don Aryas

Qəbul ediniz!
Burda bir adam var, o, qəhrəmandır,
Döyüş meydanında şöhrət alandır.
Kafirin düşməni, namus günəşi,
Qəhrəman bir rəhbər, bir döyüşçü tək
Yeri Sevilyada üstündür, demək.

Kral

Kimdir o? Hardadır? Mənə tanışdır?

Don Aryas

Don Sanço Ortisdir, de Roelyasdır.

Kral

Get, öz döyüşçünlə tez bura qayıt!

Don Aryas

Gecədən keçmişdir. Soyunun, yatın.
Qoyun gecə keçsin, sonrasa, sonra...

Kral

Yata bilərmmi? Əsla dincəlməz,
Qəzəb dolu ruhum dincələ bilməz.
Durma, get! Onu tez gətir yanıma!

Don Aryas

Lakin... O hasarda qaralan nədir?
Əgər aldatmırsa məni gözlərim,
Kimisə asıblar, odur yellənir...

Kral

Asılıb? Kimdir o?

Don Aryas

Seçə bilmirəm...
Həmin kölə qızdır, əlində odur,
Sizin fərmanınız... İntiqam budur!

Kral

Öldürrəm onu da, bacısını da,
İntiqam alaram mən Sevilyadan.

Don Aryas

Gərək əmr edəsiz; bədbəxti burdan
Aparıb yaxşıca dəfn eləsinlər.
Sizi, bəli, sizi təhqir eyləmək!
Tabera daha sağ qalmasın gərək.

Busto, Estrelya.

Estrelya

Sənə nə olmuşdur, de görüm nə var?

Busto

Bağla pəncərəni.

Estrelya

Qardaşım, aman,
Nə var ki? Yuxudan nə tez durmusan?
Günəş yuxusundan indi oyanıb,
Şüasını bizim eyvana atdı...
Sən məni yuxudan nə tez oyatdın?
Dolaşır üzündə qorxunc kölgələr,
Nədir qəlbindəki qara şübhələr?
Yoxsa bu şübhəyə mənəm günahkar?
Bəlkə də, yanında bir təqsirim var?

Busto

Gəl, sən özün danış cinayətindən.

Estrelya

Mənmi?
Nə deyirsən, dəlisənmi sən?
Mən cinayətkaram? Desən bu sözü,
Əsil cinayətkar özünsən, özün...
Sən, bu şübhələrlə qarşımda, inan,
Ən böyük, ən qəddar cinayətkarsan,
Yoxsa tanımırsan, qardaşım məni?
Yoxsa bilmirsən ki, qardaşım, kiməm?

Namus təhqir edən bircə sözü sən
Heç mənim dilimdən de, eşitmisən?
Belə deyildirsə söylə, bir söylə,
Nə üçün? Nə haqla? Nədir bu şübhə?

Busto

Əlimdə dəlil var şübhələnməyə.

Estrelya

Dəlilin vardırmı?

Busto

Hə, Estrelya...
Bu gecə, bu evə...

Estrelya

Susma, danış, ah,
Bilim ki, nə imiş etdiyim günah?
Günahım vardırsa, hazıram ölüm,
Bu gecə nə olmuş? Bir danış görüm.

Busto

Bu gecə, məhvərdən günəş qoparaq,
Ulduzun yolunu dəyişmişdir, bax...

Estrelya

Namus işlərində belə dolanbac
Münəccim dililə danışma, gəl aç,
Sadə dildə danış, edirəm rica.
Günəşi göydə qoy, qoy qalsın orda...
Adıma görə mən ulduz olsam da,
Günəşdən asılı deyiləm əsla.

Busto

Kuevanın lütfü, elə bu gecə,
Sakit, xoş havanı ram eləyincə,
Zülmət öz hökmünü yenə verərkən,
Bizim evimizə qayıdarkən mən,
Krala rast gəldim. Özüydü, özü,
Onun örtülmüşdü plaşla üzü.

Estrelya

Nələr eşidirəm?

Busto

Bir həqiqəti.
Gecənin bu vaxtı kral, de mənə.
Nə üçün, nə üçün gəlsin bu evə?
O, səni görməyə gəlmişdi, bəli,
Vardı, Natildanın bu işdə əli...
Namusun gözləri yaman itidir,
Mən tez qışqırdım ki: "Burada kimdir?"
Cavab verdi: "Mənəm!" – Çəkdi qılıncı,
Dedi ki, mənəm, mən, kralam, kral.
Mən onu tanıdım, tanıdım dərhal.
Qüvvətim çatırdı səbr eyləməyə,
Özümü qoymuşdum mən bilməzliyə.
Özünü çox təhqir olmuş bilərkən,
Mənim üzərimə atıldı birdən.
Təhqir edilmiş də olsa krallar,
Yenə şərəfləri əbədi qalar.
Bu zaman, məşəllə gəldi nökərlər,
Üzünü örtərək kral, bir təhər
Qaçdı, tanımadı heç bir kəs onu,
Mən kölə qadına and verdim, o da
Döyüb incitmədən söylədi açıq.
Bütün həqiqəti danışdı dərhal.
Namussuzluq üçün, xəyanət üçün,
Onu qurtarırmış qulluqdan kral.

Köləni bu evdən çıxartdım ki, mən,
Üfünət gəlməsin bizim bu evdən.
İlanı mən boğdum, verdim tez qərar,
Onun cəsədini nökərlər alıb,
Saray hasarından dərhal assınlar.
Qoy kral bilsin ki, Tarkvini hər vaxt
Axtarıb Brutu mütləq tapacaq.
Əhvalat belədir. Təhlükə, düzü,
Yaman hədələyir namusumuzu...
Mənə, qaçmaq gərək, tez qaçmaq, yəqin,
Sənin də keşikçi olsun gözətçin.
Səni Sanço ilə, ey əzizim, mən
Gərək nişanlayam heç gecikmədən.
Kral bizə qarşı hücuma keçsə,
O, yaxşı keşikçi olacaq. Mən də,
Rahatca gedərəm düz öz yolumla.

Estrelya

Busto, gəl-gəl səni, bu lütf üçün mən,
Bərk-bərk qucaqlayım bütün ürəkdən.

Busto

İndisə mən sizi nişanlayıram,
Hazır ol, heç bir şey danışma amma.
Sən ey Sevilyanın parlaq ulduzu,
Gərək mən qoruyam namusumuzu.

(*Gedir.*)

Estrelya

Aman, ey səadət, sən ey məhəbbət!
Elə bir sidq ilə birləşirik biz,
Heç zaman ayrılmaz ürəklərimiz...
Lakin biz əvvəl-axır tək bu an,
Qəbul eyləyirik, bəlkə, yalandan?
Qədəh, dodaqlara çatana qədər
Hələ çox müsibət üz verə bilər.

SARAYDA SALON

BİRİNCİ SƏHNƏ

Əlində fərman olan Kral, don Aryas

Don Aryas

Don Sançо gəlmişdir, qəbul gözləyir.

Kral

Məkrli hiylənin niyyətlərini
Bizə bağışlayır daim məhəbbət.
Rəhm isə qəlbimi incidir fəqət.
Budur, iki fərman: lap elə bu gün,
Yazmışam: Tabera qoy öldürülsün.
Bir də yazmışam ki, həmin fərmanda
Öldürən o adam əfv olsun, amma.
Möhür də vurmuşam bu fərmanlara,
Tez ol, tez! Onu tez göndər hüzura!
Özünsə, get!

Don Aryas

Sizi təkmi qoyum?

Kral

Mən onu tək qəbul etmək istərəm.
Qoy, elə bilsin ki, heç kəsə bu sirr,
İkimizdən başqa məlum deyildir.
Məxfi əhvalatın şərti altında,
Gərək ikilikdə danışaq amma.

Don Aryas

Bu saat.

(Gedir.)

Kral

Bunu mən çox gözəl bilirəm, fəqət,
İntiqam duyğusu mənim eşqimə
Nə şərəf gətirir, nə də ki şöhrət.

İKİNCİ SƏHNƏ

Kral, don Sançо Ortis.

Don Sançо

Hökmdar, baş qoyum qədəminizə!

Kral

Yox, yox, qalxın Ortis, qara torpaqda
Uzanmaq, əzizim, yaraşmır sizə.

Don Sançо

Senyor!

Kral *(kənara)*

Yarımtanrı kimi nə gözəldir bu!

Don Sançо

Mən ki nə natiqəm, nə də müəllim,
Sanki yuxudayam gəlməyir dilim...

Kral

Mənim bu simamda nə gördünüz siz?

Don Sançо

Siz mənim kralım, hakimimsiniz.
Kralın üzünə mən baxan kimi,

Görürəm, tanrının öz surətini...
Mənə doğru deyir duyğum, hisslərim,
Allahımdan sonra, tanrımsız mənim.
Sizin iradəniz qanundur mənə.

Kral

Vəziyyətinizdən razısınızmı?

Don Sançо

Sizin bu şərəfli dəvət ilə mən,
Bəli, ucalmışam, çox-çox həddindən.

Kral

Müdrik ağlınızı, hünərinizi,
Bilərək, ürəkdən mən sevdim sizi.
Yəqin ki, öyrənmək istəyirsiniz
Ki, sizi nə üçün çağırmışam mən?
Mənə məhrəm olan bir şəxslə bu dəm,
Ürək sirlərimi mən bölüşərəm.
Mən yaxşı bilirəm, bilirəm ki, siz
Mənim ən qəhrəman əsgərimsiniz.
Mən üstün tuturam sizi hamıya,
Sizin namusunuz satılmaz, əsla.
Bizim Sevilyada bir nəfər vardır,
Rədd olunmalıdır o şəxs, məxficə
Öldürülməlidir. Lakin gizlicə.

Don Sançо

Cinayətkardırmı?

Kral

Günahı vardır!

Don Sançо

Üzr istəyirəm,
Cinayətkardırsa o adam əgər,
Bütün məmləkəti qorxutmaq üçün,
Xalqın qarşısında edam edərlər...
Bəs niyə gizlincə? Belə bir qətlə,
"Günahsızın suçu nəydi?" – deyərlər?
Günah bütün xalqdan gizlənsə əgər,
Gizlin iş dövlətə çox ziyan verər,
Əgər çox deyilsə onun günahı,
Mənim hökmdarım, mənim pənahım,
Sizə yalvarıram, əfv eyləyiniz!

Kral

Burda ona vəkil deyilsiz ki, siz.
Amansız, rəhmsiz hakimsiz, hakim.
Qüvvətli əliylə kim öldürər, kim.
Kim onu basdırar qara məzara?
Namusum gəlmişdir belə qərara:
Crimen (lsae)[1] edən bir nəfər,
Sizcə qətlə layiq deyilmi məgər?

Don Sançо

Odda yanmalıdır.

Kral

Crimen (lsae)-də o, günahkardır.

Don Sançо

Əlbəttə, heç buna şübhəmi vardır!
Əgər günahkarsa, həmin o adam,

[1] Hökmdarı təhqir etmək (*lat.*)

Sizin fikrinizin icraçısıyam.
Böyük hökmdarım, biliniz bunu,
Qardaşım olsa da, öldürrəm onu.

Kral

Əhd edək, əlimiz birləşsin bizim.

Don Sançо

Sizindir şərəfim, qəlbim, nəfəsim.

Kral

Siz onu qəflətən yaxalayın ki,
Döyüşə girməyə macal tapmasın.

Don Sançо

Sizə hardan gəldi, deyin, bu fikir?
Siz, mən tək əsgəri, mən Roelyası
Xəyanətkarlığa vadar edəsiz?
Mən adam öldürüm gizlin, xəbərsiz?
Bu, təbiətimə ziddir tamamən.
Cani ölməlidir açıq, meydanda!
Sevilya şəhərində, belə bir gündə,
Vurub öldürərəm xalqın önündə!
Gizlindən, qəflətən hücum çəkənin
Təmizə çıxmaqçın heç haqqımı var?
Xəyanət etdiyi bir işə görə,
Ömrüncə çəkəcək daim əzablar.
Canini hər zaman sarsıdır vicdan:
O yaşayarsa da, bir hekayə tək,
Daim xəyanətlə o gizlənəcək.

Kral

Necə istəsəniz öldürün onu!
Alın, bu fərmanı verirəm sizə,
İnanın, bu möhrə, bu əmrimizə,
Hər haqqınız vardır. Alın, oxuyun.

(*Fərmanı ona verir.*)

Bu saat oxuyum.

(*Oxuyur.*)

"Sizə, Sançо Ortis, təklif edirəm,
Öldürün o nankor xain adamı,
Onun aşağıda yazılmış adı.
Qoy hamı bilsin ki, bu necə işdir,
Məni təhqir üçün öldürülmüşdür.
Sizə xətər gəlsə bu işdən ögər,
Hazıram mən sizi müdafiəyə".
Kral! Mənə azdır etibarınız.
Nəyimə gərəkdir sizin möhrünüz?
Mənə kifayətdir, inanın, yalnız
Tək bircə sözünüz, bircə əmriniz.
Kağıza etibar etmirəm, amma,
Yalnız inanıram öz senyoruma.
Məni qorumaqçın, bilirəm ki, siz
Dağları yerindən tərpədərsiniz.

(*Kağızı cırır.*)

Canilə döyüşə sərbəst girərəm,
Mənə gərək deyil əsla bu kağız,
Kralı nüfuzdan salar bu yalnız.
Guya ki, kralın ulu əmrinə,
Yazılı, sübut da gərəkmiş yenə!
Mənə gərək deyil heç şey, heç fərman.
Sizə sədaqətim aydındır hər an.
Yetirrəm yerinə mən əhdimizi,
Ondan mən intiqam alaram yalnız.
İndi dediyimiz şərtlərə görə,
Siz məni cəzadan qurtararsınız.
Deməli, gedirəm. Bir ricam var, siz,
Mənə bir mükafat lütf eyləyəsiz,
Kpalın adından olsun mükafat,

Qəlbimdə mən onu bir inci kimi,
Gəzdirim daimi hər zaman, hər vaxt.

Kral

Varisi olsa da o, Kastilyanın,
Verərəm mən sizə! Buna inanın!

Don Sanco

Sizə, ey hökmdar, təşəkkürüm var!
Bütün qüvvətimi sərf edərəm ki,
Sizə kömək edim... Tac-taxtınız...
. . . . . [1]

Kral

Mənim qüdrətimlə, əmin olun siz,
Mükafatlanacaq igidliyiniz.

(*Onu başqa bir kağız verir.*)

Bu kağızı sonra oxuyarsınız.
Bilərsiniz kimi öldürmək gərək.
Sizi yazdığım ad şəkkə salsa da,
Gərək bu məqsəddən heç çəkinməmək.
Çox nadir, tapılmaz bir igid kimi,
Ona hörmət edir Sevilya şəhri.

Don Sanço

Bunu tezlik ilə öyrənərik biz.

(*Gedir.*)

Gedin! Mənim Sançom! Beləliklə də,
Qoy yetsin yerinə bizim əhdimiz.
Dediyimiz sözlər pozulmaz heç vaxt,

[1] Orijinalda bir misra çatmır.

Bunu, tək ikimiz bilirik ancaq,
Bir susmaq, bir də ki, yalnız ehtiyat!

(*Gedir.*)

ÜÇÜNCÜ SƏHNƏ

Don Sançо Ortis. Klarindo.

Klarindo

Sizi axtarıram səhərdən bəri –
Ki, sizə çatdıram təzə xəbəri.
Şad olacaqsınız bu xəbərlə siz.
Mənə bir mükafat verəcəksiniz?

Don Sanço

Bu təmtəraq nədir? Söylə görüm bir.

Klarindo

Bunu ürəyiniz bəs sizə demir?
Buyurun.

(*Kağızı ona verir.*)

Don Sanço

Kimdəndir?

Klarindo

Bu, ondandır ki,
Hüsnüylə, günəşi qapamış sanki.
Həmin Estrelya, həmin o ulduz,
Bunu göndərdi ki, şad olasınız.

Don Sanço

Nə şadlıq?

Klarindo

Onunla evlənmək üçün.
Elə, olacaqdır toyunuz bu gün.
Busto sizə verir bacını, həqqən.

Don Sanço

Nə dedin? Şadlıqdan öləcəyəm mən!
O, qismət oldumu mənə, ah, mənə,
Nəhayət, çatdımmı öz məqsədimə!
Ey mənim ulduzum, mənim şəfəqim!
Günəş, öz nuruyla keçən dərdimi,
Öz şəfəqləriylə belə parladır.
Bu xoşbəxt kağızda gərək nə yazır?

(*Oxuyur.*)

"Ey ərim! Xoşbəxt gün yetmişdir artıq,
Qardaşım vermişdir buna razılıq.
Sənə Estrelya, – mənəsə həyat.
Tez ol, ey əzizim! Axtarır səni,
Ki, toyun vaxtını təyin eyləsin.
Daha vaxt itirmə". Ah, ey ulduzum!
Döndü həqiqətə ən şirin arzum.
Klarindo, durma! Qaç bizim evə,
Mənim adamlarıma
Mənim şadlığımı, durma, tez söylə!
Bu təntənəli günə alıb yığdığım,
Bu toy-bayramıma hazırladığım,
Lələkli şlyapam, zər libasımı
Çıxarıb qoysunlar, qoy görsün hamı!
De ki, nökərlər də, pajlar da bu gün
Qəşəng geyinsinlər bu bayram üçün.

Tez yetir yerinə mənim əmrimi,
Mükafat istəsən, buyur, bu zümrüd...
Əgər mən günəşi bir üzük kimi,
Taxsaydım, onu da sənə verərdim.

Klarindo

Zümrüddən çox olsun sizin ömrünüz.
Xoş keçsin yar ilə daim gününüz.
Arzu eyləyirəm, sizə mən hələ,
Çox uzun yaşayın dəlilərdən də!

(*Gedir.*)

DÖRDÜNCÜ SƏHNƏ

Don Sanço Ortis, tək.

Don Sanço

Bustonun yanına! Həycanlıyam mən,
Ürəyim çırpınır bu səadətdən!
Lakin bu ürəyim, ondan aralı,
Niyə unutmuşam bizim kralı?
Bircə bu kağızı qoy açım bu dəm,
Görüm ki, mən kimi öldürəcəyəm.
Onun adı nədir?

(*Oxuyur.*)

"Öldürməlidir Tabera Busto".
Aman, ey Allahım! Nə oxudum, nə?
Bir qızğın qumardır bu həyat, budur,
Bəzisi uduzur, bəzisi udur...
Qumarda bircə xal gətirməyəndə,
Adam bədbəxt olur, düşür kəməndə.

Sən sərt bir oyunsan, həyat, ey həyat!
Mənə üz vermişdi bir bəxtiyarlıq,
Bir anda zülmətə döndü o artıq.
Tək bircə gedişlə vuruldu kartım,
Bitdi bununla da mənim həyatım!
Birdəmi oxuyum? Əsir əllərim.
Ah, bu fəlakətim dərindən, dərin...
Bəlkə də, gözlərim aldadır məni?
Burda mən yanıldım, yanıldım yəni?
Yox, hər şey aydındır, hər şey aydındır...

(*Oxuyur.*)

"Öldürülməlidir Tabera Busto".
Məhv oldum, məhv oldum! Neyləyim daha?
Axı and içmişəm bizim krala.
. . . . . [1]
Daha o bədbəxtə verilməz aman,
İcra etməliyəm andımı bu an.
Özüdür, bu, odur! Onun qardaşı!
Özüm zərbə vurum öz gəlinimə!
Kralın əmrisə, çox müqəddəsdir,
Bu, mənə şərəfdir, bu, mənə bəsdir!
Axı heç olarmı, olarmı ancaq
Qıpqızıl yolunu ömrün unutmaq:
O keçmiş dostluğu, o məhəbbəti?
Yox, yox! Mən Bustoya həyat verərəm!
O yaşamalıdır! Yaşamalıdır!
Lakin həyat versəm ona mən bu dəm,
Pozaram, yəqin ki, mən öz andımı.
Kral şöhrətini təhqir edərəm!
Ömrümü, ruhumu yox etsəm də mən,
Yox, tələf etmərəm öz namusumu...
Məhəbbət və namus! Bu dolaşıqda,
Çırpınıb, məhv olur insanın ruhu...
İndi iki yoldan hansını seçim?
Sevirəm, alovlu bir ehtirasla,

[1] Orijinalda bir misra çatmır.

Bəli, çox saf olan bu namusuma,
Gərək heç bir ləkə gəlməsin amma.
Bəlkə də, Bustonu heç öldürməyim,
Özüm, çıxım gedim başqa diyara?
O uzaq, o qərib ölkələrdə, ah,
Necə xidmət edim bəs mən, krala?
Yox, özüm-özümü aldadım niyə?
Kralın əmrində yazılmış belə...

(*Bir də oxuyur.*)

"Öldürülməlidir Tabera Busto".
O, neçin istəyir onu öldürmək?
Belə xəbər verir mənə bu ağlım,
Estrelya, həlak olacaq, demək.
Ulduzum, kralı əsir etmişdir,
Onunçun Bustonu o öz yolundan
Rədd etmək istəyir, verməyir aman.
Gərək xilas edəm Estrelyanı.
Xilas edim? Məndə cəsarət hanı?
Mən, namus köləsi, borc cəngavəri,
Məcburam, məcburam buraxacağam,
Mən, bu iradəni, bu fikirləri...
Belə! Qət olundu! İradəm də var!
Rədd olsun şübhələr! Bütün əzablar!
Ədalətsiz də olsa sözləri onun,
Kralın təklifi qanundur, qanun...
Əfsus! Mənim borcum tabe olmaqdır.
İndi mənim borcum cani olmaqdır.
Onun silahıyam. İndisə, dərhal
Tez yetir yerinə! Əmr etmiş kral!
O, qəddar olsa da, həmişə haqdır,
Ancaq bu səmalar ədalətiylə –
Onları cəzaya çatdıracaqdır.
Bəli, ölməlidir. Yoxdur başqa yol.
"Öldürülməlidir Tabera Busto."
Kim onun ləhinə bircə söz deyər?
Ona tərəf duran kimdir, var məgər?!

Dəhşətli taleyim! Ah, doğrudanmı,
Mən itirəcəyəm Estrelyanı?
İndi mən neyləyim? Neyləyim mən, ah,
Gücü hardan tapım! Güc hanı, eyvah!..

BEŞİNCİ SƏHNƏ

Don Sanço Ortis, Busto.

Busto

Mənim əziz yeznəm, sənə salamlar,
Sənin görüşünlə oldum bəxtiyar.

Don Sanço (*kənara*)

Mən isə, yüz dəfə bədbəxtəm, bədbəxt:
Sən həyat verirsən əlinlə mənə.
Mən bu mükafata layiq deyiləm.
Ölüm gətirirəm, qardaşım, sənə.

Busto

Buyur, ey qardaşım, indi, nəhayət,
Sizin toyunuza qoyuldu müddət.

Don Sanço (*kənara*)

Başqa qərar verir taleyim artıq,
Qismətim qaranlıq, tamam qaranlıq.
Taleyin zərbəsi nə sərtdir, aman!
Aman, ay Allahım! Mən, elə bu an
Dünyada ən əziz olan bir şəxsi,
Həlak etməliyəm. Gizlincə, məxfi...
Mən itirməliyəm Estrelyanı!
Mənim tək bir bədbəxt dünyada hanı?

Busto

Sanço nə olmuşdur? Niyə susursan?
Nikah kəsəcəyik sizə, bax, bu an.

Don Sanço

Yox, nikah kəsməyə hələ tələsmə!
Sən razılığını gec verdin mənə.
Mən bu səadəti rədd eyləyirəm.

Busto

Aman! Qulağıma inanmıram mən!
Qarşında dayanan kimdir bilmirsən?

Don Sanço

Bəli, tanıyıram, sən Taberasan.

Busto

Mənimlə, bu cürə sən danışırsan?

Don Sanço

Belə danışıram sizinlə, bu dəm,
Çünki sizi rəngsiz, açıq görürəm.

Busto

Tanıdın? Deməli, qeyrətimi də,
Alicənablığı, şöhrətimi də,
Bizim qanımızın saflığını da,
Təmiz ömrümüzün nemətini də,
Çox gözəl, yaxşıca tanımalısan!
Məni belə təhqir etməkdən utan!

Don Sançо

Sənin lə danışmaq eyibdir mənə...

Busto

Bu sözlər, nəhayət, nə deməkdir, nə?
Belə təhqir üçün, sən indi gərək,
Ölәsən ən mənfur bir yalançı tək!
Mən rüsvay edərəm sənin ömrünü!

(*Qılıncını çəkir.*)

Don Sançо

Əvvəl mən vuraram. Özünü qoru!

(*Kənara*)

Bağışla, ey eşqim, dəlilikdir bu!
Kraldır, kraldır bu cinayətə
Məni sövq eyləyən...

(*Vuruşurlar.*)

Busto

Bir dayan, hələ!

Don Sançо

Sanki cuşa gəlmiş bütün cəhənnəm!

Busto

Aman, ölürəm!

(*Yıxılır.*)

Don Sançо

Ah, ey haqq Allah!
Neyləyim, neyləyim, neyləyim mən, ah!
Zəhərləndi, yandı, məhv oldu belə?
Dumanlar əriyir qanlar içindən...
Al öz qılıncını, tez öldür məni!
Tez ol, vur! Açmışam, budur sinəmi!
Mənim bu didilmiş, miskin ruhuma,
Bir yol aç...

Busto

Mən öz bacımı –
Sənə tapşırıram, artıq əlvida!

(*Ölür.*)

Don Sançо

Ah, ey qəddar qılınc! Qardaş öldürən.
Sən ey məlun qılınc! İndi vurub sən,
Mənim həyatımı bir anda məhv et!
Nahaqca tökdüyüm qardaş qanına,
İndi, cavab verim mən öz qanımla!

ALTINCI SƏHNƏ

Əvvəlkilər, don Pedro de Qusman, Farfan de Ribera və başqa kavalyerolar.

Don Pedro

Qılınclar qınına! Nə olmuş yenə?

Don Sançо

Yox, siz artıq mane olmayın mənə!
Haramdır, haramdır, mənə yaşayış!

Farfan

Burda nə olmuşdur?

Don Sançо

Qardaş öldürmüşəm... baxınız budur,
Qabil, qardaşını öldürən kimi...
O, günahsız idi... Lənətə gəlim...
Bu qisas qurbanı... Bir baxın, gəlin,
Mən onu öldürdüm qəddar qatil tək,
Tez olun, tez olun öldürün məni!
Onunla bir yerdə mən öləm gərək!

YEDDİNCİ SƏHNƏ

Əvvəlkilər, don Aryas.

Don Aryas

Burda nə olmuşdur?

Don Sançо

Qanlı bir əməl...
Fəlakət dolu bir and içdiyimdən,
Öz müdhiş borcumu icra etdim mən.
Beləcə qorudum öz namusumu,
Siz gedib krala deyin ki, bunu,
Sözündə möhkəmdir sevilyalılar!
Namusun üstündə, həm qardaşını,
Həm də eşqlərini məhv eyləyirlər!

Don Pedro

Tabera Bustonu qətl eyləyib o.

Don Aryas

Nə ağır cinayət! Dəhşətə bax bir!

Don Sançо

Məni zəncirləyin! Tez olun, tez-tez!
Mən alçaq canini edam ediniz!
Başqasının olan bir iradədən
Güc alıb, bu işi görmüşəmsə mən,
Belə bir insanı öldürdüyümçün,
Mən haqq almalıyam, yalnız ölümlə!
Mənə çıxış yolu ölümdür, yalnız.

Don Aryas

Tez olun, canini yaxalayanız!
Aparın, tez onu həbsxanaya!
Həycana gələcək indi camaat.

Don Sançо

Əzizim, qardaşım, məni bağışla!

Farfan

Bu, dəli olmuşdur.

Don Sançо

Cəsədi soyuq...
Nahaqdan qanına bulanmışdır o...
Qoyun, mən aparım onu, mən, çünki
Sən ey bədbəxt Atlant! Sən qaldırmısan,
Uca səmalara bu ağır yükü...
Verirəm mən ona öz həyatımı,
Verirəm yeni bir həyatı sanki...

Don Pedro

O sayıqlayır.

Don Sançо

Bax, bu cinayət
Namus qanununa dəlildir, əlbət.
Bəli, kral olmaq belədir ancaq.
Kral olmamaq da, bəli, belədir...
Senyorlar, sözümü ölçün-biçin, bir.
Lakin mən susuram. Günah mənimdir.
Etiraf edirəm: mən öldürmüşəm.
Neçinmi öldürdüm? Açıb demirəm.
Sizə deyirəm ki, qatili mənəm.

Bustonun cənazəsini aparırlar.

BUSTONUN EVİNDƏ OTAQ

BİRİNCİ SƏHNƏ

Estrelya, Teodora.

Estrelya

Heç bilmirəm, necə geyinmişəm mən,
Lap çaşbaş olmuşam tələsdiyimdən...
Teodora, əzizim, bir mənə ver güzgünü!

Teodora

Bu aynada, ey xanım, bir görün özünüzü...
Dünyada heç bir ayna, dünyada heç bir güzgü,
Qadir deyil göstərə bu qəşəng hüsnünüzü...

Estrelya

Teodora, nədənsə, ev başıma dolanır,
Yanaqlarım, bayaqdan tamam od tutub yanır...

Teodora

O, qandır, tutmuşdur yanağınızı,
Rədd edib özündən qorxu və dəhşət,
Utancaqlığını rədd edib qızın,
Təntənə keçirir indi səadət.

Estrelya

İndidən görürəm xəyallarımda,
Görürəm, işıqlı bir səadətlə
Saflıq, mehribanlıq və nəzakətlə
Uzadır əlini o, mənə doğru,
Məhəbbət oxunur saf gözlərindən,
Sözləri eşq ilə doludur, dolu...
Bu xoşbəxt günümü, mən, Teodora,
Heç vaxt unutmaram, heç bir vaxt, əsla!
Bax, budur ulduzum, bax, budur canım!

Teodoro

Deyəsən, musiqi çalınır, xanım?
Güzgü yerə düşdü... Bu nədir, aman...

(*Güzgünü qaldırır.*)

Yəqin ki, qırıldı paxıllığından,
Bir ay əvəzinə doğdu neçə ay...

Estrelya

Güzgü qırıldımı?

Teodora

Bəli, senyora...

Estrelya

Gözəl oldu! Güzgü bildi ki, hökmən,
Bir ayrı güzgünü gözləyirəm mən.

Mənə ayrı güzgü gərək deyildir,
Qoy hamsı qırılsın, qırılsın bir-bir...
Qırıq güzgü parçası gərək deyildir mənə,
Mən güzgü tək baxaram onun saf gözlərinə...

İKİNCİ SƏHNƏ

Əvvəkilər, bəzəkli geyinmiş Klarindo.

Klarindo

Musiqi səsləri... Senyora bax bir,
Bizim qəlbimizə fərəh gətirir.
Sombreromda olan bu ləkələr də
Toydan xəbər verir bu saat bizə...
Mən verdim senyora həmin məktubu,
O da həmin saat, bax, bu üzüyü
Mənə bağışladı.

Estrelya

Ey əziz dostum,
Belə bir hədiyyə gözlə məndən də,
Sən, gəl bu üzüyü mənə ver, mənə,
Bax, bax, bu almazı, elə al bu an.

Klarindo

Bu daş parçalandı düz ortasından!
Yəqin ki, bu işdə bir dərd-kədər var.
Kədərləri zümrüd tezcə sağaldar...
Sözləri qəmlidir, amma hər zaman...
Bu daş ortasından yarı bölündü.

Estrelya

Qoy olsun! Kədərin daşı qırıldı!
Şadlıq və səadət parlaqlığında, –

Məhv olsun qüssələr... Getsin qoy heçə...
Bu xoşbəxt günümü, ey Klarindo,
Saxlaram yadımda hər vaxt, həmişə...
Belədir, əzizim, sözümün düzü,
Bax budur, bax budur mənim *ulduzum!*

Teodora

Ay xanım, həyətdə çoxlu adam var,
Deyəsən, hamısı pilləkənlərlə,
Yuxarı qalxırlar....

Estrelya

Bura gəlsinlər!
Onlar da, bizimlə olsun bəxtəvər!

ÜÇÜNCÜ SƏHNƏ

Əvvəlkilər, don Pedro de Qusman, Farfan de Ribera Bustonun cənazəsini gətirənlər.

Estrelya

Bu, nədir?

Don Pedro

Bəlalar, kədərlər, dərdlər belədir,
İnsanın qisməti olmuşdur bir-bir...
Bizim də ömrümüz təsəllisizdir,
Dərdlə, göz yaşıyla dolu dənizdir.
Qardaşınız ölmüş...

Estrelya

Ah, qara tale!

Don Pedro

Sizin təsəlliniz bircədir ancaq,
Onu öldürəni – Sanço Ortisi
Ordaca tutmuşduq, o sabah səhər
Edam ediləcək!..

Estrelya

Ey qəddar düşmənlər, rədd olun burdan!
Sizin sözləriniz mənim sinəmi
Cəhənnəm oduyla yandırır, aman...
Qardaşım ölmüşdür? Onu öldürən –
Sanço Ortisdirmi? İnanmıram mən...
Bunu kim söylədi? Eşidən bir şəxs,
Bunu eşidərkən, doğrudan, ölməz?
Əgər mən sağamsa, deməli, mənim
Bir daşdır, bir daşdır hissiz ürəyim...
Bax budur *ulduzum!* Fəlakət... Müdam,
Bu dəhşətli günü yadda saxlaram.
Yalvarıram sizə, varsa rəhminiz,
Məni elə burda öldürünüz siz...

Don Pedro

Kədərdən özünü itirmişdir o,
Zavallı neyləsin?

Estrelya

Sən ey *ulduzum!*
Ey qara taleyim, ey uğursuzum!
Bəli, öldürülmüş mənim qardaşım,
Öldürən Sançodur, – eşqim, sirdaşım...
Bizim bu üç ürək birgə yaşardı,
Qardaşım, bu ruhu tam parçaladı...
Uzaş! Mən məhv oldum, məhv oldum, aman!

Don Pedro

Bu dərdin hüdudu yoxdur heç zaman...

Farfan

Gör, necə gözəldir! Necə bədbəxtdir!

Don Pedro (*Klarindoya*)

Ardınca get bir!

Klarindo

Senyora!

Estrelya

Uzaq!
Qədirbilməz kölə! Uzaq məndən sən,
Qardaş qatilinin nökərisən sən!
Dünyanın axırı yetmişsə, heyhat
Artıq mənimçün də yoxdur bu həyat.
Məni məhv eylədi bir bu gün ancaq...
Ey mənim *ulduzum!* Dəhşətə bir bax!..

ÜÇÜNCÜ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

Kral, don Pedro de Qusman, Farfan de Ribera, don Aryas.

Don Pedro

O, öldürdüyünü etiraf edir,
Amma səbəbini açıb söyləmir.

Kral

Qətlin səbəbini gizlədir, demək?

Farfan

"Mən, heç nə bilmirəm" – Bunu deyir tək.

Don Pedro

Bu, çox qəribədir!

Kral

Bəs, demirmi o,
Döyüşə birinci başladı Busto?

Don Pedro

Xeyr, o danışmır bu cürə sözlər.

Don Aryas

Vuruşun səbəbin söyləmir məgər?

Farfan

Yalnız bir söz deyir: Taberanı, mən
Öldürəcəyimə and içdiyimdən
Vurub öldürmüşəm.

Don Aryas

Təhqir eləyibmiş o, bunu, yəqin,
Bununçun da çıxmış təhqir əvəzin.

Don Pedro

Yox, bunu istəmir etiraf etmək,
Özü də, bu işdən sarsılmışdır bərk.

Kral

Tez onun yanına siz yenə gedin,
Ona bu sözləri siz bəyan edin:
Qoy mənim əmrimlə yanıma gəlsin,
Törətdiyi ağır cinayətinə.
Mənim hüzurumda bir cavab versin.
Deyin ki, mən onun dostuyam, amma,
Düşmən olacağam, əgər yalana
Qapılıb, hər şeyi söyləməsə o,
Nə üçün, nə üçün o, öz dostunu
Ölümcül zərbəylə məhv eyləmişdir?
Ona söyləyin ki, lal olmasın, lal,
Hər şeyi söyləsin, söyləsin dərhal.
Qoy, açıb söyləsin səmimiyyətlə,
O, kimin hökmüylə, nə üçün, belə
İşə məcbur olmuş? Kimçin o adam,
Belə iş görmüşdür, almış intiqam?
Özünü önümdə, deyin, doğrultsun,
Yoxsa ki, ölümdür qisməti onun.

Don Pedro

Elə arzu edir ölümü ancaq,
Yalvarır ki, onu tez öldürsünlər.
Onu dəli edib bu dərd, bu kədər.
Özündə deyildir, deyildir qəti,
Tamam lənətləyir bu cinayəti.

Kral

İttiham etmir ki, o bir kimsəni?

Farfan

Xeyr. Əzab çəkir peşmançılıqla,
Dostundan ayrıla bilməyir əsla.

Kral

Nadir bir şərəfin nümunəsidir!

Farfan

Yalnız öz-özünü günahkar bilir.

Kral

Ona tay tapılmaz, yəqin, bilirəm.
Söyləyin ki, onu mən gözləyirəm.
Qoy desin o, mənim qarşımda qəti,
Kim olmuş səbəbi bu cinayətin?
Verin məhkəməyə lap mən də olsam!
Belə istəyirəm, budur qərarım.
Əgər bu sirrini açmasa tamam,
Sabah, Sevilyada xalqın önündə
Xalqa dərs olmaqçın, edilsin edam!

Don Aryas

Gedirəm!

Don Aryas, don Pedro de Qusman və Farfan de Ribera gedirlər.

İKİNCİ SƏHNƏ

Kral, don Manuel.

Don Manuel

Kral! Taberanın bacısı, bu dəm,
Hüzurunuza gəlmiş.

Kral

Mən onu bu saat qəbul edərəm.

Don Manuel

Bütün xalq görüşə gəlir onunla.

Kral

Bir kreslo gətir, tez get ardınca.

Don Manuel

Gedirəm, gedirəm.

(*Gedir.*)

Kral

Ah, o bədbəxt qızın o gözəlliyi,
İndi parlayacaq şüalarıyla,
Zülmətlər içində bir ulduz kimi.

Don Manuel qayıdır.

Don Manuel

O qızın səmavi, gözəl surəti
Kədərdən bir qədər solğun olsa da,
Nadir gözəlliyin parlaqlığında,
Nur saçır, bərq vurur, günəşdir guya.

ÜÇÜNCÜ SƏHNƏ

Əvvəlkilər və şəhərlilərin müşayiəti ilə gəlmiş Estrelya.

Estrelya

Xristian dinli, Sanço qəhrəman,
Bizim Kastilyanın sən kralısan.
İgidliyinə tay yoxdur heç yerdə,
Ən böyük dahisən xeyir işlərdə!

Sizin qarşınızda, budur, bir *ulduz,*
Dayanmış kədərlə, dərdlə, uğursuz...
Ömrünün işığı artıq sönmüşdür,
Qara qorxunc olan buludlar kimi,
Matəm libasına o bürünmüşdür!
Yalvarıb dilərəm səndən ədalət!
Məhkəmə hökmünü sən vermə fəqət,
Qədimlərdə olan adətlər üzrə,
Ver bu intiqamı mənim əlimə.
Acı göz yaşımı tərk etməmişdən,
Onların içində itib-batım mən.
Sonra da, mən sənə deyim, doğrusu,
Bütün kədərimi, məyusluğumu.
Kədərin müqəddəs ucalığında,
Şəfəqləri içrə mavi göylərin,
O saysız ulduzlar parlayan kimi,
Mən öz qardaşımı hədsiz sevərdim.
O, məni sevərdi qardaş tək... Fəqət,
Ona ata kimi edərdim hörmət.
Mən onun tabeydim hər arzusuna,
Mən çox xoşbəxt idim, şəkk yoxdur buna.
Hətta günəşdən də qoruyurdu ki,
Məni incitməsin. Gün şüasından,
Mənim pəncərəmi bağlardı, inan.
Bizə heyran idi Sevilya şəhri,
Hamının gözündə biz, bacı-qardaş
Yaşardıq yeganə bir məşəl kimi.
Amansız ovçunun oxu iş gördü,
Mənim qardaşımı vurub öldürdü.
Həmin o ovçunun ölüm dəhşəti,
Pozdu, yaman pozdu bu səadəti...
Əziz qardaşımdan məhrum oldum mən...
Həm də ayrı düşdüm öz sevgilimdən...
İndi bu həyatda, ömrüm boyunca,
Gərək öz-özümü qoruyam ancaq.
Eldən bir məzəmmət görməməkçin, sən
Mənim bu ricamı rədd eləməzsən.

Kralın müqəddəs, ali borcunu,
Bilirəm ödərsən, elərsən bunu...
Kastilyada olan qanuna görə,
Ver mənim əlimə həmin canini,
Özüm mühakimə eləyim onu.

Kral

Ey gözəl! Bu haqlı qəzəbi et ram,
Odunla yanmasın bu saray tamam...
Günün göz yaşıdır bütün ulduzlar,
Yandırar yanında bütün hər nə var...
Gülgün şəfəqlərə sən ver onları,
Qoy işıq saçsınlar göylərə, barı
Hərarət və ziya ver o göylərə,
Yerlərdə sərf etmə onu boş yerə!
Al, üzüyümlə get həbsxanaya,
Hamı, baş əyəcək önündə bunun.
Sənin bir sözünlə, cinayətkarı
Sənə verəcəklər. Əmrin düz olsun.
Necə istəyirsən, qisas al ondan,
Bəli, fransızdır qəlbinin kini,
Ancaq vəhşi quş da, heyvan da bəzən
Rəhmdil olurlar – bunu da bil sən.

Estrelya

Burda xeyirxahlıq çox yersiz olar,
Senyor, ürəyimdə bircə fikir var,
Mən yalnız məşğulam öz şərəfimlə,
Qardaşım ölmüşdür, mən sağam hələ.
Buna gözəlliyim taxsırkardırsa,
Qoy bu gözəlliyim məhv olsun tamam.
Onu məhv edərəm öz əllərimlə,
Onu məhv etməyi bacararam mən!

Kraldan başqa hamısı gedir.

DORDUNCU SƏHNƏ

Kral tək.

Kral

Qorxuram ittiham eyləyib dərhal,
Özü, öz əliylə onu öldürər.
Belə gözəlliyə malik bir bədən.
Qəzəblə doludur məgər bu qədər?
Gör hara çıxarır bizi səhvlər!
Onu xilas edim. Səbəb mənəm, mən...
Eşq! Kral nurumu sənsən məhv edən,
Mən xilas olaram sənin hökmündən!

HƏBSXANA

BİRİNCİ SƏHNƏ

Don Sançо Ortis, Klarindo, müğənnilər, musiqiçilər.

Don Sançо

Klarindo! Söylə, mənim şənimə
Nə üçün bir şeir yazmayıbsan, hə?

Klarindo

Mükafat almağa ümid etmədən,
Təzə bir şeri kim yaza bilər?
Məndən çox müxtəlif bayramlar üçün.
Çoxları istədi təzə şeirlər...
Elə küçədəcə görərkən məni,
Dərziyə sifariş edənlər kimi
Mənə qışqırırlar səbrsizliklə:
"Mənim sifarişim hazırdırmı, de?"
Əgər, istedadım olsaydı, yəqin,
Keçərdim şöhrətdə Anaksaqoru,
Mən vunanlıları və latınları.
Hamısını gülünc eylərdim, yəqin...

IKINCI SƏHNƏ

Əvvəlkilər. don Pedro de Ousman. Farfan de Ribera və don Aryas.

Don Pedro

Buyurun buraya.

Klarindo

Senyor, bax, bu an
Sizə qəti hökmü edərlər elan.

Don Sançо (*müğənnilərə*).

Rica edirəm ki, sizlərdən biri
Mənə ən gözəl bir mahnı oxusun.
Mənim son saatım, bu, mahnılarda,
Sevinclə-fərəhlə həmahəng olsun.
Ölümün önündə bircə zərrə də
Qorxmuram, ürəyim titrəmir əbəs,
Ölümün özü də, qoy bilsin hamı,
Bu möhkəm ruhumu sarsıda bilməz...

Klarindo

Alicənablığı gör nə qədərdir!
Belə dəqiqədə, belə bir anda,
Ağlağan alman da ah-zar edərdi!

Müğənnilər (*oxuyurlar*).

Həyat, hər bir şeydən qorxuludursa,
Həyatda vardırsa, yalnız kədər-qəm,
Bundan qurtarmaqçın ölüm gözlərəm,
Azadlıq saatı yetişmir, nədən?

Klarindo

Nəşəli nəğmədir, gözəl nəğmədir!

Don Sanço

Həm bir həqiqətdir, həm yerindədir!

Müğənnilər (*oxuyurlar.*)

Həyat bir əzabdır, ahdır, amandır,
Ölümsə, həyatdan can qurtarandır...

Don Pedro

Senyor, yeridirmi heç mahnıların?

Musiqiçilər və müğənnilər gedirlər.

Don Sanço

Musiqidən başqa, deyin, bir dustaq,
Nədən zövq alacaq?

Farfan

Sizi ölüm gözlər, indi bax, budur,
Bəlkə, onun hökmü elə indicə,
Sizi bir dəhşətli ildırım kimi
Vurub ömrünüzü məhv eyləyəcək.
Burda musiqinin heç yeri yoxdur!

Don Sanço

Mən Qu quşu kimi dodaqda bu dəm,
Şirin mahnılarla ölmək istərəm.

Farfan

Vaxt çatmışdır, ölüm gözləyir sizi.

Don Sanço

Bu gözəl xəbəri verdiyinizçin,
Öpürəm, öpürəm əllərinizi...
Sən ey gözəl günün gözəl saatı!

Don Pedro

Sanço Ortis de Roelyas!
Tabera Bustonu vurduğunuzu,
Söyləyin, etiraf edirsinizmi?

Don Sanço

Bəli.
Qoy, hamı bilsin ki, mən öldürmüşəm,
Mənə elə cəza verin ki, bu dəm,
Uzaq ölkələrinin əzablarını,
İspaniya hamıdan geridə qoysun!

Farfan

Yəni, doğrudanmı, bunu deyin siz,
Onu öldürdünüz tamam səbəbsiz?

Don Sanço

Bəli, mən öldürdüm, açıq deyirəm,
Amma, səbəbini deməyəcəyəm.
Mənim dostum olan, gözəl bir şəxsi
Öldürdüm. Kim bilir, dərhal söyləsin.
Mənsə, Taberaya, heç vaxt, heç zaman,
Ölüm istəməzdim, yox-yox... Ah, aman...

Don Pedro

Lakin heç səbəbsiz insan öldürmək,
Bir xəyanətkarlıqdır.

Don Sanço

Lakin səbəbsiz,
Yəqin ki, ölməzdi, ölməzdi gerçək.

Don Pedro

Axı bu ölümün nə sirri vardır?
Kimin qarşısında o, günahkardır?

Don Sanço

Bu son saatımda, bax bu son anda,
Məni qarşınızda bu hala qoyan,
Deyirəm, bir odur, o, günahkardır.

Don Pedro

Axı o şəxs kimdir?

Don Sanço

Deyə bilmərəm.
Mənim borcum, sirri bərk gizlətməkdir.
Bütün kralların əzəmətini
Necə əməlləri verər büruzə –
Mən də krallar tək öz sirlərimi
Gizlətmək istərəm, örtmək istərəm.
Bəli,Taberanı öldürdüyümçün,
Məni edam edin. Bu bəsdir, bəli.
Neçinmi öldürdüm? Bunun səbəbi –
Sizə vacib deyil.

Don Aryas

Senyor Sanço Ortis, yanınıza mən,
Kralın adından göndərilmişəm.
Kralın adından deyirəm ki, siz
Bu şübhəli qətlin səbəblərini

Açıb, aydın-aşkar söyləyəsiniz:
Deyin, bu hərəkət baş verdi nədən?
Bəlkə, qadınlardan? Bəlkə də, puldan?
Bəlkə də, başqa bir səbəb üzündən?
Alın, kral sizə verdiyi fərman.
Möhür də basılmış, siz, indi bu an
Bütün həqiqəti açıb desəniz,
Məhbəsdən tez azad olacaqsınız.

Don Sanço

Əgər mən etsəydim belə hərəkət,
Borcum öz yerinə yetməzdi, əlbət.
Dostum! Siz krala deyiniz: hər dəm,
Sözümü tutmağa adət etmişəm.
Əgər adlanırsa o, cəsarətli,
Belə bir şöhrəti, bu adı, qəti,
Mənim də almağa ixtiyarım var.
Krala, siz gedib ərz eyləyin ki,
O, öz fərmanını alsın geriyə.
Bu fərmanı mənə göndərməklə o,
Məni təhqir edir, alçaldır, bəli...
Bəlkə, o unutmuş həmin o anı,
Mən alıb cırardım həmin fərmanı...
Tabera Bustonu mən öldürmüşəm,
Hətta azadlığım bahasına mən
Heç vaxt pozmaram öz andımı, əsla.
Yerinə yetirdim mən öz vədimi,
Qoy, həmin adam da vəd etdiyni
Yerinə yetirsin! Eyləsin icra!
Burda başqa bir şəxs danışmalıdır,
Mən, yalnız susuram. Sözüm yox daha...

Don Aryas

Özünüzü safa çıxartmaq əgər
Hökmünüzdə isə, bax bu tərsliyə,
Dəlilik deyərlər...

Don Sanço

Lakin bilin, mən
Susmaqla, özümə qalib gəlmişəm.
Başqa birisi var, onun susmağı
Məni utandırır. Kim olur-olsun,
Borclu olduğu tək hərəkət etsin.
Əgər belə olsa, ikimiz artıq,
Hərə öz əhdinə sadiq olarıq.

Don Aryas

Bunları krala söyləyərəm mən.

Don Pedro

Eh, Sanço de Ortis, yaxşı bilin, siz,
Ağılsız hərəkət eyləmişsiniz.
İndi də ağlınız heç yoxdur, əsla!

Farfan

Sevilya şəhrinin pak şurasına
Təhqir söyləməklə, öz ömrünüzü
Amansız qanuna tapşırırsınız.
Ədalət də sizə qarşıdır yalnız.

Don Pedro de Qusman, Farfan de Ribera və don Aryas gedirlər.

ÜÇÜNCÜ SƏHNƏ

Don Sanço Ortis, Klarindo.

Klarindo

Necə dözürsünüz bu təhqirlərə?

Don Sanço

Qoy məni, insanlar gömsünlər yerə!
Mənə cəza versin qoy bu səmalar,
Başlanır günahın cəzası, aşkar:
De, eşidirsənmi? Eşidirsənmi?
Başımın üstündə qopur tufanlar,
Şimşəklər gurlayır, çağlayır ruzgar,
Mənə hücum edir ilanlar kimi,
Müdhiş bir alovla yandırır məni...

Klarindo (*kənara*)

Ağlını itirmiş, o, divanə tək,
Gərək kömək edəm ona mən, gərək.

Don Sanço

Aman, alışıram!

Klarindo

Yanıram, aman!

Don Sanço

Dəydi sənədəmi bu atəş, söylə?

Klarindo

Bəli, o yandırdı, yaxdı məni də...

Don Sanço

Ah, Allah, kömək ol!

Klarindo

Ah, senyor, aman!
Mən də saman kimi lap alışıram!

Don Sanco

Bəli. Artıq başqa dünyadayam mən.

Klarindo

Başqa dünyada yox, cəhənnəmdəsən!

Don Sanço

Niyə cəhənnəmdə? De, Klarindo?

Klarindo

Çünki həmin qala cəhənnəmdir o...

Don Sanco

Doğrudur, hamımız cəhənnəmdəyik.
Bu qorxunc cəhənnəm keşməkeşində,
Hamı həlak olur alov icində.
Bütün bu lovğalar... Bu qiyamçılar...
Bir şöhrət üzündən düşmüşdür onlar –
Bu atəşlərlə dolu cəhənnəmlərə...

Klarindo

Burda dərzilər var, sürücülər var...

Don Sanço

Əgər sürücülər yaxşı sürürsə,
Onlar məhv eyləyər cəhənnəmləri...
Yaxşı, əgər bura cəhənnəmdirsə,
Nə üçün görmürük bəs hakimləri?

Klarindo

Onları qoymurlar, qoysalar fəqət
Burda da məhkəmə qurarlar, əlbət.

Don Sanço

Məhkəmə yox isə burada gerçək,
Eləsə, cəhənnəm yaxşıdır, demək.

Klarindo

Yaxşıdır?..
Burda hökmdardır yalnız bir şərəf,
Bir də xeyli axmaqlar var ki,
Bu şərəf üzündən çəkir əziyyət.

Don Sanço

Bəli, qoşuluram mən də onlara!
Ey şərəf! Çox nəcib, ağılsız bir şəxs,
Bir kölə olaraq qanunlarına,
Sənə bir xidmətmi eyləyə bilməz?
– Çox pis davranırsan mənimlə, dostum...
Bizim zəmanədə şərəf, bil, fəqət
Andı unutmaqdır, pozmaqdır, əlbət.
Sən, burda de, məni nə axtarırsan?
Mən çoxdan ölmüşəm, bir cəsədəm mən...
Ölümdən keçmişdir neçə əsrlər...
Yaxşısı budur ki, get sən pul axtar.
Puldur, puldur, ancaq şərəflə namus!
Sən nə eyləmisən?
Birdi məqsədim:
Andımı mən icra etmək istədim.
Anda sadiq olmaq? Ağılsız, axmaq!
Bizim zəmanədə andı unutmaq
Ən nəcib bir işdir, yaxşıca bil sən.
Adam öldürməyə and içmişdim mən,
Dostumu öldürdüm sərsəmliyimdən.
Pisdir, çox pis işdir!..

Klarindo

Hə, yaxşı deyil.

Don Sanço

Əlbəttə, dəlidir, nə deyim ona!
Onu salmaq gərək, dərhal zindana!
Məhv etdim bacını, qardaşını da,
Özüm-özümü də həlak etdim mən.
Bax, əzab çəkirəm! Bu, birdir daha!

Klarindo (*kənara*)

Aman, ey Allahım! Onun bu müdhiş,
Sərsəmliyinə mane olmasam,
Ağlını itirər, itirər tamam.
Mən gərək dağıdam onun fikrini.

(*Hürür.*)

Don Sanço

Burda hürən kimdir? Söylə görək bir.

Klarindo

Hürən, mənfur köpək Serberdir, odur,
Bu gözəl sarayın keşikçisidir.
Söyləyin, siz məni tanımırsınız?

Don Sanço

Deyən tanıyıram.

Klarindo

Bəs siz kimsiniz?

Don Sanço

Namuslu adam.

Klarindo

Bəs siz burada
Nə eyləyirsiniz? Çıxın kənara!

Don Sanço

Sən nə danışırsan?

Klarindo

Çıxın kənara!
Bura yeri deyil namusluların!
Tez olun, tez olun, tez tutun bunu,
Canlılar içinə bunu aparın,
Bizim Sevilyada zindana birbaş!
Aparın, aparın yeldən sürətli!
Necə?
Gözlərini bağlayın onun,
O getdiyi yerə qorxusuz uçsun.
Bax, bax, bağladınız, o uçur guya...
Onu, axsaq şeytan düz Sevilyaya,
Dərhal aparacaq çiyinlərində.
Yola düş daha...
Atarsan yolda...

(*Sançonu buraxır.*)

Yenə də Allahın dünyasındasız.
Allah amanında qalın artıq siz.

Don Sanço

"Allah amanında?" – beləmi dedi?

Klarindo

Bəli, əlbəttə!
Bir vaxt həmin şeytan dinə gəlibmiş.

Don Sanço (*ayılır.*)

Deyin, mən hardayam? Mən kiməm? Nəyəm?
Sərsəmləmiş idim, deyən, doğrudan,
Mən sayıqlayırdım, ayıq olarkən...
Amma mən özümə gəlirəm daha...
Allah! Köməyim ol! Eh, Estrelya!
Həlak eyləmişəm mən səni, bəli,
Məni amansızca edam etməli!

DÖRDÜNCÜ SƏHNƏ

Əvvəlkilər, həbsxana rəisi və plaşa bürünmüş Estrelya.

Estrelya

O məhbus, tez mənə verilməlidir.

Rəis

Buyurun, senyora! Budur o məhbus,
Kralın əmriylə, o, hökmünüzə
Dərhal veriləcək. Don Sanço Ortis!
Böyük kralımızın əmriylə indi,
Siz bu senyoranın hökmündəsiniz.

Estrelya

Ey möhtərəm senyor, gəlin ardımca.

Don Sanço

Ölüm gəlmiş isə, mənimçin, daha
Təşəkkür edirəm belə bir lütfə.

Estrelya

Verin əlinizi, gedək mənimlə.

Klarindo (*kənara*)

Görən necə işdir bu sehrkarlıq?

Estrelya

Heç kəs arxamızca gəlməsin artıq!

Klarindo

Baş üstə, senyora!

Estrelya və Don Sanço gedirlər.

Lənət şeytana!

Klarindo

Sevilyadan uçub yenə də düşdük,
Cəhənnəmin müdhiş od qaynağına!
Allah! Yalvarıram, elə eylə ki,
Gözəl Estrelya, bu don Sançonun
Uğurlu yol verən ulduzu olsun!

SƏHRA

Plaşa bürünmüş Estrelya, don Sanço Ortis.

Estrelya

Ey Sanço de Ortis, siz azadsınız!
Gedin, qarşınızda maniə yoxdur.
Şəfqətli qəlblərin verdiyi gözəl,
Ən gözəl nəsihət elə, bax, budur.
Allah amanında! Yollar açıqdır.
Artıq azadsınız. Deyin, görüm siz,
Niyə getmirsiniz? Nə gözləyirsiz?

Don Sançо

Senyora, mən sizin hüzurunuzda!

Estrelya

Gedin, bircə an da durmayın, əsla!

Don Sançо

Belə keşməkeşdə mən necə gedim?
Mənə kömək edən, deyin, kimdir, kim?
Mənə incə bir səs xoş azadlıqdan,
Çox gözəl xəbərlər yetirir bu an.
Kimə minnətdaram, söyləyin, kimə?
Kimdir azadlığı qaytaran mənə?

Estrelya

Sizin xeyrinizi istəyən insan.
Mən, öz ürəyimlə, öz iradəmlə,
Sizi qurtarıram zindandan bu an.
Allah amanında! Vaxtdır, gediniz!

Don Sançо

Mən, hələ bilməmiş, axı kimsiniz –
Heç yerə, heç yana getməyəcəyəm.
Mənim zəncirimi vurub qıranı,
Mən tanımalıyam həmin insanı.

Estrelya

İndi vaxtı deyil...

Don Sançо

Bilməliyəm ki,
Kimə olmalıyam, kimə minnətdar?
Mənim həyatımda kimdir xilaskar?

Onu tanıyarkən, o zaman, o dəm,
Nə gücüm vardırsa, hər şey eylərəm.

Estrelya

Qoy olsun! Sizə öz qəlbini verən,
Və sizdən müdhiş bir yamanlıq görən
Qadın xilas edib... Qaçın, durmayın.

Don Sançо

Yox, yox, siz kimsiniz? Bir deyin aydın?
Yoxsa mən buradan getmərəm əsla!

Estrelya

Yaxşı, mən bununçun...
(*Üzünü açır.*)

Don Sançо

Ah, Estrelya...
Sən! Sən! Ey qəlbimin parlaq *ulduzu!*

Estrelya

Məndə sən taparsan ancaq ulduzu!
Bəli, mən hakiməm sənin ömrünə!
Mən bir ulduz kimi hökm edib, yenə,
Səni aparıram səadətlərə...
Çıxılmaz kədərdən, ölümdən belə
Mənim ehtirasım daha güclüdür.
Mən səni sevirəm, sevirəm müdam,
Yol göstərən *ulduz* mən olacağam.

Don Sançо

Ey nurlu, şəfəqli! Tanrı kimi sən
Yerdə yox, göylərdə hökm eyləyirsən.

Mənə mərhəmətli olursan bu an,
Sən öz düşməninə verirsən aman...
Gərək deyil! Mənlə qəddar ol, əlbət,
Ölümdən betərdir belə mərhəmət.
Edam – ruhum üçün bir mərhəmətdir...
Necə? Mənə lənət demirsən məgər?
Əmr eylə, qoy məni tez öldürsünlər!
Ey mənim gözəlim! Mərhəmətinlə,
Bu böyük ruhunla, bu şəfqətinlə
Mənə əzab vermə! Keçmə təqsirdən,
Sənin qardaşını öldürmüşəm mən,
Müqəddəs dostluğa bir cavab budur:
Mənim yaşamağa heç haqqım yoxdur!
Olüm nemət olsun! Əsil dostunu
Belə amansızlıqla məhv eyləyənə...
Sən mənə aman ver, aman ver, amma,
Qoy bir anda girim ölüm qoynuna...
Omrümü mən sənə bəxş edim, yaşa!

Estrelva

Sənin bu eşqindən mənimki daha,
Daha qüvvətlidir. Belə yaşa sən,
Sənə yaşamağı bəxş edirəm mən.

Don Sanço

Sənin hədiyyəni, böyük həvəslə
Qəbul edirəm ki, qaytarım sənə.
Sən özün-özünə sadiqsən yenə,
Sadiq olacağam mən də özümə.

Estrelya

Bəs niyə sən ölüm istəyirsən, de?

Don Sanco

Bu, intiqamdır.

Estrelva

Kimdən?

Don Sanco

Özüm-özümdən...

Estrelva

Bu ki qəddarlıqdır, daha bəsdir, bəs...

Don Sanço

Əvəzə-əvəz...

Estrelya

Bunda məna yoxdur!

Don Sanço

Bunda sevgi var.

Estrelya

Sən mənə amansız əzab verirsən.

Don Sanço

Yox, səni hüdudsuz sevməkdəyəm mən.

Estrelya

Burda nə sevgi var? Cavab ver görək.

Don Sanço

Sevgi ondadır ki, istərəm ölmək...

Estrelya

Sən mənə çox əzab verirsən daha...

Don Sançо

Bəli, varlığımla, yaşamağımla!

Estrelya

Bir mənə qulaq as.

Don Sançо

Yox, bir kəlmə də!

Estrelya

Haraya gedirsən?

Don Sançо

Bir baş ölümə!
Cani həyatımla, ömrümlə bu dəm,
Mən səni təhqirə cürət etmərəm!

Estrelya

Tez, qurtar özünü.

Don Sançо

Yox, yox, heç bir vaxt!

Estrelya

Yalvarıram, get!
Hələ qabaqdadır azadlıq, həyat!

Don Sançо

Mənim haqqım yoxdur onları alım.

Estrelya

Bəs ölüm nə üçün?

Don Sançо

Qəhrəmanlığım.

Estrelya

Qəddarlıqdır bu.

Don Sançо

Namus borcumdur.

Estrelya

Cəlladın kimdir ki?

Don Sançо

Sənin nifrətin.

Estrelya

O, yoxdur, yoqin.

Don Sançо

Məni cəhd eyləmə inandırmağa,
Mən sərt qayadan da sərt olacağam.

Estrelya

Ağlını itirdin, belə görünür...

Don Sanço

Şərəf mənim üçün daha üstündür!
Mən vidalaşıram ömrümlə, əlbət.

Estrelya

Öl, öl, ey ağlını itirmiş adam,
Mənə də ölümdür, ölümdür qismət!

Hərəsi bir yana gedir.

SARAYDA SALON

BİRİNCİ SƏHNƏ

Kral, Don Aryas.

Kral

Nə oldu? Hakimlər bilmədilər ki,
Neçün öldürülmüş Tabera Busto?

Don Aryas

Özünü günahkar bilir yalnız o...
Möhkəmdir, möhkəmdir o, qayalardan...
Bircə söz söylədi bizim qəhrəman:
Yerinə yetirmiş o, öz borcunu,
Bir də gözləyir ki, təhrik edən şəxs,
Etiraf eyləsin tezliklə bunu...

Kral

Qalib gəlmək istər öz susmağıyla.

Don Aryas

O, artıq çatmışdır öz arzusuna...

Kral

Bəli. Öz əhdini yetirmişdir o,
Mənəsə ayıbdır, ayıbdır mənə...
Axı mən qızışan, alışan dəmdə,
O xoş sözlərimi, vəd etdiyimi
Yerinə yetirə bilmirəm.

Don Aryas

Niyə?
Adi adamlarcın sözlər adidir.
Lakin hökmdarın dodaqlarından –
Çıxan söz qanundur, qanundur, bəli,
Onun qarşısında diz çökür insan.

Kral

Qanun, idrak ilə dostluq edirsə,
Bu, bir həqiqətdir.

Don Aryas

Bəli borcdur bu...
Deyin, kim söyləməz belə bir sorğu?
Başqa söz nə gərək, belədir, əlbət,
Gərək fikr etməsin heç vaxt rəiyyət,
Gərək tabe olsun uca qanuna,
Hər şeyi eyləsin fikirləşmədən
Belə tələb edir vəzifə sizdən.
Hakimi-mütləqdir, bəli, hökmdar.
Madam ki, sizi bir təhqir edən var,
Bu ölüm üstündə sizi heç bir kəs
Əsla cürət edib müqəssir bilməz.

Kral

Yəni, doğrudanmı, iqrar edim mən,
Ki, onu bu qətlə məcbur etmişəm?
Günahsız bir şəxsin qətlinə fərman
Verib öldürmüşəm, etmişəm qurban?

Əgər bilsələr ki, mənəm günahkar,
Sevilya şəhrində nə danışarlar?
Deyil Kastilyada, bütün cahanda
Mənə küfr edərlər bütün hər yanda!
Nə gözəl meydandır düşmənlərimə!
Mənim bacım oğlu, mənim özümə
Cəllad deyir çoxdan! Alonso isə,
Hökmranlıq edir bütün Romaya!
Yox, mənə onlardan bir kömək olmaz.
Müqəddəs ata da onlara qahmar
Olarsa, birləşib üsyan qaldırar,
Tamam puç edərlər arzularımı.
Ancaq Ortisi də edam eyləmək,
Ən böyük alçaqlıq, pislikdir, demək.
Bəs, indi neyləyim?

Don Aryas

Hökmdar! Sürgün!
Bütün alkadları çağırın bu gün,
Onları xoş sözlə dilə tutun siz,
O cinayət üçün edam yerinə
Ölümü sürgünlə əvəz ediniz.
Bu işdən namusla siz çıxarsınız.
Ona qızıl verin, çox verin yalnız.
Uzaq ölkələrdə, yeni həyatda
Mərdliyi özünə bir çələng olsun.
Bilsin şan-şöhrətin təntənəsini,
Başqa bir ölkənin sərhədlərinə,
Siz onu, ey kral, sərkərdə qoyun.

Kral

Bəli, sən haqlısan, borcludur onlar...
Mənim əmr etməyə ixtiyarım var!
Amma bir qorxu var... Öz üzüyümü
Mən Estrelyaya verdim o günü,

Bəlkə, son anını yaşayır Sançо?
Bəlkə də, Sançonu öldürmüşdür o?

Don Aryas

İnanın, hər bir iş düzələr bu dəm,
O qızın ardınca indi gedərəm.
Onu mən buraya gətirərəm tez,
Sançonu ölümdən qurtararıq biz.
Belə olacaqdır, əmin olunuz,
Onu, xoş dil ilə yumşaldın, ancaq
Onun bir əyana ərə getməyi
Ən gözəl mükafat, peşkəş olacaq.

Kral

Məni didib tökür, peşmanlıq, kədər,
Bu nə zəiflikdir!.. Bir müdrik həkim
Doğru söyləyib ki, yerində həlim,
Yerində amansız olan aqildir.
Lakin mən zəifəm, deyim düzünü,
Bəlaya salmışam özüm-özümü.
Tez ol, yanına get, sən o gözələ
De, gözləyir onu hörmət, məhəbbət,
Şan-şöhrət, nikah! Bir ulduz kimi,
Yenə parlayacaq, yanacaq, əlbət.
Əgər ki, olsaydı gücüm, əlacım,
Mən ona verərdim bu taxt-tacı!..
Bacının, qardaşın, bil ki, əlbəttə,
Bəli, haqları var əbədiyyətə.

Don Aryas (*pəncərəyə baxaraq*)

Sarayın önündə nə qədər xalq var!
Bütün keçidləri doldurmuş onlar!

(*Gedir.*)

İKİNCİ SƏHNƏ

Kral, həbsxana rəisi.

Rəis

Hökmdar! Öpürəm qədəminizi.

Kral

Ey don Pedro Kaus, söyləyin, nə var?
Nədir sövq eyləyən hüzura sizi?

Rəis

Hökmdar, bu sizin üzüyünüzdür,
Üstündə də möhür, elə devilmi?

Kral

Bəli, onu mənə göstərənlərə
Lütflər edirlər hər an, hər dəfə.

Rəis

Bununla bir xanım gəldi zindana.
Qara plaşdaydı o, başdan-başa.
Söylədi siz belə əmr etmisiz ki,
Gərək ona verək Sanço Ortisi.
Ordakı başçılar, söyləyim düzü,
Sizin tanıdılar, üzüyünüzü –
Mənə də məsləhət etdilər dərhal.
Sançonu tez verim. Mən verdim onu,
O xanım, özüylə apardı getdi.
Bu işdən heç bir az keçməmişdi ki,
Don Sanço qayıtdı dəlilər kimi,
O, bar-bar bağırdı: Rəhm istəmirəm!
Məni, mən canini öldürün bu dəm!

Mən onu buraxmaq istəmirdim, yox,
Lakin elə hay-küy qaldırdı ki, o,
Açdım qapıları onun önünə.
İndi, o yenə də ah, zindandır,
O, ölüm gözləyir məmnuniyyətlə.

Kral

Gör necə insandır sevilyalılar!
Alicənabdırlar! Satılmaz onlar!
Daha möhkəmdirlər tuncdan, mərmərdən.

Rəis

Senyoradan belə eşitdim ki, mən,
Don Sanço Ortisin gəlmiş yanına
Ki, ona azadlıq təklif eləsin.
O, öldürdüyünün bacısındansa,
Azadlığı qəbul etmədi əsla.

Kral

Heyrətə düşürəm! Bu sözüm haqdır:
O insan, doğrudan alicənabdır!
Qız intiqam almır, azadlıq verir,
Sanço isə, bunu rədd edib artıq,
Tək ölüm istəyir. Həyatda, yəqin,
Onların bu işi uzun sürərsə,
Mütləq yazılacaq əbədiyyətin
Baş səhifəsində! Durmayın indi,
Don Sanço Ortisi çox məxfi, gizli,
Tamam səssiz-küysüz, keşikçilərsiz,
Mənim karetamda, mənim yanıma
Gedin, yubanmadan gətiriniz siz.
Bu işi tez edin, tez edin, dərhal.

Rəis

Baş üstə, kral.

(Gedir.)

ÜÇÜNCÜ SƏHNƏ

Kral, xidmətçilər, sonra isə don Pedro de Qusman və Farfan de Ribera.

Xidmətçi

Hökmdar!
Rəislərdən iki nəfəri
Rica edirlər ki, qəbul edəsiz.

Kral

Çağır, gəlsinlər.

Xidmətçi gedir.

Mən, əgər bacarsam, aydındır,aydın,
Sözümü yerinə tez yetirərəm.
Lakin bircə bu sirr, bir sirr olaydı!

Don Pedro de Qusman və Farfan de Ribera gəlirlər.

Don Pedro

Hökmdar!
Həmin o günahı təsdiq etdik biz,
İndi gərəkdir ki, hökm eyləyəsiz.

Kral

Siz ey bu Vətənin pak ataları,
Özünüz düşünüb verin qərarı:
Yadda saxlayın ki, aman, mərhəmət
Ədalətli hökmə zinətdir, zinət.
Öldürdüyü şəxs də, Ortis özü də,
Siz bu həqiqətə diqqət edin bir,
Bizim Sevilyanın cəngavəridir.
Tabera intıqam tələb etsə də,
Ortis də layiqdir hər cür şəfqətə.

Farfan

Bütün Sevilyanın rəisləri tək,
Onun şərəfini bizlər də gərək
Daim hifz eləyək, daim qoruyaq.
Bizim əlimizdə olan bu əsa
Sizin hökmünüzün rəmzidir ancaq.
Əgər həmin rəmzi təhqir eyləsək,
Təhqir eyləyərik surətinizi.
Bu xaçlı əsalar ucalsa əgər,
Daim qarşısında tanrını görər.
Əgər əsaları əyəriksə biz,
Yeri və insanı görər gözümüz,
Çox, çox uzaq düşər o, səmalardan.

Kral

Rica etmirəm ki, əyilsin bir an,
Yalnız məhkəmədən bircə ədalət,
Ədalət istərəm.

Don Pedro

Böyük hökmdar!
Bizim ya sizin iş – birdir, nə fərq var!
"Belə olacaqdır" söyləsəniz siz,
Bu əmrə bağlıdır ümidlərimiz.
Siz ona, buyurun, həyat lütf edin.
Əlbəttə, ölməz o, yaşayar, yəqin.
Heç kəs hökm edəməz hökmdarlara,
Allah lütf etmişdir hökmü onlara.
Dəhşətli Sauldan alıb çələngi
Zavallı Davidin başına qoymaq,
O qadir Allahın işidir ancaq...

Kral

Hökmü fikirləşin, günahınısa,
Görün ki, yumşaldan nə dəlillər var.

Onu, bundan sonra edam ediniz.
Don Pedro, mən sizdən rica edirəm,
Məni ayrılıqda dinləyəydiniz.

Farfan de Ribera gedir.

DÖRDÜNCÜ SƏHNƏ

Kral, don Pedro de Qusman.

Don Pedro

Sizə nə gərəkdir böyük hökmdar?

Kral

Yazıq Taberanın dostunu, gerçək,
Sançonu, siz əgər edam etsəniz,
Bununla Tabera dirilməyəcək.
Yeni bədbəxtlikdən qurtarmaqçın mən,
Arzu edərdim ki, onu ölümdən
Qurtarıb, məhkəmə qoy sürgün etsin,
Sançe Qrenadaya sürgünə getsin,
Ya Cəbəlüttariqə onu göndərin,
Mənim əmrimdəki mərd əsgərlərin
Qoy sıralarında olsun qəhrəman.
Yusun günahını, keçsin canından...
Siz mənim fikrimə nə deyirsiniz?

Don Pedro

Hökmdar, hər zaman əmrindəyik biz,
Mən öz qılıncımı, var-dövlətimi,
Ömrümü atıram ayağınıza!

Kral

Don Pedro, yaxın gəl, məni qucaqla!
Sənin böyük, ülvi, gözəl qəlbindən
Başqa bir cavabı gözləmirdim mən.

İndisə, mən sizdən edirəm rica.
Farfan Riberanı göndərin bura.

(*Kənara*)

Bəli, hər xoş sözün bir hikməti var,
Dağları yerindən oynatmaq olar.

Don Pedro de Qusman gedir.

BEŞİNCİ SƏHNƏ

Kral, Farfan de Ribera.

Farfan

Hökmdar, mən sizin hüzurunuzda!

Kral

Yaman dərdlənirəm, Farfan Ribera!
Öləcəkdir igid Sançe de Ortis.
Mənim bu fikrimə nə deyirsiniz.
İstərdim ki, onun qətli sürgünlə
Əvəz ediləydi. Ölümdən belə
Bu sürgün ağırdır! Fikr edin, ancaq
Necə söyləsəniz, elə olacaq.

Farfan

Siz mənə versəniz hər hansı əmri,
Yoxdur ixtiyarım, mən bəhsə girəm.
Mən sizə hər zaman sadiq nökərəm.

Kral

Bizim ömrümüzə şuxluq bəxş edən,
Qəhrəmanlıq budur! Gedin, tez gedin!

Faran de Ribera gedir.

ALTINCI SƏHNƏ

Kral təkcə.

Kral

Gözəlcə apardım, bəli, bu işi...
Ortisi qurtardım müdhiş ölümdən.
Bəli, bununla da, bilmədən heç kəs,
Yerinə yetirdim öz vədimi mən...
Ona, bir mənsəb də edərəm əta,
Həmin bu sayaqla mən o sürgünü
Dərhal döndərərəm bir mükafata.

YEDDİNCİ SƏHNƏ

Kral, don Pedro de Qusman, Farfan de Ribera.

Don Pedro

Hökmdar, o hökmə biz imza atdıq.
Bir sizin imzanız qalıbdır artıq.

Kral

Ey nəcib senyorlar, inandım daha
Sizin verdiyiniz ədalətli hökm,
Düz gəlir istəyim, arzularımla.

Farfan

Sizin qanunuz – şərəfimizdir.

Kral (*hökmü oxuyur.*)

"Belə bir qərara gəlmiş məhkəmə,
Şəhər meydanında, xalqın önündə
O Sançо Ortisin başı kəsilsin".
Budurmu son, qəti hökmünüz sizin?
Bəs mənə – krala verdiyiniz söz ?
Qəddarlar! Bələmi icra olundu?
Aman, nə işdir bu...

Farfan

Vəd etmişdik ki,
Malikanəmizi, həyatımızı,
Sizə qurban verək, böyük hökmdar!
Lakin bu hakimlik əsası ki var,
Ona heç bir insan hökm edə bilməz.
Nə yerlər, nə də ki bu uca göylər,
Bizi ədalətdən sarsıda bilməz.

Don Pedro

Biz sizə tabeyik, nökərik, ancaq
Hakim tək kimsəyə satılmarıq biz.
Bizim qarşımızda haqsız bir işçün
Əsla inad ilə bəhs etməyin siz.
Yol verə bilmərik heç bir yalana...
Əsamızı rüsvay etmərik əsla.
Sevilya şəhrinin şurası, ancaq
Özü öz əhdinə sadiq qalacaq...

Kral

Yaxşı, daha bəsdir! Verin bir aman!
Çox utandırdınız, məni, çox yaman!

SƏKKİZİNCİ SƏHNƏ

Əvvəlkilər, don Aryas və Estrelya.

Don Aryas (krala)

Budur, Estrelya.

Kral

Ah, ey Don Aryas,
Təşviş içindəyəm, de, neyləyim bəs?

DOQQUZUNCU SƏHNƏ

Əvvəlkilər, həbsxana rəisi, don Sançо Ortis və Klarindo.

Rəis

Hökmdar, burdadır Don Sançо Ortis.

Don Sançо

Mənim əzabımı, hökmdar, söylə,
Neçin qurtarmırsan, söylə, ölümlə?
Məni cani kimi edam etmirsən?
Tabera Bustonu mən öldürmüşəm,
İndi də, sən məni öldürməlisən.
Sənə yalvarıram, bir lütf eşqinə,
Ədalətli hökm yetsin yerinə.
Ölümə layiqdir, əlbəttə, cani.

Kral

Bir dayan! Sənə kim əmr verdi ki,
Həmin ağır qətli icra edəsən?

Don Sançо

Əlimdə bir əmr var idi yalnız.

Kral

Söylə, o, kimdəndi?

Don Sançо

Əgər o kağız
Danışa bilsəydi, cavab verərdi,
Lakin cırılmışdır dediyim fərman...
Onu tapmaq olmaz heç vaxt, heç zaman...
İndi nə söyləyim, nə deyim sizə?
Deyim ki, içdiyim o anda görə,
Dostumu öldürdüm, bəli, dostumu...
O, mənim ən gözəl dostum olsa da...
Budur, Estrelya hüzurunuzda...

Onun qardaşına əvəz olacaq,
Qoyun mən könüllü ölümə gedim.
Amma bu, yenə də yaman azdır, az...

Kral

Sizi, Estrelya, bizim saraydan
İgid bir əyanla nişanlamışam.
O, gəncdir, gözəldir, cəsurdur tamam,
Özü də Kastilya prinslərindən...
Sizdən bir ricam var, Ortisə yalnız,
Bu ağır günahı bağışlayınız.
Kral ricasını, əminəm ki, siz,
Durmadan yerinə yetirərsiniz?

Estrelya

Mənə ləyaqətli bir ər versələr,
Ey Sançо de Ortis, siz azadsınız!
Artıq əl çəkirəm öz qisasımdan.

Don Sançо

Deməli, hökmdar səni əyana
Ərə verdiyiyçin bağışlayırsan?

Estrelya

Bəli, mən bununçun bağışlayıram.

Don Sançо

Deməli, intiqam almışsan artıq?

Estrelya

Mən bundan razıyam.

Don Sançо

Ah, neyləməli...
Deməli, yerinə yetdi istəyin,
Əvvəl ölümdüsə arzum-diləyim,

İndi yaşamağa razıyam, bəli.

Kral

Ey Sanço de Ortis, azadsız daha!

Farfan

Hökmdar, hökmdar! Bu işdən həzər!
Təşvişə düşəcək bütün Sevilya!
Mütləq ölməlidir Don Sanço Ortis.

Kral (*Don Aryasa*)

Mənim ürəyimdə bunlara fəqət,
Həm qorxu, həm kin var. Bir məni öyrət,
Mən indi neyləyim?

Don Aryas

Hər şeyi deyin.

Kral

Sevilya! Düzünü deyim sənə mən:
Bəli, məni edam sən etməlisən!
Bil ki, mənəm, mənəm onun qatili!
O, günahkar deyil. Bu, bəs deyilmi?

Don Sanço

Elə mən tək bunu gözləyirdim ki,
Bütün hərtərəfli təmizə çıxım.
Mənim padşahım əmr eylədi ki,
Gərək mütləq onu öldürəm, yoxsa
Mən bu cinayəti etməzdim əsla.

Kral

Mən təsdiq edirəm, doğrudur tamam.

Farfan

Sevilya şəhrinin əhalisinə,
Bu xəbər çox aydın çatdırılacaq.
Əgər bir səbəbi, dəlili yoxsa,
Adam öldürtməzdi hökmdar əsla!

Kral

Sevilyalıların nəcabətinə,
İnanın, inanın təzim edirəm.

Don Sanço

Əgər siz, o biri əhdinizi də
Ey kral, yerinə yetirsəydiniz,
Hazıram sürgünə getməyə mən də.

Kral

Hə, məmnuniyyətlə.

Don Sanço

Mənim sevdiyimi, söz vermişdiniz,
Mənə verəsiniz.

Kral

Əmin olun siz.

Don Sanço

Yalvarıram, verin Estrelyanı,
Düşərək mən onun ayaqlarına,
Yalvarıram mənə aman veriniz.

Estrelya

Ey Sanço! Mən artıq azad deyiləm!

Don Sanço

Nə? Azad deyilsən?

Estrelya

Bəli.

Don Sanço

Ölərəm!

Kral

Mən verdiyim sözü – əmin olun siz,
Ey Sanço, yerinə yetirməliyəm.

(*Estrelyaya*)

Siz mənim sözümə nə deyirsiniz?

Estrelya

Əbədi eşq ilə sevirəm onu.

Don Sanço

Əbədi eşq ilə sevirəm mən də.

Kral

Eləsə çatmayan, deyin, nədir, nə?

Don Sanço

Sizin rizanızı gözləyirik biz.

Estrelya

Xoş keçməz heç bizim güzəranımız.
Mənim qardaşımı öldürən şəxslə
Ömrümü-günümü bölmərəm, əsla!
Sənə qaytarıram sənin özünü!

Don Sanço

Bəli, anlayıram sənin sözünü.
Sənə qaytarıram sözün düzünü!

Mənim sevgilimin qardaşını mən,
Mənim öz dostumu öldürdüyümdən,
Bacısını alsam, namərd olardım.

Estrelya

Deməli, azadıq ikimiz daha!

Don Sanço

Bəli, bu, belədir.

Estrelya

Onda, əlvida!

Don Sanço

Məni bağışla!

Kral

Bir azca dayanın! Bir fikirləşin!

Estrelya

Hökmdar, sevsəm də onu ürəkdən,
Çox uca tutsam da əgər onu mən,
Qardaşım qatili bir şəxslə heç vaxt,
Mən ola bilmərəm əsla ər-arvad.

(*Gedir.*)

Don Sanço

Hökmdar! Mən onu sevirəmsə də,
Verdiyi bu qərar acı isə də,
Etiraf edirəm haqlıdır, bəli!

(*Gedir.*)

Kral

Nə böyük nəcabət, alicənablıq!

Don Aryas

Ruhun möhkəmliyi həddindən artıq!

Klarindo (kənara)

Ancaq mənə qalsa ağılsızlıqdır!

Kral

Nə gözəl, nə nəcib insandır bunlar!

Don Aryas

Bəli, Sevilyadır onlara diyar!
Ancaq həmin qıza mən bir yaxşı ər,
Sançoya bir gözəl qız tapacağam.

Klarido

Bizim Sevilyanın pak ulduzunu
Adlı-sanlı Lope vəsf edib, onu
Çatdırmış əbədi şana-şöhrətə,
Sanki tunc lövhələr üstə həkk edib,
Bəxş etmiş yadigar əbədiyyətə.

Valensiya divanları

İŞTİRAK EDƏNLƏR:

Floryano	
Valerio	
Reynero-prins	
Erifila	
Xerardo	– dəlixana rəisi
Fedra	– Xerardonun qardaşı qızı
Laida	– Fedranın qulluqçusu
Verino	– həkim
Leonato	– Erifilanın nökəri
Pisano	– nəzarətçi
Tomas	
Martin Belardo	
Mordaço	
Kalandrio	
Liberto	– yasavul
Dəlilər	
Dəlixanaya gələnlər	

Hadisə Valensiyada baş verir.

BİRİNCİ PƏRDƏ

VALENSİYA YAXINLIĞINDA, DƏLİXANANIN YANINDA KİÇİK BİR MEŞƏ

BİRİNCİ SƏHNƏ

Valerio, Floryano

Floryano

İndicə buraya gəlib çatmışam.

Valerio

Floryano, ah!
Simanız dəyişmiş, ah, Allah! Nə var?
Sizə nə olmuşdur? Bu görkəminiz...
Doğrusu, ölüdən betərsiniz siz...

Floryano

Verin əlinizi, xilaskar olun!

Valerio

Xilaskar?

Floryano

Bəli. Hamısını danışaram mən.

Valerio

Axı nə olmuşdur? Sizin şübhələr...

Floryano

Ah, dostum Valerio, nədir bu günlər!..
Mən...

Valerio

Siz?

Floryano

Mən...

Valerio

De görək!

Floryano

İntiqam gözləyir məni,
Mən... Mən... Öldürmüşəm...

Valerio

Kimi?

Floryano

Biz burda təkikmi?

Valerio

Təkik.

Floryano

Öldürdüyüm adam, bədbəxtliyimdən...

Valerio

Bir söylə görək!

Floryano

Hər şeydən qorxuram, bu kölgəlikdə
Gizlənək, hökm edir mənə bu qorxu.
Xəfifcə bir meh də qorxudur məni.

Valerio

Kimi öldürmüsən?

Floryano

Kimi?

Valerio

Aman, nə dəhşət!

Floryano

Arxamca gəlirlər, gəlirlər, yəqin,
Özüm-özümdən də qorxuram indi.

Valerio

Sən canlı meyitsən!

Floryano

Düşmən qılıncından
Məni qurtarınız, həyan olunuz!
Saraqosdan bəri mən piyada, ac,
Dərələr keçmişəm, dağlar aşmışam.
Bir çoban koması olmuşdur evim.
Çobanın verdiyi bir parça çörək
Azuqəm olmuşdur mənim o gündən.
İndi, Valensiyaya gəlib çatmışam,
Çox şükür! Valerio! Mənim əzizim!
Heç evə dəymədim, bərk yorulmuşam...

Valerio

Kimi öldürmüsən?

Floryano

Məni güdmürlər ki?

Valerio

O, zadəganmıdır?

Floryano

Gecə qara, cücə qara...

Valerio

Deməli, etibar etmirsiz mənə?
Yox, tapa bilmirəm başqa bir səbəb...

Floryano

Prins Reynerodur öldürdüyüm şəxs.

Valerio

Ya İsa!

Floryano

Adi kavelyero prins öldürsün –
Nadir hadisədir, elə deyilmi?

Valerio

Mən qorxuram ki,
Sizə heç bir hiylə kömək eyləməz.
Sizin düşməniniz çox qüdrətlidir...

Floryano

Mən qorxaq deyiləm, qorxaq deyiləm,
Lakin qüssə qurdu didir qəlbimi.

Bir təkcə ümidim yalnız siz ikən,
Boğazımda kəndir hiss edirəm mən,
Belə bir vaxtımda, ey əzizim, siz
Yaralı yerimə duz səpirsiniz!

Valerio

Yox, yox, dostluğumuz möhkəmdir yenə.
Floryano, bilin, zalim əlindən
Sizi qurtarmaqçın, öz qanımı da
Tökərdim... İnanın, inanın mənə!
Siz sirr açmadınız dosta boş yerə.
Törətdiyiniz iş dəhşətdirsə də,
Lakin tədbir görmək, əsrlər boyu
Qorxu çəkənlərə müttəfiq olmuş.
Bilmək istəyirəm, prinsi niyə,
Necə öldürdünüz?

Floryano

Prins, bir xanımın evində, mənim
İti qılıncımdan qaça bilmədi.

Valerio

Bu qanlı səhnənin eşqdir səbəbi:
Şər ilə dəmiri itiləyərək,
Bizi qan tökməyə vadar edir o.

Floryano

Qılınclı-qalxanlı, iki nəfərlə
Düşmən addım-addım məni izlədi.
Mən döngəyə keçdim. Mənim ardımca
O düşmən şir kimi nərildəyərək,
Çəkdi qılıncını... Mən də özümü
Qalxanla qoruyub hücuma keçdim.
Bütün qüvvətimi, bütün gücümü

Toplayıb bir anda, üstünə cumdum.
O zil qaranlıqda parlayan qılınc
Sancıldı düşmənin düz sinəsindən.
Bir anda yıxılıb meyitə döndü.

Valerio

Zərbəni nə yaman, möhkəm vurmusan?

Floryano

Vuruşmaq eşqiylə yanırdımsa da,
Bacara bilməzdim o üç nəfərlə,
Üç nəfər, tez üstün gələrdi mənə...
Bəlaya düşəndə hər şeyi duymaq,
Hər şeyi hiss etmək böyük nemətdir.
Duel qaydasını mən dərhal pozub,
İzi itirməkçin qaçdım durmadan.
Belə fəlakətdə, deyin, hansı şəxs,
Kim sudan qupquru çıxmaq istəməz!
Özümə gələrkən düşdü yadıma:
Fəlakətə səbəb olan o adam
Canını verirkən böyük Allaha,
Birdən mənə baxıb pıçıldadı ki,
"Özüm günahkaram, oradır yolum,
Ah, ey bədbəxt Reyne... Gəlmişdir ölüm..."
Bəli, qat-qarışıq yuxudakı tək,
Qılınc bu höcəti belə həll etcək,
Mən qaçıb çox geniş bir yola çıxdım.
Bir yol ayrıcında qanlı qılıncı
Öz qınına qoydum. Bu səhər erkən,
Şəfəq yarpaqlara büllur səpərkən,
Keçdim çox sürətlə mən on mil yolu,
Məni uzaqlara çəkirdi qorxu.

Valerio

Düşmənlər yatmayıb. Olduğumuz yer
Tanınmaz, bilinməz olsaydı əgər,

Kral məhkəməsi sizə dəyməzdi.
Biz, Valensiyadayıq. Sizi güdürlər...
Tanrıya şükür ki, düşmənlər sizi
Taparaq, qələbə çala bilmədi.
O mərdlik, igidlik, o qəhrəmanlıq
Görüm ki, lənətə gəlsin! O, sizi
Qanlı hiylələrə eylədi qurban,
Sizin bu qılıncla qan axıtdı, qan.
Vurmuşsunuz məşhur, bəd düşmənləri,
Çəkilə bilməzsiz bir addım geri.
Floryano, sizə, mehriban dostum,
Köməyə hazıram. Xoşbaxtlıqdan da
Beynimdə min cürə fikir dolanır.
Lakin min-min ağıl, kral hökmünün
Qüdrəti önündə acizdir, aciz...
Necə fikirləşsən, axırı pisdir...
Amma ağlımıza gələn ilk fikir
Bizi fəlakətdən dərhal hifz edir.
Dinləyin, yeganə bir yol var... Ya da,
Yox, bu, gözəl yoldur! Tək çıxış yolu!
Söyləyin bir görək, siz özünüzü
Dəliliyə vura bilərsinizmi?

Floryano

Dəlilik? Bu, mənə kömək edərmi?

Valerio

Yaxşı kömək edər! Olun daş-kəsək...
Yox, yox, özünüzü elə tutun ki,
Sizi hər kəs görsə qoy dəli bilsin.
Bir gözəl yer vardır Valensiyada –
Dəlilər məskəni... Yalnız orda siz
Bircə nicat yolu tapa bilərsiz.
Sizi, cırıq-cındır köhnə geyimdə,
Gülünc bir papaqda, çirkab içində
Görsə, heç kim sizə dəlidir – deməz?
Sizi zorla tutub, özləri hətta,
Salıb saxlayarlar, tənha otaqda!

Floryano

Nə gözəl fikirdir! Sizi mənə baxt
Özü göndərmişdir! Gəl qucaqlaşaq!
Dəlilik zindandan, əlbət, yaxşıdır.
Valerio, tez gedək dəlixanaya!
Mən elə dəlilik eylərəm ki, siz,
Bəli, özünüz də heyrət edərsiz!
Qoy əqlin işığı batsın zülmətə!

Valerio

Məhəbbət baisdir hər müsibətə!

İKİNCİ SƏHNƏ

Əvvəlkilər. gödək plaş və şlyapa geymiş Erifila, uzunboğaz çəkməli Leonato ilə gəlir.

Leonato

Budur, bax, Erifila, bizi cəzb edən
Gözəl divarları Valensiyanın.
Burda deyirlər ki, Venera və Mars
Gözətçisi olmuş vətəndaşların,
Biz indi Kuarte qapısındayıq.
Bax, budur, Turiya, dalğalanaraq,
Verir dənizlərə büllur suları.
Bu – Seoto. Bütün kəlisalardan
Mikalte qülləsi daha ucadır.

Erifila

Doğrudan, elədir, bizə vəd olan,
Həmin bu yerdəki şöhrət, şərəf, şan.
Çox gözəl şəhərdir, xoş görünüşü
Mənim, ömrüm boyu çıxmaz yadımdan.

Leonato

Əlbəttə...

Floryano

Sss... Yavaş, burda adam var.

Valerio

Elədir, gəl gedək.

Floryano

Nolaydı, məni
Bunlardan heç biri tanımayaydı!

Valerio

Gedək, gedək tapaq nəzarətçini,
O, bizi buraxar dəlixanaya.

Floryano və Valerio gedirlər.

ÜÇÜNCÜ SƏHNƏ

Erifila, Leonato.

Erifila

De, bura gəlməkdən sən razısanmı?

Leonato

Əlbəttə, razıyam! Xoş yaşayırlar!
Burada hər bir ev sanki saraydır.

Erifila

Söylə, Leonato, bəs mənim atam,
Görən nə deyəcək qaçmağımıza?

Leonato

Varlı bir əyanın hissi, duyğusu,
Təhqir olunanda nə deyə bilər?
Dedi-qoduları eşitməməkçin
Bir müddət qapanıb qalacaq evdə.
Xain bir nökərlə qaçan qızına
Lənət yağdıracaq...

Erifila

Yox, Leonato,
O, mənə dəlidir, – deyəcək, – dəli...

Leonato

Mən nökər, sən xanım... Səni sevməklə mən,
Mənə gəlməklə sən, dəlilik etdik.
Sən mənə işarə vurma ki, tikan
Heç bir çəmənzarda gül ola bilməz.
İndi mən gördüyün deyiləm sənin.
Mən sənin qanını coşdurmuşamsa,
Bu, o deməkdir ki, eşqin qüdrəti
Nökəri tay etmiş bir senyoraya!

Erifila

Sən mənim sözümü başa düşmədin.
Söhbət məndən gedir, nahaq hirslənmə!

Leonato

Bildim mənasını dediklərinin.

Erifila

Heç mənim sözümdə təhqir vardımı?

Leonato

Oho! Görürəm ki, sən yavaş-yavaş
Mənlə qaçdığına peşman olursan.

Erifila

Yox, haqlı deyilsən. Qəlbimdə coşan
Fırtına önündə sözlər nədir, nə?
Mən, atam evini ataraq, sənə
Qoşulub qaçmışam. Mən öz ömrümü,
Sənə tapşırmışam. Sözdə nə güc var!
Mən pislədimsə də hərəkətimi,
Xəyanət etmədim əsla borcuma.

Lenato

Nökərlə bir xanım arasında eşq,
Bildim, uzun sürməz, anladım, inan.
Görürəm, görürəm, peşman olmusan...

Erifila

Mənmi? Nə deyirsən, nədir bu sözlər!
Axı neyləmişəm? Söylə, sən məyər
Qoşulub qaçdığım nökər deyilsən?
Mən sənin vəfana inanmadımmı?

Leonato

Mən həmin adamam.

Erifila

Əgər belə sə,
Yer qalmır burada heç bir şübhəyə.
Sən mənə özünü tamam başqa cür
Göstərərək, məni aldatmadınmı?
İndi görürəm ki...

Leonato

Məcbur edirsən –
Ki, bu böhtanından qaçıb gedim mən.
İndi mən səni yox, sən məni, inan,
Bircə qara qəpik belə saymırsan.

Erifila

Sən, dəli olmusan!

Leonato

Dəli olmuşdum,
İndi çox təəssüf edirəm buna.

Erifila

Di bəsdir! Mən sənin olmaq istərəm,
İstərəm ki, məni candan sevəsən.
Mən səni nə zaman təhqir eylədim?
Bəli, mən eşqdən dəliyəm, dəli!
Lakin sən bu eşqə nə ad versən də,
Eşq – yenə eşqdir.

Leonato

Buna şübhə yox.
Yaxşı tanıyıram sənin qəbini.

Erifila

Bax, etiraf etdin. Mənim qəlbimi,
Qəlbimdə yaşayan adamdan başqa,
Kim yaxşı tanıyar? Yox, Leonato,
Bəhanə gəzirsən məndən qaçmağa...

Leonato

Sonra? Danış, danış... hiylə torunu,
Yaxşı qur, bunu ki sən bacarırsan.

Təhqir edirsən, et lap sona qədər,
Mənə bundan artıq təhqir neyləyər?
Söylə, indi mənim sifətimdə sən,
Yalançı, riyakar, əclaf görürsən...
De ki, bax, bu oğru, de ki, bu qorxaq,
Səni elə bu gün, bu gün satacaq...

Erifila

Aman! Cəhənnəmin hansı şeytanı
Buna söylətdirir bu xoş sözləri?
Bu alçaq təhqiri dümdüz üzümə,
Sən nə cəsarətlə, de, söyləyirsən?
Söylə, sən uyaraq hansı yalana,
Mənə belə ağır sözlər deyirsən?
Bu müdhiş məqamda, bu fəlakətdə,
Sən mənə yalançı deyirsən hələ?
Yox, yox, sən bunları mənə demirsən,
Gözünə görünən kimdir, görəsən...

Leanoto

Danlağın, töhmətin sonsuzdur sənin.
Yox, bu təhqir deyil, cəzadır, yəqin!
Gəl qəzəblə cümma mənim üstümə,
Mən hələ ağlımı itirməmişəm.

Erifila

Mən belə söz dedim?

Leonato

Dedin.

Erifila

Mən dedim?

Leonato

Bəli. Bir axmaqtək baxırsan mənə,
Məni tay bilmirsən əsla özünə,
Sən mənə, görürəm, buzdan soyuqsan,
Gecəli-gündüzlü biz bir yerdəyik,
Amma sən... hər şeyi unudaraq sən,
Bakirə qızların namus dediyi –
O şeyin üstündə tir-tir əsirsən.
Nə mənim göz yaşım, nə yalvarışım,
Nə də səhralarda çəkdiyim qorxu,
Müqəddəs qapını açа bilmədi.
Hanı, sübut hanı sənin eşqinə?
İndi hər bir şeydən bil, xəbərim var.
Mən yox, ancaq sənsən, sənsən günahkar.
Bir şey olan kimi, hiyləylə mənə
Dərhal gətirirsən min-min bəhanə.

Erifila

Sən mənim eşqimdən, məhəbbətimdən
Çox şey ummursanmı? Axı bir də sən
Mənə ər olmamış, öz namusumu
Tər-təmiz, pak və saf saxlamalıyam.
Yox, yox, Leonato, sən hiyləgərsən!
Bununçun edirsən, məni məzəmmət,
Başqası minnətdar olardı fəqət.
Mən sənə qanuni arvad olmamış,
Sənинlə girsəydim əgər yatağa,
Deyərdin ki: – "Aha! Kəbindən əvvəl,
Mən səni, özümə arvad etmişəm."
Belədir, belədir bütün kişilər,
Min-min göz yaşıyla, min-min yalanla,
Ləzzət çəkirsiniz biz qadınlarla.
Lakin doyan kimi, həmin qadına
Nifrətli sözlərlə damğa basırsız.

Leonato

Çox da doğru deyil dediyin sözlər.
Əgər bir gözələ sən sahib olsan,

Əvvəl yanırdınsa ləzzət çəkəndə,
Daha da alışır, alovlanırsan...
Yox, yox, əsas səbəb bu, deyildir, yox,
Olmaq istəmirsən mənim arvadım,
Bu da ondadır ki, sən məni əsla
Heç kişi saymırsan...

Erifila

Nə danışırsan?
Get gəziş, get gəziş, axmaqlamısan.

Leonato

Bəli, dərdimdən.

Erifila

Mən hiyləgərəm?
Mən səni sevərək, sənинlə birgə,
Arımı, həyamı, namus-abrımı,
Yurdumu, evimi mən atmadımmı?
Qanatma qəlbimin yaralarını!
Arxanca kölgə tək gəzirdim sənin.
İndi öz səhvini başa düşdünmü?

Leonato

Sənin yalanını düşündüm, ancaq.

Erifila

Qürbət bir diyara sevgilisiylə
Qaçmaq, söylə görüm, bir kişi üçün,
Sübut deyildirmi?

Leonato

Mən burda görürəm başqa səbəblər...
Gizlətmə dostundan sən həqiqəti.

Düz söylə, namusla bir etiraf et:
İş, onda deyil ki, məni sevmisən,
Əsil iş budur ki, sənə heç bir kəs,
Etina etmədi, məhəl qoymadı...

Erifila

Kim mənə etina etmədi? Ay-hay!
Sən məni ilan tək sancırsan, əclaf!
Məgər sənin eşqin, söylə bir görüm,
Mənim nikahıma mane olardı?
Yox, mənim bəxtimi, təkrar edirəm,
Sənin təkidinlə verdiyim bir söz
Tamam dəyişdirib müəyyən etdi.
Di bəsdir! Gəl kəsək mübahisəni!
Hanı o əzəlki mehribanlığın?
O xoş baxışların hanı, hardadır?
Onu mənə qaytar! Onda görərsən
Ki, mübahisə də eşqi artırar.

Leonato

Bəsdir! Qiymətini bilirəm eşqin!
Bura ver, bura ver brilyantları!
Keçib gələn zaman biz Regenadan,
Onları gizlətdin.

Erifila

Bir döy darvazanı.

Leonato

Nə tələsirsən?
Gəl, hələ qurtaraq söhbətimizi.
Biz hələ, keçməmiş karvansaraya,
Mənə ver, mənə ver brilyantları!

Erifila

Nə üçün?

Leonato

Demərəm.

Erifila

Bəlkə, pulun yoxdur?

Leonato

Aydın deyilmi?
Səndən istəməzdim yoxsa boş yerə.

Erifila

Al, bu qolbağı sat.

Leonato

Yox, hamısını ver.

Erifila

Hamısını?

Leonato

Hamısını.

Erifila

Ah, mənim dostum!
Məni, yarı yolda tək qoyacaqsan?

Leonato

Sus!
Mənimlə zarafat eyləmə artıq.
Zəhləmi apardı bu danışıqlar...

Erifila

Axı nə olmuşdur? Bu, azdırmı ki,
Sən mənim yeganə bir sahibimsən.
Mənim varım-yoxum, bütün sərvətim
Əbədi səninki deyilmi, söylə.

Leonato

Mücrünü bəri ver, brilyant dolu...

Erifila

Nələr eşidirəm mən öz ərimdən?

Leonato

Mən sənin ərinəm?

Erifila

Aman, ay aman!

Leonato

Tez! Yoxsa pis olar,
Vuraram!

Erifila

Olsun, vur, alçaq!

Leonato (*xəncərini çəkir.*)

Öldürərəm!

Erifila

Yarəb! Hədələyirsən?

Leonato

Var-yoxunu bəri ver!

Erifila

Hamısını?

Leonato

Hamısını.

Erifila

Xəncəri qına qoy.

Leonato

Çıxart plaşını, şlyapanı da.

Erifila

Şlyapam, plaşım? Ey mənim dostum!

Leonato (*xəncərlə hədələyir.*)

Dinmə!

Erifila

Axı mən...

Leonato

Sən mənim zərbəmi yaxşı bilirsən.
Qışqırsan, xəncəri qəbzəsinədək
Sinənə sancaram.

Erifila

Sən nə qəddarsan!
Məni öldürürsən? Öz arvadını?

Leonato

Tez ol, tez!

Erifila

Sən məni isti qoynuna
Çəkmək əvəzinə, xəncər çəkirsən?
Əclaf!

Leonato

Tez ol, soyun paltarını da.

Erifila

Paltarımı da?

Leonato

Hamısını, tez ol.

Erifila

Bu saat soyunum. Ah, ağlayıram...

Leonato

Sus! (*xəncərlə hədələyir.*)

Erifila

Bir anla...

Leonato

Bəsdir, əzilmə çox!
Tez ol, soyun!

Erifila

Ürəyim qopdu!
Gizlət, heç olmasa o xəncərini.

Leonato

Yaxşı, gizlətdim.
Xəncər indi mənə gərək deyildir.
O, ifa eylədi vəzifəsini.

Erifila

Yox, xain!

Leonato

Sus, yoxsa...

Erifila

Məni hədələmə, mən ölümü də
Sən alçaq oğrudan qəbul edərəm.
İndi qorxu yoxdur daha sinəmdə.

Leonato

Tez ol!

Erifila

Ey xain! Dayan!

Leonato

Yoxdur gözləməyə vaxtım, senyora!

Leonato gedir, Erifila alt paltarda qalır.

DÖRDÜNCÜ SƏHNƏ

Erifila tək.

Erifila

Getdi. Əclafyana atdı. Qoy olsun...
Alçaqdan nə umum mən bundan artıq?
Xəncər çəkməyini yada salanda,
Ürəyim titrəyir... Ah, rüsvay oldum!
Ah, başqa birisi görsəydi bunu.
Qorxudan ölərdi, ölərdi, aman...
Nə bəlaya düşdüm! İndi neyləyim?
Ah, bu nə görkəmdir? Qürbət diyarda,
Pulum yox param yox... Çılpaq qalmışam...
Ah, yaramaz əclaf! Ah, alçaq köpək!
Yox, indi kimsədən qorxmuram daha!
Təsəllim budur ki, o qanlı qatil
Mənim canımısa alıb getmədi.
Əgər qaçışımla atam evinə
Mən ləkə vurdumsa, o lap haqlıdır!
Mənə hökm etmirdi eşq həmin zaman,
Məhəbbət bilmirdim. Çünki öz atam
Məndən soruşmamış, məni bir qoca
İdalqoya vermək niyyətindəydi...
Mən nifrət edirdim bu evlənməyə...
Qaçıb qurtarmaqçın qara baxtımdan,
Atdım öz-özümü bu girdablara...

Amma ki qurtuldum. Amma, ah, necə?
Gəmim dağılmışdır, ümid lövbərim
Bir ovuc torpaqda pas atır indi.
Taledən ikiqat aldadılmış mən
İndi, bax, bu tayda tənha qalmışam.
Mən çox ibrətamiz bir dərs almışam.
O həyasız alçaq, heç nahaq yerə,
Həmi pul kisəmi, həm də sinəmi
Nahaq dağıtmadı bircə zərbəylə!
Bəs indi neyləyim? Qürbət diyarda...
Dənizin içində bir qırıq qayıq...
Bu ağır dərd-kədər mənə ağlımı
Qaytarmamış olsa, dəli olardım.
İndi hara gedim? Nə qorxunc röya!
Təkəm. Hər tərəfdə yaddır adamlar...
Ağlını itirən bir ağılsız şəxs,
Olmayan bir şeyi itirə bilməz.
Yaman titrəyirəm... Baxtıma bir bax,
Nə yaman dönmüşdür fələyin çərxi!
Başqa qapılarda! Çıl-çılpaq... yarəb!
Deyəsən, səs gəlir, bu zülmətdən səs...

(*Səhnənin kənarına çəkilir.*)

Valerio, Pisano, Tomas və Martin gəlirlər. Onlar Erifilanı görmürlər.

BEŞİNCİ SƏHNƏ

Erifila, Valerio, Pisano, Tomas, Martin.

Pisano

Ümidvaram, mənim qəyyumluğumla,
Ona bu yerlərdə bir xətər gəlməz.

Valerio

Bəlkə də, onunçün əczaxanaya
Gedib, yaxşı dərman sifariş verim?

Pisano

Başdan xarab olan şəxslərə, inan,
Az kömək eyləyər dediyin dərman.
Biz də nahaq yerə o divanəni,
Dəmir bir qəfəsə nahaq salmadıq.
Çox qaba olsa da dəlilər üçün,
O, çox gözəl yerdir, ümidli yerdir.

Valerio

Onun dəliliyi şiddətli deyil,
Özünüz görərsiz, ay kimi batır...
Nəşəli oğlandır, zarafatçıldır,
Onu bir qəfəsə əgər salsanız,
Zavallı bir anda qəmdən-qüssədən
O dəmir qəfəsdə məhv olub gedər...

Pisano

Eybi yox, doyunca qoy sayıqlasın,
Burda güzəranı heç də pis olmaz.
Hələ bir de görüm, adı nədir, nə?

Valerio

Beltran.

Pisano

Haralıdır?

Valerio

Toledodandır.

Erifila (kənara)

Ah, yarəb! Haraya gəlib çıxmışam!
Bunlar, bax, məni də dəli biləcək.

Pisano

Nəylə məşğul idi bu təzə gələn?

Valerio

O, filos idi.

Pisano

Demək, fəlsəfə
Nizəsi deşmişdir onun beynini.

Valerio

Bir də məhəbbət,
Bədbəxtlik üzündən bu Beltranın
Qanını qaynatmış, ağlını almış.

Pisano

Deməli, Platon Kupidonla bir
Olaraq, vurmuşlar ona yaranı?

Valerio

Əlbəttə! Hər zaman, müdrikliklə eşq,
Ağlı çaşbaş edir hər iki yandan.

Pisano

Əzəldən düşməndir məhəbbətlə elm.
Alimə, əlbəttə, kitab yaraşır,
Amma ki, beyninə məhəbbət girən
Alimlər doğrudan dəli olurlar.

Valerio

Bəli, bu doğrudur. Çoxbilmişlərin
Ağılsızlığı da sərt olur, yəqin.

Başqalarından çox elm bilənlər,
Kədəri daha da dərin hiss eylər.

Pisano

Bilmirəm bu eşqdə, bu məhəbbətdə
Dəlilikmi, yoxsa müdriklikmi var?
Hələ, bircə baxın bu ikisinə.

Valerio

Nə miskin görünür bu zavallılar.

Pisano

Amma siz bilin ki, bu iki nəfər,
Bir zaman çox yaman bilikliydilər.
Lakin onların da hər ikisini
Bir arzu salmışdır eyni bəlaya.
İndi onlar burda yaşayır rahat,
Su da gətirirlər, odun da hər vaxt.
Onlar bəzi vaxtda pul dilənirlər,
Haraya göndərsən, ora gedirlər.
Tomas!

Tomas

Buradayam, senyor!

Pisano

Lütf, eylə,
Yaxın gəl, burda dur, dayan, bax belə.

Erifila (kənara)

Qurtula bilmərəm bunlardan, əsla!
Aman!..

Pisano (*Tomasın başını sığallayır.*)

Oğlum, bunu bil ki, yaxşı oğlansan.

Tomas

Elədir... Bir şeyi bilmirəm, ancaq...
Əvvəl anam, sonra öldü atam da.
Deməli, yoxdursa ana ya ata,
Heç kəsə oğul da ola bilmərəm!

Pisano

Bəs sən, əyansanmı? Martin, sən söylə!

Martin

Əgər, alçaq qatdan bir kişi mənim
Anamın irzinə toxunmamışsa,
Deməli, lap yəqin, mən də əyanam.

Pisano

Bununku əyanlıq dəliliyidir.

Martin

Bir mənə de görüm, od yandırırmı?

Pisano

Canıma and olsun, o heç soyutmur.

Martin

Demək, ulu baban odda yanıbdır...

Pisano

Ay vələdüzzina!

Valerio

Qapıdakı kimdir?

Martin

Orda qadın var.

Tomas

O müqəddəs Fisba indiyə kimi
Səhrada gözləyir mərhum ərini.

Erifila (kənara)

Ah, məni gördülər! Ah, oldum rüsvay!
Gərək indi salım burda hay-haray,
Gərək qışqıram ki, bu qaranlıqda
Oğru məni soydu, sonra da qaçdı.
Bəlkə, görüb mənim bu kədərimi,
Onlar alicənab bir insan kimi
Mənə dincəlməyə bir yer verdilər.
Bu çılpaqlığımı əfv eylədilər.

Martin

Hərçənd yalançıdır bütün qadınlar,
Söylə, atan kimdir? Bəs baban necə?
Əyanmı olmuşdur?

Pisano

Həmin sayaqlama!

Erifila

Ah, yarəb! Ey ulu göylər!
Qürbət bir diyarda soydular məni,
Brilyant, pal-paltar, hamısı getdi...

Pisano

Biz gəlib çıxmışıq əsl vaxtında.

Valerio

O, ağıldan kəmdir.

Erifila

Vay mənim halıma!..
Mənə kömək olun, yalvarıram, ah,
Məni tamam soydu o quldur, alçaq!

Tomas

Ey qadın!

Erifila

Nə var?

Tomas

Bir sakit dayan,
İstəyirəm səni bərk qucaqlayım.

Erifila

Uzaq, ey həyasız, uzaq ol məndən,
Burax, nəyinizə, de, lazımam mən?

Pisano

Bəli, bu doğrudan dəlidir, dəli.

Tomas

Əlbəttə! Baxan tək görünür, bəli.

Erifila

Aman Kavalyero! Aman, ah, senyor,
Deyin, bu dünyada ədalət yoxmu?
Belə haqsızlıqdan, belə bir işdən
İstifadə etdi həyasız oğru?
Hər şeyi apardı, hər şeyim getdi!
Alçaq bir nökərin qurbanıyam mən...

Martin

Yox, yox, aparıblar bunun beynini,
Çox az şey qalmışdır bunun əqlindən.

Erifila

Ah, brilyantlarım! Onun qiyməti
Üç min dukat idi... Aman, ah, yox, yox,
Beş minə, on minə dəyərdi, lap çox...

Pisano

Bəli, bununku pul dəliliyidir.

Tomas

Sizin brilyantdan daha qiymətli
Olan şeyinizə toxunmayıb ki?

Erifila

Lənətə gələsən, görüm ki, səni!

Valerio (*Tomasa*)

Mehriban rəftar et onunla sən...

Pisano (*Tomasa*)

Fu!

Tomas

Bu, dağlardan gələn vəhşi ceyrandır!

Martin

Yaxşı bax, qarşında duran əyandır!

Erifila

Əlbəttə, aydındır, hər əlamətdən!

Martin

Onu tez yaxala!

Erifila

Nə üçün, niyə?

Tomas

Övliya Martinsən, söylə sən ona.

Martin

Əfsus... Övliyanın atıyam yalnız.

Erifila

Belə etməzdi heç övliya əsla,
Mənə bürünməyə plaş verərdi,
Qalmağa isti bir yer göstərərdi.
Mərhəmət ummağa sizdən, deyin bir,
Heç haqqım yoxdurmu?

Pisano

Xanım, bizim sizə rəhmimiz gəlir...

(*Tomas və Martinə*)

Tez, tez yaxalayın!

Erifila

Mənimi, niyə?

Pisano

Tez olun, tez olun!

Erifila

Yaxına gəlməyin, çəkilin, uzaq!
Vuraram, dadını görərsən, alçaq!

Tomas

Əsir ol, ey qancıq, mavritan qızı!

Pisano

Tez tut, tut, yaxala!

Erifila

Əsirmi? Heç zaman. Mən qul deyiləm.

Tomas

Tez olun!

Erifila

Sizin Valensiyanın saf nəcabəti
Budurmu? Bir adam dərdə düşsə, siz,
Belə qayğıkeşlik eyləyirsiniz?

Pisano

Həmin qayğıkeşlik öz bəxtinizdən
Ay xanım, sizə də qismət olacaq.

Erifila

Həm çapılım, həm də, məhbəsə girim?
Dünyada heç yoxdur, yoxdur ədalət.

Pisano

Bax, bizim bu yerdə, bu mövizələr,
İnan ki, heç kəsə verməz bir zərər.

Erifila

Oğrunu tutsanız, düz olmazdımı?
Axı məni niyə aparırsınız?

Pisano

Bəli, görürəm ki, talan olunmaq,
Beyninə yerləşmiş fikirdir ancaq.

Martin

Yeri, irəliyə!

Erifila

Nə deyim, nə, nə?
Çapıldım, həm də ki, düşdüm məhbəsə!

Tomas və Martin Erifilanı güclə aparırlar.

Pisano

Qoy bu gözəl qızı aparım hələ,
Qalan söhbətimiz qalsın səhərə.

Valerio

Gediniz! Pisano, uğurlar olsun!
Məndən salam deyin rəisinizə.
Təşəkkür edirəm ürəkdən ona,
Çünki kömək etdi o, Beltrana.
Dəlilik etməyən, xəstə olan şəxs,
Sizə heç bir zaman əziyyət verməz.

Pisano

Olsun, şuluq olsa, o adam, ancaq,
Dəmir bir qəfəsə tez salınacaq.

(Gedir.)

ALTINCI SƏHNƏ

Valerio, tək.

Valerio

Nə əcayib gündür! Mən çox şadam ki,
Bəddə kömək etdim Floryanoya.
Amma indi özüm tiryəkilər tək
Ayaq üstə dura bilmirəm, gerçək.
Onu sağlam qoydum dəlixanaya,
Özümsə, o mənhus divarlarından
Çıxdım, lənət deyib, bir xəstə başla.
Burdasa... Nə gözəl yuxudur, aman...
Kimdir bu qadın ki, parlaq gözləri
Gecə xülmətini alt-üst eylədi?
Mən lap sarsılmışam... O baxış, yeriş...
O nazənin gözlər... O incə bədən...
Hamısını deməyi bacarmıram mən...
Yox, yox, ya ağlımı itirdim tamam,
Ya da itirməyə heç nəyim yoxmuş!
O, bir qadındımı, yoxsa göylərdən

Gələn bir mələkmi? Gələrək, dərhal
Ağlımı apardı, mən oldum bihal.
Özümdə deyiləm, deyiləm əsla!
Hardan gəldiyini, kim olduğunu
Niyə soruşmadım? Niyə mən onu
Qoydum aparsınlar? Etmədim kömək?
Hamsını, hamsını biləydim gərək.
Məni dəli kimi sehirlədisə,
Demək ki, dəliyəm mən bundan belə!
Dəli bir gözələ birdən vurulmaq
İnsanın ağlını aparır ancaq.
Müdriklər demişdir: aşiq olanlar
Məşuqə dönməyi qəlbən arzular.
Qoy olsun. Eşqdən alaraq ləzzət,
Mütləq getməliyəm oraya, əlbət.
Bu əzablarımı görərək onlar,
Mənim qollarımı qoy sarısınlar.
Bir dəmir qəfəsdə qalım çılpaq, ac,
Ya da bu dərdimə etsinlər əlac!

XƏSTƏXANANIN HƏYƏTİ

BİRİNCİ SƏHNƏ

Fedra, Laida.

Fedra

Bu gün əl çəkmədin bircə an məndən,
Səninlə həyətə çıxdım indi mən.

Laida

Burda təəccüblü nə var ki, söylə,
Vermişəm qəlbimi mən bir dəliyə.
Buranın sahibi, sizin əminiz, –
Ağam evə getdi. Gəl danışaq biz.
Əziz senyoraya, qısaca, bu an.
Deyim öz eşqimdən...

Fedra

Hələ bir dayan!
Ürəkdən sevmisən bir divanəni?

Laida

Bəli. Qalmamışdır taqətim mənim...
Mən dəli olmuşam, lap coşmuşam mən...
Ağılla məhəbbət düşməndir, düşmən.

Fedra

O, nə görkəmdədir, lütfən bir söylə.
Bir özün fikirləş: O, bircə gündə,
Səni bir görüşdə etmişsə əsir,
Mən belə qanıram, məni qınama,
Ağlın çox az imiş sənin, Laida.

Laida

Ah, Fedra! Ondakı qamətə bir bax!
Yanır gözlərində ağıldan çiraq.
Qadın əzabına, inan o dəyər!
Onun sükutu da, yəqin bil ki, sən
Güclüdür söylənən çox-çox sözlərdən...

Fedra

Bəs bir söz demədən, aşiq olmağa
Necə məcbur edir?

Laida

Ah, lallığın da
Vardır vasitəsi. Bizləri məyər
Cəlb etmir bir lövhə, gözəl bir əsər?

Onun görkəminə əsir olmuşam.
Bəli. Vurulmuşam mən lal bir daşa.

Fedra

Daşamı? Daşamı sən bənd olmusan?

Laida

Ay göydə görünsə, o dəliləşir.
Dəliylə dəliyəm özüm də hətta.

Fedra

Sən?

Laida

Əlbəttə!
Səadət günəşi nuru altında
Artır arzularım...

Fedra

Demək, dəlisiniz, siz ikiniz də!
O, ayın altında, sən gün altında!
Müalicə gərək sizə qəbrədək.

Laida

Yox, Allah bizlərə kömək eyləyər.

Fedra

Bilmək istəyirəm, o, ispandırmı?

Laida

Mən and içirəm ki, kastilyalıdır.

Fedra

Biz valensiyalılar ispanyalıyıq,
İspaniyaya xərac veririk artıq.

Floryano gəlir. O, xəstəxana xalatı geymiş, özünü dəliliyə vurmuşdur.

İKİNCİ SƏHNƏ

Əvvəlkilər və Floryano.

Floryano

Məni, Beltranı qandallamaqmı?
Nə üçün? Ən yüksək tərifə layiq
Bu evdə? Görürəm, görürəm ki, siz,
Nə qədər lütfkar, nə gözəlsiniz!
Arxamca gəliniz, rica edirəm,
Ağlayıram? Bunu heç gizlətmirəm.
Sizə görünürdüm bir kiçik çoban...
Amma ki, sizləri mən görən zaman,
Ay, məni çəkirkən xoş səmalara,
Döndüm bir nəhəngə bir anda hətta!
Sizə Alikante halvası deyil,
Kərpiclər ataram!

Fedra

Qaçaq, Laida!

Laida

Yox!

Fedra

Gəl qaçaq, qaçaq!

Laida

O, sərtdir, onunla sərt olanlarla,
Əslən mülayimdir.

Floryano

Belədir, bəli.
Ağıllı bir qulam, deyiləm dəli.
Məndən çəkinməyin, məndən qorxmayın,
İnanın, inanın, Həbəşistanın,
Vəhşi hindlilərin arasında mən
Boy atıb, ucalıb böyüməmişəm.
Hər şeydən dəhşətli məhəbbət məni
Bura gətirmişdir. Bəs hara gedim?
Mən burdayam. Lakin mən, mən deyiləm.
Varlığı olmayan insanam bu dəm.
Mən öz varlığımı çox qorxa-qorxa,
Gizlətdim dəlilik paltarı altda.
Mən haqlıyam. Nədir mənim bədənim?
Vardır bədbəxtlikdən xəbərim mənim.
O qədər aludə oldum ki, hətta
Məndən bədbəxt adam yoxdur dünyada!
Lakin deməliyəm: Geydiyim paltar,
Mənə gətirmişdir çox rahatlıqlar.
Bir qadın sevirdim. Çox füsunkardı,
Kişiyə xoş gələn hər şeyi vardı.
Amma o qadının günahından mən
Daha o əvvəlki adam deyiləm.
Hayıf... O gözəlin bir eybi vardı,
Hamını evinə o buraxardı...
Qisas gözləyirdi xain qadını,
Onun məşuquna sözsüz-sorğusuz,
Lap əməlli-başlı qoydum mən buynuz.
Sonra qadına da vurdum zərbələr,
Ki, ləzzət aparsın bütün bu şəhər...

Fedra

O, necə yazıqdır!

Laida

Yox, idraklıdır.

Floryano

Bax bu ayaqları siz, lütfən, əyər
Mənə versəydiniz, tez qucaqlardım,
Məskənim olardı bu uca göylər...
Lakin etməliyəm indi etiraf,
O mələk-xanımın surətinə lap
Çox oxşayırsınız... Mələksə də o,
Həyası-abırı əsla yoxdur, yox!
Mən onun ucundan düşdüm bu dərdə,
Dəlilik paltarı geydim bu yerdə.

Fedra

O, necə tönümənd, necə gözəldi!

Floryano

Pambıqdan da yumşaq oldu ürəyim!
Dəhşətə gəlirəm sağ olduğumdan.
Gəlir gəmilər də, bax birdən-birə
Məni aparmaqçın Əlcəzairə.
Bəlkə, mən sulara əsir olaram,
Çəkməsiz, bir güclü seldə qalaram.
Qalaram kəndirlə su arasında.
Bəli, and içirəm öz saqqalıma!

Laida

Düzünü söyləyin, Fedra, düzünü,
Sizin xoşunuza gəlirmi?

Fedra

Həyif...
Bu xəstə idrakın tabe olduğu
Göylərin üzündə bir ay deyiləm.

Laida

Görünür, istərsiz siz hakimiyyət?

Fedra

Onda bilərdim ki, hansı qiymətlə
Bu dəliliyi çoxaldım, əlbət.

Laida

Fedra! Mən görürəm, görürəm ki, siz,
Bu işə çox böyük qiymət verirsiz.

Fedra

Bəlkə də, elədir.

Laida

Mən qısqanıram.

Fedra

Qısqanca mən əqil verə bilmərəm.

Floryano

Qısqanc adamların dərmanı vardır,
Onların ağrısı yetişən zaman,
Gicgaha qoyurlar zeytun yağından.
Yumruq da köməkdir bəzilərinə,
Qamçı da yaxşıdır. Aydındırmı, hə?
Əgər şiddətlənsə onun azarı,
Yarasa qanından qoyasan gərək
Alnına, bəlkə də, bir az yuxarı.
Hərçənd ki kompres yarım saatda
Məhv edib saçları çürüdür, hətta.

Amma qısqanclıq da tez sakitləşir.
Qısqanc olanlara, buynuz qoyarlar.
Bu yaman dəhşətdir, əzabı çoxdur,
Qısqancın bundan pis düşməni yoxdur.
Onlar əbədidir. Lap Panınkı tək.
Bürümüş üstünü rəngbərəng çiçək.
Qısqanclığın dərin uçurumuna mən
Özüm də düşmüşəm... Bu xəyanətdən
Və bu qısqanclıqdan, hamı şərəfsiz...
Sizə düzəldərəm, indi sillogizm:
Sevən bir şəxs daima çox qısqanc olur,
Qısqanca da daim buynuz qoyulur.
Buynuzlar insanın qaynar dəmidir,
Şübhələr, əzablar cəhənnəmidir.
Bundan da belə bir nəticə çıxır:
Təsəvvürü zəngin olan ki vardır,
Hər zaman hər yerdə buynuzlulardır.

Fedra

Dedikləri necə doğrudur, bəli!

Floryano

Ah, mənə veriniz bircə təsəlli!

Fedra

Əlimizdən nə gələr?

Floryano

Çox şad olardım,
Sizin lentanızı əyər alsaydım.
Bunu söyləməyə cəsarətim var.
Məni bəlalardan o, tez qurtarar.
Apuley nağılda dediyi kimi,
Güllər xilas etdi bədbəxt eşşəyi.

Onun yaşıl rəngi, mənə inanın.
Mənim dərmanımdır, mənim dərmanım.
Siz könüək olsanız Apollon kimi,
Tez keçib gedərdi narahatlıqlar...

Fedra

Necə? Lentin belə bir əfsunu var?

Floryano

Ürəyim onunla bir şəfa tapar.

Laida

Yox, sizə qırmızı rəngli yaraşar.

Floryano

Bu cürə şeyləri siz bilməzsiniz.
Darçın istəyirəm mən sizdən, ancaq
Dodağa bir gülüş yapışdırıb siz,
Darçın yox, mənə tünd xardal verirsiz.

Laida

Mən bundan qorxuram!

Floryano

Yox, ola bilməz!
Təəssüf! Təəssüf! İndi, senyora,
Rahatlıq veriniz qanadlarınıza.
Səbr etmək – sizinçün bir bu qalmışdır.
Əgər qanadlanıb uçsanız hətta,
Uçmalısınız mənim səmalarıma.

Fedra

Məncə, yaşıl rəngli daha yaxşıdır.

(Lenti ona uzadır.)

Floryano

Ah, ey ümid rəngi! Deməli, belə!
Lentdən, bir əlamət qalmaqçın bu dəm,
Gərək bir xəyanət eyləyəm.

Fedra

Eşqəmi?

Floryano

Yox, yox, rəqslərə.

Laida

Əgər olsa belə,
Dəli olarsınız.

Fedra

Heç eybi yoxdur,
Qoy cəfəngiyatı dinləyim ki, mən,
O, dəli olmasın indi qəzəbdən.

Floryano (*kənara*)

Qorxuram buna da bənd olam indi...
Ah, Seliya! Söylə, söylə, mənimlə
Niyə belə qəddar hərəkət etdin?
Axı sən özünsən buna günahkar,
Mənə bu xəyanət yaxşı dərs olar.

Fedra

Gələn var! Laida, bura gəlirlər,
İndi ikimizi burda görərlər.

Laida

Qaçaq!

Fedra

Hara?

Laida

Tez ol, senyora!
O, qalereyaya çəkilsək əgər,
Qorxu da, duman tək bizdən çəkilər.

Fedra və Laida gedirlər.

Floryano

Günəş batdı-getdi durduğu yerdə,
Boşluqdur, boşluqdur indi göylərdə.
Senyora! Ricamı nəzərə alın,
Arabir məni də siz yada salın!

ÜÇÜNCÜ SƏHNƏ

Floryano, Pisano, Tomas və Martin Erifilanı gətirirlər.

Erifila

Günahım nədir ki? Deyin, bir deyin,
Yalvarıram, mənə pislik etməyin.

Pisano

Sakit ol, ay dəli!

Erifila

Elədir, bir zaman dəliydim, bəli.

Tomas

İfritə evdədir.
Giriş haqqını ver.

Erifila

Qırılır bütün bədənim.

Tomas

Bax yenə başladı!

Martin

Ver giriş haqqı!

Erifila

Mən həbsxanaya? Axı nə üçün?

Tomas

Qanunlar belədir. Bir sakit ol sən...
Pul çıxart, yoxsa ki bil, öləcəksən.

Floryano

Nə cür adamlarsız?

Martin

Lap sakit adamıq, inan.

Tomas

Sən də öz burnunu hara soxursan?

Erifila (*kənara*)

İtirdim ağlımı büsbütün daha!
Hamı dəli olan belə bir yerdə
Ağıl gərək deyil. Belədir düzü,
Mən dəli göstərəm gərək özümü.
Dəlilik – şirin bir zəhərdir, zəhər...

Pisano

Mən gedim. Siz burda qalınız daha,
Ancaq yetirməyin ona xətər, ha!

(*Gedir.*)

DÖRDÜNCÜ SƏHNƏ

Floryano, Tomas, Martin, Erifila

Floryano (*kənara*)

Gözüm nələr görür? Baxa bilmirəm.
Günəş tacından da, odur, alnında
Cilvələnib yanır qızğın şüalar.
Ey qəlbimin səsi! Bu gözəlliyin
Qarşısında sus, sus! O, canlıların
Tacıdır! Dünyanın möcüzəsidir!
Gecə zülmətində parlaq ulduzdur!

Tomas

Tez ol, pul çıxart.

Martin

Sonra pis olar.

Erifila

Niyə pul verim ki?

Tomas

Bura gəldiyinin.

Erifila

Mənim pulum yoxdur.

Floryano

Ey, adamlar!
Alın, bu üzüyü satın. Bu, onun
Bura gəlişinə yaxşı haqq olar.

Martin

Görkəmindən...

Tomas

Pis üzük deyil.

Martin

Bu, girov deyil ki?

Floryano

Nə deyirsiniz!

Tomas

Bu gün yaxşıca bir kef edərik biz!

Martin

Səni, yüz yaşa!

Tomas

Ah, Martin, bunu tək tanrı bilir ki,
Bu gün işlərimiz çox yaxşı gedir.

Tomas və Martin gedirlər.

BEŞİNCİ SƏHNƏ

Floryano, Erifila.

Erifila (*kənara*)

Belə də dəli olarmı?
Onun ox yağdıran baxışlarından
Qorunmağa möhkəm bir zireh varmı?

Floryano (*kənara*)

Mən bu möcüzəni görməsəm hərgah,
Doğrudan da, dəli sayılardım, ah...
Onun bu adicə, xoş sözlərindən
Dəlilik, sərsəmlik duyuramsa mən,
Durduğum yerdəcə qoy daşa dönüm.

Erifila (*kənara*)

Qorxu parçalayır qəlbimi mənim.
O, hansı gizli bir tiryəklə məni
Belə məst elədi? Onun sifəti
Çox xoşagələndir. Deyəsən, ancaq

Yoldan azacağam, yoldan azacaq...
Qorxu! Mənə güc ver, onunla qalım,
Ehtiras! Güc ver ki, açılsın yolum!

Floryano (*kənara*)

Bu xoş tamaşadan, mən ləzzət çəkmək
Eşqiylə yanıram. Qoy dilim sussun,
Qoy eşqim danışsın.

Erifila (*kənara*)

Onun bu ehtiras dolu xoş səsi,
Ruhuma xoş gəlir. Ah, görəsən, o,
Nə qiymətə aldı bu xoşbəxtliyi!

Floryano (*kənara*)

Cismə çevrilmiş bu ilahi xəyal,
Əgər mövcud olan vahid deyilsə,
Deməli, bu aləm özündə deyil.
Bakirə gözəllik! Bu işə bax bir,
Onun intiqamı– bu, dəlilikdir!

Erifila (*kənara*)

Bax, bu əla vücud, qüsursuz bədən,
Boş ola bilərmi? Anlamıram mən.

Floryano (*kənara*)

Bu əsiredici, xoşbəxt hücrədə
Bir ruh, bir məhəbbət yaşamır məgər?
Çürüməz mərməri, ey gözəlliyin,
Yerdə tapılmayan göylər surəti!
Bizim bu ötərgi, fani dünyaya
İlahi göylərdən uçaraq gələn,
Ruhuyla başqa bir yurda yol alan,
Ey heyranedici, ey gözəl bədən!

Sən, çox-çox qəşəngsən. Bu gözəlliyin,
Heykəl olmağa da layiqdir, yəqin.
Amma ki bir palçıq, bir metal kimi,
Ruhun başlanğıcı olan ağıldan
Göylər məhrum etdi sənin beynini.
Gözəlliksə, ruhdan ayrılıqda bil,
Hər necə olsa da, gözəllik deyil.
Mərmər tək o, bəhrə heç verməyəcək,
O, boşdur çox qəşəng, gözəl hücrə tək.

Erifila (*kənara*)

Ağlını itirmiş yazıq, zavallı...
Yoxdur sözlərinin heç bir mənası.
Başdan-başa qədər gözə yatmayan,
Zəhərlərlə dolu güldandır, güldan.
Lakin bu güldana gül qoyulsaydı,
Ətirlər gələrdi ondan hər zaman!
Bunu bilirəm ki, mühəqqəq, ancaq
Bu dəli, ağlımı mənim alacaq.

Floryano (*kənara*)

Mənə səadətdir düşdüyüm məhbəs,
Məndən xoşbəxt deyil dünyada heç kəs!
Burda hökm edirdi əzəllər zülmət,
İndisə, günəştək nurlu məhəbbət.
Lakin qorxuram ki, eşitsə əgər,
Onu dediklərim şübhələndirər...

Erifila (*kənara*)

Mənim bu təkidli baxışımı, ah,
Bu dəli görərsə, görərsə hərgah,
Biləcək hökm edir qadın qəlbinə...

Floryano (*kənara*)

Gözləri susqundur, baxışları lal...
Ey məhəbbət oxu! Hansı qüvvətlə
Onun idrakını sarsıtdın, belə!

Erifila (*kənara*)

Mənim qorxaq dilim, susmuşdur, artıq!

Floryano (*kənara*)

Qəlbimin dərdlərdə didildiyini,
Gic olmadığımı, mələyim, bilsən,
Söylə, məgər məni sevməzdinmi sən?

Erifila (*kənara*)

Ah, o uzun yollar, o atam evi,
O nankor, ədəbsiz, bəd Leonato,
Bir də, onun alçaq, nanəcib eşqi,
Görən, yuxuydumu, ya deyildimi?
Yatmışam... Nə yaman, müdhiş yuxum var,
Yenə gəlib keçir gözümdən bunlar:
Xəyanət, qaçışım, bir də ki, qisas.
Bəs necə oldu ki, bu dərd içində
Dəlinin birisi rastıma çıxıb,
Başlayıb hökm etdi bu gözlərimə?
Yox, nahaq deyil ki, taleyim mənə
Cəzalar göndərdi. Ağlımsa, məndən
Bir cavab istəyir. Özüm də, əgər
Olmaq istərəmsə burda bir dəli,
Bəs nədir məzəmmət? Nədir şübhələr?
Mən dəli olmuşam.

Floryano (*kənara*)

Nələr görürəm?
O nurlu gözlərə çökdü kölgələr...
Göylərin üzünü zülmət bürüdü.

(*Erifilaya*)

Ey günəş! Sən məni qoyma işıqsız!

Erifila

Bildim, ağılsızam, bəli, ağılsız...

Floryano

Dağıt buludunu, aydınlaş, səma!

Erifila

And içirəm, bunda vardır bir məna.

Floryano

Məndən ağılsızı dünyada yoxdur,
Sən yanımda ikən, bu tutmalarım,
İnan ki, daha da çox tez-tez olur.

Erifila

Uzaq, uzaq məndən!

Floryano

Gizlənpaç oynayım indi burda mən?
Artıq mənə idrak gərək deyildir.

Erifila

Ey, ey! Tez gətirin mənim atımı,
Ah, məni gözləyir Mandrikardom.

Floryano

Gətirin nizəmi, ən yaxşı atı,
Libasım əlvandır göy qurşağından!

(*Kənara*)

Bəlkə, bir gün keçməz, məhəbbəti mən
Ataram yük kimi çiyinlərimdən.

Erifila

Üzəngini tut!

Floryano

Məmnuniyyətlə.

Erifila

Bir dayan, qəddar!
Mənim ayağımı yamanca qapdın!
Zarafat etməyə indi vaxt tapdın?
Mən sənin qulunam, qəddar deyiləm.

Erifila

Mən, Doraliçeyəm.

Floryano

Elədir, bəli.
Burda tapılmayan gözəlliyinlə
Möhkəm zərbə vurdun mənim qəlbimə.
Mandrikardon olum qoy bundan belə.

Erifila

Olmaz. O, ağıllı adamlardandır.

Floryano

Ağlımda bir qüsur varımdır, əlbət,
Lakin bu ruhuma səy eylə diqqət.
Bu incə qəlbimi yaxından tanı,
Tez gəlib keçməyən atəşlər yanır...

Erifila

Kavalyero, gedib bir xəbər gətir,
Rücero buraya, gör gəlmişmidir?

Floryano

Paj belə dedi ki, çoxdan gəlmişdir,
Oturub mey içir indi tuluqdan.

Erifila

Nolar, qaydasında oturub içsin.
Sənin adın nədir?

Floryano

Beltrandır.

Erifila

Bəs sən, o divanə Roland deyilsən?

Floryano

İstəsən, sənincin Roland olaram,
Bəli, bil, malikəm, bu talanta mən.
Qəribə olsa da, hər zaman, hər dəm,
Dəyirmi masanın arxasında mən
Bil, bütün perləri əvəz edirəm.
Bununçün de mənə alqış və əhsən.

Erifila

Bəs, Kalainosla sən dost deyilsən?

Floryano

Hə, dünən onunla şam eylədik biz,
Qəşəng, gözəl keçdi o məclisimiz.
Onunla dost olduq ta qəbrə qədər,
Uçan balıqlar da ovladıq.

Erifila

Bəs, Sensonetonu tanıyırsanmı?

Floryano

Bəli, əlbətt.
Urxel də dostumdur, o qarınqulu,
Duzlu göbələyi xoşlardı...

Erifila

Onların hamısı yaxşı adamdır.

Floryano

Allah bilir ki, mən bəhs eyləmirəm.

Erifila (*kənara*)

O, məni nəylə,
Nəylə cəzb elədi? İdrakım sönür...

Floryano (*kənara*)

Özümü pis qoydum mən dəliliyə.
Gərək bu oyuna istiot qatım.

(*Ucadan*)

Şeypurum hanı?
Artıq ova çıxmaq vaxtımdır mənim.
Bəs niyə görmürəm mən atlarımı?
Hanı tazılarım? Şahinlərimi
Nə qədər gözləyim? Ey-hey! Tez olun!

Erifila

Adamlar üstünə hirslənmək nədir?
Itlərin hamısı bu həyətdədir.

Zəncirli şahinlər sizi gözləyir.
Qaçışır dörd yana itəbaxanlar...

Floryano

Qorxuram, kəkliklər pırıldasınlar...
İtə, qırğılara sür-sümük verin!

Erifila

Deyin ki, mənə də cələ versinlər,
Mən də quş tutaram...

ALTINCI SƏHNƏ

Əvvəlkilər və Pisano.

Pisano

Sizin xalatınız hazır, senyora,
Ölçüb-biçmək üçün buyurun bura.
Beltran, ona heç toxunmayın siz,
Çünki həm gəvəzə, həm də qəşəngsiz.
Ağıl son pillədə olarsa hərgah,
Ən baş yeri tutar, bil, artıq tamah.

Erifila

Sizin bu işlərə nə dəxliniz var,
Ay qoyun quyruğu?

Floryano

Gözəl haqlıdır.
Ay xoruz pipiyi, nə işiniz var?

Pisano

Onu müdafiə edirsiniz siz?
Olsun. Çox xoş gəlir mənə bu halət.

Pak, məsum körpələr bayramınadək
Biri-birinizi görməzsiz, əlbət.

Erifila

Sizə lənət olsun! Mən azad bir quş,
Haqqım var eyləyəm hər nə istəsəm.
Plaşı döndərib eylərəm bir cin,
İstəsəm, ürəyi elərəm xurcun.

Pisano

Sus, gözəl divanəm!

Erifila

Artıq əlvida!

Floryano

Əlvida, ey mənim ilahi dəlim!

Pisano

Nə dedin? Yeri get, boş-boş danışma.

(*Erifilanı aparır.*)

YEDDİNCİ SƏHNƏ

Floryano tək.

Floryano

İrəli! İrəli! Ey ürək arzum!
O yad yelkənləri qoy əysin külək.
Yeraltı qayalar bizi vursa da,
Axının əksinə biz üzək gərək!

Üzək ağlımızın və borcumuzun –
Apardığı yerə. Möcüzələrə
Mən çox inanıram. Hərçənd ki, bəzən
Özüm yas tuturam coşqun hisslərə.
Cazibə güclüdür. Möhkəm durmalı,
Ağıllı olmalı bu çətin işdə.
Sakit ol. Nə çıxar divanəlikdən?
Niyə bu arzuya açım qoynumu?
Ağlını itirmiş bir şəxs uğrunda
Əlbəttə, idrakı atmağa dəyməz.

SƏKKİZİNCİ SƏHNƏ

Floryano, Valerio.

Valerio

Mən yenə burdayam, təşəkkür etmə,
Yenə gəlməyimi, sənə qayğımın
Dəlili sayma sən. İndi buraya
Özümün xüsusi işimçin gəldim.
Sən mənə həmişə arzu etdiyin
Elə bir iş üçün gəldim ki, bura,
Mənim səadətim və həyatımdır.

Floryano

Valerio, nə olmuş? Dəlixanada,
Yəqin ki, bildiniz gizləndiyimi?
Təzə təhlükə var başımda, bəlkə?

Valerio

Dəliyəm, dəliyəm mən, Floryano,
Amma sən zahirən dəli kimisən.
Bu, sənin ağlına gözəl sübutdur.
Göylərdən ildırım düşməsə əyər,
Sənin başın üstdə yoxdur təhlükə.

Floryano

Onda, nə olmuşdur, söylə Valerio?
Dostum, hansı qüvvət qorxudub səni?
Sifətin dümağdır? Bir söylə görüm,
Sənin nə pozmuşdur rahatlığını?
Məni də həycana salan, de, nədir?

Valerio

Göylərdən, göydəki saf ulduzlardan,
Bütün bu dünyanın insanlarından
Daha qəşəng olan bir divanəni,
De, məyər, buraya gətirmədilər?

Floryano

Deməli, vuruldun bir divanəyə?

Valerio

Yox, yox, o gözələ əsirəm, əsir.

Floryano

Yaxşısı budur ki, salona keçək,
Orda tənhalıqda əyləşərik biz,
Hamısını, ətraflı nağıl eylərəm.

Valerio

Ah, Allah! Gəl, gedək, danışım, bəli.

Floryano

Sənə nə olmuşdur?

Valerio

Dəli oluram, dəli!

İKİNCİ PƏRDƏ

DƏLİXANA

BİRİNCİ SƏHNƏ

Floryano, tək.

Floryano

Başıma vurduğu bu zərbələrdən,
Gərək yorulaydı taleyin özü.
Daha taqətim yox mənim dözməyə,
Ürək zəifləmiş artıq sinəmdə.
Buraxa bilərkən, taleyim, məni,
Gətirib, bu ağır məhbəsə saldı.
Ölüm pəncəsindən məni aldısa,
Daha da yaxınam ölümə ancaq.

Dəlilik odunun hökm eylədiyi
O gözlər nurilə sarsıtdı məni.
Yanaşmaq istərəm şüalarına,
Qanadları yanmış pərvanə kimi...
Budur, mən qurtulub cəlladlarımdan,
Qaldım xəstəxana divarlarında.
Taleyin hökmüylə, ən yaxın dostum
Mənə əzab verən bir rəqib oldu!

Mənim ümidgahım, mənim pənahım,
Valerio – o mənim istinadgahım,
Mənimtək məhəbbət əsiri olub,
Dəli bir xanıma yaman vurulub...
Elə bərk düşüb ki, onun eşqinə,
Görünmür gözünə dünyada heç nə.
Ona qovuşmağa hər an cəhd edir,
Eşqdə dəlilik böyük nemətdir!
O, hələ uydurma bəhanə tapıb.

İstəyir ki, onu zaminə alsın.
Əmisi qızıdır; evə aparsa,
Bəlkə, dərdi-qəmi evdə azalsın.
Eşq çox qüdrətlidir! Aç qollarımı!
Ömrümü, qanımı, buyur, zaman, al,
Ancaq o gözəli ayırma məndən.
Ayrılsam, bil, dəli olacağam mən!

İKİNCİ SƏHNƏ

Floryano, Fedra.

Fedra

(*Floryanonu görmür.*)

Gəldim ki, özümü burda axtarım.
Hardayam? Xoş xəbər gözləməkdəyəm.
Bax elə burdaca öz-özümü mən,
Durduğum yerdəcə lap itirmişəm.
Amma bilirəm ki, düz iki gündür,
Kimdir hökm eyləyən mənim ruhuma.
Ağlını itirmiş bir adam üçün,
Bax bunun özü də yaxşıdır, amma
Mənim məhəbbətim məni qorxudur,
Mənə hökm eyləyir həmin hökmdar.
Bilirdim, məhəbbət dəlidir, dəli,
Lakin bu qədərmi? İndi burda mən
Alıram çox ağır dəhşətli cəza.
Zülmətə qərq olmuş bir ağla məgər
Məhəbbət neyləyər? Nə verə bilər?
Başqa bir şeydən dəli olan o,
İndi hökm eyləyir mən vurulmuşa.
Dönürəm get-gedə buqələmuna,
İndi də dəlilik rəngi mənimdər.
Bəs hanı? Neyləyir? Aman, haqq Allah!
Bəlkə, salınmışdır dəmir qəfəsə?
O, yaxında ikən onu görməyim?
Belə bir dəlilik, deyin, olarmı?

Floryano

Onunla çox açıq davranmaq olmaz.
Gərək edəm ondan indi ehtiyat,
Ehtiras odundan qaçmaqçın bu vaxt
Gərək mən özümü aşiq göstərəm,
Eşq buxovundakı dəli tək bu an
Gərək öz rolumu düzgün oynayam.

Fedra (*kənara*)

Eşqindən ölürəm mən bu dəlinin,
Burda mən özümü lap itirmişəm.

Floryano

Mən bu gün bağçada şey itirmişəm.
Senyora, siz onu görmədiniz ki?

Fedra

Nə şey? Dərdimə bax! Mən öz-özümü
İtirmişəm, amma tapa bilmirəm.

Floryano

Bacım, əzab-kədər üz vermiş sənə?
Bunun əvəzində ad qazanarsan!

Fedra

Ah, ey pak səmavi gözəllik nitqi,
Ürəyə xoş gələn əsrarlı səslər!

Floryano

Badımcandan, kökdən, heyva, şüyüddən,
Və qatıqotunun dərin kökündən,
Ağız dadı bilib, şirə qayıran,
Ey, Xuan de Mena! Ey dadlı şair!

Fedra (*kənara*)

O, bu qəzəbiylə nə qədər tərsdir!
Beyni fikirlərə darlıq eyləyir.

Floryano

Bilirsiniz nədir itirdiyim şey?
Tapsaydınız, sizə pendir verərdim.

Fedra

Taleyin ağlına gəlsəydi əgər,
Sənin şüurunun yerini mənə
Desəydi, bir anda fikirləşmədən,
Mən onu taparaq sənə verərdim.

Floryano

Doğrudan, çox əla iş görərdiniz.
Ay adlı – məzəli, ləzzətli gözəl!
Əgər, olsaydınız daha da gözəl,
Bir şeir verərdim sizə hədiyyə.

Fedra

Sənin o sevdiyin çoxmu gözəldir?

Floryano

Eləsi yuxuda tapılar ancaq!
Dümağ qar kimidir onun dişləri.
Dodağı qırmızı bibərlər kimi!
Ondan gözəl qadın mən görməmişəm.
Onsuz həyat mənə qəmdir, kədərdir.
Bir dərdə düşmüşük onun ilə mən,
Birgə dərd çəkirik bu xəstəlikdən.

Fedra

Deməli, bu bədbəxt həmin gözəlin,
Eşqilə itirmiş olan ağlını!

Floryano

Yox, burda ağlımı itirsəm də mən,
Hamıdan, hamıdan çox ağıllıyam.
Mənim düşüncəmin, həyəcanımın
Axtardığı təmiz ağıl deyildir.
Tək ağlı itirmək bir şəxs üçün, bil,
Doğrudan, o qədər dəhşətli deyil.
Əynimə taxdığım cındır içindən,
Ən qiymətli bir şey itirmişəm mən.

Fedra

Nədir o, nədir o?

Floryano

Başında naxışlı şalğamdan ləçək
Olan, gözəl, göyçək bir zahı eşşək.

Fedra (*kənara*)

İşə bax! Dəlinin sayıqlaması,
Daha da coşdurur qaynadır qanı!

Floryano

Ey qəlbimin səsi! Mənə ümid ver!
Sizə xoş gəlirəm, bilirəm. Ancaq
Əgər mən ağıllı bir senyoranı
Məftun edirəmsə, mənim dərdimdən
Dəli olanı da məftun eylərdim.

Fedra

Dumanlı olsa da söylədikləri,
Bu, bir divanəyə bənzəmir əsla!

Floryano

İndi edirsiniz siz filosofluq?
Əla bir bədənlə hiss coşqunluğu
Ondakı idrakın əsl rəhnidir.
Sadə alətidir bədənsə, ruhun...

Fedra

Deyə bilərsənmi, dünən mən sənə
Verdiyim o lenti necə elədin?
Onda xeyirxahlıq, ümid rəngi var.

Floryano

Kartı görən kimi, heç gizlətmirəm,
Onu itirdim mən... Bir özün söylə,
Qumar birə-yüz qat qızışan zaman,
İtirmək və tapmaq, ümid eyləmək,
Gələ bilərdimi mənim fikrimə?

Fedra

Nəydi qızışdıran?

Floryano

Qurd-quş kraliçası.
Yox-yox, pərt olmayın, senyora, bundan.
Kart təzə olsa da, hey sağa-sola,
Qarşıya çıxanı vurur, kim ola...
Onunla çox yaxşı varlanmaq olar,
Yüz kraliçaya güzəşt də edər.

Əfsus ki, bir aslan qarışdı işə,
Onun baş xalları çox güclü idi.
Dostluğu və eşqi toqquşdurmaqdan,
Dünyada ən mənfur bir iş tapılmaz.
İndi qorxuram ki, mənim sinəmə
Ən ağır, ən müdhiş nizələr dəysin.

Fedra

Demək, ümidimi karta qoyursan?

Floryano

Mənimkiylə birgə.

Fedra

Başqasını verim?

Floryano

Xəyal etmirəm!
Birdən yenə salıb mən itirərəm...
Qoy mənim gözlərim indi, bu dəfə
Ondan lap doyunca bir ləzzət alsın.
Bəlkə, ola bilər, heç bacarmadım,
Sizinçin bir lenti saxlayammadım,
Bəlkə də, bu gözəl lentin yerinə,
Sadəcə cır-cındır verim mən sənə?
De, lenta hardadır?

Fedra

Burdadır, burda.

Floryano

Alınızdadır?

Fedra

Bu şux rəngli lenti görmürsən, məgər?

Floryano

İstəyirəm, onu özünüz açın.

Fedra

Rica edirəm ki, bunu siz açın!
Yaman düyün düşüb...

Floryano (*Onun başındakı lenti açır.*)

Düyünün ucunu açmaqdayam, ha...

Fedra

Aha, indi onu mən öpəcəyəm!
Görəsən, olarmı? Əlbəttə, olar,
Dəlidir, beynini tutmuş dumanlar...

Floryano

Mənim ciblərimə girirsiniz siz?
Soymaq istəyirsiz?

Fedra

Sən bir dərdə bax!
Dünyanı unudub, bərk qucaqlayım!
Məhəbbət, bir söylə, nə gözləyirsən?
Di, tez ol, qucaqla...

Əvvəlkilər, Erifila cındır xalat və qalpaqda gəlir.

Erifila

Hə... Mənə xoş gəlir bu qucaqlaşma...
Biri-birinizə lap layiqsiniz.
Öpüşün, əbədi nəşəyə dalın.
Mənə qəbrə qədər sadiq olmağa
And içən həmin o adam deyilsiz?
Nağıllardakı o, Mandrikardo tək
Mənə ər olmağa hazırlaşırdın?
Düşmüş əlinizə gözəlcə bir kart,
Siz nikah işinin ey baş ustası!
Bəs bu, nə bəzəkdir? Başınızdakı
Bu nizə dəlir o cındır paltarı...
Belə bilirəm ki, əminəm ki, siz,
Yüksək təbəqəyə mənsub deyilsiz.
Ağlınız vardırsa, bəs neçin, niyə,
Gəldiniz dəlilər, giclər içinə?
Sizə kim gərəkdir, nədir bu paltar?
Üstündə torlar var, oyuncaqlar var...
Tez gedin buradan, hər şeyi dedim,
O, sənin deyildir, mənimdir, mənim.

Floryano

Elvira!

Erifila

Çıxın tez ikinci mərtəbədəki
O böyük salona, çıxın, tez çıxın.
Əl-ayağa düşən bu boşbağazı,
Görüm cin aparsın, şeytan aparsın.
Təsadüfü güdüb, axtarır fürsət,
İstəyir bəxtimlə edə rəqabət!

Fedra

Zəhləmi apardı bu laqqırtılar,
Mən burdan gedirəm.

(*Gedir.*)

DÖRDÜNCÜ SƏHNƏ

Floryano, Erifila.

Floryano (*kənara*)

Allah bilir ki,
Heç aradüzəldən belə bir toru
Yox, ata bilməzdi onlara doğru!
Qısqanclıq! Sən eşqin qızı deyilsən,
Anasan. Məhəbbət doğuluşunu
Tək sənə borcludur. Əvvəlcədən sən,
Bax bu coşğunluğu qana səpirsən.
Sən mənə güc verdin mübarizədə,
Bəs mənim qəlbimdə təxtini quran
Şahanə gözəlin xoş sözlərini
Niyə eşitmirsən? Söylə bir, niyə?

(*Erifilaya*)

Aha, dinmirsiniz? Niyə dinmirsiz?
Nələrlə məşğuldur sizin fikriniz?

Erifila

Əfsus ki, indicə burda mən belə
Danışdım sizin o sevgilinizlə.
Görünür, fikriniz beləymiş ki, mən
Sizin olacağam ta ölənəcən.
Nahaq deyildi ki, o xanımla siz,
Gözəl və mehriban rəftar edirdiz!

Floryano

Ay, gərək gələydi bu qəza-qədər!
Onu sevmişəmsə mən zərrə qədər,
Şeytan cəhənnəmə qoy məni atsın.
Qızmar bir tavada yaxşı qızartsın!
Mən sizi sevirəm, sevirəm müdam.
Mən sizin kölənizəm – Mandrikardoyam.
Yalan deyirəmsə, mən sizə əgər,
Qoy mənim başımı dibdən kəssinlər!
Dəliliniz yoxdur bu qızışmağa,
Burda xidmət edir həmin şux arvad.
Bir qədər açılsın deyə, fikrimiz,
"Siçan-pişik" oynu oynayardıq biz.
Bəli, başqa şeylə, burda onunla
Başqa bir oyunu oynamışamsa,
Canım cəhənnəmdə yanıb kül olsun,
Külüm də bir anda göyə sovrulsun!

Erifila

Ey köpək! Bu yalan oyunlarla sən,
Məni heç aldada bilməyəcəksən.
Bişmiş ya qızarmış, lap çiy olsan da,
Axşam yeməyində gərəksən mana.
And içirəm, mənə siz xoş gəldiniz,
Amma görürəm ki, "siçan-pişiklə"
Həddindən artıq məşğulsunuz siz.
Mən də öz arzuma çataram, yəqin.
Mənimki olana kimsə dəyməsin!
Rodamonteyə heç xoş gəlməsə də,
Ey Mandrikardo, eşidin ki, siz,
Mütləq və məcburən mənimkisiniz.

Floryano (*kənara*)

Ey qadir məhəbbət! Yalvarıram mən,
Sən bu işə qarış heç ləngimədən.
Ağlını sən aldın – qüdrətin ki, var,
Sən onun ağlını özünə qaytar!

Erifila (*kənara*)

Müqəddəs məhəbbət! Mənə kömək ol!
Dəlilik, görünür vəsvəsə kimi.
O, anadangəlmə dəli deyildir,
Qaytar, ona qaytar onun beynini!

Floryano (*kənara*)

Ey eşq! Yalvarıram, onun ağlını,
Sən özünə qaytar! Məndəki qubar
Və xəstəliyimin bütün sirrini,
Əzabımı bilsə, daha xoş olar.

Erifila (*kənara*)

Məhəbbət! Mən sənə borcluyam, borclu,
Lakin elə et ki, bu dəli, bu an
Ehtiras odunu duysun, anlasın,
Mən sənə ömrümcə minnətdar ollam.

Floryano (*kənara*)

Ey göylər qüdrəti, Ay! Deyirəm mən,
Onu xilas edin bu xəstəlikdən!

Erifila (*kənara*)

Onu təcrübədən keçirməmiş mən,
Eşq dolu qəlbimi açа bilmirəm.

Floryano (*kənara*)

Hələ etirafdan çəkinəm gərək,
Çox açıq olmaq da boş şeydir, gerçək.

Erifila (*kənara*)

Bəlkə, dəliliyə qoyub özümü,
Ona açıb deyim ürək sözümü?

Floryano (*kənara*)

Mən ürək dərdimi, sevgi dərdimi,
Dəliyə söylərəm bir dəli kimi.

Erifila

Dostum, bir cavab ver, cavab istərəm,
Bir mənə de görüm, məhəbbət nədir?

Floryano

Məhəbbətmi? Deyim.
Qoy onu donuzun bir budu kimi,
Hisləsinlər, görsün hər fəlakəti.
Məhəbbət nədirmi? Gözü cəzb edən
İstəkdir, arzudur, diləkdir, bilsən!
Lakin o surətə sən gəl yaxşı bax,
O, qarabasmadır, xəyaldır ancaq.
Gəlib çatan kimi sona məhəbbət,
Bir ikrah gətirir, bir də ki, nifrət.

Erifila (*kənara*)

Məhəbbət! Gözəldir, sənin şəfəqin!

Floryano

Məhəbbət! Gözəlsən, arzular kimi!
Belə deyirlər ki, arzu ikidir,
Gözəllik də gərək iki cür olsun:
Bədən gözəlliyi, o biri isə
Əsl gözəlliyi bivücud ruhun.
Bax, elə bu şeydən, səni, ey dilbər,
Məhrum eyləmişdir ilahi göylər.

Erifila

Bəsdir, ey ağılsız! Bilirəm ki, sən
Ay və külək kimi yaman dönüksən.

Floryano

Yaxşı, açıq söylə, görək bir,
Ay sənin ruhuna az təsir edir?

Erifila

Ay az təsir edir mənim ruhuma,
Mənim bədənimə o keçmiş, amma.

Floryano

İstədiyi qədər, necə gərəksə,
Gücünü, nurunu günəşdən alan,
Gecə məşəlinə bənzəyirdin sən,
Eşqin nümunəsi ola bilərdin.
Lakin bu məşəllər arasından tək
Bir Merkudi vermiş bu ömrü gərək,
Təmizsən və safsan, sanki Diana,
Ondan təmiz məxluq yoxdur dünyada.
Bir söylə heç sənin xəbərin varmı,
Ehtirasın qorxunc əzablarından?

Erifila

Bilirəm, sehrkar hökmüylə daim,
O, yaxıb-yandırır, qan qaynadır, qan.
Gəl, mənə inan ki, düz deyirəm mən,
Bu söz çıxmamışdı mənim dilimdən.
Eşqi eşitmişdim mən nağıllardan,
Ancaq ki sən gəldin... Dumanlı hisslər,
Dumanlı duyğular həqiqət oldu.

Floryano

Deməli, sən məni...

Erifila (*kənara*)

Ah, doğrudanmı,
Bu dediyim sözlər hədəfə dəydi?

Floryano (*kənara*)

Görən, doğrudanmı, ağıllandı bu?

Erifila

İndi başa düşür. İndi mən ona
Etiraf eylərəm. Aman, yanıram...
Sərt bibər şəraba xoş gəldiyi tək,
Sən mənim xoşuma gəlirsən, gerçək.

Floryano

Böyük bir pəhrizdən sonra yeyilən
Donuz piyi kimi, sən xoşsan, inan.

Erifila (*kənara*)

Mənə cavab verdi həmin sözlərlə,
Bu dəli deyildir heç bir zərrə də.

Floryano (*kənara*)

Görürəm, dəli yox, lap ağıllıdır.

Erifila

Mən çox nəcabətli ailədənəm...

Floryano

Mən də ki, əyanam... Lənət şeytana,
Yaxşı gəlirim var Paris şəhrində.
İşdən başı çıxan bütün adamlar
Rentama iki min qiymət qoyurlar.
Lakin bu paltarım çox yoxsuldur, bax,
Döşümdə bir muncuq, başımda qalpaq.

Erifila

Məni soyub qaçdı xain nökərim,
Yalançı dillərlə məni qaçırtdı.
Yolda qaçdı qorxaq bir köpək kimi,
Yox, ala bilmədi mənim qəlbimi.
Saçlarım dağınıq, gözlərim yaşlı,
Burdakı adamlar rast gəldi mənə,
Torlara salınan balıqlar kimi,
Saldılar məni dörd divar ardına.

Floryano

Deyirlər, mən də bir prins öldürdüm,
İntiqam hissindən qorxaraq daha,
Əlacım qalmadı, bax bu səbəbdən
Atdım özümü bu xəstəxanaya.
Xəstələr içində, burda xəstəyəm,
Amma nə yaxşıdır ki, mən sənin ləyəm.
Barmaqlıq və təpik yaxşıdır, inan,
Boğazdan kəndirlə boğulmaqdan.

Birdən hər ikisi ayılan kimi olur.

Erifila

Dediyin düzdürmü?

Floryano

Əlbəttə, bəs sən?

Erifila

Lap düzünü dedim.

Floryano

Allah eşqinə,
Heç olmasa bir az sən yar ol mənə.
Ey xoşbəxt ulduzum, sev məni bu dəm,

Mən səndən canımı əsirgəmərəm.
Sevirəm! Buna heç yoxdur bir şübhə,
Səni dəli bilib, ürək sirrimi,
Bu dəlixanada açmışam sənə.
Elvira deyiləm, bunu da sən bil,
Ağlım da, huşum da öz yerindədir.
Böyük hörmətlərə layiqdir hər dəm
Mənim nəcib nəslim, nəcib ailəm.
Bu dəlixanaya gələnə qədər
Adıma Erifila mənim, dedilər.
Bu sirri heç kəsə açmaram əsla.
İnan, ey əzizim, gəl inan mənə.
Al bu əllərimi, sən də ver, gerçək,
İnan, sənin kiyəm qəbr evinədək!

Floryano

Aman, ey səadət! Dərdlərdən sonra,
Varam, bu əllərdə mehribanlığa...

BEŞİNCİ SƏHNƏ

Əvvəlkilər və Pisano.

Pisano

Görüm, sizi yerə girin, şeytanlar!
Görüm deşik-deşik etsinlər sizi,
Külə döndərsinlər! Heç də pis deyil...

Floryano

Ah, qoca əxlaqsız! Mən bu qadınla
Bir sülh bağlayıram, söyləyin məgər,
Sizə xoş gəlmirmi sülhpərvər işlər?

Pisano

Sülhmü? Müharibə başlayıram mən,
Elə bir dava ki, bədənləriniz

Yanacaq tünd bibər yeyənlər kimi.
Gəlin, Tomas, Martin, buraya gəlin!

Floryano (*kənara*)

İndi gələcəyik qəzəblərinə.

ALTINCI SƏHNƏ

Əvvəlkilər, Tomas və Martin.

Tomas

Yenə nə olmuşdur, deyin, burada?

Martin

Yenə üz vermişdir burda nə bəla?

Pisano

Bir-birinə bənd olmuş göyərçinlərin,
Söhbətini tamam qurtarmaqçın siz
Tutun, buxovlayın tez bu senyoru,
Bunun da qolunu zəncirləyiniz.

Erifila (*kənara*)

Ey mənim əllərim! O ayaqların
Ağrısın alsanız, xoşbəxt olardım.

Floryano

Ah, onun yerinə biləklərimə
Taxdıra bilsəydim o zənciri mən!

Tez ol, Mafusail, məni buxovla,
Onun bir günahı yoxdur, yox əsla!

(*Kənara*)

Dəlilik eyləsəm, bununçun, bu an,
Barmaqlıq ardına salınacağam.

(*Ucadan*)

Yalnız mənim özüm cavab verərəm.

Martin

Burdakı qaydalar məlumdur sizə,
Kişiylə qadını, de, ay gicbəsər,
Birlikdə qəfəsə heç salarlarmı?

Pisano

Aparın bunları.

Floryano

Hara? Şam yeməyə?

Erifila

Özüm gedərəm.

Foryano

Mən də ardınca.

Pisano

Tez olun, aparın, bu səs-küy nədir?
Mənə söhbətləri gərək deyildir!

Tomas və Martin, Erifila ilə Floryanonu aparırlar.

YEDDİNCİ SƏHNƏ

Pisano, tək.

Pisano

Təəccüb deyil ki, qəlbini oğlan,
Bu dəli arvada vermiş... Məsələn...
Deyək ki, mən özüm duzlu kişiyəm.
Ağlım başımdadır... Mən vurulmuşam.
Amurun nizəsi deşib sinəmi,
Bu məhəbbət odu yandırır məni...
Harda görünüb ki, tanrılar, amma
Salsın adamları eşq sevdasına?
Qoca vaxtımızda hər şeydən artıq
Gərək təsbeh verə bizə rahatlıq.
İndi Amur isə, sən işə bax bir,
Zülfündən əlimə bir dəmət verir.
Belə buxovlardan olmaz qurtulmaq,
Yoxdur qorxusu da yaşımın ancaq.
Məlumdur, ehtiras, bir də ki, həvəs
İşində qocalıq sədd ola bilməz
Mənə qoca yaşım əngəl deyildir,
Mən çox xoşbaxtam ki, düşmüşəm əsir...

SƏKKİZİNCİ SƏHNƏ

Pisano, Tomas.

Tomas

Ağa, xalaoğlunuz gəlmişdir bura,
Araqon sakini, o yasavul.

Pisano

Libertomu?

Tomas

Bəli.

Pisano

Ağıllı kişidir, yaxşı bilir ki,
Bu ev onun deyil, səbəblərini
O, çox gözəl bilir, amma yenə də
Gəlsin öz evi tək, qoy bizim evə.

DOQQUZUNCU SƏHNƏ

Əvvəlkilər və Liberto

Liberto

Sizin yanınıza gec gəldiyimçin
Məni bağışlayın, dostum Pisano.

Pisano

Əlinizi çox-çox sıxmaq istərəm.

Liberto

Heç olmasa iki dəfə mən sıxım,
Həm bir dostum kimi, həm qohum kimi.
Dostluq qohumluqdan əzizdir mənə.

Pisano

Xaloğlu, bax, bu ev qulluğunuzda...
Məni anlamayın hərfi mənada.
Hərçənd ki, bura bir dəlixanadır,
Sizə yer tapılar ürəyimizdə.
Nə əcəb, gəlibsiz bizim şəhərə?

Liberto

Ah, prins Reynero öldürülmüş, siz –
Məgər, bu xəbəri eşitməyibsiz?

Pisano

Bizə gəlib çatdı bəzi xəbərlər,
Amma bu sözləri biz yalan saydıq.

Liberto

Ah, kaş ki bu xəbər yalan olaydı!
O, həlak olmuşdur, bədbəxtlikdən də,
Ədabaz bir dağlı öldürmüş onu.
İndi bura gəldim başqalarıyla,
Onu hər tərəfdə biz axtarırıq.

Pisano

Qətiyyət gərəkdir burda şübhəsiz,
Allah kömək olsun onu tapmağa.
Bu işdən bolluca pul iyi gəlir.

Liberto

Cani əlimizdən qurtulmamaqçın,
Saraqosda yaman hiylə işlədib,
Bizə paylayıblar onun şəklini.

Pisano

Baxmaq maraqlıdır.

Liberto

Bəli, buyurun,
Budur, həmin cani.

(Şəkli göstərir.)

Pisano

Qəşəng görkəmi var!
Bəs bu, nə yazıdır?

Liberto

Floryanodur.
Olar iyirmi doqquz, ya otuz yaşı.

Pisano

Adamın yazığı gəlir lap buna.

Liberto

Bizi görmədi ki, burdakı dəli?
Canımdan artıqdır mənimçün bu sirr.

Pisano

Ulduzları sayıb fikrə getmişdi.
Qorxulu şey yoxdur. Yaxşısı budur,
Gedək qəlyanaltı eyləyək indi.
Sonra şam eylərik.

Liberto

Sizi görməklə,
İnanın, mən toxam. Amma bu dəli,
Yamanca təşvişə salmışdır məni.

Pisano və Liberto gedirlər.

ONUNCU SƏHNƏ

Tomas, tək.

Tomas

Doğru deyiblər ki, bütün dünyada,
Gizli bir sirr yoxdur. Divarların da
Qulaqları vardır. Bu eşitdiyim
Sirrin bir mənası olsa idi, mən
Edərdim özümü xilas ölümdən.
Təkcə, özümü yox... Yox, yox, hər kəsi!

ON BİRİNCİ SƏHNƏ

Tomas və ayaqları qandallı Floryano.

Floryano (*kənara*)

Dostdan yaxşı bir şey yoxdur dünyada.
Lakin dost tapmaqla mən öz başıma
Yaman bəla açdım. Bütün bunları
Dəlilər içinə düşmüşəmsə də,
İdrakla, ağılla, deyirəm qəlbən.
Tomas, söylə gərək, təzə nə xəbər?

Tomas

Beltraniko?
Sən qandallanmışsan? Ağır deyilmi?

Fldoryano

Bəzən, Kastilyada dedikləri tək,
Qandal keçirmişdir qarılar mənə.
Orda çox dövləli-varlı ifritə,
Ölümdən əvvəl vəcdə gələrək,
Vəsiyyət etmiş ki, nə dövləti var,
Satıb, zindanlarçın qandal alsınlar.

Tomas

Doğrudur, prinsi gəbərdən şəxsə
Elə bu qandaldan geydirəcəklər.
Onu axtarırlar hər bir tərəfdə,
Şəkli də əldədir...

Floryano (*öz-özünə*)

Aman, ay Allah!
Bir de, sən bunları hardan bilirsən?

Tomas

Bilirəm. Burdakı gözətçimizin
Yanına gəlmişdir bir gənc yasavul.
Xalası oğludur, araqonludur,
Canini axtarır, əlində şəkil.

Tomas

Onun adı nəydi? Yaddaşıma bax!
"Florla" başlayır, deyəsən, adı.

Floryano

Bəlkə, Floryano?

Tomas

Bəli, elədir!
Floryano. Cavan, qəşəng kişidir,
Yaşı iyirmi doqquz, ya otuz olar.

Floryano

O, əli şəkilli qohum hardadır?

Tomas

Gəzir otaqları o, indi bir-bir.
Bütün qonaqların bu, adətidir.

Floryano

Ah, lənət şeytana! Nə olur-olsun,
Həmin o şəkli mən, tez görməliyəm.
Sən burdaca dayan, qoy gedib mən də,
Şəkillə gələni tapım indicə.

Tomas

Ancaq mənim adım olmasın heç ha!

Floryano

Razıyam!
Hər şeydən qiymətli bu sirrdir mənə.

Floryano gedir.

Tomas

Hər şeyi anlayır, dəli olsa da!

ON İKİNCİ SƏHNƏ

Tomas və qolları zəncirli Erifila.

Erifila

İşim yaxşı gəldi. Gözətçilərdən
Bir təhər yayındım. Yenə azadam.
Zəncirdə olsa da, əllərim yenə,
Zəncir vurammazlar məhəbbətimə.
Söylə, neyləyirsən sən burda, Tomas?

Tomas

Baxıram parlayan o ulduzlara.
Nahaq gəlibsiniz, gözətçi bilər
Tutub salar sizi dar bir məhbəsə.

Erifila

Onsuz da əlsizəm, ay qoca iblis!
Dava ki salmıram. Mən lap sakitəm.

Tomas

And içirəm, sənin yox bərabərin,
Sən özün göylərin bir ulduzusan.

Erifila

Haqlısan, haqlısan, ey mənim canım!
Belə mehribanlıq, belə xoş sözçün
Mən sənə verərdim hər bir şeyimi.
Yaxşı bax, a dostum, mən gözələmmi?

Tomas

Bu, baxış deyil ki, bu, bir tələdir!
Yenə itirirəm ağlımı, nədir?
Nə qədər gözəlsən! Bir söz söylə sən,
Söylə, ey gözəlim, mənə gələrsən?
Bilirsənmi, kimlə qohum olursan?

Erifila

Kimlə?

Tomas

Sultanla!

Erifila

Bəs dedim paşayla...
Belədirsə, qoy and olsun canıma!

Tomas

Niyə and içirsən?

Erifila

Getmərəm mən əsla hərəmxanaya.

Tomas

İstəmirsən?

Erifila

Çox da axmaq deyiləm.
Nikah qoymaq üçün keşiş gərəkdir,

Tomas

Bir keşiş ucundan, ərin, söylə bir,
Mən Tomas olmayacağam!

Erifila

Dostum, bilirsənmi, bizim nikahı,
Kim, kim kəsə bilər? Yalnız Beltran.

Tomas

O dəli Beltran? Çox qəribədir!

Erifila

Təəccüb etməyin səbəbi nədir?
Nə durmusan, yeri, mən gözləyirəm.
Onun ardınca get, tez ol, yaramaz!
Bizi evləndirsin.

Tomas

Əllərini ver.

Erifila

Zəncirlidir.

Tomas

Gedirəm!

Tomas gedir.

ON ÜÇÜNCÜ SƏHNƏ

Erifila, tək.

Erifila

Ey eşq! Sən şimşəksən! Yoxsa, mən sənin
Bəs nəyə bənzədim bu sürətini?
Mənə taleyimin ər verdiyi şəxs
Qoy buraya gəlsin, buraya gəlsin.
Eşqindən, qandalı təzə tikilən
Bir paltar bildiyim, bu zindanımsa,
Nurlu göy görünən, buraya gəlsin.
Görkəmi, baxışı məni hər yerdə
Hey təqib eləyir; onun dərdindən
Hər zaman hönkürüb ağlayıram mən.
Beynimi sarsıdır eşqin zəhəri,
Vəhşi tək gəzirəm mən bu çölləri,
Lakin əzəl vaxtda olan idraka
Dönmək istəmirəm mən bir də əsla!

ON DÖRDÜNCÜ SƏHNƏ

Erifila və üzünə his yaxmış Floryano.

Floryano (*kənara*)

Artıq xilas oldum – gətirdi bəxtim,
Bu hislə üzümü yaxşı gizlətdim.
Ah, mənə arabir bizim bu həyat
Bir şahmat oyunu görünür, heyhat...
Hiylələr, tədbirlər yaraşır ona,
Özünü, yaxşıca aparsın, amma
Dünən ağ görünən həyat, bax, budur,
Bu günsə, dəyişib qapqara olur.

Erifila

Beltran!

Floryano

Elvira!

Erifila

Sən niyə bu qədər qarasan, aman!

Floryano

Şahmat oynayıram, mənim seynoram!
Rəqibə, mən güzəşt etmərəm, əsla!
Rəqibimin şahı piyadalarla,
Ata hücum etdi alovlar kimi.
Mən – atam. Bir zabit axtarır məni.
O, öz kralıyla – şahla, hiyləgər,
Mənə bu yerlərdə mat vermək istər.
Yenə də atdayam, görürsən ki, sən,
Məni qorxutmadı hiyləgər düşmən.
Dəyişib rəngimi indi bu ara,
Ağ rəngim olmuşdur, budur, qapqara.

Erifila

İndi burdadırmı o zirək zabit?

Floryano

Bəli. Şəklimi də gətirmişdir o.
İndi çaşdırsa da sizi bu rəngim,
Mən öz sifətimi dəyişim, dedim.

Erifila

Bu dəhşətli oyun, əzizim, inan,
Məni başdan-başa sarsıtdı, aman!

Floryano

Əlbəttə! Axı bu oyuna, gerçək,
Siz də qarışmışsız kraliça tək.
Başsız qalmamaqçın məndəki bədən,
Sağamı, solamı? Hara gedim mən?

Erifila

Hələ ki, burada yoxdur bir kimsə,
Açıq-aydın danış sən gəl mənimlə.
Söylə, doğrudurmu, söylə bir məgər,
Sənin şəklin ilə səni gəzirlər?

Floryano

Bəli. Ey əzizim, sənin əlindən
Yalançı dəlini almaq istərlər.
Lakin bu görkəmdə mən mübtəlaya,
Hədə gələ bilməz heç bir kəs, əsla!
Dəliyəm, qarayam mən qarğa kimi,
Yaxşı oynayıram mən öz rolumu,
Mənə heç bir kral, nə də Araqon
Yasavulları heç dəhşətli deyil.

Erifila

Mənə sirrlərini düz söylədin sən,
Məsələ aydındır, demək, sevirsən.
Bizə təhlükələr üz verməmişkən,
Gəl söhbət eyləyək öz-özümüzdən.

Floryano

Onlar bu əllərə zəncir keçirmiş...
Sən ey o əlləri bənd edən mədən,
Sən heç bilirsənmi, necə xoşbəxtsən!
Yerində olaydım, təki mən sənin.
Bu polad necə sərt – laqeyd olsa da,
Sizi tutduğundan olub bəxtəvər,
Qu kimi ağ olan ey göyçək əllər!
Yox, yox, anlamıram, batmır əqlimə.
Sərt polad sancılsın belə bədənə!
Bu nazik bədəni ağrıtmamaqçın,
Yəqin, yumşalardı özü poladın.
Bu, mümkün olsaydı, indi mən bütün
Qanunu rədd edib, bu əllər üçün
Qızıl bir bilərzik olmaq istərdim.
Bu gözəl əllərə, paslı zəncirlər
Mənim günahımdan bənd edilmişlər!

Erifila

Bunlar zəncir deyil, sən sevgilimin
Eşqi bəxş etdiyi bilərziklərdir.
Bunlardan gözəl şey varmı dünyada?
Burada, bu tutqun bəd divarlarda
Əlimə taxılmış halqa zəncirlər,
Nişan üzüyünü əvəz edirlər.

Floryano

Sənin də eşqini mənə bəxş edən
Həmin zəncirlərə qızıl deyərdim.
Mən ona krallar tacına layiq,
Qiyməti bilinməz daş-qaş düzərdim.

Birdir nəticəsi iki taleyin:
Gözə görünməyən Allah qüdrəti
Bizi birləşdirdi, bir bədən etdi.
Bizim gözətçimiz, qəddar, hiyləgər,
Dəli qarıların alçaq qənimi,
Bu iki bədəni bir görən kimi,
Dəmirə bənd etdi ayaqlarımı.
Heç əsirgəmədi iqtidarını
Ki, zavallı məhbus, heç zaman, bir an
Yol tapa bilməsin çıxmağa burdan.

Erifila

Sənin ayağında olan bu qandal,
Qəlbimi sarsıdır, eyləyir bihal.
Elə bu halda da, saf eşqin yenə,
Ən böyük mükafat, şərəfdir mənə.
Mən qorxu bilmirəm, heç zaman, hər dəm
Əzab və əziyyət çəkməliyəm mən.
Məni qəhr eyləyən bircə budur ki,
Zəncirdən qurtarıb bu əllərimi,
Sənin qucağına girə bilmirəm.
Sən mənim yanımda olanda fəqət,
Məndə də çoxalır, ümid və qüvvət...

Floryano

Səsini eşitdim o yasavulun.

Erifila

Gedimmi?

Floryano

Niyə ki? Elə burda dur.

ON BEŞİNCİ SƏHNƏ

Əvvəlkilər, Liberto və Pisano.

Liberto

Mən bərk tələsirəm. Həm də, yanımda
Adamlarım vardır.

Pisano

Niyə belə tez?

Liberto

Mən hər şeyi gördüm, sizlə Pisano,
Gəzdim qarış-qarış bu məşhur evi.

Pisano (*Floryano və Erifilaya*).

Yenə burdasınız? Yenə məhəbbət?

Floryano

Varkən yanınızda lap sizə oxşar
Belə bir sir-sifət, nədən, bilmirəm,
Ədalətsizsiniz mənimlə, yaman,
İndisə, ikiqat, ikiqat tamam.

Erifila

Siz bu tərəflərə niyə gəldiniz!

Liberto

Bacı, cinayətkar axtarırıq biz.

Floryano

Yəqin ki, burdadır axtarılan şəxs,
Burdan heç bir yana o qaça bilməz.

Liberto

Bəli, ola bilər.

Erifila

O neyləmişdir?

Liberto

Monarx öldürmüşdür.

Erifila

Ah, ey əjdaha!
Onun adı nədir?

Liberto

Floryanodur.

Erifila

Cənab, qarşınızda siz
Onun arvadını görməkdəsiniz.

Liberto (*Pisanoya*)

Yaman məzəlidir bu dəli, bax bir!

Pisano

Məzəli olsa da, bu, çox gözəldir.

Floryano

Ay düdük! Yığışdır sən seliyini!
Ağzın tez sulanır qız görən kimi.
Ey oddan dəhşətli senyor, eşidin,
Sizdə mənə qarşı, bəli, aşkardır,
Papanın möhrüylə bir fərman vardır.

Pisano

Bu alim olardı çox böyük, məşhur,
Hayıf ki, ağlını apardı Amur.

Floryano

Aslana-qaplana şıllaqlar atan,
Sən, elə eşşəkdin, eşşək qalıbsan.

Pisano

Bu da, dayanmadan, elə deyir ki,
Guya var-yoxunu kimsə soyubdur.

Erifila

Ey naqqal, ey nadan! Buna şübhən var?
Oğrunu tutmuşam, o qandaldadır.

Floryano

Həm tutulmuş, həm də əsir olmuşam.

Liberto

Sənə and içirəm, bu, çox gözəldir.
Adamın buna lap yazığın gəlir.

Erifila

Sən bu tapmacanı, əziz ərim, tap.
İki üzük vardır, bircə də arvad.
Ey mənim ürəyim! Yaxşı fikirləş...
Başa düşürsənmi?

Floryano

Bu cürə sözlər
Heç ağlıma batmır. Başım məşğuldur,
Tapmaca tapmağa hövsələm yoxdur.

Erifila

Düşünə bilmirsən, tənbəl şagird, sən,
Hər şey ki, aydındır, arvadınam mən.
Budur bax, üzüklər, hərçənd poladdır,
Qızıl sonra olar...

Floryano

Üzük kimindir?

Erifila

Zəncirli it kimi bizi bu yerdə,
Bu dəlixanada saxlayanındır.

Pisano

Məşhur nəsildəndir, görünür ki, yox,
Çox müddət bu yerdə qala bilməz o.

Floryano (*Libertoya*)

Söyləyin, siz məni tanıdınızmı?

Liberto

Yox, yox tanımaq da heç istəmirəm.

Floryano

Batmaq istəmirsiz, demək, günaha.

Liberto

Sizin sifətiniz qaradan-qara.

Floryano

Əgər, ağ olsaydı mənim sifətim,
Sizə daha qara görünərdi o.

Liberto

Qaramı? Buraxın sayıqlamanı,
Mən sizi onsuz da başa düşmürəm.

Floryano

Axı onun üçün qarayam gerçək,
Gözə tez görünür gecələr ağ rəng.

Erifila (*Libertoya*)

Siz, daha qarasız şəxsiyyət kimi.

Floryano

Mən kiməm? Siz bilmək istərsinizmi?
Sehrbaz şahların təlxəyiyəm mən.
Həm də, səfiriyəm Qvineyanın.
Krallara qarşı xırda saçmayla,
Çox mənasız işdir atəşlər açmaq.

Pisano

Aldı vaxtımızı bu boş-boş sözlər.

(*Erifilaya*)

Vermək istəyirəm sizə bir xəbər.

Erifila

Mənim də sizinçin hədiyyəm vardır,
Alın zəncirləri, bu, mənə dardır.

Pisano

Bir nəfər hamıya məşhur bir əyan
Rəisin qohumu bu gün həkimə, –
Belə söylədi ki, sizi istəyir,
Cavandır, siz onun olaydınız, kaş!

Erifila

Ay qoca çərənçi, ay qoca oğraş!
Gör mənə nə gözəl xəbər gətirdin!

Pisano

Bir allah bilir ki, mən kədərləndim.
Nahaq qismətinə şıllaq atırsan!
Bəlkə də, fikri var – ev dərmanıyla,
O, sizi, doğrudan, sağaldacaqdır.

Erifila

Bu, nə işarədir, sən sözə bax bir,
Mənə başqa bir ev gərək deyildir.
Sağalmaqdansa onun ev dərmanıyla,
Mən beləcə xəstə qalmaq istərəm!
Xoşuma çox gəlir xəstəlik, əlbət,
Bunu yaratmışdır, çünki məhəbbət.
Sağlıq istəyən tək xəstə bir adam,
Mən bu xəstəliyi istərəm mudam.

Liberto

Ardımca gəliblər, vaxtdır, gedirəm,
Sizin evinizə bir baş çəkərəm.

Floryano

Dayanın! Bu döyüş meydanından kim
Qaçarsa, qiyməti qara qəpikdir.
Belə deyirlər ki, hörmətli cənab,
Sizdə şəkli vardır bir nəfər mavrın.

Erifila

Əfsus ki, o şəxsin özü yoxdur, yox,
Olsaydı, doyunca ləzzət çəkərdim.

Liberto

Caninin şəklini mənə vermişlər,
Görmək istərsizmi siz o qəddarı?

Floryano

Əlbəttə!

Liberto

Etirazım yoxdur.
Baxın, bu, şəklidir tutulmamışdan.

(*Şəkli göstərir.*)

Floryano

Hə... Bir az oxşayır... Sizə yox, amma!
Kimin hökmündədir bu zaman, bu dəm
Harda olduğunu onun bilirəm.

Liberto

Gecikdik. Gözləyir bizi kareta.

Floryano

Xəsislik etməsə möhtərəm cənab,
Caninin yerini mən göstərərdim.

Pisanno

Sizi qapıyadək ötürüm.

Liberto

Nə gərək?

Pisano

Yox, yox, izin verin.

Liberto

Nahaq zəhmətdir!

Pisano və Liberto gedirlər.

ON ALTINCI SƏHNƏ

Erifila, Floryano.

Erifila

Dəlisən, dəlisən, sən, həqiqətən!

Floryano

Ey qorxu! Bu gözəl məşuqəmin sən
Qəşəng surətinə tutqunluq salma!
Hərçənd bu paltarın başqa nişanə,
Başqa görkəm verir, əzizim, sənə,
Lakin ürəyinə və pak ruhuna
Yaxın düşə bilməz bədbəxtlik əsla!

Erifila

Sən məni çox yaman qorxutdun, yaman...

Floryano

Bədənlə və ruhla birləşmişik biz.
Mənim əzabımdır, sənin əzabın.
Əgər bu dünyada mən maddəyəmsə,
Rəvayət deyir ki, şəkilsən sən də.
Yaradılmış vaxtı məxluqa gözəl
Şəkli sən verirsən, olur mükəmməl.

Erifila

Sən çox təhlükəli hərəkət etdin.

Floryano

Burax bu qorxunu! Mən indi, bu dəm,
Mələyim, sənin lə olmaq istərəm.

Erifila

Bu gözəl ağuşun, gözəl qucağın,
Mənə, ey əzizim, bir mükafatdır.

Floryano

Məhəbbət! Sən bizə gələcəkdə də
Kömək ol! Anlayaq bir işarədən.
Madam ki, əllərin zəncirlənmişdir,
Onda səni, gülüm, qucaqlayım mən.

ON YEDDİNCİ SƏHNƏ

Əvvəlkilər və Laida.

Laida

Heç nəyə baxmadan, bax, öpüşürlər!
Fəlakət üz vermiş bu dəlilərə.
Lap vaxtında gəlib çıxdım bu yerə.
Quldur! Dəli qızın əlindən burax!

Erifila

Məni zorlayırsan? Ah, əclaf, alçaq!

Laida

Necə ki, yenə də o, zor işlədir?

Erifila

Bəli.

Floryano

İki məftun qəlbin söhbətini siz
Gəlib eşitdiniz, siz şahidsiniz.

Laida

Sən bir söhbətə bax! Sən, ey hoqqabaz!
Kimsən? Tələbəsən, yoxsa ki, şeytan?
Bir söylə, o, sənə de, neylədi ki,
Yapışmısan ona qarağat kimi?

Floryano

O, mənim qəlbimi oğurlamışdır.
Bir bax, sinəm içi tamam bomboşdur.
Onun öz köksündə gizlətdiyini
Görməmiş ondan əl çəkməyəcəyəm.

Erifila

O, artıq görmüşdür istədiyini,
Mənsə, yalnız bir şey istərəm, dinclik.

Laida

Beltran! Sən baxma gəl Elviraya,
Əgər mənə baxsan, daha yaxşıdır.

Floryano

Gözümü qırpmadan baxıram ona,
Bəli, indi isə yekə bir daşı
Mən sənin başına çırpmaq istərəm.

Laida

Əl ver, sən gəl onun dalınca getmə.

Floryano

Oho! Bu verdiyi qəti əmrə bax!
Bu xasiyyətdə olan bütün qadınlar
Qışda da, yayda da uşaq doğurlar.
Bəlkə, təsadüfən qızdırmanız var?

Laida

Çox rica edirəm, bircə mənə bax!

Erifila

Bu qız, işlərimi alt-üst eləyir.
Allah kömək olsun, Mandrikardo,
Mən bu qısqanclığa dözə bilmirəm.

Floryano

Buluda büründü bu əlvan göylər...
Yoxdur üfüqlərdə şəfəqdən əsər.
Lənətə gələsən, ey Rodamonte!
O çəkib aparır Doraliçeni.
Sinəmdə kükrəyən, qaynayan, daşan
Qəzəbi mən hansı ölçüylə ölçüm?

Erifila

Qəddarı salaram bir mağaraya.

Floryano

Sal, sal, sən özün də çəkil dağlara.

Erifila və Floryano gedirlər.

ON SƏKKİZİNCİ SƏHNƏ

Laida tək.

Laida

Qəlbimə işləyən qısqanclıq ruhu
Necə qüvvətlidir, necə güclüdür!
Axmaq qızcığaza vurulan dəli
Mənim ürəyimi yaralamışdır.
Korlar da görərdi lap aydın-aşkar,
Yamanca möhkəmdir onların eşqi.
Hər zaman bir yerdə olurlar onlar,
Gah incə baxışlar, gah pıçıltılar...
Yox, yox, mən bu eşqə qarışacağam.
Çox gözəl bir dərman işlədib bu an,
İstədiyim kimi mən Beltranı,
Xilas etməliyəm bu ehtirasdan.
Baxmadan bu ağır, qəddar taleyə,
Mən işlətməliyəm yalan və hiylə!
Şuluqluq eyləyib, gərək qışqıram,
İndi, paltarımı gərək mən cıram.
Divanə kökündə görsələr məni,
Qızğın ehtirasla sevdiyim şəxslə,
Əlbəttə, bir yerə salarlar məni.
Daha nə fikr etsin Laida bu dəm?
Bəli, qət olundu, nə gözləyirəm?

(*Dəli kimi qışqırır.*)

Əyanlar! Nökərlər! Hardasınız siz?
Gəlmiş kraliça. Bura gəliniz.
Məni qarşılayın, gəlirəm, amma
Yamanca bürküdür, ver şərab, alma,
Hersoqum! Gəl gəzək bu salonları,
Cırtdanlar bizləri, bax, yelpikləyir.
Yarəb! O, mənimdir, o, mənimlədir!

(*Təbii səslə.*)

Deyəsən, hər bir şey qaydayla gedir...

ON DOQQUZUNCU SƏHNƏ

Laida, Fedra.

Fedra

Ey, ey, ey, Laida! Demək, burdasan!

Laida

Mən, kraliçayam.

Fedra

İşə düşdük də,
Bu, bəd əlamətdir...

Laida

Mənim donanmam,
Mənim gəmilərim tələf oldumu?

Fedra

Mənim hövsələm yox, məzəliliyə.

Laida

Yoxsa düşmənlərin hücumu ilə
Dağıldı, talandı ölkəm təmamən?

Fedra

Atan əmr edib ki, evə qayıdım,
Mən onun sözündən çıxa bilmərəm.
Heç tapa bilmərəm bir bəhanə də.
Mənim bu əmim də bədbəxtliyimdən,
Yaman tələsdirir çıxıb getməyə.

Laida

Mənim şahlığıma heç dəxli yoxdur.

Fedra

Necə? Nə şahlığa? Hansı şahlığa?

Laida

Həmən şahlıqda ki, sağ olduqca mən,
Taxt-tac üstündə hökm eləyirəm.

Fedra

Ah, yarəb! Sən dəli olmusan, gerçək.

Laida

Anama kürəkən tapam mən gərək.

Fedra

Ağlını, huşunu itirmiş, əlbət.

Laida

Amma qazanmışam əsl məhəbbət.

Fedra

Ah, Allah! Kim bunu sərsəm eylədi?

Laida

Baxış şüaları.

Fedra

Ah, nə deyirsən?
Sən bir özünə gəl.

Laida

Get bataqlığa!

Fedra

Mən ona paxıllıq, qibtə edirəm,
O, mənim varıma sahib olacaq,
O, ömrü boyunca xoşbəxt qalacaq.

Laidi

Tez yanıma gəlin, qulluqçu qızlar!

Fedra

Mən də dəli olmaq istərəm indi!

Laida

Ey, siz! Hazırlayın! Yaxşı bir süfrə!
Meyvədən, şərabdan gətirin, gəlin!

Fedra

Mən qibtə edirəm...

Laida

Tez olun, tez, tez!

Fedra

...Onun,
Bu qastronomik sərsəmliyinə.
Mən çox istəyirəm, and içirəm ki,
İstəyirəm olam lap onun kimi.
Bəlkə də, bu cürə hərəkət etsəm,
Dərhal iki şeyə sahib olaram.

Dəliliyə qoysam hərgah özümü,
Qalaram burada bir xəstə kimi.
Həm də görüşərəm mən bundan belə
Eşqini, qəlbimdə gəzdirdiyimlə.
Əzilib-büzülüm, nə olur-olsun,
Laida, Beltranın qoymaram olsun,
Qudurğanlığımı görsələr əgər,
Məni Beltrana ərə verərlər.
Qəzəbim tutanda, dəhşətliyəm ha,
Ey ağlım, namusum, artıq əlvida!

Laida

Nökərlər! Nökərlər! Kim vardır burda?

Fedra

Əmrinə hazırlıq biz, kraliça.

Laida

Təşnəlik yandırır, cəhənnəmdir, ah,
Çoxdan gözləyirəm qızılgül çayı.

Fedra

Xidmətçi yıxıldı lap təsadüfən,
Tökdü, yerə tökdü limonadı.

Laida

Vursunlar köksünə bir odlu güllə!

(*Kənara*)

Bizim bu xanıma nə olmuşdur bəs?
Birdən kələyimi o, başa düşər...

Fedra (*kənara*)

Qorxulu bir dərdə tutulmuşam mən,
Lakin sağlamlığı heç istəmirəm.
Ruhumu, qanımı, bu dəliliyim
Burax bulandırsın. Məhəbbətə biz,
Dəlilik, sərsəmlik eyləmirikmi?

Laida (*kənara*)

İndi necə başa düşüm bunu mən?
Bəlkə, maska geyib bu, dəlilikdən?

Fedra

Böyük kraliça! Sizə bir nökər,
Eşqindən bir nağıl söyləmək istər.

Laida

Nolar, həmin nökər o Beltransa,
Qoy gəlsin, maniə heç yoxdur əsla.

Fedra

Mənim hüzurumda de, hansı nəfər,
O kobud insanın adını çəkər?

Laida

Beltran, tək mənim öz sevgilimdir.

Fedra

Sənin? Söylədiyin yalana bax bir!
Qanuni nikahla vardır arvadı...

Laida

Kiminlə, ay alçaq, söylə adını.

Fedra

Mənimlə.

Laida

Sənlə? Nə alçaq yalan deyirsən?
Bir söylə, kim kəsdi sizin nikahı?

Fedra

Roma papası.

Laida

Olan işmi bu?
Papa yox, bəlkə də, bir tutuquşu.

Fedra

Bu qabyuyan arvad o Beltranı –
Özünə ər etmiş? Bəs dəlil hanı?

Laida

Ah, həyasız, alçaq! İndi, səni mən
Tamam yox eylərəm bu yer üzündən.
Mənə, böyük Oran kraliçasına,
Dediyinə baxın, kaftar qarğanın.
Donanmam bayrağı qaldırıb yenə,
Qoy tez hazırlaşsın müharibəyə!

Fedra

Əgər, belədirsə, bax, bu sözlərdən
Dişsiz qalacaqsan.

Laida

Mənmi? Bəlkə, sən?
Əmr edin, odunlar yarmaq üçün biz,
Buraya bir balta gətirsinlər, tez!

Fedra

Sən kraliçasan? Yalandır, alçaq!

Laida

Yalandır? Ay mitil, al bu, şapalaq!

Fedra

Mənə şapalaqmı vurursan, amma,
Səni deşəcəyəm mən bu sancaqla!

Bir-biri ilə tutaşırlar.

İYİRMİNCİ SƏHNƏ

Əvvəlkilər, Xerardo və Valerio.

Xerardo

Keçin içəriyə. Mən vəzifəmin
Tələb etdiyi tək görüm nə küydür.
Sonra ricanızı böyük diqqətlə
Oturub dinlərik...

Valerio

Tez bura gəlin!
Bacınız qızını burda bir dəli
Tutub döyməkdədir.

Xerardo

Nə olmuşdur, nə?
Onu, tez ol, burax, burax, bir tez ol!
Fedra! Sən buraya niyə gəlmisən?
Bəs gözətçi hanı? Ey, gəlin tez-tez!
Aparın dəlini! Sərt dəlilərə
Tək barmaqlıq var.

Laida

Mənim qardaşım,
Məgər ki, siz məni tanımırsınız?

Xerardo

Laida, bu, sənsən?

Laida

Bəli.

Fedra

O murdar,
Kraliça deyir özü-özünə.
Həm də, arvad olub. Özü də kimə?
O don Beltrana! Allah bilir ki,
Hamı da bilir ki, Beltran, o bic,
Mənim ərimdir...

Xerardo

Beltran! İlahi!
Nə sayıqlayırsan?

Valerio

Xerardo, Allah
Görür, hər ikisi dəli olmuşdur.

Xerardo

Aman ey haqq Allah! Bu, necə oldu?
Bəlkə, ürəyinə bunların cinlər,
Cadular, sehrlər gəlib girmişdir?

Fedra

Bəsdir! Nə cadugər? Bu, məhəbbətdir.
Sehr də gözəllik və mələhətdir.
Bilmək istərsiniz bu, nə sehrdir?
Baxın Beltrana, bu azarı siz
Böyük bir xoşbaxtlıq hesab edərsiz.

Laida

Bu adam məni də sehirləmişdir.
Şiddətli eşq odu mənim sinəmi
Yandırıb kül etdi öz tonqalında.

Xerardo

Valerio! Borcumdur, bu dərdə gərək
Dözəm, necə olsa, mən bir kişi tək.
Amma ki, burada, görünür, aşkar
Nəsə, müəmmalı bir səbəb də var.

Laida

Mən, kraliçasıyam sarasinlərin,
Lakin imperiyam burdadır, burda.

Valerio

Burda çox qəribə bir əlamət var.
Olmaz həqiqəti eylərəm inkar:
Bunların hamısı sehrbazlıqdır.

Xerardo

Elə, mən özüm də bu fikirdəyəm,
Gülüb oynayırsa Amur burada,
Olmaz cilovunu saxlamaq, əsla!
Uğursuz saatda Beltranı siz,
Bu xəstəxanaya gətirmişsiniz.

Valerio

Bu az müddətdə də vurulmaq olar?

Fedra

Niyə qəm çəkirik? Gəlin, rəqs edək.

Xerardo

Yenə şiddətləndi bu xəstəliyi.

Laida

Deliqo, deliqo, deliqo – deli...

Xerardo

Bu saat divara dırmaşacaq bu.

Fedra

Ke deliqo de kandeoli!

Xerardo

Ah, hansı sehrbaz etmişdir bunu?

Fedra

Betran, Beltran. Anladınızmı?

Xerardo

Zəhləmi apardı bu ad, ah, aman,
Hər yerdə Beltran, yenə Beltran.

Valerio

Belə qızışdırmaq, ustadcasına!

Xerardo

Mənim bacım qızı!

Fedra

Quqquluqu!

Valerio

Bunları möhkəm bir qıfıl altına,
Əgər tutub salsaq, yaxşı olmazmı?
Belə xülyaları zindan sağaldar.

Xerardo

Yox, Beltranı elə bişirərəm ki,
Bu işdə siz mənə arxayın olun,
Dərddən xilas edən yaxşı hakim tək,
Xilas olduğuyçun nəşələnəcək.
Keçər, beləliklə dəlilikləri.

Valerio

Günah və cəzanı, ricam belədir,
Yaxşı ölçüb-biçin. O, gicbəsərdir.
Sağlam bir adama xeyirli olan
Ağır bir xəstəni...

Xerardo

Bəli, elədir.
Elə, səbəb budur, ey əziz dostum...
Axı bu mərəkə qurtaracaqmı?

Fedra

Məhbəsə qoymaram mən Beltranı,
Beltran ölərsə, ölərəm mən də!

İYİRMİ BİRİNCİ SƏHNƏ

Əvvəlkilər, Tomas, Martin və Pisano.

Pisano

Bu, nə vurhavurdur?

Xerardo

Mənim bacım qızı, əziz Pisano,
Bax, dəli olmuşdur, yaxşıca bax bir!

Pisano

Fedra! Burdasınız? Çox qəribədir!

Fedra

And içirəm, burda qalacağam mən.

Tomas

Görkəmdən bilirəm, onlar bax belə...

Pisano

Özüm, sağaltmağa özüm başlaram.
Tez də sağaldaram.

Martin

Laida!

Laida

Bu qaz nə istəyir?

Pisano

Nə qədər acizdir bizdəki idrak!
Senyor, bu bəlanın səbəbi nədir?

Xerardo

Dostum! Məhəbbətlə zarafat olmaz!
Günahkar – eşqdir.

Pisano

Boş sözdü, inan,
Bunları bir gündə mən sağaldaram.

Xerardo

Sənin əlindədir ümid lövbəri.

Pisano

Tez olun, bunları tez yaxalayın!

Tomas

Dayan!

Fedra

Ey köpək! Burax!
Qarnına tökərəm dişlərini bax!

Martin

Yaxın düşmək mümkün deyil onlara.

Xerardo

Pisano işarə verən kimi, sən
Onları bir anda, tez yaxalarsan.

Valerio

Bu xəstə qızı,
Söyləyin, apara bilərəmmi mən?

Xerardo

Əvvəlcə bax bunu, sonra da bunu
Məhbəsə gəl salaq. Məsləhətlərə
Sonra vaxt taparıq. Yaman tərlədim!

Fedra

Burax, burax məni!

Martin

Yum ağzını, yum!

Fedra

Beltran ərimdir, tale vermişdir!

Laida

Yox, mənim ərimdir!

Valerio

Bir görün bu bədbəxt nə cəfəngləyir!

Xerardo

Əgər dəli isə eşqə düşən şəxs,
Bundan pis fəlakət heç ola bilməz!

ÜÇÜNCÜ PƏRDƏ

DƏLİXANA

BİRİNCİ SƏHNƏ

Xerardo, Verino.

Verino

Burda bir qorxu da vardır, Xerardo,
Yeməyi heç əlsa qəbul etmir o.
Güclə yedizdirək gərək biz onu.

Xerardo

Beltranla Fedra, dostum Verino,
Dəli olan gündən bu bacım qızı,
Görüşdən tamamən məhrumdur, demək.
Gözünə görünmür onun heç yemək.

Verino

Xəstəliyin adı anemiyadır,
Adamın rəngini yaman saraldır.
Ən pis düşmənidir səhhətin aclıq.
O dağıdır, pozur bütün mədəni.

O qədər soyuyur, süstləşir bədən
Ki, düşür taqətdən əllər-ayaqlar.
Ona təzə çörək, ya sirkə verin,
Deyin ki, iyləsin. Bu, yaxşıdır bil,
Ayağı suya da salmaq pis deyil.

Xerardo

Məhbəsdə qalarkən, təklikdə o qız
Düşmüşdür çox dərin malxulyalara,
Qorxuram fəlakət gələ, Verino.

Verino

Gördüm ki, o yazıq qızdırmalıdır,
Bu əmələ gəlir mialxulyalardan.
Bu ağır, üzücü azarın adı,
Katalepsiyadır, pis xəstəlikdir.
Dəlilər qızışıb coşan zamanlar
Bunun da, çox böyük əhəmiyyəti var,
Bir də, qədimlərdə, bu Fedra kimi
Özündən getməli xəstəliklərə
Erotizm deyirdilər. Onda, əlbəttə,
Səbəb görürdülər tək məhəbbətdə.
Gəlir gözlərinə şəffaf xəyallar,
Edir bu, onları yaman narahat,
Müdhiş bir qəzəbə gəlir dəlilər,
Qudurğan bir hisslə coşürlar hər vaxt.

Xerardo

Şübhəsiz, o qızda bax bu xəyallar,
Ehtiras yaratmış o Beltrana.

Verino

Adı frenesyadır bu xəstəliyin,
Posidonn belə yazır ki: "Yəqin,
Beyin pərdəsinin şişməsindəndir.
Qızdırma gətirir o, xəstələrə,

Bədən isitmədə alışır yanır,
Bu zaman, idrak da bərk dumanlanır".
Frenesyaya qarşı tibb aləmində
Əlaclar çoxsa da, onları, amma
Sizi çox yorardım sadalamaqla.
Bircə bunu deyim: həmin dəlini
Görmək imkanından məhrum etsəniz,
Ölüm hədələyər bu zavallını.

Xerardo

Mən indi neyləyəim, nə çarə qılım?
Onları nə təhər mən birləşdirim?

Verino

Birlikdə olmağa icazə verin,
Qızı əyləndirin, bir də ki mütləq
Deyin ki, olacaq onların toyu,
Çünki sayıqlayır o, özü bunu.
Bilin ki, qadınlar hər vaxt, hər zaman
Kişiyə dərman tək can atırlar, can.

Xerardo

Mənim də başıma gəlmişdi bax bu...

Verino

Çox gözəl. Bu fikir doğrudur, doğru.
Qalendən, ya da ki, İbn-Sinadan
Gəlin, borc almayaq bu əlacları.
Sakit dəlilәri həbsxanaya
Salmaq zərərlidir, onu bir ara
Çıxarın, qoy baxsın bu bayramlara.
Əgər istəyərsə, şərab da verin,
Şirin şərabların törətdikləri
Xəyallar yox edir yağlı yeməkdən

Yaranan çox qəliz təəssüratı.
Sizə deməliyəm yeri gəlmişkən,
Bu gün bu binada çox şux, maraqlı,
Müqəddəs körpələr bayramı vardır.
"Porrate" deyirlər valensiyalılar.
Onu siz eyvana çıxardın, varsın,
Baxıb bu bayrama ləzzət aparsın.
Əgər istəsəniz, elə bu gecə,
Yalançı bir toy da düzəldək, məncə.
Deyək ki, dəliyə veririk onu,
Eşidib bilincə o, öz toyunu,
Gələr ürəyinə bir sevinc, şadlıq,
Həm sağlamlıq tapar, həm də rahatlıq.

Xerardo

Sizin məsləhətə əməl eylərəm.
Dostum, bir dayanın! Yaxşı deyiblər:
Ov özü ovçuya bəzən rast gələr.

Verino

Necə ki?

Xerardo

Beltran özüdür, diqqət edin bir!

Verino

Yaxşı əlamətdir!

İKİNCİ SƏHNƏ

Əvvəlkilər və Floryano.

Floryano

Məni öldürsünlər, ancaq buradan
Heç yerə getmərəm!

Xerardo

Yenə nə olmuş?

Floryano

Onlar istəyir ki, mən də hamıyla,
Elə bu gün axşam çıxım həyətə,
Guya onlar kimi dəliyəm mən də.
Mənsə lap sağlamam. Mənim idrakım
Sizdən də, bu evdə olanlardan da
Çoxdur... Birdəfəlik əl çəkin məndən.
Heç kəsə görünmək istəmirəm mən!

Xerardo

Haqlıdır, dəyməyin siz Beltrana.
Onsuz da sədəqə, nəzir yığmağa
Adamımız çoxdur. Onu, siz amma
Güclə gətirməyin bizim bayrama.

Floryano

Ey, senyor Xerardo, kimdir bu adam?

Verino

Dostları yadından tez çıxarırsan?

Floryano

Axı kimdir, kim?

Verino

Mən, burda həkim.

Floryano

Senyor lisensiat! İnanın ki, mən
Sizi görməyimə şadam ürəkdən!

Mənim bu sinəmdə olandan başqa,
Hər şeyin ruhunu dərk edənlərin,
Alim adamların köhnə dostuyam.

Verino

Ruh, nəyə deyərlər, sən bilirsənmi?

Floryano

Bilirəm:
Bədəndə kamalın ilk nişanəsi.

Verino

Bəs necə bilirsən, həmin ruhdakı
Ehtiras nə şeydir?

Floryano

Yaxşı tanıyıram bu ehtirası,
Yaşayır ruhumda mənim başqası.

Verino

Necə? Ruhda ruh?

Floryano

Təsəvvür edin ki, köksümdədir bu.

Verino

Harada yaşayır, söylə bu ruhlar?

Floryano

Bilirəm. Ürəkdə. *Zərb-məsəldən,*
Bir də ki, müdriklər söyləyir bunu.
Axı deyiblər ki: "Qəlbi qoruyun,
Orada yaşayır həyat mənbəyi!"

Lakin sizin kimi dahi həkimlər
Hər yerdə, hər zaman belə deyirlər
Ki, ruhlar yaşayır yalnız beyində.
Ordan bütün işlər çıxır həmişə.
Dolanır bədəni bu böyük qüvvət,
Verir hər bir üzvə güc və hərarət.

Xerardo

Bu, düzmü danışır?

Verino

Əlbəttə, bax bir,
Şübhəsiz, bu, özü böyük alimdir.
İdrakı başında olmasa da bu,
Danışır ağıllı, məntiqli, doğru...

Floryano

Buyurun görək.

Verino

Görürəm ki, siz
Ruhlar aləmindən çox bilirsiniz.
Yaxşı anlayıram, sevdiyinizçin,
Çox əzab çəkdiniz, dinləyiniz bir,
Çarəsi tək sizin əlinizdədir.

Floryano

Ona nə olmuşdur?

Verino

Sizin dərdinizdən dəlidir Fedra.
Zavallı hay-haray salır daima.
Onunla siz əgər evlənməsəniz,
Bəlkə, öləcəkdir... Xerardoyla biz

Hər şeyi danışdıq. Siz hazır olun,
Bəlkə, toy olacaq lap bu gün axşam.

Floryano

Düzdür, ya zarafat?

Verino (*Xerardoya yavaşca*)

Nə deyək buna?

Xerardo

Deyin, zarafatdır.

Verino (*Floryanoya*)

Bəli, zarafat,
İstəyirik olsun qızcığaz rahat.

Floryano

Çox yaxşı. İnanın, mənim ağlım var.
Adaxlı olmağa idrakım çatar.

Xerardo (*Verinoya, yavaşca*)

O qədər ağıllı danışır ki, bu,
Deyirəm, işimiz baş tutacaqdır.

(*Floryanoya*)

Siz burada qalın. Vaxtı gələndə
Sizi çağıraram. Gedək, Verino.

Floryano

Sizi gözləyirəm elə bu yerdə.

Verino

Gedək, bir baş çəkək bizim gəlinə.

Verino və Xerarda gedirlər.

ÜÇÜNCÜ SƏHNƏ

Floryano, tək.

Floryano

Elə bir gündür ki, qorxuram məni
Bu gün tanısınlar. Axı tezliklə
Tökülüb gələcək bütün bu şəhər,
Baxmaqçın doyunca mənim üzümə.
Bəs harda gizlənim? Bəs hara gedim?
Bu gün çıxartdılar bu qandalları.
Amma istərdim ki, bu saat, barı
Taxıb qandalları düşüm məhbəsə.
Mən azad olsam da, bu qorxu qurdu
Yandırır qəlbimi atəşdən betər.
Onlar heç anlamır, başa düşmür bir,
Azadlıq – mənimçin edam deməkdir!

DÖRDÜNCÜ SƏHNƏ

Floryano, Erifila.

Erifila

Sizin şadlığınız və təntənəniz,
Mənə dərddən başqa hiss verməsə də,
Gəldim ki, mən sizi təbrik eyləyəm.
Mənə başsağlığı verirlər, əfsus...
Fedrayla əbədi xoşbəxt olunuz!

Floryano

Bu, bir zarafatdır.

Erifila

Zarafata siz
Çox böyük, çox ağır xərclər çəkdiniz.

Floryano

Yox, elə danışma. Bir azca dayan,
Mənə arvad olar, söylə, Fedradan?
Gəl, yalan danışma, sən gəl bunu bil,
Bu, bir zarafatdır, ayrı şey deyil.

Erifila

Zarafat! Eşqlə, məhəbbətlə mən
Zarafat etməzdim. Sən evlənmisən.

Floryano

Kim? Mənmi? Yalandır!

Erifila

Hər yerdə, hər an
Danışırlar bundan, deyirlər bundan.

Floryano

Sən də inanırsan bu boş sözlərə?

Erifila

Razılıq vardımı, söylə bir görək?

Floryano

Xəstəni almaqçın bu malxulyadan,
Xilas etmək üçün minbir bəladan.
Başını nikahla qatmaq istədim:
O, elə bilir ki, bənd olub mənə,
Bundan dəli olub... Belə zarafat
Verər idrakına onun rahatlıq,
Hər şey unudular, tez keçər artıq.

Erifila

Yox, bununla məni ələ salırsan,
Amma bil ki, qəlblə zarafat olmaz.

Floryano

Yalan deyirəmsə, qoy bütün dünya
Məni lənətləsin... Qəlbim aləmi
Qoy düşsün ən ağır iztirablara.
Qoy sərsəm küləklər saf ümidimi
Küllərə döndərib sovursun yelə,
Qoy mənim ürəyim elə bu saat
Yüz yerə, min yerə qoy parçalansın.
Qoy uca göylərin şəfəqlərini
Bir daha görməyim, müdhiş tufanlar
Bizləri əbədi qoy ayrı salsın!
Mən məhkum olmuşam səni sevməyə,
Sənsə, inanırsan hər əfsanəyə...

Erifila

Bəli, təkid ilə deyirəm hər an
Sən o Fedra ilə nişanlanmısan.
Hər kim ki, özünü doğrultmaq üçün,
Təmtəraqlı sözlə çox andlar içir,
O, yalnız özünü ifşa eyləyir.
Nişanlanmasaydın onunla əgər,
Dilinə gəlməzdi hay-küylü sözlər...
İşi düzəltməkçin and içirsən sən,
Amma fərasətsiz, biclik edirsən.
And içirsən parlaq sözlərlə müdam,
Bir də, söylə mənə, sən nə borclusan?
Sənin taleyində kiməm, nəyəm, nə?
Bir gün tanıdığın bu qadın, sənə
Nə üçün gərəkdir? Sənlə ki, mən
Gəlin yatağını bölüşməmişəm.
Sənincin qaçmadım ata evindən,

Sənə ki, məktublar yazmamışam mən.
Mən də səndən bircə məktub almadım,
Mən sənə nə üçün deyim yalançı?
Niyə mane olum evlənməyinə?
Bir an, bircə anda, nə üçün söylə,
Öz dəliliyimə eylədim şübhə?
İndi hər şey bitdi. Artıq bəsdir, bəs!
Sevərək gedirəm. Burdasa, amma
Başqa birisi var, sən toya tələs!

Floryano

Əzizim! Bir dayan, sözüm var sənə,
Bu göylər qaytarsın qoy səni mənə!
Yalvarıram, neçə gün keçdi fəqət,
Bizi birləşdirdi böyük məhəbbət.
Lakin bu surətin, xəyalın, inan
Mənim ürəyimdə yaşayır çoxdan.
Həyatda olur ki, bax iki nəfər,
Tanış olsalar da çox uzun illər,
O böyük məhəbbət, bir işıq kimi,
Birdən nurlandırır hər ikisini.
İndi, ey əzizim, ulduzlar bizə
Kömək eyləsələr bu eşqimizə,
Burda bir təəccüblü nə var ki, aya?
Biz də bənzəyirik o ulduzlara.
Görüşəndən bəri, bu iki günü,
Vardır az müddətdə min ilin ömrü.
Deməli, mənim də eşqimin ruhu,
O qədər yaşayır əsrlər boyu...

Erifila

Bax bu səfsətədən lap zəhləm gedir,
Bəsdir, bu sözləri qurtar görək bir!
Könlümü tez almaq olardı ələ,
Elmlərlə yox, yalnız saf məhəbbətlə.
Hay-küylü, bəzəkli sözlərdən artıq
Gözəl bəhanədir, bir günahsızlıq.

Floryano

Əgər belədirsə, mənim səmamı
Yenidən nurlandır məhəbbətinlə!
İndi mənim ruhum bomboş, qaranlıq
Soyuq ocaqdır ki, odu yox artıq.
Sən mənə hirsləndin ey gözəl pəri,
Bununla məndəki canlı hissləri,
Tamam məhv eylədin. Yaxşı bax, mənim
Ruhum yox, soyuyur artıq bədənim.
Bir bax, buza dönmüş bir cənazə tək
Qarşında durmuşam. İndi sən yenə
Gözəl əllərini ver öz ərinə.
Qandaldan qurtarsın qoy məni onlar,
Gəl, səadətimi özümə qaytar!
Hazıram unudam hər bir əzabı.
Mənə rəhmin gəlsin!

Erifila

Bəs qəzəbimi
Görmək istəmirsən? Mən sən xaini,
İndi qucaqlayım öz ərim kimi?
Yox, yox, mən bu qədər alçalmamışam.

Floryano

Yalvarıram!

Erifila

Çəkil!

Floryano

Duyğularını
Gizlətmə. Əriyib üzüldü ruhum...
Əlini mənə ver.

Erifila

Fedraya yalvar!

Floryano

Sənin əllərinə pərəstişkaram.
Ağlayıram...

Erifila

Hanı, hanı göz yaşın?

Floryano

Özümü öldürrəm... Niyə dinmirsən?

Erifila

Öldür!

Floryano

Nə deyirsən?

Erifila

Dediyin hədəni yetir yerinə.

Floryano

Kəsərəm indicə damarlarımı...

Erifila

Kəs! Yalançı dilin ölüb qurtarsın.

Floryano

Mən sənə nə zaman yalan söylədim?
Nə haqsız məzəmmət!

Erifila

Təsəllindir, bu,
Tez ol get, tez ol get, bura gələn var!

Floryano

Mənim düşmənimdir bu gələn adam!

Valerio (*səhnə ardından*)

İçəri buraxın adamlarımı!
Gəlmişəm o qızı mən aparmağa.

Floryano

Sənin̂çin gəlmişdir.

Erifila

Allah eyləsin!

Floryano

Onunla gedirsən?

Erifila

Mən? Yəqin, mütləq!

BEŞİNCİ SƏHNƏ

Əvvəlkilər və Valerio.

Valerio

Ardınca gəlmişəm.

Erifila

Əmim göndərib?

Valerio

Dostum, həkim sizə kömək etdimi?

Floryano

Xeyir, özümü çox pis hiss edirəm:
Gah yanıram, gah da qalmır taqətim.

Valerio (*Floryanoya*)

Onu aparmağa izin almışam.

Erifila

O, buna şaddır.

Floryano

Məni vaxt tapdınız əyləndirməyə!
Senyor, bilirsizmi neyləyirsiniz?

Valerio

Mənim fikrim-zikrim elə bir budur.
Amma, doğrudan da, o, qohumumdur.
Ona, burda qalmaq zərərlidir bərk...
Qapıda gözləyir nökərlər, xərək...

Erifila

Sizin yaxşılığı mən unutmaram.
Tez olun, tez məni burdan aparın!
Bu yer cəhənnəmdir mənə, cəhənnəm,
Şadlığa, nəşəyə yoxdur hövsələm.

Valerio

Erifila, mənlə gedirsinizmi?

Erifila

Gedirəm, gedirəm məmnuniyyətlə!
Sizi görməyimə, senyor, çox şadam.
Ruhumdan aldınız ağırlığı siz,
Bir də... Siz o qədər çox gözəlsiniz
Ki, getdi, yox oldu hər dərdim-qəmim.

Floryano

Atəş qaynağıdır, bu, qadın deyil!

Erifila

Bəli, bu gün burda toy olmalıdır,
Lakin bu qısqanclıq... Mən qısqanclığın
Kaş ki, bilməyəydim əzablarını!
Gözdən məhrum edir məni o qəddar,
İki göz çıxarsan, qisasım olar!
İnanın, dediyim boş söz deyildir,
Kəsərəm həyatla haqq-hesabımı.

Floryano

Elvira, özünə vermə əziyyət,
Əgər istəyirsən, onlarla çıx get.
Çox gözəl fürsətdir, əldən buraxma,
Bir də, bu fürsəti tapmazsan, amma.
İstəmə heç kəsə pislik, nə çıxar?
Hər hissin, duyğunun öz sərhəddi var.
Mən burda qalıram, xəstəxanada,
Qalıram əbədi. Artıq əlvida!

Erifila (*Valerioya*)

Yaxşı, gedəkmi?

Valerio

Gedək, qapıdadır xərəklər, gedək.

Floryano

Sonradan peşiman olmamaq üçün,
Hər şeyə səbr edəm, mən dözəm gərək.
Çox yaxşı bələdəm mən Elviranın
Qızğın xasiyyətinə. Gedən tək, ancaq
Tutduğu əməldən peşman olacaq.

(*Erifilaya*)

Gedirsən?

Erifila

Gedirəm, bu ayrılığı
Yada salacağam məmnuniyyətlə!

Floryano

Kədərdə, qəzəbdə, qəmdə tək-tənha
Burda qalacağam. Baxtımız bizim
Ölüm saatını təyin edəndə.
Bir azca artırır müddətimizi.

Valerio

Hə, artıq əlvida, dostum Beltran!
Mən bu xəstə qızı aparmalıyam.
Geri qayıdanda, sizin bayrama,
Sizin bu şənliyə bir baş çəkərəm.

Erifila (*Floryanoya*)

Əlvida, heyvərə! Ey tora düşmüş,
Acgöz, hiyləgər!

Floryano

Sən də, bəd deyilsən! Qorxub qaçırsan,
Elə bil ayağın heç yerə dəymir.

Erifila

Oturub bir isti soba yanında,
Öpün ayağından dovşanınızın.

Floryano

Allah kömək olsun, yazıq quzu, siz
Canavar ağzına keçəcəksiniz.

Erifila və Valerio gedirlər.

ALTINCI SƏHNƏ

Floryano, tək.

Floryano

Vaxtı yetişməmiş öz sirrimi mən
Heç kimə, heç kimə açа bilmərəm.
Mən az danışmalı, onun ardınca
Çox böyük diqqətlə göz qoymalıyam.
İndi mən ağzıma gərək su alam...
O, məni çox sevir, bu, şübhəsizdir.
Bütün tapmacalar, bütün şübhələr
Yalnız qısqanclığın nəticəsidir.
Borcluyam ömrümü mən Valerioya,
Deyil təsadüfi eşqim və ömrüm
Böyük bir sirr ilə pərdələnmişdir.
Yenə əzəlki tək tənhayam gerçək,
Amma bilirəm ki, o qayıdacaq
Hicranı xoşbaxtlıq əvəz edəcək.
Bunun rəhni onun məhəbbətidir.

Dərd çəkməyə dəyməz, getsin qəmimiz,
Yenə də, birlikdə olacayıq biz...
Ancaq maraqlıdır, bizim gəlinə
Bu yalançı nikah nə verəcək, nə?

(*Gedir.*)

YEDDİNCİ SƏHNƏ

Əli qamçılı Pisano, Laida, Tomas, Martin, Belardo, Mordaço, Kalandrio, başqa dəlilər və onların yanına gələnlər.

Pisano

Qaydayla düzülün, tez, tez, cərgəyə!
Boş-boş danışmayın, üz-gözünüzü
Əsla turşutmayın, görərsə hər kim,
Sizlərdən xoşlansın, əl atıb cibə,
Çoxluca, bolluca sədəqə versin.

Tomas

Məgər bilmirsiniz neyləmək gərək?
Bunlarla yanaşı dayanıb siz də,
Tutun qamçınızı öz əlinizdə,
Onu işə salın qaydayçın hərdən...

Martin

Sədəqə verən şəxs varmıdır, aya,
Rəhm edin biz yazıq zavallılara...

Belardo

Yazıq dəlilərə bir ehsan verin!

Mordaço

Do-sol-fa-sol-re-mi-sol-fa-re-do...

Kalandrio

Mənim xanımımın əmr etdiyni
Yerinə yetirdim, lakin toyumuz
Baş tutmayacaqdır, çünki mən bu dəm,
Ölürəm, ölürəm və çürüyürəm.

Belardo

Bəli, bu misralar Petrarkanındır,
Bəlkə də, Ovidi yazmış bunları.

Laida

Deyirlər, əvvəli çox çətin olur.
And içə bilmərəm. Bildim ki, gerçək,
Ağlımın başımda olmasına mən
Nədir, necə şeydir adət eyləmək!

Mordaço

Musiqi varlıqla ülviyyətin
Ahəngdar olması, birləşməsidir.
Bütün bu dünyada olan nə varsa,
Hamsı musiqidir: Ay və ulduzlar,
Mehtabın altında yaşayan insan
Əşya gözəlliyi musiqidədir!
Do-sol-fa-sol-re-mi-fa-sol-re-do!

Kalandrio

Sizə, təsadüfən Portuqaliya
Bayraqlı bir gəmi rast gəlmədi ki?
Siz bu üfunəti hiss etmirsiniz?
Təsəvvür edin ki, bu sözüm haqdır.
Bu, mənim qəlbimdə bərk alovlanan
Odlu məhəbbətin çəkdiyi ahdır.

Belardo

Şeirdə iki hissi gərəkdir gözləyək biz,
Gərək heç unutmasın bunu şairlərimiz:
Bunun biri gözəllik, biri də ki mənfəət,
Siserondan qalmışdır bizlərə bu məsləhət,
Yalnız gözəllik deyil şeirlərin zinəti,
Gərək bu şeirlərin bizə nə mənfəəti?

Laida

Gözləri qəşəngdir Beltranımın,
Üzü nə gözəldir, xoş səsi vardır!
Uzun saatlarla onun səsinə
Qulaq asan adam nə bəxtiyardır!

Tomas

Yazıq dəlilərə, senyorlar, aman,
Verən olmayacaq sədəqə-ehsan?

SƏKKİZİNCİ SƏHNƏ

Əvvəlkilər, səyyah paltarlı prins Reynero və nökər qiyafəli Leonato.

Reynero

Bax, bu dəlixana buna bənzəyən
Bütün binalardan daha məşhurdur.
Gizlincə dolaşdım mən bu şəhəri,
Gördüm şəhərdəki möcüzələri.
Həmin bu binanı, bax Leonato,
O möcüzələrə tay etmək olar.
Saraqosda olan xəstəxana da
Bir az bənzəyirsə bu xoş binaya,

Lakin bu ev ondan daha yaxşıdır.
Yeddi möcüzə var dünyada, məşhur.
Onların biri də, yaxşı bax, budur!

Leonato

Bəli, məşhur evdir! Biz bu şəhəri
Tərk etməzdən əvvəl bu gözəl evə
Tamaşa etməsək, peşman olardıq.
Mən sizə söyləyim yeri gəlmişkən,
Yolda danışdığım həmin o xanım
Burdadır, dəlilər arasındadır.
Onunla görüşmək yaxşı olardı...

Reynero

Qoy bu dəlilərə bir yaxşı baxım.

Pisano

Ey, senyor!

Leonato

Nə buyurursunuz?

Pisano

Kavalyero kimdir, bilmək istərdim.

Leonato

Mən ona ürəkdən xidmət etsəm də,
Hayıf ki, bilmirəm kim olduğunu.
Asco yanında iki gün əvvəl
Özümə oxşayan yoldaşlarımla
Qayğısız, kədərsiz vaxt keçirərkən,

Bu gəldi yanıma, danışıb, məni
Nökərliyə aldı. Kavalyerodan,
Öyrəndim ki, əsli araqonludur.
Başqa şey bilmirəm mən bu cənabdan.
Amma baxan kimi bunun üzünə,
Bilinir zadəgan nəslindən olmuş.
Bunu görmək olur hər rəftarından.
Mənsə baxan kimi dərhal görünür,
Kastilyalıyam.

Pisano

İzin versəniz,
Sədəqə istərdik bu cənabdan biz.

Leonato

O, əliaçıqdır, alacaqsınız.

Pisano

Şanlı kavalyero, əmr eləyin ki,
Pay əta etsinlər, bu yazıqlara.

Reynero

Lütfən söylə, bunlar sakitdirlərmi?

Pisano

Bəzisi arabir şuluqluq edir,
Amma indi, senyor, bu ab-hava,
Onları çox sakit edib.

Reynero

Bu, kimdir?

Pisano

Əvəzi tapılmaz bir musiqiçi.
Adı Mordaçodur, uşaqlıqdasa
Lisandro demişlər bunun adına.

Reynero

Bəs bu biri kimdir?

Pisano

Bu, Belardodur.
Şairdir, dillərin dastanıdır bu.
Rast gəlmiş həyatda çox macəraya,
Pərəstişkarları yığın-yığındır.
Onların alovlu heyranlığından,
Bax bu dəlixana daha yaxşıdır.
Busa Laidadır, gördüyünüz qız,
Bizim baş rəisin qulluqçusudur.
Dəli Beltranın dərdindən yazıq
Ağlını itirib. Qalanlarınsa,
Canı yaxşı, ağlı heç yoxdur əsla!

Reynero

Bəs bu cavan kimdir?

Pisano

Hə, bu çox məşhur
Portuqaliyalıdır, Koimbradan!
İkinci Roland tək, yüksək nəsildən
Olan bir xanımın eşqinə düşmüş.
Beyni xarab olmuş, bax, bu görkəmdə,
Səyyah tək dünyanı addımlamışdır.
Bu dəlixanada yazıq, zavallı,
Deyəsən, bir qədər ağıllanmışdır.

Reynero

Dəlilik dərdinə düşməyən kəslər
Allaha daima şükür eyləyər.

Belardo

Allaha şükr edən indi azdır, az,
Gərək biz hamımız şükür eyləyək.

Reynero

Nə üçün, Belardo?

Belardo

Bu zəmanədə
Dəlilik etməyən adam tapılmaz.
Tanıya bilərsiz öz-özünüzü,
Sizin alnınızda indi mən, düzü,
Görürəm dəlilik nişanələri...

Reynero

Ah, İsa!
Bir deyin, bu adam falçı deyil ki?

Pisano

Bəli, bu yazıq
Çox yaxşı bir adam, bir münəccimdi.

Laida

Ama Beltransa, sən bir işə bax,
Necə qayğısızdır! Bilirmi, amma
Dərdindən düşmüşəm dəlixanaya.

Kalandrio

Koimbro məni öldürdü! Dağlar!
Sizə gözəlliyi verir bir bədən,
Elə bir bədən ki, onun ruhunun
Min-min gözəlliyi, min-min hüsnü var!

Mordaço

Bütün bu dünyanın musiqiçiləri
Və müğənniləri nə deyir-desin,
"*Susanna*"dan gözəl bir mahnı yoxdur.

Reynero

Bunların söhbəti çox qəribədir.

Pisano

Görürəm, görürəm, onlara baxmaq,
Onları dinləmək sizə xoş gəlir.
Əgər istəsəniz, bu gün axşam siz
Ömrünüzdə əsla görmədiyiniz
Bir şən tamaşaya baxa bilərsiz.

Reynero

Baxaram, baxaram məmnuniyyətlə.
Hələ gəlin baxaq sizin bu evə,
İyirmi beş eskudo ehsan verirəm.

Pisano

Allah əvəz versin bu lütfünüzə!
Senyor, siz bilin ki, evin sahibi
Gözəllik və ağlın mücəssəməsi
Olan, çox gözəl bir qız böyütmüşdür.
Xəstələr içində bir gənc dəliyə

Zavallı qız elə bənd olmuşdur ki,
Canıma and olsun, o, öz ruhunu,
Bir gün, az qaldı ki, Allaha versin!
Burdakı həkimin sözüylə, amma
Veririk yalandan qızı oğlana.
Belə bir tədbirlə, həmin qız gərək
Sakit olsun, mütləq sakitləşəcək.
Bu axşam, doğrudan, kef çəkəcəyik!

Reynero

And olsun, ürəkdən gülərəm mən də.
İndi gəlin gedək. Amma buraya
Çox adam yığmağı siz unutmayın.
Dediyim o pulu gərək paylayım.

Pisano

Doğrudan, böyükdür sizin lütfünüz.
Senyorlar, tez olun, tez keçin evə,
Amma səs-küy, şuluq salsanız əgər,
Bu qamçı sizləri sakit eyləyər!

Laida

Gedirəm görməyə mən Beltranı.
Pajlar! Dayanmayın, əmr eyləyin ki,
Saraya çəksinlər tez karetamı!

Kalandrio

Ey gözəl Lisida! Yaxşı bilin ki,
Sizin xətrinizə bu gün əllərim,
Fəth edər Qvinev sahillərini.

Mordaço

Xaric oxuyursan, əzizim, xaric.

Tomas

Bütün bu dünyada hamı dəlidir.

Martin

Özü də, gündə də.

Belardo

Siz ey pərilər!
Doqquz mindən çoxkən təkcə şairlər,
Nə üçün, nə üçün siz doqquzsunuz?
Amma ki, çox azdır istedadlılar,
Fərsizlərin isə bura yolu var.

Hamısı gedir.

XƏTƏXANANIN HƏYƏTİ

BİRİNCİ SƏHNƏ

Xerardo, Verino.

Xerardo

Mənə verdiyiniz məsləhət, doktor,
O qədər ağıllı oldu ki, əlbət,
Kiçik bir şişədə ənlik və kirşan,
Onu sakit etdi, ordaca, o an.
Ona deyən kimi, veririk ərə,
Bu günsə, toyundur, dərhal dirildi.
Oturub güzgünün önündə, xoşhal,
Yeməyə-içməyə başladı dərhal.

Verino

Təəccüblü deyil bu, məncə əsla,
Çünki xəstəliyi məhəbbətdəndir.
Beltranla nikah eşidən kimi,
Dərhal sağalmışdır unudub dərdi.

Şeri yadımdadır Ovidinin, o,
Eşqin hiyləsindən qurtarmaq üçün
Əlac tapmamışdı. Məndəki dərman
Dərddən xilas edir hamını o an.
Ehtiras doğuran bu xəstəliyə
Qalen də bir çarə tapmadı əsla.
İnanın, bu işdə, necə deyərlər,
Tayım-bərabərim yoxdur dünyada.

Xerardo

Həkim, bəs neyləyək biz Laidanı,
Yəni tapılmazmı onun dərmanı?

Verino

Dərman da, ümid də vardır, əvvəlcə
Gərək mən Fedraya əlac eyləyəm.

Xerardo

Əlbəttə!

Verino

Əmr edin, buraya tez gətirsinlər.

Xerardo

Mən əmr vermişəm. İndicə Fedra,
Güman edirəm ki, gələcək bura.

İKİNCİ SƏHNƏ

Əvvəlkilər, Fedra və Pisano.

Pisano

Gəlin! Özünüzü ədəb-ərkanla
Elə aparın ki, bədbəxt adaxlı
Görsün ki, nə böyük məhəbbətlə siz,
Onu lap ürəkdən, candan sevirsiz.

Fedra

Bəs Beltran hanı?

Xerardo

İndicə gələr.

Fedra

Toy burda olacaq?

Xerardo

Hə. Qoy çağırsınlar indi keşişi.

Pisano

Senyor, adlı-sanlı, məşhur idalqo,
İyirmi beş eskudo sədəqə verən,
Buraya gəlməyə izin istəyir.

Xerardo

Nə olar, əmr eylə, tez buraxsınlar.

Verino

Bizim işimizə nə zərəri var.

Pisano gedir.

ÜÇÜNCÜ SƏHNƏ

Xerardo, Verino, Fedra.

Xerardo

Hə, qızım, yada sal, mənə cavab ver,
Kimsən, nə üçündür bu toy, bu bayram?

Fedra

Beltran yanımda deyilsə əgər,
İdrakım başımda olarmı məgər?

Xerardo

Ümid edirəm ki, bu toydan sonra,
Özünə gələrsən.

Fedra

Hə, bəli, bəli.
Mənim xəstəliyim boş şeydir tamam.
Güclü bir tufandan coşmuşdu dəniz,
Mənim çürük gəmim, hava yamandı,
Gəlib, sahillərə birdən dayandı.
Gəmidən qalmadı əsla bir əsər,
Getdi avadanlıq, getdi yelkənlər...

Xerardo

Ümid edirəm ki, sahilə çatcaq,
Onun kəm-kəsiri tamamlanacaq.

Fedra

Yaxşı, deyin görək, Beltranı, siz,
Nə üçün bu toya gətirmədiniz?

DÖRDÜNCÜ SƏHNƏ

Əvvəlkilər. Reynero, Leonato və Pisano.

Reynero

Hamınızın işi qoy avand olsun!
Madam ki, mənə də izin veriblər,
Buraya gəlmişəm.

Xerardo

Bu, bizim üçün
Çox böyük şərəfdir, buyurun, gəlin.

Fedra

Bəs bu yabı kimdir?

Xerardo

Sən unutma ki,
Gəlinsən. Bəs bizim kürsülər hanı?

Pisano

İndi gətirərlər.

Xerardo

Bizim bu toyda,
Bütün qonaqlara yer və məhəbbət.

Pisano gedir.

BEŞİNCİ SƏHNƏ

Xerardo, Verino, Fedra, Reynero, Leonato.

Fedra

Əmi, haqlısınız, bütün çaparlar,
Bütün şeypurlçular ara vermədən,
Qonaq çağırsınlar bu gün bu toya,
Hamını, hamını hər bir tərəfdən.
Bizim adlı-sanlı nəsl ağacının
Şöhrəti qoy çatsın birbaş Parisə.

Kimdir Beltranın anası, de, kim?
Kraliça. Atası – şanlı Lanselot.

Pisano bir neçə dəli ilə qayıdır, dəlilər masa və kürsü düzürlər.

ALTINCI SƏHNƏ

Əvvəlkilər, bir neçə dəlinin müşayiət etdiyi Pisano.

Pisano

Kürsülər hazırdır.

Xerardo

Yaxşı... Bəs senyor?
Sizə bir kreslo versinlər gərək...
Kreslo gətirin!

Reynero

Yox, lazım deyil.

Fedra

Bəs mən burda gərək sütun tək durum?
Taxt-tac gətirin, mənə taxt-tac!

Xerardo

Taxt-tac olacaq.
Adaxlı ardınca adam göndərin!

Pisano

Mən onun ardınca gedirəm.

(*Gedir.*)

YEDDİNCİ SƏHNƏ

Xerardo, Verino, Fedra, Reynero,
Leonato, dəlilər.

Fedra (*Pisanonun ardınca*)

Bununçün, istərəm heç bir zaman siz,
Heç zaman, yaman gün görməyəsiniz.

Xerardo

Söyləyin, mənə söz verirsinizmi,
Ağıllanacaqsız?

Fedra

Bəli, əlbəttə.
Amma bir şərtlə ki, Beltranla mən
Qanuni nikahla gərək birləşəm.
Onda rahat ollam. Amma qorxuram.
Yaman qorxuram ki, toy yalan olsun.
Əgər belədirsə, mənim ruhumu,
Bilin, qızışdırmaq təhlükəlidir.
Bilin ki, o zaman bu xoşbəxt nikah,
Acı göz yaşıyla bitəcək, ey-vah!

Xerardo

Ay qızım, başa düş! Mən sənə yalnız
Yaxşılıq istərəm, yaxşılıq, ay qız!

Fedra

Bəli, bəli, bəli, başa düşürəm.
Bəs vəkilim kimdir, söylə bir, ata?
O, burdadırmı?

Verino (*Reyneroya*)

Sizin bu nökərə, əziz idalqo,
Heç də pis olmazdı bir vəkil olmaq.

Reynero

Yox, yox, mən nökərə izin vermərəm,
Özüm vəkil olsam, daha yaxşıdır.

Verino

Karımıza gələr bizim bu nökər.

Reynero

Ey, Leonato!

Leonato

Yox, bacarmaram.
Başqa bir adamdan, nə qədər varam,
Mən nökər paltarı alıb geymərəm,
Hələ çox yaşamaq istəyirəm mən.
Senyor, bu xəstəlik yoluxucudur.
Yaxşı, birdən ağlı başına gəldi,
Onda sizə bəs kim xidmət edəcək?

Verino

Xəstəni burada tez sağaldarlar.

Leonato

Mən yorğun olsam da, sağalmam hələ
Hazıram, hazıram nökərçiliyə.

Verino

Adaxlı gəlir!

Xerardo

Gedək, qarşılayaq.

Dəlilər cüt-cüt gəlirlər. Tomas və Martin, Belardo və Kalandrio, Laida və Mordaço; Pisano, adaxlı kimi əyninə təlxək paltarı geymiş Floryanonun əlindən tutmuşdur.

SƏKKİZİNCİ SƏHNƏ

Əvvəlkilər, Tomas, Martin, Belardo, Kalandrio, Laida, Mordaço, Pisano və Floryano.

Xerardo

Gəlini özünə arvad eləyən
Adaxlı onunla qoşa otursun.
Bu evlənənlərin yengəsi isə,
Qoy, Laida olsun.

Laida

Mən düz mətbəxə,
Gedərəm, yox, yengə olmaram, ay bic,
Dözürəm mən sənin xəyanətinə,
Yarımdan ayıran əfi ilana,
Bunun əvəzində indi, indi mən,
Əzab çəkməliyəm cəhənnəmlərdən!

Verino

Dayan!

Laida

Yalvarıram, buraxın məni,
Onsuz da, gözlərim heç bir şey görmür!

Xerardo

Bəsdir, qışqırmayın, nədir hay-haray!
Bir azca sakit ol, indi ikimiz,
Onda başqa yengə tez taparıq biz!

Fedra

Həyasız! Gəlinə gör nələr deyir!

Laida

Ey, bəsdir! Bir susun! Ey Amalteya,
Ey buynuzlu keçi! Bu buynuzunuz
Məhsuldar olsa da, fikr edirəm ki,
O, sizə bu dəfə kömək etmədi.
Bu gün Beltranla qurdunuz kələk,
Bu tutdu, siz ona əlvida deyin,
Sabah, ola bilər, olsun o, mənim.

Fedra

Qrafinya, bilin, əmr edərəm mən,
Sizə tez taxarlar möhkəm bir yüyən.

Floryano

Susun! Bəsdir! Yetər belə azğınlıq,
Sizdən gözləmirəm heç bir şey artıq.

Fedra

Xeyr, bundan sonra susmaram daha!

Floryano

Sizin ağzınızı tikərəm sapla!

Fedra

Bu, toy peşkəşidir?

Belardo

Hamı eşidir,
Siz, söyüş söyürsüz, mırıldayırsız...

Floryano

Bu, pis hədiyyədir?

Fedra

Bəsdir, bir susun!

Floryano

Yatırtmaqçın sizin hay-küyü, ancaq,
Gərək dəyənəyi biz işə salaq.

Fedra

Arvadını döymək?

Floryano

Siz arvadımsız?

Fedra

Axı danışmışıq.

Floryano

Nə deməkdir o?
Mənə gərək deyil, bu cürə bir toy.

Xerardo

Bəsdir, daha artıq çərənləməyin,
Yoxsa...

Mordaço

Gəl açaq məclisi, Kalandrio!

Xerardo

Hə, hə, nökər indi əmr verər ki,
Gəlsin bu salona musiqiçilər.
Belardo, meydana!

Belardo

Gözətçinin mən
Yamanca qorxuram kötəklərindən.
Sonra, deməyin ki, rədd eylədim, ha...

Dəlilər birlikdə mahnı oxuyaraq gedirlər.

DOQQUZUNCU SƏHNƏ

Xerardo, Verino, Fedra, Reynero, Leonato, Laida, Valerio, Floryano, Erifila.

Valerio

Aman! Bu cürə də dəyişmək olar?
Bura niyə gəldin? De, nə işin var?

Erifila

Mən səndən qaçmıram, məni bir bəla
Tutub, sürükləyir xəstəxanaya.

Xerardo

Bu, nə deyən sözdür?

Valerio

Başa düşmürəm.
O, mənim evimin lap kandarına
Ayaq basan kimi, ayaqlarını
Sanki od yandırdı, döndü geriyə.

Xerardo

Geriyəmi döndü? Çox qəribədir!
Müalicədən qaçmaq? Səbəbi nədir?

Erifila

Mən, orda tapardım yalnız müsibət,
Burdasa, qoymuşam mən bir səadət.
Heç yeyən deyiləm mən qabağımdan,
Mən çox inanırdım özümə hər an.
Evin qapısına onunla gəldim,
Amma ki qorxudan az qala öldüm.

Valerio

Demək, mən onunçün gəlmişəm bura,
Hökm edə bilmirəm mən idrakıma!

Erifila

Mən də öz ağlımda deyiləm artıq,
Məndə bir ehtiras, bir də şaşqınlıq...

Aman, ey qısqanclıq! Bu müdhiş anda
Hiss edirəm sənin zərbələrini,
Göylər göndərdiyi cəzadan ağır,
Dəhşətli bir cəza varmı dünyada!
Bitdi. Mən gedirəm səhnədən daha,
Yalnız Beltrandır mənim qatilim.

Leonato (*kənara*)

Erifiladırmı bu qarşımdakı?
Bundan müdhiş bir hal mən görməmişəm.

Valerio

Ağılsız! O həm də bir sehrkardır!

Floryano

Dostum! Bu pərtliyə nə səbəb vardır?
Dərd çəkməyə dəyməz, gəl dərdlənmə sən.

Erifila

Beltran! Fedranın, yəqin, ərisən?

Floryano

Qəlbimdə yaşayan bir insanı sən
Mənim yanımdaca, yəni, görmürsən?

Erifila

Demək, evlənmisən? Yaxşı, bir dayan!

Floryano

Bəli, evlənmişəm. O günü məndən
Sən ayrılan zaman, dönüb üzümə,
Bir dəfə baxmadın. Sən özün günün
Günorta çağında, bu Valerionu,

Qəlbən sevdiyini söyləmədinmi?
Tez qayıt geriyə, yalançı, qəddar,
Üzünə açıqdır bütün qapılar.

Erifila

Evlənmisən, alçaq!

Floryano (*kənara*)

Gözəl tədbirdir,
İndi mütləq buna o inanacaq!
Lap yerinə düşdü mənim yalanım.

Erifila

Beltran evlənmiş. Ey yaradanım!
Deməli, mən səni, ey xain, səni,
Əbədi, əbədi itirdim, yəni?

Floryano (*kənara*).

Mənim sirrlərimi indi açacaq,
Nahaq yalan dedim, nahaq, lap nahaq.

Erifila

Elə bilirsən ki, bic Floryano,
Bu cır-cındır altında...

Floryano

Dayan bir! Ssss...

Erifila

Bu boz xalatda?
Hamıdan, hamıdan günahını sən
Prins Reyneronu öldürdüyünü,
Bu bəd cinqayəti gizlədəcəksən?

Xerardo

Reynero? Tanıdım səni, ey qəddar!
Demək, Reyneroya ağır bir yara
Vurub, qaçqın düşən Floryanosan?

Floryano

Ona inanmayın, o qız dəlidir!
Aman, gözlərimi bürüyür zülmət...
Vəhşidən betərsən, zalim məhəbbət!
Lənət o şəxsə ki, bilsin bu dünya,
Sirrini etibar edir qadına!

Xerardo

Çox gözəl gətirdi bizim işimiz.
Tutun bu canini, tez yaxalayın!
Sizə mükafatı əsirgəmərəm.

Pisano

Yalanla qapayıb cinayətini,
Bizi məhkəməyə vermək istədin?
İndi qurtarmazsan əlimdən, xain!

Xerardo

Valerio da olmuş onunla əlbir,
Onu da, onu da tutun, tutun bir!

Valerio

O, mənim dostumdur, mən öz dostumu
Fəlakət içində ata bilməzdim.

Reynero

Mənim, Reyneronun üstündə əgər
Cəza gözləyirsə kavalyeronu,
Azad etmək olar.

Xerardo

Necə?

Reynero

Min şükür,
Sənə, ey xoşbəxt gün! Bax, indi artıq,
Tərtəmiz çəkildi duman, qaranlıq.
Floryano, məni tanıyırsanmı?

Floryano

Sən bir xəyalatsan, yoxsa ki kölgə?

Reynero

Yox, yox mən özüməm. Heyrətlənirsən?

Floryano

Reynero?

Valerio

Xəncərlə vurulmuş prins?

Reynero

Bəli. Mən özüməm. Qarşınızdakı
Prins Reynerodur.

Xerardo

Doğrudur, odur!

Valerio

Deməli, sən sağsan?

Reynero

Bəli, əlbəttə,
Özünüz görürsüz, sağ-salamatam.

Floryano

Sənin ölümünlə əlimdən gedən
Həyatımı mənə qaytarırsan sən.
Mənə çox əzizdir, lakin həqiqət,
Təəccüb edirəm, təəccüb, heyrət...

Reynero

Axı yalan idi mənim ölməyim.

Floryano

Necə?

Reynero

Yalan idi. Hamısını deyim...
Araqon şəhrinin şanı-şöhrəti,
Bütün gözəlləri gözəlliyiylə
Zülmətə qərq edən o Seliyanı,
Floryano, sən də sevirdin, mən də.
Mən onun eyvanı altında daim
Keçirərdim gözəl, şən təntənələr.
Təzə paltar geyib, onun eşqinə
Ləkələr taxardım bu şlyapama.
Başlayardı qəşəng atəşfəşanlıq,
Adını yazardım onun odlarla,
Hərflər ruhumun istədiyini
Gedib çatdırardı o gözəl yara...
Öküz döyüşündə biz yarışardıq,
Bəli, belə olmuş hər zaman peşəm –
Qızmış bir öküzün üzərinə mən
Hünərlə, qüvvətlə hücum etmişəm.
Keçib həyatımdan mən dəfələrlə,

O qızmış öküzün şişman boynuna
İti qılıncımı ilişdirmişəm.
Seliyadan başqa, bu təntənələr
Hamını, hamını əyləndirərdi.
Bu qadın, sən inan, bil, Floryano,
Həyatda onunçün ömür sürür ki,
Məni, bəli, məni həlak eyləsin!
Bir ata minərək, mən xəyalımda,
Əgər vururamsa ona məhmizlər,
Hamı qışqırır ki: "Ey, kavalyero,
Allah kömək olsun bu işdə sənə!"
Kinli bir gülüşlə, Seliya isə,
Elə gözləyir ki, bu ayaqlarım,
Üzülsün, üzülsün üzəngilərdən.
Baxmadan, mən əsla bu əzablara,
O məkrli qızı sevirdim, amma.
Fənər, ya lampanın gur işığından
Kor olan yarasa, zülmət gecədə
İşığa və nura can atdığı tək,
Həmin o xanıma mən can atırdım.
Bəli, beləliklə, bir gecə vaxtı,
Zülmətlər içində mən onu güddüm.
Qılıncım, qalxanım vardı yanımda,
Balaca qalxanı, mənim nökərim
Gizlin gətirirdi. İki nökərsə
Gətirirdi mənim qılınclarımı.
Qəflətən başladı təkbətək döyüş,
Gerbli qalxanımı əlində tutan,
Mənim paltarımı geymiş nökərim
Vuruşda, ölümcül, bərk yaralandı,
Bəli, döyüşdə sən vurmuşdun onu,
O gecə Allaha verdi ruhunu.
Mənsə, nökərlərə əmr eylədim ki,
Təqib etməsinlər səni heç əsla,
Qoy səs-küy yaysınlar onlar hər yana,
Guya ki, mənəmmiş bu öldürülən.
Yoxlamaq istədim həmin zaman mən:
Mənim bu ölümüm, ömründə əsla,
Mənə rəhm etməyən o gözəl qıza

Kədər verəcəkmi, qəm verəcəkmi?
Mənim qoca atam eşidən kimi,
Tamam əldən getdi, hər yana dərhal,
Min-min əmr etdi ki, bərk axtarsınlar,
Səni də, məni də tezcə tapsınlar.
Mənsə, əmr etdim ki, öldürüləni,
Dərhal dəfn etsinlər. Elə o gecə
Çıxdım Saraqosdan dərhal, gizlicə.
Ancaq burda bildim, burda bildim mən,
Seliya ölümümə çox ağlamışdır.
Bax elə bununçün tez Saraqosa
Qayıtmaq istərəm, onun önündə
Belə sağ-salamat durum mən yenə.
Qoy, məni yenə də həmin o canan
Lap bezar eyləsin bu həyatımdan.
Mən səni özümlə aparım, amma
Sevinc verməlisən mənim atama.
İdraklı dəlini, burax, qoy varsın,
Bax bu canlı ölü peşkəş aparsın!

Floryano

Mən belə vermişəm, ey prins, qərar,
Burada taleyin qadir əli var.

Verino

Ağıllı olanlar indiyə qədər,
Bu işi görən tək, dəliləşərlər.
Bəs Elvira kimdir? Məlumdur ki, bu,
O Valerionun qohumu...

Leonato

Bu məsələ yalnız mənə aiddir.
O qızla namussuz hərəkət etdim.
Onun atasına mən nökər idim...

Xerardo

Bəs necə düşmüşdür o qız buraya?

Leonato

Mən bunu əvvəldən danışım bu dəm,
Sonadək dinləyin, rica edirəm.
Senyorlar! Bir tayı-bərabəri az
Tapılan, nəsildən ayırdım onu.
Mənə yaxşı dərsdir olub-keçənlər...
Gəldik Valensiyaya qızla bir təhər.
Ancaq atasının intiqamından
Bərk qorxuya düşdüm, yaman, çox yaman...
Qorxaq tülkü kimi, o qızı atdım,
Ehtiyatsızlıq edib ondan aldığım
Üç min dukat qədər o simuzəri,
Hamısını, indicə qaytarım geri.
Üzülmüş, əzilmiş, gözləri yaşlı,
Qürbət bir diyarda tapdılar onu,
Elə bildilər ki, bu qız dəlidir,
Dəlixana oldu yazığın yurdu...
Burda, bilirsiniz, min ehtirasla
O qız könül verdi Floryanoya.
Əzab badəsini içərək, fəqət,
O, bunda tapmadı heç bir səadət.
İndi yaxşı bilin, deyil Elvira,
Onun əsil adı, Erifiladır.
Erifila! Sənin nökərin mənəm,
Mən səndən yaxşılıq, aman istərəm.

Xerardo

Lap sarsılmışam, təəccübdəyəm!
Mənə bircə şeyi anladın ancaq,
Bəlkə, burda təzə bir toy olacaq?

Floryano

Bəli! İkicə gün əvvəl Valerio
Mənim əsil dostum, mehriban dostum

Kəndirdən qurtardı məni, bax budur,
İndi Erifilaya aşiq olmuşdur!
Əlbəttə, onunla evlənəcəkdir.

Valerio

Mən heç istəmirəm dost yolunda siz
Öz ehtirasınızı qurban verəsiz.
Hiylə və paxıllıq mənə yaddır, yad,
Xeyir, alçalmaram, bu qədər, heç vaxt.
Gedirəm. Qəlblərə şəfəqlər saçan
Böyük məhəbbəti zorlamaq olmaz.
İki sevgilini əgər ayırsam,
Çox qəddar hərəkət edərdim, inan.

Floryano

Doğrudan, böyükdür bu hədiyyəniz,
Yoxdur onun tayı əzizdən-əziz
Mənim düşdüyüm bu dəlixanada
Siz iki xoş həyat verdiniz mana!
Baxtım uğurludur, gözəldir mənim,
Ver o əllərini, qəşəng həmdəmim,
Al öz qucağına ərini – məni,
Sənə müti olan aşiq köləni!

Erifila

Yox, yox, köləm deyil, mənim ağam ol,
Səndən... Əllərimi üzmərəm, yox, yox...

Reynero

Ədalətlə desək, bu cürə işlər
Böyük təntənəylə, sevinclə bitər.

(*Valerioya*)

Fedranın burada nişanlanması,
Bir də nə söyləyək, bir zarafatdı.

İndi siz göstərin ona səxavət,
Ona bəxş eyləyin sevgi-məhəbbət.
Yalançı toyların çox əzabı var,
Gözəl təsadüfdür həqiqi toysa,
Nəşələrə dalsaq, çox qəşəng olar!
Gözəl Fedra niyə gəlin olmasın?

Valerio

Ey mənim senyorum! Gözəl Fedrayla
Evlənsəm, olaram ona sadiq ər.
Sizə xidmətçiyəm ölənə qədər.

Fedra

Valerio, mənim fəlakətimə
Sən özün baissən. Mən öz-özümü
Dəliliyə qoyub, Floryanoya
Ərə getmək üçün çox can atırdım.
Bunlar sənin üçün, sənin üçündür!
İstərsənsə, mənə ər olmaq indi,
Birlikdə döyünsün ürəklərimiz,
Xoşbəxtəm! Qəbrədək bir yaşayaq biz!

Xerardo

Söylə, sənin ağlın başındadırmı?

Fedra

Əlbəttə!

Valerio

Bu gündən mən yalnız səninəm, sənin!

Verino

Bunlar dəli deyil, bunlar igiddir!

Valerio

Ey mənim qadınım!

Fedra

Daim səninəm!

Laida

Senyorlar! Burada, indi, bəlkə, siz
Məni bir divanə zənn edirsiniz?

Xerardo

Bircə bu çatmırdı!

Laida

Bircə şey çatmır,
Senyor, o da mənim etirafımdır.
Özümü vurmuşdum mən dəliliyə.

Verino

Necə?

Laida

Heç atəşsiz tüstü olarmı?
Zövq almaq istədim mən səadətdən,
Lakin gətirmədi, çox bədbəxtəm mən.
Hökm sizinkidir, indi, bəlkə, siz,
Mənicik, mətbəxə göndərəydiniz.

Leonato

Vaxtında gəlmişəm mən bu məclisə,
Qab-qacaq yumağa hələ tələsmə.
Yaman xoşum gəlir, əzizim, səndən,
Arvad eyləyirəm indi səni mən.

Laida

Qəbul eyləyirəm mən səni bir ər,
Kim vardır dünyada bizdən bəxtəvər!

Reynero

Görünür, indi mən üç xoşbəxt toyun
Ağsaqqalı oldum... Olsun, qoy olsun!
Biz bir ailəyik, gözəl, mehriban...
Çox tələb olunur, ağsaqqallardan.
Gedək Saraqosa! O şəhərdə mən
Çox gözəl bir məclis, toy düzəldərəm!

Floryano

İnana bilmirəm: Siz sağsınız, sağ...
Mən də sağam, bais sizsiniz ancaq...
Mənim sizə dərin təşəkkürüm var,
Hamıya ibrətdir bu əhvalatlar...

Reynero

Ürəkdən sevənlər, eşqə düşənlər,
Bununla rahatlıq tapırmı, məgər?
Elə deyildirmi?

Floryano

Bilirəm bunu,
Yalandan özünü dəli eyləyən
Bütün şaşqınların belədir sonu.

Fuente Ovexuna

İŞTİRAK EDƏNLƏR:

Don Fernando	– Kral
Donya İzabella	– Kraliça
Don Rodriqo Telyes Xiron	– Kalatrava magistri
Don Manrike	– Santyaqo magistri
Fernan Qomes de Qusman	– Kalatrava ordeninin komandoru
Laurensia	– Estebanın qızı
Frondoso	– Xuan Roxonun oğlu
Paskuala, Xasinta	– kəndli qızlar
Ortunyo, Flores	– komandorun nökərləri
Esteban, Alonso	– alkaldelər
Xuan Roxo, Menqo, Barrildo	– kəndlilər
Leonelo	– tələbə
Simbranos	– əsgər
Hakim	
Uşaq	
İki rexidor	– Siudad Real şəhər şurasının üzvləri
Rexidor	– Fuente Ovexuna şəhər cəmiyyəti şurasının üzvü
Kəndlilər	– qadınlar və kişilər
Əsgərlər	
Xanəndələr	
Müşayiət edənlər	

Hadisə vaqe olur Fuente Ovexunada və başqa yerlərdə.

BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Almaqro şəhərində Kalatrava magistrinin otağı.
Komandor Fernan Qomes, Flores və Ortunyo nökərlərlə səhnəyə çıxırlar.

Komandor. Magistrin mənim şəhərə gəldiyimdən xəbəri yoxdur, nədir?

Flores. Niyə yoxdur, bilir, çoxdan bilir.

Ortunyo. Cavanlar həmişə bir az təkəbbürlü, dikbaş olurlar.

Komandor. Yəni o bilmir ki, Fernan Qomes de Qusman kimdir, nəçidir?

Flores. Buna təəccüblənməyə dəyməz. O ki hələ çocuqdur.

Komandor. Əgər o, mənim adımı bilmirsə, böyük komandor olduğumu haradan biləcək?

Ortunyo. Eh, söz-zad eşidən olsaydı nə vardı ki, heç kimin sözünə baxmır, heç kimin məsləhətinə qulaq asmır.

Komandor. Əgər belədirsə, o, heç kimin hörmətini qazana bilməz. Nəzakətli olmaq inam, sədaqət artırır. Ağılsız təşəxxüs kinin, ədavətin açarıdır.

Ortunyo. Nəzakətsiz adamdan kimin zəhləsi getmir ki... Onun arxasınca min cür qiybət qırırlar. Nəzakətli adam ağıllı olsaydı, ölümü təhqir olunmaqdan üstün tutardı.

Flores. Bu əzab-əziyyət məni üzdü! İlahi, necə də ağır, necə də usandırıcıdır! Bərabərlik arasında nəzakətsizlik olanda şübhəsiz ki, bərabərsizliyin arasında da dedi-qodu, çəkişmə olacaq. Burda sənə heç kim dəyib dolaşmaz. Hələ indiyədək mənim kələyimdən baş açan, mənim hiyləmdən yaxa qurtaran anasından olmayıb.

Komandor. Kalatrava xaçı onun sinəsini bəzəyən gündən qılıncı da asıb böyründən. Nəzakəti öyrənmək üçün məgər bu, azdırmı?

Flores. Çox çəkməz görərsən ki, onunla aranızda heç bir şey qalmayıb.

Ortunyo. Əgər sən şübhə dənizində boğulursansa, ürəyinə nəsə damıbsa, qayıt, çıx get haradan gəlmisən ora.

Komandor. Ox, ilahi, onun ürəyindən keçənləri necə də bilmək istəyirəm!

İKİNCİ ŞƏKİL

Kalatrava Magistri müşayiət ilə səhnəyə çıxır.

Magistr. Fernan Qomes de Qusman, əfv edin, bağışlayın! Sizin şəhərdə olduğunuzu mənə elə indicə xəbər verdilər.

Komandor. Ey Kalatravanın böyük Magistri, əgər sizə hədsiz məhəbbətim olmasaydı, əgər sizə inanmasaydım, sizdən ədalətlə şikayət etməyə haqqım vardı. Əlahəzrət, sizə çoxdan bəri canla-başla qulluq göstərən nəcabətli komandoru belə quru qarşılamağınıza inana bilmirəm.

Magistr. Yox, yox, Fernando, belə deməyin. Sizin bu xoş gəlişiniz, doğrusu, gözlənilməz oldu. İcazənizlə, sizi səmimi qəlbdən qucaqlayım.

Komandor. Əlbəttə, mən buna layiqəm. Mən öz həyatımı sizin yolunuzda qurban vermişəm. Saysız-hesabsız hərc-mərcliklər, çəkişmələr zamanından papa sizi ancaq bizə etibar edib, bizə tapşırıb. Onda siz lap uşaq idiniz.

Magistr. Düzdür! Doğrudur! Sinəmizdəki xaçа and olsun ki, sizin xatirinizi doğma atamdan çox istəyirəm.

Komandor. Çox məmnunam, çox razıyam.

Magistr. Orda müharibədən nə xəbər var?

Komandor. Mən hər şeyi indi sizə danışaram. Siz də öz işinizi bilərsiniz.

Magistr. Sizi canla-başla dinləməyə hazıram.

Komandor. Ey atasının məşhur xidmətlərinə özünün yüksək rütbəsi ilə borclu olan magistrimiz don Rodriqo Telyes Xiron! Səkkiz il bundan əvvəl Kalatrava üzərindəki davada atanız hakimiyyəti sizə verdi. Bundan sonra pozulmaz vədlə krallar, sərkərdələr and içdilər ki, sizə sadiq qalacaqlar! II Pio, ən müqəddəs papa, bir də onu əvəz edən Paulo söz verdilər ki, Santyaqonun ləyaqətli magistri Xuan Paçeko sizin köməkçiniz olsun: Don Xuan öldükdən sonra hakimiyyətin başına siz keçdiniz. Çox gənc olsanız da elə edin ki, başlanmış namuslu döyüşlərdə səsinizə səs versinlər, sizə qoşulsunlar. Çünki Kastilya kralı IV Enrikenin ölümünə inananlar istəyirlər ki, Portuqaliya kralı Alfonso arvadından vərəsə qalmış Kastilyanın kralı olsun. Vassalları da özünə tabe etmək fikrindədirlər. Baxmayaraq ki, sizin qohumlarınız da, hətta onun qanuni hüquqlarını tanıdığı Araqon

şahzadəsi də Don Fernando İzabella vasitəsilə bu dövlətə sahib olmağa çalışır. Onlar Xuananın varislik hüquqlarına görə əmioğlunuza sadiq qalan kəşikçilər tərəfindən nəzarət altına alınmasına heç bir səbəb görmürlər.

Almaqroya təcili xəbər göndərin! Toplayın Kalatrava congavərlərini! Əndəlis və Kastilya arasındakı Siudad Realı döyüşlə alın. Bu şəhəri fəth etmək üçün çox da qoşun lazım deyil. Çünki o yerləri təkcə şəhərlilər özləri, İzabellaya tərəfdar çıxan, Fernandonu kral adlandıran bir qism idalqolar müdafiə edirlər. Gənc Rodriqo, bütün narazılıqlara son qoymaq vaxtı deyilmi? O adamları aradan götürmək vacibdir! Onlar vaxtı ilə sizə deyirdilər ki, hakimiyyəti kiçik çiyninizdə gəzdirə bilməyəcəksiniz!..

Baxın, Urueniya qrafları, yaxşı baxın! Sizin şanlı babalarınız öz döyüş əllərini qəbrdən uzadıblar! Şöhrəti dünyaya sığmayan saysız-hesabsız cəsur rəhbərlər arasında Vilyena markizlərindən başqa, heç kim yoxdur. Ağ qılıncları sıyırın, senyorlar! Qoy qılınclarınız da davada, hərbdə, xaçınız kimi qıpqırmızı boyansın! Sinəmizdə gəzdirdiyimiz qırmızı xaç magistrini aldatmağa haqqımız və hünərimiz çatmır! Xaç sinəmizdən, qılınc belimizdən asılıb. Təəssüf ki, qılınclar hələ də ağ qalıb! Gərək bunların hər ikisi al qırmızı rəngdə olsun! Cəsur Xiron, qoy sizin şöhrətli ulu babaların ölməz ibadətgahlarına solmaz, əbədi bir şərəf hakim kəsilsin!

Magistr. Fernan Qomes, namusuma and olsun ki, bu daxili nifaqda, bu çəkişmədə mən qanı qanımdan olanlardan bir an da ayrılmaram! Əgər Siudad-Realın düşməndən alınması vacibdirsə, mən ildırım həmlələrlə onların yenilməz qalalarını yandıracağam. Mənim gənc olmağıma baxıb dost-düşmən deməsin ki, əmim öldü, ruhu söndü! Onun ruhu sönsə də, mənim hərbi ruhum təravətlidir, təzədir! Ağ qılıncımı sıyırsam, müqəddəs Kalatrava xaçı kimi alqırmızıya boyanacaq! Söyləyin görüm, indi siz hardasınız? Döyüşçüləriniz də varmı?

Komandor. Mənim əsgərlərim az olsa da, çox cəsurdurlar! Onların tayı-bərabəri yoxdur. Lap şir kimi vuruşurlar. Bilirsiniz ki, Fuente ovexunanın camaatı çox dala qalmış adamlardır. Çoxları da hərbi işi bilmir. Onları qoyasan yaxşı donuz otaralar. Döyüşə yararsızdırlar. Səngər qazmaqdan başqa, əllərindən heç bir iş gəlmir.

Magistr. Siz oralı olub getdiniz, deyilmi?

Komandor. Bəli, qət etdim ki, bu ağır, bu çətin vaxtımızda oranı tərk etmək olmaz. Siz öz əsgərlərinizlə fəxr edə bilərsiniz. Onların hamısı dava libasındadırlar.

Magistr. Bu gündən sonra siz məni at belində, ayağım üzəngidə, dəmir libasda, əlimdə nizə görərsiniz!

Gedirlər.

ÜÇÜNCÜ ŞƏKİL

Fuente Ovexunada bir səhnə. Paskuala Laurensia ilə gəlir.

Laurensia. Kaş o, bir daha qayıtmayaydı. Elə bir dəfəlik rədd olub gedəydi!

Paskuala. Bəlkə, deyəsən ki, ondan ayrıldığına görə ağır sıxıntılar səni üzəcək?

Laurensia. Əgər onu bir daha Fuente Ovexunada görməsəm, göylərə də xoş gedər!

Paskuala. Laurensia, mən bələlərini yaxşı tanıyıram. Aman Allah, görürsənmi necə də məğrurdur. Beləsini görəndə qəlbin başlayır yağ kimi əriməyə.

Laurensia. Yox, yox, sən Allah, belə demə, mənim ürəyim indi yüzillik palıddan da möhkəmdir!

Paskuala. Eh, heç kim əvvəlcədən deyə bilməz ki, başına nə gələcək.

Laurensia. Lap bütün aləm mənə yağı olsa da, qadir Allaha üz tutub deyirəm: mən Fernandoya aşiq olmamışam! Yoxsa o, məni özünə arvad eləmək istəyir?

Paskuala. Yox!

Laurensia. Mən bu biabırçılığa dözə bilmərəm! Şəhərdəki saysız-hesabsız gözəllər komandora inandıqları üçün şərəfsiz qalıbdır!

Paskuala. Sən onun pəncəsindən qurtara bilsən, möcüzə olar! Hələlik işlər o qədər də pis deyil.

Laurensia. Yox, nahaq belə fikirləşirsən! Onun addım-addım məni izlədiyindən az qalır bir ay keçsin. Bunlar hamısı, Paskuala, boş, vecsiz şeylərdir. Ortunyo tülkü təki bicdir. Oğraş Flores də

komandora quyruq bulayır, onun ara düzəldənidir. Mənə boyunbağı gətirdilər. Kəmər, baş darağı verdilər. Öz senyorlarını o ki var, tərifləmədilər. Fernandonu deyirəm. Bu, baş tutmadı. Sonra da başladılar hədələməyə. Daha gecdir, lap gec! Gücləri çatmaz ki, Fernando ilə mənim aramda əlaqə yaratsınlar. Bircə bunu görə bilməyəcəklər!

Paskuala. Bunlar nə vaxt olub, Laurensia, harda etdiniz bu söhbətləri?

Laurensia. Orda, çayın qırağında. Düz altı gün bundan əvvəl.

Paskuala. Laurensia, ürəyim yaman döyünür. Qorxuram ki, səni aldadıb tələyə salsınlar.

Laurensia. Məni?

Paskuala. Əlbəttə, səni, bəs keşişi?..

Laurensia. Nə qədər axmaq cücə olsam belə, məni aldadıb yemək o qədər də asan deyil. Paskuala, bizi yaradana and olsun ki, səhər tezdən durub ocaqda bir loxma donuz əti qızardıb kökə ilə ləzzətlə yemək, anamdan xəlvəti küpədəki çaxırı bir qurtum azaltmaq mənə hər şeydən xoş gələr! Günorta çağı qazanda bir tikə ətlə kələmin köpüklənə-köpüklənə, pıqqapıqla oynamasını görmək, vallah, daha yaxşıdır! Ya da bərk acanda, işdən yorulub əldən düşəndə şiş qarınlı badımcanla yağlı donuz ətinə toy tutmaqdan ləzzətli nə ola bilər. Axşam üstünün sərinində həyədə şam hazırlayanda əl uzadıb bağdan bir salxım üzüm dərib yeməyi nə əvəz edə bilər?! Allah bu salxımları təkcə doludan saxlasın! Yatmamışdan əvvəl bitki yağı, istiotlu salat yeyib sonra sakit, ürəyiaçıqlıqla yatağına uzananda tamaha düşməməkçin Allaha yalvarmaq, dua oxumaq daha yaxşıdır, nəinki, bu yaramazların yalan sözlərinə qulaq asmaq, sevdiklərini, məhəbbət odunda qovrulduqlarını dinləmək! Onların yalnız bir dərdi var: bizi aldadıb incitmək, ləzzətlə yatmaq, səhər isə hirslənib atmaq...

DÖRDÜNCÜ ŞƏKİL

Menqo, Barrildo, Frondoso gəlirlər.

Frondoso. Barrildo, yer üzündə sənin kimi zəhlətökən, gəvəzə adam tapılmaz.

Barrildo. Darıxma, darıxma, burda bir nəfər adam var, hər şeyi olduğu kimi, necə varsa, elə də deyəcək.

Menqo. Gəl əvvəlcə bir şərt kəsək. Əgər mən udsam... şərtə görə sizlərdən biriniz gərək mənə qiymətli girov qoyasınız.

Barrildo. Yaxşı, mən razı, bax qabaqcadan söz verirəm. Bəs sən uduzsan, nə boyun olursan?

Menqo. Mən? Skripkamı. Onun qiyməti taxıl anbarından bahadır. Hələ az dedim.

Barrildo. Yaxşı, mən də razıyam.

Frondoso. Gəldik, çatdıq. Allah özü bizi gözəl xanımlardan qorusun!

Laurensia. Qadınlar? Frondoso, sən bizi deyirsən?

Frondoso. Bəli, əlbəttə. Hər yerdə dəb belədir. Biz bakkalavardan yox, lisensiatdan danışırıq. Korlara çaş deyirik, tək gözlülərə qarov. Topala, şikəstə – ağırlaşmış, avama – ağıllı deyərik. Özünü cəmiyyətdə apara bilməyənə – hərbdə ütülənmiş; yekəağıza – təzə; yumuqgözə – hər şeylə maraqlanan adam deyirik. Tacir qənaətcil, mal-pul qədri bilən adlanır. Çəkişəni – işgüzar, ağıllı; danışanı – başa düşən; hər şeyi anlayan; əzab çəkməyəni də mərd bilirik. Qorxaq haqqında az danışırlar. Özündən basıb-bağlayana – qorxmaz; çox danışan adama – gəvəzə, dəliyə – hirslənməyən deyirik; asta-asta, mənalı danışan – deyingən; daz başı olan ustad adlanır. Ağılsızlığı nəciblik sayırlar. İti addım atana deyirlər ayaq üstə yaxşı durur. Qayğısıza – eyş-işrət, kef çəkən kimi baxırlar. Kim hər yerə dürtülürsə, deyirlər, belə lazımdır. Hər şeydən baş çıxarana – dəyanətsiz baxışı olan; qozbelə – ağır yükdən bir balaca beli əyilən deyirlər. Belə misallardan çox çəkmək olar, lap çox, saysız-hesabsız. Mən isə sizə xanım deyəndə titrəyirəm.

Laurensia. Frondoso, orada, şəhərdə onlara mədəni deyirlər. Onlara görə canlı yaranmışlar ancaq şəhərlilərdir, özlərinin də danışıq ədəb qaydaları var. Onlar deyirlər ki, əsil-nəcabəti olmayanların gözəl, mədəni danışıq dili də yoxdur.

Flores. Bir az açıq danışsana.

Laurensia. Bu, tamamilə başqa məsələ. Kim orda ağıllı, dərrakəli danışırsa, deyingən, çərənçi adlanır. Kim ağzına gələni söyləyirsə, ona utanmaz deyirlər. Kim özünü saxlayıb danışmırsa, ona **qəmgin** deyirlər. Ciddi olanı kinli adlandırırlar. Kim məsləhət verirsə, ona təvazökar demirlər. Liberal axmaqdır. Kim düzgünlük

tərəfdarıdırsa, amansızdır. Kim dindardırsa, zəif xarakterli, ağciyərdir. Kim sadiqdirsə, o, səfehdir. Hörmətcilə yaltaq deyirlər. Kim əzab-əziyyət çəkirsə, o, hiyləgərdir. Kəndliyə yazıq deyirlər. Kim düzgün hərəkət etsə, deyirlər acığa edir. Doğru söz danışan ehtiyatsız adlanır. Kimin ki bəxti gətirmir, günahkardır. Namuslu qadına ağılsız deyirlər. Ismətli gözələ, namusluya bəd nəzərlə baxırlar. Bəsdirmi? Cavab üçün bu, kifayət deyilmi? Yoxsa yenə sadalayım?

Menqo. Mən deyərdim ki, sən lap şeytansan.

Barrildo. Vallah, o düz demir.

Menqo. Uşaq vaxtı səni xaç suyuna salanda keşişin hayıfı gəlməyib.

Laurensia. Yanılmıramsa, siz nə haqdasa mübahisə edirdiniz, deyilmi?

Flores. Sən Allah, Laurensia, bir qulaq as!

Laurensia. Fikrim səndədir.

Frondoso. Məni diqqətlə, axıradək dinlə!

Laurensia. Böyük məmnuniyyətlə, danış, eşidirəm.

Frondoso. Mən sənə inanıram.

Laurensia. Axı başa sal görüm, niyə deyişirdiniz.

Frondoso. Barrildo ilə mən Menqonun əleyhinəyik.

Laurensia. Menqo neyləyib bəyəm?

Barrildo. O, həqiqəti danır, həqiqətin əleyhinə çıxır. O, bir şeyin olmasına şübhəli baxır.

Menqo. Düzdü, mən danıram. Yenə də geri çəkilmirəm. Boynuma alıram ki, yalandır!

Laurensia. Axı nə deyir o? Bir az açıq danışın, bizi də başa salın görək, nə olub.

Barrildo. Daha bundan artıq nə deyəcək. Deyir, məhəbbət yoxdur.

Laurensia. Aha, deyəsən, axı indiki zamanda, vallah, çox yerində, çox ağıllı deyilib.

Barrildo. Bu, tərslikdən və səfehlikdən başqa, bir şey deyildir. Məhəbbət olmasaydı, dünya da yaranmazdı.

Menqo. Mən filosofluq etmək niyyətində deyiləm. Mən yaxşı yazı-pozu bacarsaydım, bu qarşısıalınmaz təbiət qüvvəsindən, çəkişmələrdən bol-bol danışardım. Görərdik ki, nifaqdan, didişmələrdən göz açmaq olmur. Bədənimiz şirəni, qəzəbi, qüssəni də ondan

alır. Daha burda nə sevgi, nə məhəbbət tapmaq olar, özü də saf olsun, hə, düz demirəmmi?

Barrildo. Menqo, hər iki dünyada bütün şeylər harmonikdir. Harmoniya isə təmiz məhəbbətdən başqa, bir şey deyil. Axı məhəbbət özü də konsertdir.

Menqo. Təbii məhəbbəti mən də inkar etmirəm. Məhəbbət var. Hər şey ona tabe olunub. Bir-birinə tamamilə lazım olmayan uyğunsuzluqları, gördüyünüz hər bir şeyi məhəbbətdən başqa, nə düzəldib öz yoluna sala bilər? Mən həmişə deyirəm ki, hər bir adamın öz xasiyyətinə uyğun məhəbbəti var. Qoy öz bildikləri kimi də onu öz vəziyyətində saxlasınlar. Mənə endirilən zərbəni həmişə dəf edə bilərəm. Ayaqlarım qaça-qaça bədənimi hər fəlakətdən qurtarır. Kipriklərimin qapanmasından, qaşlarımın çatılmasından bilirəm ki, mənim məhəbbətim təbiidir.

Paskuala. Yaxşı, bəs onda niyə düz gəlmirsiniz. Mübahisəniz ki, bununla qurtarır.

Menqo. Mən deyirəm ki, məhəbbət var, təkcə özünə qarşı.

Paskuala. Bir yaxşı fikirləş, Menqo, sən düz demirsən. Bax gör kişi qadını, heyvan həmcinsini necə sevir, bir-birinin qayğısına necə qalır.

Menqo. Mən buna özünü sevmək deyirəm. Bu cür məhəbbətə sən də inanma. Axı məhəbbət nə olan şeydir, hə?

Laurensia. Bu, gözəlliyə qarşı çırpınan istəkdir.

Menqo. Bəs məhəbbət nə üçün gözəlliyə doğru yönəlmişdir?

Laurensia. Ondan istifadə etmək üçün.

Menqo. Buna inanıram. Başqa sözlə desək, gözəlliyə lazımdırmı ki, özünə sevinc gətirsin?

Laurensia. Bəli, əlbəttə!

Menqo. Bəs bu, özünü istəmək deyilmi?

Laurensia. Doğru deyirsən, Menqo?

Menqo. Onda belə çıxır ki, mən özümü əyləndirmək üçün sevirəm. Siz bundan savayı, başqa bir məhəbbətə rast gəlmisinizmi?

Barrildo. Bir dəfə keşiş dedi ki, loğman Platon bizə məhəbbətdən dərs deyirdi. O, təkcə ürəyi, qəlbi hər şeydən üstün tuturdu. Onda olan ən yaxşı şeyləri xoşlayırdı.

Paskuala. Məsələ bundadır ki, alimlərin ağlı onların məktəblərində, akademiyalarında yaranır. Düzü, bu da bir xeyir vermir.

Laurensia. Menqo, sən öz dostlarını heç cür inandıra bilməyəcəksən. Lakin özün sevmədən yaşayırsansa, taleyinə minnətdar olmalısan.

Menqo. Bəs sən? Sən sevirsənmi?

Laurensia. Oz şərəfimi, öz namusumu!

Frondoso. Allah səni qısqanclığına görə cəzalandırsın.

Barrildo. Deyin görək, indi kim uddu?

Paskuala. Düzünü desək, bunu keşişdən xəbər alın. Laurensia heç kimi sevmir. Mənimsə bu işdə təcrübəm azdır. Belə olanda necə hökm çıxara bilərik, hə?

Frondoso. Baxın ha, elə edin ki, bu məğrurluq axırda sizi məhv etməsin.

BEŞİNCİ ŞƏKİL

Flores səhnəyə çıxır.

Flores. Yaxşı adamlara Allah yar olsun!

Paskuala. Deyəsən, elə Komandorun buyruqçusu bu, özüdür.

Laurensia. Hə, özü də fırıldaqçının yekəsidir! Hardan gəlirsən, əziz xaç atacığım?

Flores. Məgər döyüşdən qayıtdığım bilinmir?

Laurensia. Don Fernando da qayıtdı?

Flores. Davada saysız-hesabsız dost itirsək də, qələbəni qanımız bahasına qazandıq.

Frondoso. Nə olar, senyor, başınıza gələnlərdən danışın, qulaq asaq. Yəqin, çox maraqlı əhvalatlar olub.

Flores. Gördüm, şahidi olduğum hadisələrin hamısını sizə söyləyə bilərəm. Siudad Reala getmək üçün gözəl magistr tələm-tələsik öz vassalları arasından iki min cəsur piyada və üç yüz süvari seçdi. Bunların içərisində kübarlardan və ruhanilərdən çağırılanlar da vardı. Sinəsində al qırmızı xaç olan adamlar əllərində tüfəng vuruşa gedirdilər. Onların döşlərində kilsə ordeni olsa da, başa düşürdülər ki, mavrlara qarşı vuruşurlar... Şəhər ağzına kimi silahlı adamla dolu idi. Deyirlər ki, onlar kralın himayəsindən çıxmaq istəmirlər. Onun sümüyünə belə sadiq qaldıqlarını bildirirlər, onun varidatını, mülkünü qoruyurlar. Yaman toqquşma oldu. Buna baxmayaraq, oranı güc-

bəla ilə zəbt etdilər. Magistr qiyamçıların müdafiəsini yardı. Onun şərəfini təhqir etmək istəyənləri darmadağın etdi. Cəlladların bir parasını baş kəsməyə, boyun vurmağa göndərdi. Qalanlarına isə əmr etdi ki, qara camaatdan çərənçilik edənləri ağzına tıxac basıb şallaqlasınlar. Indi o tərəflərdə hamı ondan yaman çəkinir, hamı onu sevir, hamı ona inanır. Hər yerdə danışırlar ki, bu vaxta qədər, bu yaşda belə vuruşan, belə qan tökən, belə qələbə çalan görünməyib. O, yetkin yaşa dolanda Afrikanı şövqləndirən ondördgecəlik ayın[1] daş-qaşlarını öz qırmızı xaçının qüdrəti ilə yerə salacaqdır. O, komandorlarla və başqa nökərlərlə birlikdə özünü cəsur göstərdi. Elə bil şəhəri yox, öz var-dövlətini qarətə vermişdi. Budur, musiqi sədaları yüksəlir: komandoru qarşılayın! Qələbəyə sədaqət, vəfa, inam bəsləmək ən qiymətli dəfnə çələngidir.

ALTINCI ŞƏKİL

Komandor, Ortunyo, Xuan Roxo, Esteban, Alonso, Alkaldelər, xanəndələr, bir tərəfdə də kəndlilər.

Xanəndələr (*oxuyurlar*).

Eşq olsun komandora!
Min yaşasın Fernando!
Əl atıb gücə, zora
Zülm edir adamlara.
Qusmanlar şən yaşasın,
Xironlar sağ-salamat.
Ədalətdə şirindir,
Sülhdə qısadır həyat.
Gəlirlər Siudaddan[2],
Palıd kimi zordular,
Mavrları evindən
Gör necə də qovdular.
Şən Fuente ovexuna

[1] Məhəmmədin varım ayına işarədir.
[2] Siudad – Real şəhərinə işarədir.

Qarşılar qalib-qalib!
Düşmən əsirlərilə
Bayrağı çoxdan gəlib.
Alqış bu qələbəyə!
Zəfər çalıb igidlər
Yaşasın Fernan Qomes,
Yaşasın uzun illər!

Komandor. Ey bu yerin camaatı! Ey bu yerin sahibləri! Mənə göstərdiyiniz məhəbbətə görə sizə hədsiz təşəkkürümü bildirirəm.

Alonso. Düzü, bu məhəbbət özünü bircə hissdə göstərsə də, qətiyyən təəccüblənməyin. Siz buna layiqsiniz.

Esteban. Sizdən xahiş olunur ki, Fuente Ovexunadan göndərilən sovqatları layiqincə qiymətləndirib qəbul edəsiniz. Bu il əldə etdiyimiz qazanc o qədər də yaxşı deyil. Arabadakılar da ləl-cavahirata oxşamır. Qoy hər şeydən əvvəl sağlıq-salamatlıq olsun! Sizin ürəyiniz genişdir. Fikirləriniz, əməlləriniz dəfnə ağacının gözəl yarpaqlarına oxşayır. İki-üç səbət saxsı qabımız var. Qazlarımızın sayı bir alaydan az deyil. Sizin şərəfli yürüşünüzü alqışlamaq üçün alaylar çadırdan boylanır. Duza qoyulmuş içalatla donuz cəmdəyi də varımızdır. Dərilərin iyi, qoxusu anbar əlcəklərinin iyindən heç də pis deyil. Bax budur iki yüz toyuq-xoruz. Toyuqlar xoruzları alıb dövrəyə. Ozləri də məyus-məyus, dərdli-dərdli başlarını aşağı dikib gəzişirlər. Nə atımız var, nə də polad libasımız. Yəhər-qayışımız da qızıldan deyil. Sizin sadiq nökərləriniz qızıldan da qiymətlidir. Düjündüjün qalaqlanmış xəz dəriləri görürsünüzmü? Lap nə cür şaxta, soyuq olsa düşmənlərin öhdəsindən gələ bilərsiniz. Bunlar davada hər hansı zirehdən qiymətlidir. Əsgərlər özləri də vuruşa canla-başla girişəcəkdir. Hələ pendiri demirəm, o biri şeylər də bir bəxşeyiş kimi bizim sizə qarşı məhəbbətimizdən doğur. Canınız xata-bəladan uzaq olsun! Pərvərdigara nəzərini sizin üstünüzdən çəkməsin!

Komandor. Çox şadam, çox razıyam. Sizə də can sağlığı arzulavıram. gedə bilərsiniz.

Alonso. Senyor, indi istirahət etmək olar. Siz buraya xoş gəlib, səfa gətirmisiniz! Qoy gördüyünüz bu gözəl bitki sizin qapınızın astanasını şərq mirvariləri kimi bəzəsin. Siz yola bu cür çıxmağa layiqsiniz!

Komandor. Mən hamınıza inanıram, senyorlar! Gedin, Allah sizə yar olsun!

Esteban. Ey, xanəndələr, gəlin bir də oxuyaq!

Xanəndələr (*oxuyurlar*).

Eşq olsun komandora!
Min yaşasın Fernando!
Əl atıb gücə, zora
Zülm edir adamlara!

Gedirlər.

YEDDİNCİ ŞƏKİL

Komandor, Laurensia, Paskuala,
Ortunyo, Flores.

Komandor. İkiniz də buraya gözləyin.

Laurensia. Siz yenə də əmr edirsiniz?

Komandor. Siz necə? Yenə də məğrursunuz? Kiminlə söhbət etdiyinizi yaddan çıxarmayın. Yaxşı, bəsdir daha, Allah xatirinə, yetər!

Laurensia. Paskula, o, sənin lə deyil ki?

Paskuala. Əlbəttə, yox!

Komandor. Ay gözəl ilan, ay göyçək ilan, mən təkcə sənin lə yox, həm də onunla, o qızla danışıram. Axı sizin ikinizi də mənim üçün göndəriblər. Siz mənimsiniz.

Paskuala. Bəli, senyor, biz sizinik, ancaq hər şeydə yox.

Komandor. Yaxşı, yaxşı, buyurun, keçin içəri! Qorxmayın, ora camaatla doludur.

Laurensia. Əgər Alkaldelər orada olsaydı (*onlardan birinin qıziyam*) içəri keçməyə razı olardım, təklikdə isə...

Komandor. Flores.

Frondoso. Bəli!

Komandor. Deyəsən, onlar mənim kim olduğumu yaddan çıxarıblar?

Flores. Aydındır! Yaxşı, nə oldunuz, qurtarın görək! Keçin içəri!

Laurensia. Bizi güclə dartıb içəri çəkməyin.

Flores. Ay axmaqlar, keçin içəri, keçin görək!..

Paskuala. Rədd ol! Biz otağa girəndən sonra sən də qapını bağlayasan üzümə, hə?..

Flores. Senyor davadan gətirdiyi qənimətləri sizə göstərmək istəyir.

Komandor (*sakitcə Ortunyoya*). Əgər içəri girsələr, qapını bərk-bərk bağlayarsan. (*Gedir.*)

Laurensia. Bura bax, Flores, burax bizi, sən yenə də!..

Ortunyo. A balam, ona göndərilən hədiyyələr içərisində siz də varsınız.

Paskuala. Aha, belə de! Rədd ol! Çəkil yoldan, axmaq!

Flores. Bəsdir, sən Allah! Biz də durub bunlara qulaq asırıq.

Laurensia. Yoxsa, senyora gətirilən donuz əti, qaz, toyuq azlıq edir?

Ortunyo. Lakin siz onun üçün daha ləzzətli, daha dadlısınız.

Laurensia. Onun bağırsaqlarını yerə tökmək üçün! (*Laurensi ilə Paskula gedir.*)

Flores. Bax, əgər biz evə onlarsız qayıtsaq, qalmaqal düşəcək. Nə qədər ki, canımızda can var, indi eşitdiklərimizi yaddan çıxara bilmərik.

Ortunyo. Kim xidmət edirsə, o, özünə asan yol seçməmişdir. O, gərək çiçəklənsin. Ya səbirlə xaç çəkməlidir, ya da ki, birdəfəlik vidalaşıb buranı tərk etməlidir.

Gedirlər.

SƏKKİZİNCİ ŞƏKİL

Katolik krallarının Medina del Kompodakı otağı.
Kral don Fernando, kraliça donya İzabella, Manrike və onları
müşayiət edənlər səhnəyə çıxırlar.

Donya İzabella. Çox böyük təhlükədəyik. Biz sakitlikdə, əmin-amanlıqda deyilik. Alfonso döyüşmək istəyəndə öz qoşunu nu silahlandırmağı bacarır. Qarşıdakı güclü təhlükəni dəf etmək lazımdır. Əgər indi tələsməsək, sonra gec olar.

Kral. Araqondan və Navarradan gələcək kömək hazırdır. Kastilyada da az iş yoxdur. Lakin mən hələlik zərbəni qəbul etməyə hazıram. Davada həlledici zərbəni düşmənə mən, mən özüm endirəcəyəm!

Donya İzabella. Senyor, sizin bu qətiyyətinizi mən yalnız alqışlaya bilərəm.

Don Manrike. Siudad Realdan gələn iki rexidor sizi gözləyir. Onlar öz krallarını görə bilərlərmi?

Kral. Bəli, deyin gəlsinlər.

DOQQUZUNCU ŞƏKİL

İki rexidor daxil olur.

I Rexidor. Öz xoşbəxtliyimiz üçün, xilas olunmağımız naminə göylər şöhrətli kral Fernandonu Araqondan Kastilyaya göndərib! Sizin böyük şan-şöhrətinizə sığınıb Siudad Realın adından kral həzrətlərindən təvəqqe edirik ki, kömək əlini bizdən əsirgəməsin. Çox götür-qoy etdikdən sonra biz öz xoşbəxtliyimizi sizə qulluq etməkdə tapmışıq. Əgər belə olsa, biz bunu özümüzə şərəf sayarıq. Bizi alçaldıb bu şərəfdən uzaqlaşdırmaq üçün ortalığa çoxlu buynuz çıxdı. Yaşının az olmasına baxmayaraq, böyük Kalatrava magistri cəsur don Rodriqo Telyesin döyüş qüdrəti hamıya məlumdur. Onun döyüş qüdrəti həmişə məğlubedilməz olsun! Qoy ordenin şöhrəti düzü-dünyanı tutsun! Qoy bizim gücümüz birgə, qüdrətimiz uca olsun! Biz hücumun qarşısında çox möhkəm dayanmışıq. Bu çətin vuruşda cəsur ər kimi də əzildik. Ölənlərin, qırılanların qanı su yerinə axırdı. Nəhayət, o, başa düşdü ki, öz məqsədinə çatmayacaq, bu nailiyyəti axıra çatdıra bilməyəcək. Fernan Qomesə daha nə əmr, nə kömək, nə də məsləhət vermək mümkün deyildi. O, qanun-qayda yaratmaq üçün şəhərdə qaldı. Özləri istəməsələr də, sizin adamlar ürək ağrısı ilə onun camaatı olmağa məcburdurlar. Kömək üçün tələsmək hələ tezdir.

Kral. Fernando Qomes bu saat haradadır?

I Rexidor. Məncə, o, öz Fuente Ovexunasındadır.Orada öz evi də var, hökumət evi də. Düzü, orada öz yaxın adamlarını başına yığıb ki, bərk ayaqda onlardan istifadə edə bilsin.

Kral. Sizin aranızda kapitan varmı?

II Rexidor. Senyor, düzü, bu saat belәsini tapmaq çox müşkül işdir. Bizim dvoryanların çoxu qırılıb. Yaralananlar da az deyil, qalanları da əsir düşüb.

Donya İzabella. Gərək biz söhbəti belə boş-boşuna uzatmayaq. Tezliklə bir tədbir tökmək lazımdır. Vəhşi düşmən bizim hər ləng hərəkətimizdən istifadə edib qüvvəsini artıra bilər. O, Portuqal kralı Alfonso ilə birləşsə, daha inamlı bir qapı dəstəyindən yapışmış olar. O, Estremaduradan daxil olar, özünə açıq giriş qapısı tapar. Bəs onda bizim işimiz necə olar, çətinləşməzmi? Əlbəttə, şübhəsiz, vəziyyətimiz xarablaşar.

Kral. Don Manrike, özünlə iki alay götür, yola düş, qiyamçılara aman vermə. Onları tezliklə aradan qaldırmağa çalış. Qoy Kabra qəhrəman Kordovanın şanlı ordusu da sənin lə getsin. O, döyüşlərdə həmişə qələbə qazanır, hamı onu tanıyır, ona bel bağlayır.

Manrike. Ağıllı tədbirdir, çox ağıllı. Təkcə siz belə ağıllı tədbir tökə bilərsiniz. Mən də işə son qoymalıyam. Ya qələbə ilə qayıdacağam, ya da mərdliklə öləcəyəm.

Donya İzabella. Siz ki bu işi boynunuza götürdünüz, əminəm ki, uğurlu olacaq.

Hamı gedir.

ONUNCU ŞƏKİL

Fuente ovexuna yaxınlığında bir çöl.
Frondoso ilə Laurensia gəlir.

Laurensia. Mən çayda paltar suya çəkirdim. Hələ qurtarmamışam. Frondoso, özümə bir az ürək-dirək verib çaydan aralandım, yanına gəldim. Bütün camaat arasında söhbət səndən gedir. Deyirlər ki, biz bir-birimizdən gözümüzü çəkmirik. Ona görə də hamı bir təhər baxır. Frondoso, sən igid, canlara dəyən oğlansan. Hamının da xoşuna gəlirsən. Özün də yaraşıqlı, səliqəli geyinirsən. Hər yerdə – çöldə, çəməndə, elə bir oğlan-qız tapılmaz ki, bizim haqqımızda ağızdolusu danışmasın. Deyirlər ki, biz bir-birimiz üçün yaranmışıq. Bir-birimizə də çox yaraşırıq. Bir onu gözləyirik ki, keşiş Xuan Çamorro bizi Allahın kilsəsinə çağırsın. Yox, yaxşısı budur ki,

bu haqda özün fikirləş. Qoy sənin anbarın avqustda qızıl buğda ilə dolsun, küplərin, səkçələrin də üzüm suyu ilə. Bu boş danışıqlar isə mənim zəhləmi töküb, Frondoso. İndi mən rahat, sakit yaşayıram, əzab-əziyyət çəkmirəm. Öz xoşbəxtliyim içərisində xumarlanıram.

Frondoso. Əziz Laurensia, bu qədər qorxu-hürküdən sən heç halını da pozmursan. İnan, səni bu təhlükədə görəndə mən özüm qorxuram. Səni görmək, səni eşitmək mənə həyatımdan qiymətlidir. Bilirsən ki, sənin ərin olmağı nə qədər də arzulayıram. Təəssüf ki, sən mənim sevgimi lazımınca mükafatlandırmırsan.

Laurensia. Mən başqa cür bacarmıram.

Frondoso. Ax, ilahi, məni bu vəziyyətdə görəndə az da olsa halıma acıaydın!.. Səninlə bağlı arzu, istəklərim o qədərdir ki, yeyib-içmək belə yadımdan çıxıb. Bütün gecəni gözümü yuma bilmirəm. Axı necə ola bilər ki, bu məlakə sifətinlə belə soyuqluq göstərirsən, hə? Bütün göylər şahiddir ki, mən xəstəyəm, mənim dərdim...

Laurensia. Frondoso, əgər xəstəsənsə get həkimə, qoy səni sağaltsınlar.

Frondoso. Hm, mənim sağalmağım səndən asılıdır. Mən istəyirəm ki, biz tezliklə bir-birimizin olaq. Kilsə bizi qovuşdurandan sonra göyərçinlər kimi dimdiklərimiz biri-birinə yaxın olsun. Dodaqlarımızdan şirin mahnılar düşməsin.

Laurensia. Sən bunu dayım Xuan Roxoya de. Bu saat isə mən səni sevmirəm. Bəlkə də bu, sevgi sonralar əmələ gəldi.

Frondoso. Aman Allah!.. Budur, senyor da gəlir.

Laurensia. Yəqin, yenə ova çıxıb. Frondoso, tez bu kolların dalında gizlən.

Frondoso. İlahi, gör necə də qısqanclıqla gizlənirəm.

ON BİRİNCİ ŞƏKİL

Komandor əlində dayandoldurum daxil olur.
Laurensia və Frondoso səhnədə
gizlənmiş halda.

Komandor. Ürkək maral balasının dalınca gəlişimiz uğurlu oldu. Belə xallı maralla rastlaşmaq nə gözəldir!

Laurensia. Mən çayda paltar yuyub yorulduğum üçün bir az burda nəfəsimi dərib dincəlmək istədim. Senyor, icazənizlə, işim əlimdə yarımçıq qalıb, mən gedim...

Komandor. Gözəl Laurensia, sənin bu kobud xasiyyətin nə vaxtacan davam edəcək. Qüdrətli ilahinin sənə bəxş etdiyi gözəlliyi, taledənmi, ya nədənmi bu xasiyyətin alt-üst edir. Mənim iltifatlı məhəbbətimdən yenə də qaçırsanmı? Burada bir kimsə yoxdur, təklik dostumuzdur. Bu çöl bizim sirrimizi gizli saxlayar. Sənin belə dikbaşlığın və senyorundan üz çevirməyin yersizdir. Sən öz senyorun üçün hər şeydən yüksəksən. Gombul Pedronun kəbinli arvadı Sebastyana da razılaşmadımı? Yaxud Martina Posonun arvadı ilə görüşəndə toylarından cəmi iki gün keçməmişdimi?

Laurensia. Senyor, onlar çoxdan bu yolda idilər. Özləri də sizə qədər saysız-hesabsız oğlanların etimadını qazanmışdılar. Allah xatirinə, gedin, öz maralınızın dalınca. Əgər bir də məni izləsəniz, mən sizi qırmızı xaçlı yox, şeytan hesab edərəm.

Komandor. Daha niyə hirsli-hirsli danışırsınız! Bax, dayandoldurumu da atıram yerə. Mən bu şıltaqlığa sadəcə olaraq əllərimin köməyilə son qoyacağam.

Laurensia. Necə?! Siz belə edərdinizmi? Dəli olmusunuz nədir?

Komandor. Müqavimət göstərməyiniz yersizdir. Çox yersiz.

Frondoso (*kənara*). Əgər dayandoldurumu əlimə keçirsəm, onun kürəyini odlayacağıma göylər də şahid olar. (*Dayandoldurumu götürür.*)

Komandor. Bəsdir, burax tərsliyi! Yetər!

Laurensia. Ey müqəddəs göylər, barı siz köməyə gəlin!

Komandor. Biz ki burada təkik. Daha qorxub çəkinmək nə lazımdır.

Frondoso. Ey böyük komandor, buraxın qızı, çəkin əllərinizi, inanın ki, mənim qəzəb və qarğışım sinənizi al qırmızı boyayacaq! Məni utandıran, çəkindirən sizin xaçınızdır!

Komandor. Köpək kəndçi!..

Frondoso. Burda it yoxdur! Laurensia, qaç!

Laurensia. Frondoso, bir az ehtiyatlı ol!

Frondoso. Qaç deyirəm!

Laurensia aradan çıxır.

ON İKİNCİ ŞƏKİL

Komandor və Frondoso.

Komandor. Belə də şüursuz adam olar. Bəlkə, biri silahsızdır!.. Mən vəhşiləri hürkütməyimdən qorxdum. Elə ona görə də qəsdən silahı yerə qoydum.

Frondoso. Senyor, əgər bir balaca tətiyi çəksəm, elə o saat da meyit kimi yerə səriləcəksiniz.

Komandor. O getdi. Satqın, əclaf, at yerə silahı, bu saatca at! Eşidirsənmi? At deyirəm sənə, tez ol at! Yaramaz!

Frondoso. Aha, belə de! Sonra da siz özünüz mənim nəfəsimi kəsəsiniz, hə? Yadda saxlayın ki, sevgi, məhəbbət kardır!.. O, heç kəsin səsini eşitmir, öz taxt-tacında əyləşib hökmranlıq edir!..

Komandor. Mənim kimi cəsur adam gədanın birisinə arxasınımı çevirməlidir? Atəş aç, kəndli gəda, elə at ki, yan getməsin, mən cəngavərlik qanununu poza bilmərəm!

Frondoso. Yox, qətiyyən! Mən əsil-nəslimi unutmamalıyam. Dayandoldurumu isə özümlə götürürəm ki, mən gedəndən sonra əlindən namərdlik çıxmasın.

Komandor. Çox qəribə, çox acınacaqlı haldır! Bu təhqirin əvəzini gör necə çıxacağam. Mən bu intiqamı qoymaram yerdə qalsın! Nahaq yerə onunla tutaşmadım! Eh, Allah şahiddir ki, rüsvayi-cahan oldum!

PƏRDƏ

İKİNCİ PƏRDƏ

FUENTE OVEXUNADA BİR MEYDAN.

BİRİNCİ ŞƏKİL

Esteban, bir rexidor.

Esteban. Bilirsiniz ki, mən həmişə sizə sağlıq arzulayıram. Anbardakı ehtiyatı dağıtmaq olmaz. Bu il çox da uğurlu keçmədi. Vaxt isə heç kimlə hesablaşmır. Ehtiyatı gərək toxunulmaz yerdə saxlayaq. Onsuz da ehtiyatdan qədərdən artıq işlətmişik.

Rexidor. Mənim yeganə arzum, istəyim əhalini əmin-amanlıq içərisində, sülhdə görməkdir.

Esteban. Bu haqda Fernan Qomesdən də xahiş edək. O, gələcək işlərdən xəbər verən, Allahın sirlərindən bizi agah edən münəccimlərin işindən əzab-əziyyət çəkmir. Onların hamısı istəyir ki, ancaq o gözəgörünməyən Allahın vacib sirlərini bizə açsın. Dindarlar kimi həmişə keçmişdən, gələcəkdən söhbət etməyi sevirlər. Əhəmiyyətli bir şey soruşsan, ən ağıllısı dönüb olacaq Allahsız. Axı deyəsən, onlar evlərində ya bulud saxlayırlar, ya da ulduzları kitabdan öyrənirlər. Göydəki hadisələr haradan əmələ gəlir? Bu toqquşmaların əsil səbəbini bizə açа bilərlərmi? Onlar taxıl yığımında da rejim təyin edirlər; gəlin buğda, darı, tərəvəz, kələm, xiyar, çuğundur əkək... Onların da beyni kələm kimidir. Sonra da deyirlər ki, birisi ölür. Translivaniyadan danışırlar, deyirlər ki, orada çaxır azdır. Almaniyada isə çoxlu pivə hazırlayırlar. Saskuniyada gilası soyuq vurub. Nirkaniyada çoxlu pələng olacaq. Ümumiyyətlə, nə əkəcəyiksə, onu da biçəcəyik... İl dekabrda qurtarır.

İKİNCİ ŞƏKİL

Leonelo, Barrildo və həmin adamlar.

Leonelo. Camaatın həmişə yığışıb söhbət etdiyi yer çoxdan tutulduğundan birinci gedə bilmədik. Bəxtimiz gətirmədi.

Barrildo. Bəs Salamankada nələr oldu?

Leonelo. Eh, bu, çox uzun əhvalatdır.

Barrildo. Yox bir Bartulo olarsan.

Leonelo. Fakültədə təkcə əsil mömin yox, dəllək də təhsil alır.

Barrildo. Əminəm ki, siz elmi dərindən mənimsəmisiniz.

Leonelo. Nə deyim, mən çox əhəmiyyət vermişəm, dərindən öyrənməyə çalışmışam.

Barrildo. İndi kitab çap edənlərin sayı o qədərdir ki, bilikli, müdrik adamlar dünyanı bürüyüb. Hər şeyi kölgədə qoyublar.

Leonelo. Əksinə, onlar o qədər sanballı yazıblar ki, müdriklik hər an, hər saat qalib gəlir. Kitabların sayı çoxaldıqca pərtlik, qanıqaralıq da artır, inamı, etibarı alt-üst çevirir, darmadağın edir. Bu da tez yoxa çıxan, tez əriyən köpük kimi təmtəraqlı, şöhrətli sözlərlə bağ-

lıdır. Camaat nahaq yerə əzab-əziyyət çəkir. Burada kitab şkafında oxumağa o qədər kitab var ki, başlıqların çoxusu pozulub. Bunların çap olunması hər şeydən əhəmiyyətlidir. Sadə camaatın arasından minlərlə dahilər çıxdığı yalan deyil. Onların yüzillik işıqlarını qaralda bilməmək onları dağılıb viran olmaqdan qoruyur. Onun ixtiraçısı Qutenberqdir. Bu məşhur almanın əsli Maynsdandır. Dəfnə çələngi ilə bəzədilməyə layiq görülmüşdür. Ancaq çoxları onunbunun zəhmətini çap etdirib öz əsil şöhrətini itirir, ancaq dildə yaşayır. Elələri də var ki, ancaq adları oğurlayırlar. Sadəcə olaraq öz mallarını yerləşdirmək üçün, özlərininkini hesaba keçirmək üçün. Elə adamlar da var ki, öz alçaq hərəkətləri ilə əclafcasına, iyrənccəsinə başqalarının paxıllığını çəkirlər. Bu əhəmiyyətsiz adamlar öz yazdıqlarını çap etdirib düşmənlərin adı altında dünyaya buraxırlar.

Barrildo. Mən bu fikirlə razılaşmıram.

Leonelo. Dünyanın işi belədir. Bu avamlar alimlərdən hayıf alırlar.

Barrildo. Kitab çap etdirmək savab işdir, Leonelo.

Laurensia. Kitabsız çox əsrlər keçinibdir. Özləri də pis ötüb keçməyib. Bizim dövrümüz elm cəhətdən kasıbdır. Hanı Avqustin, hanı müqəddəs Xeronimo!

Barrildo. Boşlayın canım, gəlin əyləşək, deyəsən, axı sərsəmləyirsiniz.

ÜÇÜNCÜ ŞƏKİL

Xuan Roxo, kəndli və həmin adamlar.

Xuan Roxo. Cehiz üçün çatışmayan şeylər var. Gərək toy hədiyyələri də olsun ki, bir iş görəsən. Eh, bu saat şəhər məhəllələrində elə adamlar var ki, dilənçi kökündədir, yoxsuldur. Eləsi də var ki, eyş-işrət içərisində yaşayır. İndi elə zamandır ki, insanlar biribirindən fərqlənir.

Kəndli. Eh, komandora nə var ki?.. Sss... Yavaş, yavaş, bərkdən danışmayın!

Xuan Roxo. Laurensia onu yaman təhqir etdi.

Kəndli. Hələ yer üzünə belə həyasız, belə azğın adam gəlməyib. Onu bu zeytun ağacından asmaqdan başqa, çarəsi yoxdur.

DÖRDÜNCÜ ŞƏKİL

Komandor, Ortunyo və Flores daxil olur.

Komandor. Yaxşı adamları, xeyirxah bəndələri Allah saxlasın! Oturun.

Rexidor. Nə zəhmət çəkirsiniz, canım. Belə də yaxşıdır.

Esteban. Senyor, həmişəki kimi əyləşin öz yerinizdə, bizə ayaq üstə durmaq da xoşdur.

Komandor. Buyurunuz, senyorlar, ayaq üstə durmayın, hamınız əyləşin!

Esteban. Biz sizin kimi ləyaqətli senyora xidmət etməyi özümüzə şərəf sayırıq. Özündə şan-şöhrət olmayanlar bu ehtiramı göstərməyə qadir deyillər.

Komandor. Buyurun, əyləşin, bir balaca söhbət edək.

Esteban. Senyor, ov tazısı xoşunuza gəldimi?

Komandor. Nökərlərin söhbətində hər şey mənə agah oldu. Alkalde, bu lap möcüzədir. Ömrümdə belə cəld qaçan ov iti görməmişəm.

Esteban. Vicdanla deyə bilərəm ki, tazı heç də pis qaçmır. Nə oğruda belə zirəklik var, nə də vuruş meydanından qaçan ağciyər döyüşçüdə.

Komandor. Onu ov dalınca qovmağım bir yana, istəyirəm ayaqları altında qalan dovşanı da tutsun.

Esteban. Allah haqqı, mən elə edəcəyəm ki, arzunuza çatasınız. Deyin görüm, o dovşan necə oldu?

Komandor. Çox uzaqda deyil, bu yaxınlardadır. O, sizin qızınızdır.

Esteban. Necə? Mənim qızım? Laurensia?

Komandor. Bəli.

Esteban. Yaxşı, belə de, sizin könlünüzdən onu tutmaqmı keçir?

Komandor. Hələ siz öz qızınızı bir az danlamalısınız da.

Esteban. Niyə, nə olub ki?..

Komandor. O, mənimlə çox şəstlə davranır, dikbaşlıq edir. Başqaları mənimlə o qədər xoşxasiyyət, o qədər mülayim danışır ki, gəl görəsən. Bax birisinin də əri buradadır. Öz kişisinin yanında heç bir lovğalıq, dikbaşlıq göstərməyib mənimlə görüşməyə razı oldu.

Esteban. Eyıb deyilmi, senyor, belə yüngül söhbət etməklə nüfuzdan düşürsünüz.

Komandor. Oho, bu kəndliyə bir baxın, necə də bülbül kimi cəh-cəh vurur! Flores, bəlkə, Aristotelin "Siyasəti"ni verəsən bu boşboğaz oxusun.

Esteban. Senyor, camaat, kütlə sizin şan-şöhrətinizin, namusunuzun kölgəsində yaşamaq arzusundadır. Siz isə... yaxşı baxsanız görərsiniz ki, Fuente Ovexunada da ləyaqətli, namuslu adamlar var.

Laurensia. Bu sırtıq, yaramaz haradan gəlib çıxdı!

Komandor. Nəyə görə, Allah xatirinə, deyin görüm, Rexidor, yoxsa mən sizin qəlbinizə dəydim?

Rexidor. Siz adınıza layiq danışmırsınız. Bizim namusumuzu təhqir edib, özünüzü də alçaltmaq niyyətindəsiniz. Bu ki biabırçılıqdır!

Komandor. Sizin də namusunuz var? Sən Kalatravanın ruhani döyüşçülərinə bir bax!

Rexidor. Təmiz qanı olmayanlar da gəzdirdiyi xaçla öyünərmiş?..

Komandor. Ola bilsin ki, sizin qanınız çirklidir, təmiz deyil. Bəlkə, mənim qanımla qarışdırasınız?

Rexidor. Əgər qan çirklidirsə, heç vaxt pak olmaz!

Komandor. Çirkli də olsa, təmiz də olsa, mənim üçün fərqi yoxdur, sizin xanımınızla ürəyə yatar, uyuşar.

Esteban. Senyor, siz bu sözləri vicdanla, namusla demirsiniz. Ona görə də danışığınıza sərhəd qoysanız yaxşıdır.

Komandor. İlahi, bu kəndlilərlə danışmaq necə də cansıxıcıdır! Ey böyük-böyük şəhərlər, haradasınız! Sizin camaatdan olmaz! Tanınmış adamlarından heç bir xəbər görməzsən. Oradakı kişilər az qala minnətçi düşürlər ki, onların arvadlarını qonaq qəbul edəsən!

Esteban. Yaxşı, yaxşı, senyor, bəsdir daha, yetər! Boşlayın canım, öz ağlımız özümüzə çatar. Şəhərdəki Allahların mədəniyyəti yüksək olduğundan qanunları da son dərəcə ifrata varıb.

Komandor. Bəsdir daha! Rədd olun burdan!

Esteban. Hm... bir baxın, ilahi, görün kim kimi qovur? Axı burda artıq adam kimdir?

Komandor. Sizə deyirəm ki, rədd olun! Tez, tez, cəld olun, meydançanı boşaldın! Bu saat!..

Esteban. Yaxşı, gedirik.

Komandor. Kərtənkələ ilana zəhər verən kimi, deyəsən, hamını korlayan da sənsən, ha!

Flores. Senyor, xahiş edirəm, özünüzü ələ alın!

Komandor. Deyəsən, bu kəndlilər mənim gəlişim münasibəti ilə yığıncaqlar düzəltmək istəyirlər.

Ortunyo. Senyor, səbir yaxşı şeydir!

Komandor. İlahi, bu qədər səbirli olmağıma özüm də təəccüb edirəm. Qoy hamı çıxıb getsin öz evinə.

Leonelo. Ey ulu göylər, bircə bunlar tez rədd olub gedəydilər!

Esteban. Kim necə istəyir, elə də eləsin, mən getdim.

Kəndlilər dağılışırlar.

BEŞİNCİ ŞƏKİL

Komandor, Ortunyo və Flores.

Komandor. Bu camaat haqqında nə deyə bilərsiniz.

Ortunyo. Onu deyə bilərəm ki, çox qürurlu, yenilməz xalqdır. Siz isə onların narazılığını azaltmaq əvəzinə, daha da artmasına səbəb olursunuz.

Komandor. Yox bir, özlərini mənə tay edib gəlib çıxsınlar başıma!

Flores. Senyor, məsələ bunda deyil.

Komandor. Eh, sən nə danışırsan canım, istəyirsən kəndlini lap dayandoldurumla öldür, qanı batacaq.

Flores. Dünən Laurensianın evinin yanında onu gördüm. Deyəsən, o idi. Boyu-buxunu, paltarı da onunkuna oxşayırdı. Səhv etmirəmsə özü idi.

Komandor. Frondoso indi haralardadır?

Flores. Deyirlər ki, buralarda fırlanır.

Komandor. Məni ölümlə qorxudan, məni hədələyən adam hələ burda avara-avara gəzir də!..

Flores. O, quş tora ilişən kimi, balıq qarmağa keçən kimi düşəcək əlimizə, heç yana qaçıb qurtara bilməyəcək.

Komandor. Qranada və Kordova döyüşçüləri məndən rəhm gözləmir. İndi əl boyda bir uşaq durub dayandoldurumu sinəsinə sıxıb ki... Yox, yox, deyəsən, dünyanın axırı yaxınlaşır!

Flores. Frondoso Laurensianı sevməsəydi, belə ürəkli, belə cəsarətli olarıdmı?

Ortunyo. O, sizi öldürmək niyyətində olmasa da, siz ona borclu qalırsınız. Siz ondan intiqam almalısınız!

Komandor. Mən hələ səbir edib özümü saxlaya bilərəm, axıracan gözlərəm, Ortunyo. Hələ od tutub yanmıram. Bu saat tələsməyin heç bir lüzumu yoxdur. Mən bu yerləri bir göz qırpımında sata bilərdim. Hələ tezdir, hələ intiqam almaq vaxtı deyil. Gərək əlverişli fürsət düşsün! Bəs Paskualadan nə xəbər var?

Flores. Deyir ki, toyuna az qalıb

Komandor. Müxtəsər desək, möhlət istəyir, hə?

Flores. Boyun olur. Özü də nəqdi. Elə işin də yaxşı cəhəti bundadır.

Komandor. Bəs Olalyodan nə xəbər var?

Ortunyo. O, çox mərhəmətlidir. Bizi çox yaxşı qarşıladı. Danışığı da ürəyimizdən oldu.

Komandor. Yenə də zarafat edib şitənirdi?

Ortunyo. Adaxlısı gözünü onun üstündən çəkmir. Mənim o tərəflərdə hərlənməyimə, nökərlərin müşayiətilə sizin onun yanına gəlməyinizə bərk acığı tutub. Ancaq bu qısqanclıq hissi aradan qalxan kimi sizi yenə də əvvəlki kimi qəbul edəcəklər.

Komandor. Bu cür ümidlə yaşamaq çox xoşdur. Ancaq əri onu addım-addım izləyir.

Ortunyo. Lap kölgə kimi.

Komandor. İnesdən necə, bir xəbər varmı?

Flores. O, hansıdır, senyor?

Komandor. Antonunkunu deyirəm, yoxsa yadından çıxıb?

Flores. Hə, hə, bu saat o özünə bir bəzək-düzək verir ki, gəl görəsən. Görünür, xoşunuza gəlmək istəyir. Sözümün canı odur ki, onunla görüşmək üçün nə açar, nə də pilləkən lazımdır.

Komandor. Asanlıqla ələ keçən qadınları çox sevirəm, onlara xərcim də az çıxır. Ah, Flores, əgər onlar özlərini lazımi qədər qiymətləndirməyi bacarsaydılar!..

Flores. Məqsədimizə çatmaq üçün hər şeydə onlara güzəştə getməyə hazırıq. Nə üçün tez razılıq verməklə ürəkdə şirin ümidi

məhv etsin? Bir müdrik demişdir ki, kişilərə ehtiyacı olan qadınlar da az deyil. Burda heç bir şey etmək olmaz, kədərlənməyə də səbəb yoxdur.

Komandor. Mənim kimi sevgi xəstəliyindən dəli olan adamlar arzulayırlar ki, qızğın döyüşü tezliklə başa çatdırsın. Lakin biz ona qiymət qoymuruq. Hər şeyi tez, asanlıqla unutmağa çalışan adam heç olmasa bütün istəklərini yerinə yetirirdi. Xoşbəxtlik kimə nəsib olursa, onu dərd-qəm də bürümür.

ALTINCI ŞƏKİL

Simbranos daxil olur.

Simbranos. Komandoru harada görə bilərəm?

Ortunyo. Bəyəm sən onu görmürsən?

Simbranos. Cangəvər Fernan Qomes! Göy şapkanızı çıxardıb yenidən ağ dəbilqənizi, hərbi libasınızı geyinin, qalxan-qılıncınızı götürün! Unutmayın ki, Santyaqo magistri ilə qraf de Kabra Kastiliya krallığına xidmət göstərərək Rodriko Xironun üstünə gəlirlər. Onlar Siudad Realdadırlar. Ola bilsin ki, Kalatravanın bahasına şəhər əldən çıxıb. Çoxlu qan axıtdıqları məlumdur. Onun hündür divarlarından hər yer aydın görünür; şirlər, qalalar, Araqonun məşhur gerbləri!.. Heç olmasa Portuqaliya kralı, Xironun ləyaqətinin tapdalanmasına yol verməyəydi. Almaqroya sağ-salamat qayıtmaq magistrə asan başa gəlsə, nə var ki?.. Sizin orada görünməyiniz Kastiliyanı geri qaytarmaq üçün kifayətdir!

Komandor. Bəsdir! Müzakirə açmayın. Vaxt qızıldan da qiymətlidir. Ortunyo, hamını topla! Çalın şeypurları, qoy hamı yığışsın! Bir baxın, görün orada nə qədər əsgərim var?

Ortunyo. Əlli nəfər olar.

Komandor. Qoy hamı atlansın!

Simbranos. Əgər tələsməsəniz, atları qovmasanız Kral Siudad Realı alacaq!

Komandor. Arxayın olun, biz buna yol vermərik.

Gedirlər.

YEDDINCI ŞƏKIL

Fuente ovexuna çölü. Menqo, Laurensia və Paskuala tələsik daxil olurlar.

Paskuala. Menqo, sən bizdən ayrılma.

Menqo. Burda qorxulu bir şey yoxdur ki!..

Laurensia. Menqo, bir-birimizdən ayrılmayaq, bir yerdə getsək yaxşıdır. Gəlin adam olmayan yerlə, kəndin lap qıraği ilə gedək ki, ona rast gəlməyək.

Menqo. Lənət şeytana! Gör işi nə yerə gətirib çıxarıb!

Laurensia. Onun əlindən mənə nə gecə rahatlıq var, nə də gündüz!

Menqo. Onun görüm başında ildırım çatlasın!.. Bəlkə, canımız qurtara.

Laurensia. O, yırtıcıdır, vəhşidir! Taun xəstəliyi ondan əskik olmasın! Onu görüm zəhər içsin, ağılansın!

Menqo. Laurensia, mənə dedilər ki, burda, bu çəmənlikdə bir dəfə Frondoso səni onun əlindən qurtarıb. Bir də danışırlar ki, Frondoso az qalıb əlindəki dayandoldurumla onu gəbərtsin.

Laurensia. Mən buna o qədər də əhəmiyyət vermirəm, Menqo. O gündən bəri onlara başqa cür baxıram. Frondoso mərddir, layiqli oğlandır! Məncə, bu işdə həyatını əsirgəməz də. Yeri gəlsə özünü ölümə də atar.

Menqo. O gərək burdan çıxıb getsin, yoxsa tutub axırına çıxacaqlar.

Laurensia. İndi mən onu daha çox sevirəm. Sənin kimi mən də ona məsləhət gördüm ki, çıxıb getsin. Elə bil daşa, qayaya deyirsən. Coşur, qəzəblənir, hirslənir... Komandor and içib ki, onu ayağından asdıracaq.

Paskuala. Onun özünün boğazını kəndirə keçirtmək lazımdır.

Menqo. Onu əməlli-başlı, özü də daşla başa salmaq lazımdır. Daş tapılar, mənim çantamda az deyil. Onun kəlləsini parça-parça dağıdaram. Hər yerdə onu əclafın yekəsi, alçağın böyüyü kimi tanıyırlar, hətta Romalı Sabalodan[1] da qəddardır.

Laurensia. Sabalo yox. Menqo. Elioqabalo. O da yaman vəhsi, insafsız olub.

[1] Menqo Elioqabalo ilə Sabalonu qarışdırır.

Menqo. Əşşi, nə bilim Pelikalvaro olub, ya nəmənəcik olub, dilim də gəlmir deməyə. Tarixdən o qədər də dərin biliyim yoxdur. Onun haqqında yaddaşımda elə bir şey də qalmayıb. Komandorun azğın əməlləri Pelikalvaronu da yaddan çıxarıb. Görəsən, dünyada Fernan Qomes kimi yırtıcı adam varmı?

Paskuala. Yox, görünür ki, o, anadan vəhşi, yırtıcı doğulub!..

SƏKKİZİNCİ ŞƏKİL

Xasinta gəlir.

Xasinta. Ay aman kömək edin! Allah xatirinə!.. Əgər dostluğu yaddan çıxarmamısınızsa kömək edin!

Laurensia. Xasinta, dostum, nə olub, sənin başına nə gətiriblər, əzizim?

Paskuala. Burda bizdən başqa heç kim yoxdur, danış!

Xasinta. Komandorun polad zirehlə silahlanmış nökərləri Siudad Realnı alt-üst etməyə gedirlər. İstəyirlər məni də ona, o əclafa hədiyyə aparsınlar.

Laurensia. Xasinta, Allah səni o həyasızdan saxlasın! Komandor indi də səninlə əylənmək istəyir. İlahi o, səni azad edəndən sonra mənim əzab-əziyyətli günlərim başlayacaq. (*Gedir.*)

Paskuala. Xasinta, mən kişi olsaydım, səni müdafiə edərdim! (*Gedir.*)

Menqo. Bax, kişi mən! Kişilik adına xəyanət etməmək üçün mən sənin müdafiəndə hazıram. Gedək mənimlə, Xasinta, gedək!

Xasinta. De görüm, silahın varmı?

Menqo. Bu dünyada məndən tez silahlanan olmayıb.

Xasinta. Hanı, göstər görüm!

Menqo. Bax, budur, bu daşları görürsənmi?

DOQQUZUNCU ŞƏKİL

Flores Ortunyo ilə gəlir.

Flores. Elə bilirdin ki, payi-piyada qaçıb canını qurtaracaqsan, sürüşüb əlimizdən çıxacaqsan, hə?

Xasinta. Oy, Menqo, məhv oldum!..

Menqo. Senyorlar, heç olmazsa bir az insafınız olsun!..

Ortunyo. Yoxsa, sən bu quşu müdafiə etmək isəyirsən?

Menqo. Onu müdafiə etməyə haqqım var, o, mənim qohumumdur. Nə qədər ki, canımda can var, ona havadar çıxmağı özümə borc sayıram.

Flores. Deyəsən axı, bu, canından bezib?

Menqo. Yox, yox! Qətiyyən, həm də çalışın məni hirsləndirməyəsiniz. Yoxsa sapandımı işə salaram. Bu isə sizə çox baha oturar.

ONUNCU ŞƏKİL

Komandor və Simbranos daxil olur.

Komandor. Nə olub? Hər alçaq adamdan ötrü mən yəhərdən enməliyəm, nədir?!

Flores. Bu tərəflərin camaatı çox murdar adamlardır, başa bəladırlar. Bir iş başlayıb qurtarmaq istədiyin halda, sənə qarşı çıxır, həyasızlıq göstərməyə cəsarət edirlər.

Menqo. Senyor, cəngavər adınızı ləkələməmək xatrinə ədalətsiz iş tutan əsgərləri cəzalandırın. Onlar bu kəndli qızını ərindən və namuslu valideynlərindən oğurlayıb, aparmaq istəyirlər. Camaatı evindən-eşiyindən didərgin salmaq niyyətləri var, nədir?! Əmr edin ki, onlar bizə toxunmasınlar.

Komandor. Heç darıxma. Bu saat əmr edərəm, sənə bir toy tutsunlar ki, dadı damağında qalsın. Əlindəki nədir? Bura ver!

Menqo. Senyor!..

Komandor. Simbranos, Ortunyo, Flores, onun qollarını əlindəki sapandla bərk-bərk bağlayın!

Menqo. Senyor, biz sizin şan-şöhrətinizi müdafiə etməyə hazırıq!

Komandor. Görəsən, bu Fuente Ovexuna ilə, onun avam kəndliləri mənim haqqımda nə düşünürlər?

Menqo. Senyor, axı Fuente Ovexuna camaatı sizə nə hörmətsizlik edə bilərlər?

Flores. Onun nəfəsini kəsəkmi?

Komandor. Silahı murdar qana bulamaq lazım deyil. Ona başqa gözəl bir yerdə dəbdəbə ilə hörmət edərik.

Ortunyo. Buyuruq sahibisiniz, senyor!

Komandor. Qamçılayın! Onu başdan ayağadək soyundurun, yüyənlə bu palıda sarıyın...

Menqo. Aman verin, senyor! Rəhm edin! Vicdanınız olsun.

Komandor. Qamçılayın bu yaramazı, qayış dəmirdən qopanadək vurun!

Menqo. Ey göylər, ildırım çaxdır, gurla, bunların başına od-alov yağdır.

Flores, Ortunyo və Simbranos Menqonu aparırlar.

ON BİRİNCİ ŞƏKİL

Komandor, Xasinta və əsgərlər.

Komandor. De görüm, niyə qaçırsan? Sənin üçün bir kəndli yaxşıdır, yoxsa tanınmış, şöhrətli bir şəxs?

Xasinta. Qaytarın mənim azadlığımı özümə! Sizin əsiriniz olmaq istəmirəm! İlahi, bu biabırçılığa dözməkmi olar!

Komandor. Deməli, belə... Dözə bilməzsən?

Xasinta. Bəli, dözə bilmərəm. Çünki mənim namuslu atam öz nəcabəti ilə səni çoxdan ötüb keçmişdir. Sənin çürük əxlaqın onun sağlam adət-ənənəsi qarşısında acizdir!

Komandor. Təhqir və kobudluq adamları qəzəbləndirməkdən başqa, bir şey deyildir. Buna bir bax, bu da hirslənir. Gəl düş qabağıma, gəl gedək.

Xasinta. Məni hara aparmaq istəyirsiniz?

Komandor. Mənimlə gedəcəksən.

Xasinta. Senyor, mənə yazığın gəlsin, daşı ətəyindən tök.

Komandor. Yaxşı, mən fikrimi dəyişdim. Bu daha pis. Əgər mənim olmasan, qoşunun quyruğunda sürünəcəksən. Özünü də işgəncə, əzab-əziyyət gözləyir.

Xasinta. Məni heç bir şeylə qorxuda bilməzsən! Nə qədər ki, canımda can var, diri-diri ələ keçməyəcəyəm.

Komandor. Tez ol, kobud qadın! Tez, tez, səni gözləyirəm!

Xasinta. Senyor, yalvarıram, rəhm elə!

Komandor. Yox, bunu edə bilmərəm!

Xasinta. Mən Allahın haqq-divanını çağırıram! Qoy mənim yeganə müdafiəçim o olsun!

Xasintanı aparırlar.

ON İKİNCİ ŞƏKİL

Fuente Ovexunada bir meydan. Frondoso və Laurensia gəlirlər.

Laurensia. Frondoso, sən nə cəsarətlə, qorxmadan bura gəldin?

Frondoso. Bura ona görə gəldim görəsən ki, sevənlər qorxu nə olduğunu bilmirlər. Mən o dağın yamacında idim, gördüm komandorun adamları buradan çıxdılar. Əsil məhəbbət qorxu nə olduğunu unutdurur. Get, Laurensia, elə yerə get ki, o, səni də görə bilməsin. Allahdan istəmişəm ki, o, öz səfərini şeytanların ondan ötrü darıxdığı yerdə tamamlasın!

Laurensia. Sus, Frondoso, kimə ölüm arzulasan, kimə pislik diləsən, o daha da çox yaşayar, xoşbəxt olar.

Frondoso. Eh, lap min il yaşasın, biz ona bütün işlərində xeyir-dua versək də, xoş əməllər arzulasaq da, ondan bəd əməllər əskik olmayacaq. Laurensia, mənə bir şeyi agah elə, danış, bilirsən ki, ancaq sənin haqqında düşünürəm, səni necə sədaqətlə sevdiyimdən də xəbərin var. Artıq ikimiz də layiq olduğumuz qapının astanasındayıq. İkimizin də bir-birimizi necə sevdiyimiz bütün aləmə bəllidir. Bəli, biz bir-birimizi sevirik, ancaq hər yerdə təəccüblə pıç-pıçı gedir ki, bizim işimiz hələ də həll olunmayıb. Deyirlər ki, toyumuz heç vəchlə baş tutmayacaq. Laurensia, danış, xahiş edirəm, dillən, mənə az əziyyət ver! Mənim taleyim sənin əlindədir.

Laurensia. İndi ki, belədir, qoy camaat da bilsin, sənə də deyirəm ki, bu pıçpıçılar baş tutmayacaq. Sənin-lə razıyam.

Frondoso. İzin ver, sənin qədəmlərin dəyən torpağı öpüm. Yeni həyata başladığımız üçün mən sevincimi hər şeylə bölüşdürmək istəyirəm.

Laurensia. Frondoso, bu təmtəraqlı danışıq nəyə gərəkdir. Hər şey düşünülüb, götür-qoy edilsə, yaxşı olmazmı?! Sən atamla danış, Frondoso. Bu, hər şeydən vacibdir. Odur, özü də gəlir. Frondoso, sənin arvadın olmağa söz verirəm. Qoy xeyir-dua versinlər.

Frondoso. Allah özü razı olsun.

Laurensia evinə gedir.

ON ÜÇÜNCÜ ŞƏKİL

Esteban Rexidorla daxil olur.

Esteban. Oz həyasız əxlaqı ilə o, bütün camaatın içinə çaxnaşma saldı. Heç kim bu işin üstündən clə-belə keçməyəcək. Onu güclə devirmək olmaz. Onlar vəhşidirlər, mərhəmətsiz, zalımdırlar. Bir az səbir edək, hələ vaxt deyil. Yazıq Xasinta onun zorakılığı ucundan məhv olur.

Rexidor. Katolik krallarının adı onlara çoxdan verilib. Artıq İspaniya öz qanunları ilə öz müdafiəsini boynuna almağa hazırdır, Santyaqo öz zirehli atının belində Siudad Real üzərində döyüşə tələsir. Yazıq Xasinta! Onun əxlaqı hamıya örnək ola bilərdi.

Esteban. Gör Menqoya necə amansız divan tutdular!

Rexidor. O yazıq başıbəlalının kürəyinə o qədər döşüyüblər ki, mürəkkəbdən qara olub. Elə bil belini dağlayıblar.

Esteban. Susun! Bu vəhşiliyi görəndə od tutub yanıram. Bizə də o bais oldu. Qolumu ağrıtsa da, bu boyda əl ağacını bəs nədən ötrü əlimdə gəzdirirəm?

Rexidor. Əgər onun nökərləri belə işlərdən çıxırsa, daha nə eləmək olar!

Esteban. Ona hələ bu da azdır. Deyirlər ki, onu Yekəqarın Pedronun arvadı ilə bir gün çay kənarında yarğanda görüblər. Özü ələ salandan sonra bağışlayıb nökərlərinə.

Rexidor. Deyəsən, orda kim isə bizə qulaq asır. Kimdir o?

Frondoso. Mənəm, sizin buyruğunuzu gözləyirəm.

Rexidor. Mənim evim üçün, ailəm üçün, Frondoso, heç nə lazım deyil. Sən həyatını öz atana borclusan. Təkcə atan üçün yox, sən həm də mənə əzizsən, doğmasan, oğlum. Mən sənə dayəlik edib qollarım üstündə böyütmüşəm, səni doğma balam qədər sevirəm.

Frondoso. Bəli, senyor, mən bunu çoxdan hiss eləmişəm. Məni çoxdan tanıdığınız üçün bu mərhəməti sizdən həmişə gözləyirəm.

Esteban. Deyəsən, bizim dəli komandor Fernan Qoes sənin xatirinə yamanca dəyib, eləmi?

Frondoso. Bəli, lap çox!

Esteban. Bu, mənim ürəyimə dammışdı.

Flores. Bəli, senyor, mən qətiyyətlə deyirəm ki, Laurensianı çox sevirəm, həddindən çox. İstəyirəm ki, biz evlənək. Üzr istəyirəm,

senyor, qəlbimdəkiləri gizlədə bilmirəm. Bəlkə də, tələsirəm, çox qabağa gedirəm. Bu, başqalarına yaxşı görünməsə də, mən özümü saxlaya bilmədim, sözümü dedim.

Esteban. Frondoso, dostum, sən bu sözlərinlə mənim ömrümü uzadırsan, qəlbimi parçalayan bu dəhşətli işə görə sən məni yaşamağa vadar edirsən, mənə həyat verirsən! Sənə cansağlığı arzulayıram, oğlum, Mənim namusumu göylərlə birlikdə qoruyursan! Sənə xeyir-dua verirəm, oğlum! Namusunun, qeyrətinin təmizliyinə şübhə etmirəm. Bu xeyirxah iş barədə gərək atanla söhbət edəm. Ancaq onu da deyim ki, biz bu işi çox asan və dostcasına edəcəyik. Bu iş mənim lap ürəyimdən oldu.

Rexidor. Məncə, hər necə olsa bu haqda mütləq qızın özündən soruşmaq lazımdır.

Esteban. Heç bir təşvişə düşmək lazım deyil, bu iş çoxdan həll olunub. Onlar, inanın ki, yüz dəfə bu barədə ölçüb-biçiblər. Bax elə bu saat cehiz barədə də danışmaq olar. Bu, işimizə heç bir əngəl törətməzdi. Cehiz üçün bir az gümüş pul da verə bilərəm.

Frondoso. Heç bir şeydən narahat olmayın. Bura cehiz barədə söhbətin yeri deyil.

Rexidor. O, adaxlısını sizdən çılpaq istəmir ki, sevinəsiniz.

Esteban. Nə olsun ki? Bu saat Laurensianı bura çağıraq, qoy özü cavab versin.

Frondoso. Əlbəttə, əlbəttə! Bu lap doğrudur. Heç kim sizin dediyinizin əksinə getmək istəməz.

Esteban (*çağırır*). Laurensia, qızım! Laurensia!

ON DÖRDÜNCÜ ŞƏKİL

Laurensia gəlir.

Laurensia. Senyor...

Esteban. Baxın, görün mən haqlıyam, ya yox. Qızım, Laurensia, əziz balam, sənə sözümüz var, gözümün işığı. İstəyirik ki, sən rəfiqən Xilaya deyəsən görək, Frondosonu ərin kimi qəbul edirsən, ya yox! O, çox namuslu, igid oğlandır. Fuente Ovexunada belə oğlanlardan barmaqla saymaq olar.

Laurensia. Xila yır-yığış edib ərə gedir.

Esteban. Hə, hə, doğrudur! Səncə, oğlan qıza yaraşırmı, öz tayıdırmı?

Laurensia. Bu barədə heç bir şübhəniz olmasın!

Esteban. Bəli, düzü, qız bir az kifirdir, ancaq ağlına, kamalına söz yoxdur. Laurensia, sən də Frondoso ilə kəbin kəsdirərsən. Hər şey qurtarıb gedər.

Laurensia. Atam bu qoca vaxtında yenə də zarafatı yerə qoymadı.

Esteban. Sən onu sevirsənmi, qızım?

Laurensia. O, mənə qarşı həddindən artıq nəzakətlidir. Mən bunu onda sınamışam, bir-birimizi başa düşürük, sözümüz də tutur. Ancaq özün bilərsən, belə işlərdə...

Esteban. Ay mənim ağıllı qızım! Sən istəyirsən ki, mən razılıq verim, hə?

Laurensia. Senyor, mənim əvəzimə özün cavab ver.

Esteban. Mən? Lap yaxşı! Madam ki, məni ağsaqqal seçirsiniz və hər şeyi mənim öhdəmə atırsınız, onda qulaq asın. Hanı mənim qudam? Gərək onu axtaraq. Yəqin, indi meydançada olar.

Rexidor. Yaxşı, tərpənin gedək.

Esteban. Oğlum, bir pul-cehiz haqq-hesabında mən ona nə deyim? Mən ancaq dörd min marabedi[1] verə bilərəm.

Frondoso. Senyor, xahiş edirəm bu danışığı qoyun qalsın bir tərəfə. Qəlbimə toxunursunuz. Xətrimə dəyər, inciyərəm, dilənçizad deyilik ki!

Esteban. Oğlum, mən bunların hamısını başa düşürəm. Ancaq gələcəkdə yaşamaq üçün bu, çox vacibdir. Cehizsiz isə sonra xoşagəlməz söhbətlər, dedi-qodular eşitmək olar. (*Hamı gedir, Frondoso ilə Laurensia tək qalır.*)

Laurensia. Frondoso, dillən, de görüm razısanmı?

Frondoso. Hələ bir razı qalmayım da. Mən indi elə bir aləmdəyəm ki, az qala sevincdən dəli olacağam, əzizim! Sənin yanında olarkən ürəyimdəki sevinc gözlərimdən axır. Bəzən fikir məni götürür, əzizim Laurensia, deyirəm görəsən, bu şirin dəqiqələrədək necə dözmüşəm.

Gedirlər.

[1] Marabedi – pul vahidi

ON BEŞİNCİ ŞƏKİL

Siuadad Real şəhərinin yaxınlığında bir çöl.
Kalatrava magistri, Komandor, Flores, Ortunyo, əsgərlər.

Komandor. Senyor, qaçın! Daha başqa çıxış yolunuz yoxdur!

Magistr. Bunun səbəbi həm gücümüzün zəifliyində, həm də düşmən qoşununun saysız-hesabsız olmasındadır.

Komandor. Onlardan tökülən qan, itirilən adam daha çoxdur.

Magistr. Hər halda onlar Kalatrava bayrağını zəbt etsələr də, özlərini öyməyə gücləri çatmır. Biz özümüz də onların yüksək şan-şöhrətini az tapdamadıq.

Komandor. Böyük Xiron, sizin planlarımız özünü doğrultmadı.

Magistr. Bu gün taleyi kor olan adamın sabah bəxt üzünə gülə bilər.

Səslər (*səhnə arxasından*). Qələbə! Yaşasın Kastiliya kralı!

Magistr. Dişli divarlar alovdan tac qoyub, od tutub yanır. Hündür qüllələrin pəncərələrindəki qələbə bayraqları endirilir, əvəzinə xalı-xalçalar, ipək parçalar bəzənir.

Komandor. Kaş bu, onların öz qanı ilə, özü də bayram günündə yox, matəm günündə bəzədiləydi.

Magistr. Fernan Qomes, mən Kalatravaya qayıtmaq istəyirəm.

Komandor. Mən isə Fuente ovexunava qayıdıram. Siz vaxın adamlardan kömək almaq üçün qərara gəlin. Bəlkə, kral Fernando ilə birləşmək lazımdır.

Magistr. Mən bunları sənə məktub vasitəsilə çatdıraram.

Komandor. Bunu vaxt göstərər. Zaman hər şeyi həll edər.

Magistr. Ax, yaşımın azlığı! Gənclikdə baş verən səhvlərin sərt dərsləri!..

Gedirlər.

ON ALTINCI ŞƏKIL

Fuente ovexuna çölü. Toy şənliyi, xanəndələr, Menqo, Barrildo, Frondoso, Laurensia, Paskuala, Esteban və Xuan Roxo.

Xanəndələr (*oxuyurlar.*)

Ömürləri uzun olsun
Təzə bəylə xanımın!
Qərinələr keçdikcə
Xoşbəxt həyat qursunlar!
Sevinclə, səadətlə
Ömrü başa vursunlar!

Menqo. Allaha and olsun ki, bu mahnı sizə bir az güc verdi.

Barrildo. Bizim nə vaxt pis mahnımız olsa, sən bundan yaxşısını qoşarsan.

Frondoso. Bizim Menqo qamçını şeirdən yaxşı götürür.

Menqo. Mənim dərdimi çəkmə! Kim isə kolda səni qırxır. Komandor da...

Barrildo. Lazım deyil, sən Allah onu yadınıza salmayın! O alçağın, o əclafın əlindən bilmirik ki, nə edək. Hamımız biabır olmuşuq, namusumuz ləkələnib, qeyrətimiz ayaqlar altındadır.

Menqo. Mən öz sapandımla neyləyə bilərdim. Məndə yüz əsgərin qarşısında əl-qol açmaq hünərimi vardı? Orda mənim heç bir günahım olmayıb. Eh, olacağa çarə yoxdur. Burda təəccüblü nə var ki? Başqalarına güzəştə getdilər. Adını deməyəcəm, hamı bilir ki, o, namuslu, hörmətli adamdır. Ona bir dolu qab mürəkkəb, bir də nə bilim nə içirtdilər. Bu necə əzab-əziyyət idi, ilahi!

Barrildo. Bunu qəsdən, gülmək üçün hazırlayıblar.

Menqo. Əşi işlətmə dərmanı ilə də zarafat olarmı? Düzdü, bu bir cəhətdə çox xeyirli idi, ancaq belə hesab etdim ki, daha axırımdır.

Frondoso. Yaxşısı budur ki, sən bizə məzəli şeirlərindən söylə, özü də dadlı-duzlu olsun.

Menqo. Qoy xoşbəxt yaşasınlar.

Gənclər, pərvərdigara!
Nə bir küsüşmə olsun.
Nə söz desin yar, yara!

Nə qəzəb, nə kin olsun,
Nə də hədsiz qısqanclıq.
Onları ayırmasın
Nə fəlakət, nə aclıq.

Frondoso. Belə hədyan-hədyan danışan şairin bəxşişi ildırımlar olsun.

Barrildo. Bu şeri yamanca tez qoşdu ha!...

Menqo. Bu, çox maraqlı sənətdir. Elə bil çörəkçi ocağın közü sönməsin deyə, altına odun itələyir, ya da xəmir yoğurub yumru kündə düzəldir. Yaxud ağzınacan su ilə dolu qazan şaqqaşaq qaynayanda içərisinə yağ atır. Çörəkçi yapdığı kündələrin bəzisi köpür, bəzisi küt gedib qozbel adamın belinə oxşayır, bəzisi də qızarıb yanır. Şair də çörəkçi kimidir, ona aid olan şeyi necə varsa – olduğu kimi, yoğurub hazırlayır. Çörəkçi suyu qazana töküb qaynatdığı kimi, o da beynindəkiləri köçürür dəftərə. Bax elə dəftərə köçürəndə bilmək lazımdır ki, nə köçürürsən. Bəzisi elə bilir ki, yapışqanı balın altında gizlətmək olar. Hər cəfəngiyatı özlərinin var-dövləti sayırlar. Hamısı gəlib onun xırdavatçı dükanından keçir. Bu, qarınqulunun özünün xüsusi məhsul buraxan yeganə məmulatıdır.

Barrildo. Sən Allah əllaməlik eləmə! Təzə evlənənlərə də imkan ver, bir kəlmə danışsınlar.

Laurensia. İcazə verin əllərinizdən öpək.

Xuan Roxo. Qızım, sən mənim əlimi deyirsən? Əvvəlcə atanın xeyir-duasını al, sonra sənlə Frondosoya mən özüm xeyir-dua verəcəm.

Esteban. Roxo, mən ona da, ərinə də dua edirəm. Qoy yaradan özü öz mərhəmətini bu iki gəncdən əsirgəməsin!

Frondoso. İkiniz də bizə xeyir-dua verirsiniz.

Xuan Roxo. Ey xanəndələr, başlayın oxumağa! Adaxlıları mahnı ilə qarşılayın!

Xanəndələr (*oxuyurlar.*)

Bir qız gəlir Fuentedən[1]
İpək saçı dağılmış,
Onu izləyən atlı
Kalatravada doğulmuş.
Bu karıxmış gözəl qız

[1] Fuente Ovexunava işarədir

Hiss edir ki, izlənir,
Bir an vaxt itirmədən
Tez meşədə gizlənir.
Sanki igid, cəngavər
Heç görməyib o qızı.
Düşünür: "Ey ömrümün
Sevinci, dan ulduzu!
Niyə sən gizlənirsən?
Yarpaqlar yerə düşər.
Mənim vaşaq gözlərim
Daşı, qayanı deşər".
İgid, qıza yanaşır,
Qız itirir özünü.
Oğlana tərəf gəlir.
Çəkmir ondan gözünü,
Gözəl, dəmir barmaqlı
Qapı-pəncərələr tək
Qız budaqdan yapışır.
Məhəbbət güclüdürsə,
Sevgililər tapışır.
Dənizlər zəbt olunur!
Zirvələr fəth olunur!
İgid dindirir qızı,
Deyir ki, "Ey ömrümün
Sevinci, dan ulduzu!
Niyə sən gizlənirsən?
Yarpaqlar yerə düşər.
Mənim vaşaq gözələrim
Daşı, qayanı deşər!"

ON YEDDİNCİ ŞƏKİL

Komandor, Flores, Ortunyo, Simbranos əsgərlərlə daxil olur.

Komandor. Dayandırın bu toy şənliyini! Bir nəfər belə yerindən tərpənməsin!

Xuan Roxo. Bu oyun-oyuncaq deyil ki, senyor! Bəsdir! Bu qədər də həddini aşmaq olmaz! Yetər, daha bəsdir! Sizə yermi lazım-

dır? Davadan necə çıxdınız? Qələbə iləmi? Eh, bir deyən yoxdur ki, sən bunların işinə niyə qarışırsan?

Frondoso (*kənara*). Artıq hər şey məhv oldu! Ey yeri-göyü yaradan, özün kömək ol!

Laurensia. Frondoso, qaç, canını qurtar.

Komandor. Yox! Tutun, qollarını bağlayın!

Xuan Roxo. Oğlum, tərslikdən nə çıxar, bunlarla öcəşmə!

Frondoso. Deməli, sən istəyirsən ki, məni məhv etsinlər!

Xuan Roxo. Axı niyə?

Komandor. Mən heç bir günahı olmayanları qarabaqara izləyib cəzalandırmaram. Mən kimi istəsəm əsgərlərimə əmr edərəm ki, onun başını saldıracağam. Günahkar olduğu üçün onu öz doğma atası cəzalandıracaqdır.

Paskuala. Senyor, görürsünüz ki, bu gün onun xeyir işidir, evlənir.

Komandor. Bu işdə mənim qabağımı kəsib maneçilik törədən nədir? Yoxsa elə bilirsiniz ki, daha burada başqa kişi-zad yoxdur?

Paskuala. Əgər o, sizi təhqir eləmiş olsaydı belə, gərək siz öz yüksək rütbənizi nəzərə alıb alicənablıq göstərəydiniz, onun günahından keçəydiniz.

Komandor. İndi heç də sən düşündüyün kimi deyil, Paskula, mən təhqir olunmamışam, təhqir olan magistr Telyes Xirondur, Allah da ki, onun tərəfindədir. Müqəddəs ordenin şanı-şöhrəti karta qoyulub. O da öz cəzasına çatacaq. Biz gözləmirik ki, ertəsi gün ona qarşı qiyam qaldırsınlar. Tək siz yox, bütün aləm bilir ki, bir dəfə dayandoldurumu döşünə söykəyib məni hədələyib də.

Esteban. Əgər o öz sevgilisinə havadar çıxıbsa, bu, qaynataya da xoş gələr. Aşiqlər isə harada, hansı şəraitdə olursa-olsun, bir-birini qoruyurlar. Sizcə o, qarşınızda susmalıydımı? Senyor, onu arvadından ayırmaq fikrində olduğunuz üçün Frondoso Laurensianı müdafiə edirdi.

Komandor. Alkalde, siz sadəcə olaraq çox bədbəxt adamsınız.

Esteban. Sizin mərhəmətinizlə, senyor.

Komandor. Mən onu öz arvadından necə ayıra bilərdim, hə? Onlar ki, hələ evlənməmişdilər.

Esteban. Siz vəzifənizdən sui-istifadə etmisiniz. Daha bəsdir, yetər! Bizim Kastiliyanın öz kralı var. O, yeni qanun-qaydalar yaradır. Köhnə intizamsızlığı, adət-ənənəni ləğv edir. Onlar işlərini qurtarıb dincəlmək istəyəndə iğtişaş başlayacaq. Hakimiyyət taxt-tacına susayacaqlar. Müharibə törədib şəhərlərdə, kəndlərdə işgəncə yuvası tikəcəklər. Nə var, nə var, boyunlarında iri xaçlar gəzdirsinlər. O xaçı kral da döşünə taxacaq. Kralların sinəsini bəzəmək üçün bu, şan-şöhrət nişanlarından başqa, heç bir şeyə gərək deyil.

Komandor. Ey uşaqlar, əsanı[1] onun əlindən alın!

Esteban. Alın, senyor, alın! Bundan yaxşı fürsət olmayacaq. Alın!..

Komandor. Kəhkir atın tərsliyi tutanda qazancı yaxşı döyülmək olar!

Esteban. Buna da dözərəm! Çünki siz mənim ağamsınız! Vurun!

Paskuala. Bu nədir, yoxsa siz qocanı ağacla döymək istəyirsiniz?!

Laurensia. İlahi, mən arzuma ona görə çatmaq istəyirdim ki, yazıq atamı bu qoca vaxtında döysünlər?

Komandor. Götürün qızı! Keşiyində on nəfər əsgər qoyun! (*Komandor öz adamları ilə gedir. Frondoso ilə Laurensianı da aparırlar.*)

Esteban. Səni görüm başında göy guruldasın, ildırım çaxsın! Allah özü sənə haqq-divanını göstərsin!

Paskuala. Yazıqların toyu vaya döndü. (*Gedir.*)

Barrildo. İlahi, görəsən burda elə bir adam tapılacaqmı ki, onun cavabını versin?

Menqo. Kürəyimdəki şallaq izlərini görürsənmi! Daha Romaya gedib kardinallara baxmaq lazım deyil. Mənim zolaq-zolaq olmuş bədənimə tamaşa etmək kifayətdir. Qoy onunla başqaları döş-döşə gəlsin.

Xuan Roxo. Bəsdir daha! Qoy bu gündən sonra heç kim susmasın!

Menqo. Senyorlar, susmaq hər şeydə yaxşıdır. Kürəyimdəki şallaq izləri qızıl balığın pullarına oxşayır.

PƏRDƏ

[1] Alkaldeyə məxsus hakimiyyət nişanəsi

ÜÇÜNCÜ PƏRDƏ

FUENTE OVEXUNADA MƏSLƏHƏT ZALI

BİRİNCİ ŞƏKİL

Esteban, Alonso, Barrildo.

Esteban. Şəhər şurasının üzvləri niyə yığışmadılar?

Barrildo. Hələ gəlib çıxmayıblar.

Esteban. Bir şey olan kimi qaçırlar üstümüzə, indi nə oldu?..

Barrildo. Demək olar ki, hər şey əvvəlcədən götür-qoy edilib, hazırlanıb.

Esteban. Frondoso qolları qandallı qüllədədir. Laurensianı – mənim qızımı da apardılar. Ümidim təkcə Allaha qalıb!..

İKİNCİ ŞƏKİL

Xuan Roxo, Rexidor, onların ardınca da Menqo daxil olur.

Xuan Roxo. Elə ağına-bozuna baxmadan razılaşırsan. Susmaq hər şeydən vacib deyilmi?

Esteban. Daha bıçaq sümüyə dayanıb. Sən də səbirdən danışırsan.

Menqo. Mən özüm də şuranın iclasına gəlmişəm.

Esteban. Ey namuslu camaat, çal saqqalımı göz yaşlarımla yuyuram. Üzümü sizə tutub deyirəm: Ey bura toplaşan camaat, gəlin məhv olmuş, şərəfi ayaqlar altında tapdanmış doğma yurdun hər bucağını özümüz qoruyaq, yenidən geri qaytaraq! Əgər xalq bu şərəfsizliyi görə bilərsə, onu itmiş namusu, vicdanı sayırsa...Aramızda ləyaqətli, namuslu adam olduğu halda, şərəfsiz yaşamamalıyıq! Dillənsəniz?! Deyin görək sizin aranızda elə adam varmı ki, o yaramaz onun namusuna toxunmamış olsun, özünü təhqir etməmiş olsun. Bəsdir daha öz-özümüzə şikayətləndik! Namusunu, həyatını itirənlər heç vaxt durub gözlərini döymürlər! Bəs biz nəyi gözləyirik?

Xuan Roxo. Unutmamalıyıq ki, biz əzab-əziyyətin odu-alovu içərisində qovruluruq. Kralların hər yerdə Kastiliyanı bu çəkişmədən, bu nifaqdan azad etdiklərini bilirik. Kordova onları qəbul etməyə hazırdır. Gərək rexidorlardan ikisini Kordovaya göndərək. Qoy bizim əvəzimizə xahiş etsinlər ki, onlar məhv olmamış başlarına çarə qılıb özlərinə çıxış yolu tapsınlar.

Barrildo. Hərbi çəkişmələr Fernandonu bərk təşvişə saldığından özünün saysız-hesabsız düşmənlərini darmadağın etmək fikrindədir. Bəlkə də, başqa çıxış yolu daha münasib olardı. O, bizə kömək edə biləcəkmi? Başı küll müharibələrə qarışdığı üçün o, bunu bacarmayacaq!

Rexidor. Belə olduğu halda, mənim bir məsləhətim var. Gəlin buranı tərk edək.

Xuan Roxo. Eh, səncə bizi elə-belə buraxacaqlar ki, gedək? Buna inanma!

Menqo. Əgər o, bunu eşitsə, inan ki, başqalarının da həyatı təhlükə altına düşəcək, buna heç şəkk-şübhən olmasın.

Rexidor. Bizim dor ağacı yana əyilib, bir az səbir edin. Gəmi təhlükənin, tufanın qucağında kor-koranə yırğalanır. Yoxsa elə bilirsiniz ki, qızımızı zorla əlimizdən alıb aparan adamın hökmranlığı ilə vətən fəxr edir? Onun möhtərəm başını hökmranlıq əsası parçalayıb dağıdır. Heç yer üzündə belə rəzil iş tutub onun-bunun namusuna toxunan murdar, şərəfsiz adam olmayıb!

Xuan Roxo. Bəs sənin fikrin nədir, hə? Sən camaatın hansı yolla getməsini istəyirsən?

Rexidor. Ya birdəfəlik məhv olmaq, ya da onların nəfəsini kəsmək lazımdır. Biz onlardan çoxuq.

Barrildo. Hökmdarın həyatına sui-qəsd edib öz əlinlə öldürməkmi istəyirsən?

Esteban. Allahdan sonra yeganə hökmdar kraldır! O, xalqın timsalında vəhşi olmamalıdır. Əgər Allah yar olsa, heç kəs bizə ziyan toxuna bilməz! Daha qorxub eləmək lazım deyil!

Menqo. Senyorlar, bu işdə ehtiyatlı olmaq pis deyil, yaxşıyaxşı fikirləşmək lazımdır. Mən bura sadə kəndlilərin adından gəlmişəm. Mən çox qorxuram, hər şeyi ağılla tutmaq lazımdır.

Xuan Roxo. Eh, nədən qorxursan? Onsuz da biz diri deyilik ki! Daha bundan qorxulu nə ola bilər? Kəndlilər bizim ev-eşiklərimizə baxır, tarlalarımızı, zəmilərimizi suvarırlar. Bu birisilər isə zalımdır, qaniçəndir! Təkcə bir yol var ki, o da intiqam almaqdır, vəssalam!

ÜÇÜNCÜ ŞƏKİL

Laurensia pərişan, saçları dağınıq halda içəri daxil olur.

Laurensia. İcazə verin mən də kişilərin məsləhətinə qoşulum. Bir qadın kimi mənim səsim yoxdur. Ancaq var gücümlə haray salıb çağıracağam. Gözlərinizi nə dikmisiniz üzümə! Yoxsa məni tanımadınız?

Esteban. Ey müqəddəs göylər, bu, mənim qızım deyilmi?

Xuan Roxo. Laurensianı tanımırsan, nədir?

Laurensia. Əlbəttə, bu saat mən özümə oxşamıram ki, siz məni tanıyasınız. Görürsünüzmü, nə qədər dəyişilmişəm?

Esteban. Qızım, mənim balam!

Laurensia. Daha mən sənin qızın deyiləm, ata.

Esteban. Nə üçün, niyə, gözümün işığı, sən ki, doğma balamsan! Axı niyə belə deyirsən?

Laurensia. Bir çox həqiqətlərə görə! Əsas səbəbi odur ki, sən zalımların məni oğurlayıb aparmasına razı olmusan, özün də intiqam almırsan! Məni satqınların əlindən alsaydın, Frondosoya ərə getməyə macal tapardım. Onun arvadı ola bilmədim. Toydan sonra ərim kimi o da, sən də gərək mənim namusumu müdafiə edəydiniz. Toy şənliyi kəbin gecəsi başa çatdırılmadı. Ərindən çox qızın öz atası onun müdafiəçisi olmalıdır. Belə hesab edək ki, mən bazardan bir mirvari almaq istəyirəm. Bazar da keşikçilərlə doludur. Bu qiymətli daşa baxmaq üçün əlimə götürürəm. Hələ pulunu da verməmişəm. Bu vaxt oğrular mirvarini çırpışdırıb aparsalar, mənim heç bir günahım yoxdur. Fernan Romes məni gözlərinizin qarşısında öz evinə apardı. Çobanlar qorxusundan quzunu qurda tapşırdılar. Bu vəhşiliyə dözdüm! Sinəmə iti xəncər də batırdılar. Mənə nələr demədilər, nələr söyləmədilər! Məni nə qədər hədələdilər, nə qədər qorxutdular. Hələ güc də göstərdilər, cəhd etdilər ki, öz axmaq iştahları ilə mənim təmizliyimi əlimdən alsınlar. Bunu pırpızlaşmış, dağınıq saçlarımdan hiss etmirsinizmi? Görün məni nə qədər döyüblər, yerinə bir baxın, gömgöy göyərməyibmi? Qan-zad da görmürsünüz? Öz xeyirxahlığı ilə öyünənlər siz deyilsinizmi? Mənim atalarım, mənim qohumlarım olduğunuzu həmişə etiraf etməmisinizmi? Mənim bu qədər əzab-əziyyət çəkdiyimi görəndə dərddən, qüssədən köksünüz parçalanmırmı? Siz quzusunuz! Quzu Bulağı da adınıza çox yaraşır! Gərək mən özüm tüfəngə sarılam. Döyüşə atılmaq üçün! Siz daş kimi susursunuz! Siz mis kimi soyuqsunuz! Siz yəşəm daşısınız, siz vəhşi pələngsiniz! Yox, yox, bircə pələng yox! Çünki pələng onun balalarını oğurlayanda ovçuları axıracan qovur, onların dalınca qaçıb qəzəblə parçalamağa çalışır. Qabaqlarına dərya çıxsa belə, özlərini vurub coşqun dalğaların qoynuna atırlar. Siz dovşan kimi qorxaqsınız, anadan ağciyər doğulmusunuz! Özünüzü çox qorxaq, utancaq aparırsınız! Sizdə ispan qanı yoxdur! Zavallılar! Öz arvadlarını yad kişilərin ağuşuna atanlar! Bir danışın, dillənin görək axı, bu qılıncı niyə belinizdən asmısınız, hə! Bu belinizdən asılmış mildən başqa heç bir şey deyildir! Yaradana and olsun ki, elə bir şey edəcəyəm ki, bütün qadınlar ayağa qalxsın! Qoy zalimlərdən öz intiqamlarını özləri alsınlar. Onları öz qanlarına qəltan eləsinlər! Bax o vaxt sizi daşa basacaqlar! Arvadlar! Qorxaqlar!.. Oturduğu yerdən durmayan əyirici qadınlara oxşayırsınız! Ləçək bağlayıb, yubka geyən qadınlardan nəyiniz artıqdır! Bircə gözlərinizin sürməsi əskikdir, onu da çəksəniz lap düzələr! Kirpiklərinizi də rəngləyin! Komandor danışıqsız, mühakiməsiz qərara alıb ki, Frondoso gərək qüllədəki dişlərin birindən asılsın. O, hamını da belə edəcək. Ey yarımçıq kişilər! Mən üsyan edirəm! Altıaylıqsınız, altıaylıq!.. Ona görə də qadınlarınızın namusunu qorumağa bacarmırsınız! Qoy keçmiş Amazonka əsri[1] yenidən başlasın, qoy camaatı yenidən qorxu, dəhşət bürüsün!

Esteban. Mən, qızım, mən özünü biabır edib alçaldan adamlardan deyiliəm! Tək gedəcəyəm! Lap bütün aləm, bütün dünya mənim qabağımı kəssə də, tək gedəcəyəm!

Xuan Roxo. Mən də! Düşmən nə qədər güclü olur-olsun, mən də gedəcəyəm!

Rexidor. Biz döyüşəcəyik! Vuruşub ölmək daha şərəflidir!

Barrildo. Gəlin bu ağaca qalın bir parçanı sancıb bayraq edək! Qoy idbar, zalım adamlar məhv olsunlar!

Xuan Roxo. Nə kimi döyüş intizamı yaratmısınız, hə, indi biz nə etməliyik?

Menqo. Nə döyüş intizamı, canım, durub qanun-qaydamı gözləyəcəyik, onu öldürmək lazımdır, vəssalam! Əvvəla, bütün camaatı yığıb ayağa qaldırmalıyıq, sonra da qoy hamı bilsin ki, qaniçənlərin, zalimlərin kökünü kəsmək vaxtı çatıb!

[1] Qədim yunan əsatirində cəngavər qadın əsri

Esteban. Götürün dəyənəkləri! Əlinizdən yerə qoymayın! Qılınclara sarının! Cidadan, ov nizəsindən əlinizə nə keçsə, silahlanın!

Menqo. Yaşasın qanuni krallarımız!

Hamı. Onların ömrü uzun olsun!

Menqo. Satqınlara, zalımlara ölüm!

Hamı. Satqınlara, zalımlara ölüm! (*Hamı gedir.*)

Laurensia. Uğur olsun! Göylər kömək əlini sizdən əsirgəməsin! (*Ucadan qışqırır.*)

Ey qadınlar... Yığışın, öz namusumuzun intiqamını ləyaqətlə alaq! Hamınız gəlin!

DÖRDÜNCÜ ŞƏKİL

Paskuala, Xasikta və başqa qadınlar gəlirlər.

Laurensia. Görmürsən ki, hamı gedir Fernan Qomesi öldürməyə? Kişilər də, cavanlar da, uşaqlar da-hamı fədakarlıq göstərməyə tələsir. Yaxşı olmazmı ki, biz də öz qismətimizə çataq, hə? Qadınlar onun hakimiyyətindən az əziyyət çəkməyiblər, Paskuala.

Xasinta. Söylə görək, fikrin nədir?

Laurensia. Mən istəyirəm ki, hamımız döyüşə qoşulaq, heç yerdə görünməyən hünər, rəşadət göstərək! Onsuz da onun əlindən camaat az yığmayıb. Xasinta, səndən ağır təhqir olan yoxdur. Cəsarətli ol! Qadınların dəstəsinə ancaq sən başçılıq edə bilərsən!

Xasinta. Eh, Laurensia, sən də az təhqir olunmamısan.

Laurensia. Paskuala, bayraqdar sən olacaqsan.

Paskuala. Qoy tez bu parçanı nizəyə bağlayım, onda görərsən ki, kişi kimi necə də hünər göstərirəm.

Laurensia. Vaxt azdır. Daha tez olsun deyə, yaylıqları silahlara bağlayın, bayraq kimi qaldırın yuxarı.

Paskuala. Gəlin özümüzə başçı seçək.

Laurensia. Lazım deyil.

Paskuala. Niyə?

Laurensia. Bəsdir! Bəs mən nəyəm! Burada nə sidlər[1] var, nə də rodamontlar[2].

[1] Sid – İspaniyanın milli qəhrəmanı, Yarımadada mavrların tutduqları ərazini azad etmək uğrunda müharibənin birinci dövründə iştirak etmiş görkəmli xadim. Yenilməz mərdlik, qəhrəmanlıq və qorxmazlıq simvolu kimi məşhurdur.

[2] Rodamont – İtaliya şairi Lodoviko Ariostonun "Qorxmaz Roland" poemasında surət. Lovğalıq simvolu kimi tanınır.

BEŞİNCİ ŞƏKİL

Komandorun evində bir zal. Frondoso qolları bağlı halda. Flores, Ortunyo, Simbranos və Komandor.

Komandor. O alçağı bu kəndirlə asarsınız, onun necə əzabəziyyətlə ölməsini görmək istəyirəm.

Frondoso. Yaxşı fikirləşin, siz şərəfsiz adınızla tanınmış nəslinizin ləyaqətini batırırsınız!

Komandor. Onu hamının gözü qarşısında qaladan asın, qoy başqalarına da ibrət dərsi olsun!

Frondoso. Senyor, sizi öldürmək üçün mənim nə bir məqsədim olub, nə də cəhd göstərmişəm. (*Səhnə arxasından səs gəlir.*)

Flores. İlahi, bu nə səs-küydür, bu nə qalmaqaldır! Özün kömək ol, ya rəbb!

Komandor. Nə, səs-küy?

Flores. Sizin ədalətli mühakimənizə mane olmaq üçün hamı sel kimi axışıb gəlir.

Ortunyo. Qapıları sındırırlar! (*Getdikcə səs artır.*)

Komandor. Mənim evimin qapısını? Komandorun adamları yaşayan evin qapılarını sındırırlar?

Flores. Camaat içəri doluşur.

ALTINCI ŞƏKİL

Xuan Roxo səhnəyə yaxınlaşır, ardınca da Menqo.

Xuan Roxo (*səhnə arxasından*). Sındırın, kəsin, vurun! Yandırın! Küləş hanı?! Küləş verin!

Ortunyo. Bu qara camaat ki, qiyam qaldırdı, onun qarşısını almaq çətindir.

Komandor. Yoxsa bu camaat mənim üstümə gəlir?

Flores. Qəzəblənmiş kütlə qapını-bacanı dağıtdı!

Komandor. Canini azad etməli olacağıq. Dur, Frondoso, tərpən, qoy alkalde öz adamlarını da götürsün, çıxıb getsin.

Frondoso. Gedirəm, senyor, yəqin, onlar mənim ardımca gəliblər. (*Gedir.*)

Menqo (*səhnə arxasından*). Yaşasın Fernando ilə İzabella! Azğınlara ölüm!

Flores. Senyor, Allah xatirinə, yalvarıram, nə olur-olsun tez gizlənin!

Komandor. Yox, gör mən onları necə qarşılayacağam! Biz möhkəm divar arxasındayıq! Onlar bizə bata bilməzlər. Bu saat qayıdıb gedəcəklər.

Flores. Elə ki, camaatın qeyzi aşıb-daşdı, səs-küy çoxaldı, inanmayın ki, intiqamsız, qan tökməmiş qayıtsınlar.

Komandor. Onların cəsarətli hücumunu biz bu qala divarları ilə dəf edəcəyik!

Frondoso (*Səhnə arxasından*). Yaşasın Fuente Ovexuna!

Komandor. Bu da bir başçı! Gərək birinci biz hücum edək.

Flores. Siz nə danışırsınız, senyor! Qüvvələr bərabər deyil! Onlar bizdən üstündürlər.

YEDDİNCİ ŞƏKİL

Esteban, Frondoso, Xuan Roxo, Menqo, Barrildo və kəndlilər səhnəyə çıxırlar. Qəzəblənmiş xalq təpədən-dırnağa qədər silaha sarılıb. Komandor, Flores, Ortunyo, Simbranos da səhnədədir.

Esteban. Bax budur canavar! Bütün günahları törədən budur! Yaşasın Fuente ovexuna! Zalımlara ölüm!

Komandor. Ey camaat, bir səbir edin, gözləyin!

Hamı. Təhqir olunmuşlar heç vaxt gözləyə bilməzlər!

Komandor. Bir söyləyin, danışın, axı mənim günahım nədir? İnanın, söz verirəm ki, bu işi öz yoluna salacam! Hər şey qaydasında olacaq.

Hamı. Yaşasın. Fuente Ovexuna! Yaşasın kral Fernando! Zalımlara, qaniçənlərə ölüm! Məhv olsun azğınlar!

Komandor. Məni eşitmək istəmirsiniz, nədir? Ay camaat, sizinlə danışan öz qanuni sahibinizdir!

Hamı. Bizim qanuni ağamız Katolik Krallarıdır!

Komandor. Ey camaat, dayanın!

Hamı. Fuente ovexuna! Fernan Qomesə ölüm! (*Vuruşurlar, komandor öz adamları ilə aradan çıxır. Qiyamçılar da onların dalınca.*)

SƏKKİZİNCİ ŞƏKİL

Silahlı qadınlar səhnəyə çıxırlar.

Laurensia. Gəmimiz ümid limanındadır! Sevinin, gülün, şadlıq edin, ey cəsur qoşun!

Paskuala. Mən onun qanını çoxdan içmək istəyirdim! Qadınların əlindən intiqam almaq da gəlir.

Xasinta. Gərək onun meyitini nizənin üstündə gətirsinlər!

Paskuala. Gəlin onların hamısını özümüz didib parçalayaq.

Esteban (*səhnə arxasından*). Alçaq komandora ölüm!

Komandor (*səhnə arxasından*). Artıq mənim son nəfəsimdir, pərvərdigara! Ey yeri-göyü yaradan, səndən başqa pənahım yoxdur!..

Barrildo. Flores də burdadır.

Menqo (*səhnə arxasından*). Bu əclafı yaxşıca isladın! Mənə iki min qamçı vuran alçaq! Rəzil, bihəya!..

Frondoso (*səhnə arxasından*). Nə qədər ki, o, sağdır, mən özümü borclu sayıram, intiqam alınmamış qalır!

Laurensia. Gəlin keçək ora!

Paskuala. Lazım deyil. Bəs qapıda kim qarovul çəksin?!

Barrildo (*səhnə arxasından*). Burda hamı dindirilib, danışdırılıb, ölçülüb, biçilib! İndi axıdın göz yaşınızı, arvad dəstəsi!

Laurensia. Paskuala, mən keçirəm ora. Gərək qılıncınız lazımsız bir şey kimi yatıb qında qalmasın!

Barrildo (*səhnə arxasından*). Aha, bu da Ortunyo!

Flores (*səhnə arxasından*). Onu elə doğra ki, böyük tikəsi qulağı boyda olsun.

DOQQUZUNCU ŞƏKİL

Flores qaçır. Menqo onu qovur.

Flores. Aman ver, Menqo, axı mənim nə günahım var?

Menqo. Bundan sonra yenə aradüzəldən olarsan, oğraş! Sən də məni az qamçılamadın, ay əclaf!

Paskuala. Dayan, Menqo, onu ver arvadların öhdəsinə, eşidirsənmi? Sən Allah, ver, xahiş edirəm!

Menqo. Yaxşı, nə olar, mən ona bundan ağır cəza arzulamıram!

Paskuala. Mən özüm sənin hayıfını ondan alaram.

Magistr. Yaxşı, qoy sən deyən olsun.

Xasinta. Satqın, indi sən gəbərəcəksən!

Flores. Özü də qadın əllərində!

Xasinta. Bu cah-cəlal, bu dəbdəbə onun üçün çox deyilmi?

Paskuala. Yəni sən qadın əllərinə tapşırıldığın üçün belə sızıldayıb qan-yaş tökürsən?

Xasinta. Öl indi, aradüzəldən xəbis!

Paskuala. Öl, ay əclaf, öl!

Flores. Yalvarıram, senyorlar, aman verin! (*Qaçaraq gəlir. Ortunyo da Laurensianın əlindən qurtarmağa çalışır.*)

Ortunyo. Vallah, mən, mən...

Laurensia. Bilirəm, sənin kim olduğunu yaxşı bilirəm. Keç, keç! Ey qadınlar, silahlarınızı bu satqınların al qanı ilə yuyun.

Paskuala. Dərdimizin, kədərimizin intiqamını almamış ölməyəcəyəm!

Bütün qadınlar. Yaşasın Fuente Ovexuna! Yaşasın kral Fernando!

Gedirlər.

ONUNCU ŞƏKİL

Toroda kral Fernandonun otağı. Kral don Fernando, Kraliça donya İzabella, Don Manrike və Magistr.

Don Manrike. Biz öz hərbi işlərimizdə hər şeyə nail olduq. Nəzərdə tutduğumuz yolla gedib çətinlik çəkmədən məqsədimizə çatdıq. Bizə çox zəif müqavimət göstərdilər. Sizi əmin edə bilərəm ki, mühasirəyə alınmış düşmən müharibəni davam etdirsəydi, ağılsız iş görmüş olardı. De Kabra şəhərdə qaldı. Əgər düşmən güc toplayıb yenidən ora qayıtmağa cürət etsə, biz yenə çətin vəziyyətə düşmərik.

Kral. Sözsüz, bu çox düzgün qərardır. Qraf da orada qalmalıdır. O, yenidən qoşun düzlədib gediş-gəliş yollarını möhkəmləndirməlidir. Özünə çoxlu qoşun toplayan Alfonsonun Portuqaliyada olması onun bizə qarşı müharibə etməsinə əngəl törədir. De Kabra şəxsən belə fikirləşdiyi üçün çox ağıllı hərəkət etmişdir. O, bunu necə lazımsa, o cür də yerinə yetirəcək. İndi bu saat onun ağıl və gücünün çiçəkləndiyi vaxtdır. Bu cəsur sərkərdə bizi tufandan qoruyur. O, çox etibarlı keşikçi kimi ölkənin sakitliyinə nəzarət edir.

ON BİRİNCİ ŞƏKİL

Flores yaralı halda daxil olur.

Flores. Öz igidliyi, ləyaqəti ilə yerə-göyə sığmayan məşhur kralımız Fernando! Ey adı dillərdən düşməyən, Kastilya çələnginə layiq hökmdar! Eşit gör dünyada necə dəhşətli vəhşiliklər edirlər! Gün doğandan tutmuş ta gün batanadək görünməmiş azğınlıqdan xəbəriniz varmı?

Kral. Özünü ələ al!.. Söylə görək nə hadisə üz verib?

Flores. Ey hökmdarımız, ey üstümüzün böyüyü! Düzdür, bu qəmli əhvalatı danışmaq üçün tələsməliyəm... Ancaq yaralarım məni yaman incidir. Mən çox yaşaya bilmərəm. Özüm də Fuente Ovexunadanam! Camaat orada qiyam qaldırıb, öz senyorunu öldürdü! Fernan Qomes qara camaatın əlilə məhv oldu. Narazı kəndlilər üçün intiqam almağa ən kiçik əsas da kifayətdir. Vəhşi camaat onu qaniçən adlandırıb yamanca azğınlıq etdilər. O, nə qədər and içdi, aman dilədisə də camaat baxmadı. Qomesə qulaq asan, onu eşidən kim idi. Səbir kasası dolmuş camaatın qəzəbi yerə-göyə sığmırdı. Onun evinə soxulub ayaqları altına aldılar, sonra da açıq pəncərədən yerə tulladılar. Qadınlar çoxdan nəfəsi kəsilmiş cəsədə yaxınlaşdı. Meyiti nizənin ucuna keçirib qonşuluqdakı evə apardılar. Onun saç-saqqalını yolmağa başladılar. Yenə də kötəkləyirdilər. Onun başına olmazın oyun açdılar ki, yalnız kəsilmiş qulaqları bir qədər bütöv qaldı. Onun gerbini qırıq-qırıq etdilər. Kral gerbinin şöhrətini bu cür ləkələyib aşağı saldılar. Evini qarət edib öz aralarında qənimət kimi sevinə-sevinə bölüşdürdülər. Mən bunların hamısını gizləndiyim yerdən görürdüm, nəhayət, uğursuz taleyim mənə ömr etdi ki, həyatımı bunların əlindən xilas edim! Havanın qaranlıqlaşmasını gözləyib axşamadək gizləndiyim yerdən üzə çıxmadım. Sonra isə ehtiyatla, qorxa-qorxa oradan çıxıb xəbər vermək üçün bura tələsdim. Senyor, ədalət naminə ömr et ki, vəhşilər bu cinayətə görə layiqli cəza alsınlar. Komandorun qanı səni intiqam almağa çağırır!

Kral. Sən tamamilə əmin ola bilərsən ki, onlar yaxalarını cəzadan heç vaxt qurtara bilməyəcəklər! Bu kədərli hadisə məni həyəcanlandırdı. Müqəssirləri cəzalandırmaq üçün ora hakim göndərəcəm. Qoy unutmasınlar ki, tutduqları iş nahaq olub, çox nahaq! Ora bir kapitan da göndərəcəyəm, qoy qayda-qanun düzəltsin. Bu cür eşidilməmiş cinayət edənlər öz cəzasına çatmalıdır! (*Öz adamlarına.*) Bu yaralı əsgərə kömək və müalicə göstərin.

ON İKİNCİ ŞƏKİL

Fuente Ovexunada meydança, kəndli qadınlarla kişilər Fernandonun başını nizəyə keçirib səhnəyə daxil olurlar.

Xanəndələr (*oxuyurlar*).

Yaşasın uzun illər
Fernando, İzabella!
Ölsün zalım, müstəbid!..

Barrildo. Frondoso, sən də öz şeirlərini oxu.

Frondoso. Düzü, bir bənd desəm, pis olmaz, mənim şerim həm duzludur, həm də inamlı. Yaxşı, bir diqqətlə qulaq asın, bəlkə, bəzi yerlərində düzəliş aparmaq lazım gəldi.

"Böyüyümüz Araqonlu Fernando,
Gözəl İzabella yaşasın min il!
Həyatda bunlardan yaxşısı yoxdur,
Xeyirxahdır, hər ikisi pis deyil!
San Migel göndərib özü bizlərə
Müqəddəs göylərdən, burda qalsınlar!
Satqının, xainin kökü kəsilsin,
Kral, kraliçə xoşbəxt olsunlar!"

Laurensia. İndi də söz Barrildonundur.

Barrildo. Mən hazır! Artıq mən də fikirləşib yazmışam.

Paskuala. Əgər həyəcanla desəm, pafosla oxusan inanıram ki, hamını vurub keçəcəksən.

Barrildo.

"Qoy xoşbəxt olsunlar krallarımız!
Şən, firavan keçirsinlər illəri!
Azadlığı, xoşbəxtliyi bəxş etsin
Bizə, hökmdarın nəcib əlləri!
Düşmənləri məhv etsinlər həmişə,
Zalımları həsrət qalsın günəşə!"

Xanəndələr (*oxuyurlar*).

Yaşasın uzun illər,
Fernando, İzabella!
Ölsün zalım müstəbid!

Laurensia. Menqo, indi də sən başla!

Frondoso. De gəlsin, Menqo!

Menqo. Mən sizdən tutarlı şairəm.

Paskuala. Əlbəttə, sənin yumşaq ətin az qamçılanmayıb!

Menqo.

"Bazar günü, səhər-səhər, sübh çağı,
Rahatlığımı pozub məni söydülər!
Əvvəl-əvvəl bəd gətirdi işlərim,
Sonra yaman islatdılar, döydülər!
Çox yumşaldım, yaralandı yançaqlar,
Görüm məhv olsunlar vəhşi qancıqlar!
Kralların uzun olsun ömürü!.."

Xanəndələr (*oxuyurlar*).

Yaşasın uzun illər,
Fernando, İzabella!
Ölsün zalım müstəbid!..

Esteban. Götürün bu murdarın kəlləsini, aparın!

Menqo. Özü də asılmış adam kimi gözlərini üzümüzə nə dikib.

Rexidor. Silahlı adamlar gəldilər!

ON ÜÇÜNCÜ ŞƏKİL

Fuente Ovexunada bir meydan. Kəndli kişilərlə qadınlar Fernan Qomesin başını nizəyə keçirib gətirirlər.

Esteban. Nizəni gətirin görək.

Xuan Roxo. Bəs bunu hardan asmalıyıq?

Rexidor. Bura gətirin! Bələdiyyə idarəsinin üstündən asacağıq.

Esteban. Gözəl gerbdir.[1]

[1] Komandorun başı sancılan nizə kralın gerbi olub

Barrildo. Bir fikir verin, necə də özündən razıdır!

Frondoso. Bu gündən öz günəşimizin hərarətini görəcəyik. Təzə, parlaq günümüzün başlanğıcı bunun öldüyü günlə bağlıdır.

Esteban. Kastiliya igidlərinə, Leon cəsurlarına, Araqon oğlanlarına eşq olsun! Məhv olsun müstəbid! İndi isə, ey Fuente ovexuna, ixtiyar bir kişinin sözlərinə qulaq as, onu dinlə! Sənin məsləhətlərin heç vaxt zərər gətirməz! Kilsə əyanlarının belə bir qanunu var ki, onlar bu hadisəni eşidib divan-dərəni tökəcəklər bura! Axtarıb cinayətkarı tapmağa çalışacaqlar. Deməli, onlar bu hadisəni elə-belə qoymayacaqlar. Bəxt bizə yar olsa, gərək heç nəyi boynumuza almayaq! Necə lazımdırsa hamı da bir səslə, hamı da bir ağızdan eyni sözü deməliyik.

Frondoso. Sənin məsləhətin nədir?

Esteban. Ölsək də, "Fuente Ovexuna" deyib ölək. Gərək heç kim çəkinməsin. Müqəssiri bizdən istəyəcəklər. Nə soruşsalar onlar ancaq bir söz eşitməlidirlər: "Fuente Ovexuna".

Frondoso. Çox düzgün, haqq sözdür! Əlbəttə, bunu Fuente ovexuna edib!

Esteban. Danışıq vaxtı hamı da belə cavab vermək istəyirmi?

Hamı. Hə, hə!..

Esteban. Mən indi hakim olmaq istəyirəm. Sonradan dilimiz topuq çalmasın deyə gəlin kiçik bir məhkəmə məclisi quraq. Qoy ilk dəfə vicdan əzab-əziyyətinə Menqo özü düçar olsun!

Menqo (*yarızarafat*). Əşi, nə oldu, yəni başqa birisini tapa bilməzdinmi? Elə bir şey olan kimi birinci Menqodan yapışırsınız, yazıq Menqo!..

Esteban. Hakimin sözündən çıxmazlar, deyilmi?

Menqo. Oldu!

Esteban. Komandoru kim öldürdü?

Menqo. Komandoru? Onu Fuento Ovexuna öldürdü, senyor!

Esteban. Ey köpək, bu saat sənə bir toy tutum ki!

Menqo. Lap istəyirsiniz iki toy tutun, senyor!

Esteban. Boynuna al, oğru, düzünü de!

Menqo. Yaxşı, aman verin, deyirəm.

Esteban. Söylə, de görüm, qatil kimdir?..

Menqo. Fuente Ovexuna!

Esteban. Onu bir də döyün!

Menqo. Nə qədər istəyirsiniz vurun!..

Esteban. Görürsünüzmü, hakimə at peyinindən başqa, bir şey çatmır.

ON DÖRDÜNCÜ ŞƏKİL

Başqa bir Rexidor səhnədə görünür.

Rexidor. Bu nə oyundur burda göstərirsiniz?

Frondoso. Bir hadisə baş verib nədir, Kuadrado?

Rexidor. Deyirlər kral divan-dərəni töküb bura. İçərilərində bir hakim də gəlib.

Esteban. Hamı dağılışsın! Hər kəs öz evinə!

Rexidor. Aralarında bir kapitan da var.

Esteban. Lap istəyir iblis gəlsin! Nə lazımsa biz bir nəfər kimi cavab verəcəyik!

Rexidor. Heç kimə baxımırlar, qabaqlarına çıxanı damlayırlar.

Esteban. Heç bir qırıq da qorxmaq lazım deyil. Komandoru kim öldürdü, Menqo?

Menqo. Kim? Fuente Ovexuna!

Gedirlər.

ON BEŞİNCİ ŞƏKİL

Almaqroda Kalatrava Magistrinin otağı. Magistr bir əsgərlə daxil olur.

Magistr. Sən bir vəhşiliyin dərəcəsinə bax! İlahi, onun taleyi necə də bəd gətirdi! Mən səni, ay bədbəxt, bu kədərli xəbər üçün öldürsəm, uf da demərəm.

Əsgər. Mən, senyor, sadə bir çaparam. Mənim heç nədən xəbərim yoxdur. Mən buyruq quluyam. Nə desələr, onu da yerinə yetirirəm.

Magistr. Gör həyasızlıq hara gəlib çıxıb, camaat acıqlananda necə də vəhşi olur, necə də eybəcər iş görür! Düz beş yüz adamla gedəcəm. Şəhərin külünü göyə sovuracağam! Gərək insanların yaddaşında bu yerlərdən əsər-əlamət qalmasın. Hətta orada yaşayış olduğu belə gərək hafizələrdən silinsin!

Əsgər. Senyor, yaxşı olardı ki, siz hirsinizi udasınız. Onlar artıq kralın ixtiyarına keçiblər. Mən sizə yalvarıram, kral rahiblərini qəzəbləndirməyin!

Magistr. O yerlər ki, komandora məxsus idi, bəyəm indi kralın ixtiyarına keçib?

Əsgər. Siz o yerləri ancaq istintaq yolu ilə, mühakimə yolu ilə geri ala bilərsiniz!

Magistr. İndiyədək elə bir şey, elə bir qənimət olmayıb ki, baş rahib öz əlləri ilə mənə təqdim etsin! Lap istəyir onların hamısı baş yepiskop olsun. Heç birini də saymıram! Heç birini də tanımaq istəmirəm, nə vaxt kral onlara mükafat versə, öz qəzəbimi, hirsimi o vaxt da udmağa çalışaram. Kralın yanına getmək ürəyimdən olmasa da, məcburam, gərək gedəm. Mən özüm çox şeyə cavabdehəm. İstəyir məni lap günahkar saysın, bu torpaqların sahibi olduğumu bildirəcəyəm! Bir şey olsa yaşıma görə məni bağışlayarlar. Utana-utana getsəm də, namus məsələsi olduğu üçün bu işdə alçalmayacağam. Bu xeyirxah işdir, tamahkarlıq, acgözlük deyil. Mən öz müqəddəs borcumu tələb edirəm.

ON ALTINCI ŞƏKİL

Fuente Ovexunada bir meydança.

Laurensia. İlahi, bu sevgidə, məhəbbətdə nə böyük qüvvə var! Sevdiyin adamdan ötrü tir-tir əsirsən! Sevginin təzə-təzə dərdi olur, qəm-kədər ondan ayrılmır. Elə məni qorxudan da budur. Bu bəlalar sevənlərin başına fırfıra kimi fırlanır, onları hər an, hər dəqiqə qurbanlar gözləyir! Həsrət get-gedə şaxələnib qol-budaq atır, qorxuya çevrilir, adamın canına vəlvələ salır. Sevən adam hürkə-hürkə dönüb həmişə ətrafına göz gəzdirir. Bunları fikirləşəndə adamı dəhşət bürüyür. Uzaq dost da bu qabağıalınmaz fikirdən üzülür, əldən düşür. Mən ərimi həddindən çox sevirəm. Elə ona görə də həsrət qalıram Frondosoya, qorxudan xilas ola bilmirəm. İndiyədək bəxt, tale onun üzünə bir dəfə də gülmədi. Mənim sevgim nə qədər əzabverici, usandırıcı oldu. Bir yerdə olanda güclə nəfəs alıram. Ondan ayrı olanda isə özümü ölmüş sanıram.

ON YEDDİNCİ ŞƏKİL

Fuente Ovexunada bir meydan. Frondoso ilə Laurensia gəlirlər.

Frondoso. Laurensia, mənim Laurensiam!

Laurensia. Mənim sevimli ərim! Buralara ayaq basmaq sənin ağlına haradan gəldi?

Frondoso. Eh, əzizim, səndən ayrı günüm qaradır, şirin dəqiqələrin üzünə həsrətəm. Səni burada tək qoyub gedə bilərəmmi? Laurensia, çox narahatam. Sən isə əksinə, deyəsən, heç bu barədə düşünmürsən də!

Laurensia. Mən də çox qorxuram, Frondoso! Ehtiyatlı ol, mənim əzizim! Dərddən-bəladan özünü qoru!

Frondoso. Mən heç nə istəmirəm, Laurensia. Təki sən narahat olma! Allah bu qorxunu, bu təhlükəni sovuşdursun!

Laurensia. Eh, görürsənmi, divan-dərə tökülüb gəlib. Bura göndərilən hakimdən də xəbərin olar. Bilirsənmi necə qəddar adamdır. Qaç, Frondoso, qaç canını qurtar! Daha gözləmə ki, bəla özü gəlsin. Heç kim səni burda sağ-salamat qoymaz!

Frondoso. Laurensia, əzizim, sən bu sözlərinlə qəlbimə dəyirsən. Mən öz canımı qurtarmaq üçün hər şeyi atıb gizlənə bilərəmmi? Mənim bir dəqiqəm də sənsiz olmasın. Bir də mənə belə sözlər demə, əzizim, mən səni burda tək qoyub gedə bilərəmmi?! Lap qəfildən üstümüzə tökülüşsələr, mən axıradək vuruşmağa hazıram. Ancaq burdan o yana bir addım da ata bilmərəm (*Səhnə arxasından səs-küy eşidilir.*). Bu nədir, bu səs-küy? Deyəsən, yaxındadır. Özləri də bura tələsirlər. Ya da kimə isə əziyyət verirlər.

ON SƏKKİZİNCİ ŞƏKİL

Hakim, Esteban, bir uşaq, Paskuala, Menqoqonşu həbsxanada.
Hakim səhnə arxasında onları sorğu-suala
tutub istintaq aparır.

Hakim (*səhnə arxasından*). Ey müdrik qoca, həqiqəti danışın!

Frondoso. Onların qəddarlığı lap həddini aşıb!

Esteban (*səhnə arxasından*). Bir az aman verin!

Hakim. Yaxşı, onun əl-qolunu boşaldın! Yadınıza salın görüm, Fernandonu kim öldürdü?

Esteban. Fuente Ovexuna!

Laurensia. Ata, sənin adın bu dünya durduqca yaşasın, var olsun!

Frondoso. Bu mətin insanın iradəsini heç bir mənəvi əzab-əziyyət sarsıda bilməz!

Hakim. O uşağı gətirin! Küçük, düzünü de, sən burda olmusan... De görək komandoru kim öldürdü? Dillənsənə, hə, sərxoş, başla!

Uşaq (*səhnə arxasından*). Fuente Ovexuna!

Hakim. Ey kəndlilər, kralın həyatına aid olsun ki, sizi öz əllərimlə edam edəcəyəm! Komandorun qatilini ələ verəcəksiniz, ya yox?

Frondoso. Uşağı vəhşi kimi incitsələr də, gördünmü ondan bir kəlmə də qoparda bilmədilər, ağzına su almış adamlar kimi laldinməz olmuşdu.

Laurensia. Əsil xalq bu cür əzmli, dözümlü olar!

Hakim. Bax, hamıya dərs olsun deyə, o qadını yaxşı-yaxşı əzişdirərsiniz!

Laurensia. Bu saat onun ağlı başında deyil, qəzəbdir onu belə kor edən!

Hakim. Ey kəndlilər, bu işgəncə aləti ilə sizin hamınızı qıracağam! Boynunuza alın, deyin görək komandorun qatili kimdir?

Paskuala. Onu Fuente Ovexuna öldürdü, senyor?

Hakim. Onu da ötür bu tərəfə.

Frondoso. Boş yerə özünü əziyyətə salma, onsuz da bir şey çıxmayacaq!

Laurensia. Frondoso, qorxma Paskualadan söz ala bilməyəcəklər.

Frondoso. Görürsənmi, uşaqlar da susur. Daha burda mat qalmalı bir şey yoxdur ki...

Hakim. Görünür, onları cadulayan sən özünsən. Dillən görək, vaxtımız yoxdur!

Paskuala. Ey qadir Allah!..

Hakim. Eşitmirsən, namussuz, kar-zad deyilsən ki.

Paskuala. Senyor, komandorun qatili Fuente Ovexunadır!

Hakim. O kök kişini gətirin, deyəsən, onun kürəyi yağlıdır!

Laurensia. Bədbəxt Menqo! Onu deyirlər, Menqonu.

Frondoso. Qorxuram, ürəyim ondan çox səksəkəlidir. O, hər şeyi açıb deyə bilər.

Menqo (*səhnə arxasından*). Ay, ay!..

Hakim. Hə, başla qamçını şaqqıldatmağa...

Menqo. Ay!

Hakim. Sən necə imdad diləmirsən, aman istəmirsən?

Menqo. Ay! Ay!..

Hakim. Avam kəndli, komandoru öldürəni deyəcəksənmi?

Menqo. Ay! Ay!.. Deyirəm, deyirəm, senyor!

Hakim. Yaxşı, boşaldın onun qollarını! Bir az özünə gəlsin.

Frondoso. Mən dedim axı, o, boynuna alacaq.

Hakim. Kürəyini söykəyin ağaca.

Menqo. Burax! Daha taqətim qalmayıb! Deyirəm!..

Hakim. Hə, qoçaq, ona kim qəsd etdi?

Menqo. Senyor, senyor, onu Fuento ovexuna öldürdü.

Hakim. İlahi, hələ mən ömrümdə belәsinə rast gəlməmişəm. Bu qədər əzab-əziyyətə tab gətirib zarafatından əl çəkmir. Yeganə, axırıncı ümidim ancaq buna idi. O isə hamıdan inadcıl çıxdı. Onları buraxın getsin, boğuldum, əldən düşdüm! Daha dözə bilmirəm.

Frondoso. Oh, dostum, Menqo, Allah sənə yar olsun!

Laurensia. Mən onun özünü o cür aparmasından elə qorxurdum ki... Deyirdim daha hər şey məhv oldu!

ON DOQQUZUNCU ŞƏKİL

Menqo, Barrildo və Rexidor səhnədə görünürlər.

Barrildo. Afərin, Menqo, əhsən!

Rexidor. Çox qiyamət oldu!

Barrildo. Afərin, Menqo, yaşa!

Frondoso. Lap mənim ürəyimdən xəbər verdi.

Menqo. Ay, ay!..

Barrildo. İç, dostum, al iç! Ye də! Ye!

Menqo. Ay, ay! Bu nədir?

Barrildo. Şirin alma şərabıdır.

Menqo. Ay! Ay!..

Frondoso. Qoy içsin.

Barrildo. .....[1] Hə, hə!..

Frondoso. Onu süzgəcdən yaxşı keçirtdik Sınaqdan qiyamət çıxdı.

Laurensia. Ver yenə də içsin, ona halaldır.

Menqo. Ay! Ay!..

Barrildo. Bunu da vur mənim sağlığıma!

Laurensia. Ay can, ay can! Hirsli-hirsli bir stəkan da getdi.

Frondoso. O adam ki, boynundan atmağı yaxşı bacarır, yaxşı da içir.

Barrildo. Yenə də istəyirsənmi?

Menqo. Ay! Ay!.. Hə, hə! Süz görüm...

Frondoso. Sən buna layiqsən, Menqo, köpüncə iç!

Laurensia. Hər zərbəyə bir qurtum.

Frondoso. Onu bürüyün, çiyninə paltardan-zaddan atın, yoxsa donar, buz bağlayar. Görmürsünüz necə domuşub.

Barrildo. Yenə içirsənmi, Menqo?

Menqo. Lap yüzünü. Ay, ay, ay!..

Frondoso. Bir soruş gör varmı?..

Barrildo. İç, iç, nuş olsun, iç! Sirr saxlaya bilən gərək yaxşı da içsin. Hə, necədir, dadı-tamı xoşuna gəlirmi?

Menqo. Bir az turşdur. Gedək, burda mənə bir balaca sərin oldu.

Frondoso. Al şərab pis deyil, ha!.. Komandoru kim öldürdü?

Menqo. Əşi mən nə bilim! Get bunu Fuente Ovexunadan soruş, mən nə bilim!

Gedirlər.

İYİRMİNCİ ŞƏKİL

Frondoso, Laurensia.

Frondoso. Onu öldürən yaman ürəkli, cəsarətli imiş, Laurensia! Mənim istəyim, mənim sevgim, sən bilirsənmi komandoru kim öldürdü?

[1] Barrildonun sözünün əvvəli orijinalda da yoxdur.

Laurensia. Əzizim Frondoso, onu Fuente Ovexunadan xəbər al!

Frondoso. Kimdən? Kim öldürüb?

Laurensia. Bunu nahaq yerə soruşursan, əzizim! Özün bilirsən ki, onun qatili Fuente Ovexuna olub.

Frondoso. Bəs biz? Bəs biz bir-birimizə necə qovuşduq?

Laurensia. Bizmi? Hədsiz-hüdudsuz sevgimizlə!

İYİRMİ BİRİNCİ ŞƏKİL

Tordesilyasda kralların otağı. Kral, Kraliça və don Manrike daxil olurlar.

Donya İzabella. Mən ağlıma belə gətirmizdim ki, sizi burada görəcəyəm. Özümü çox xoşbəxt sayıram!

Kral. Mən sizin baxışlarınızdan yeni şöhrət kimi dönə-dönə nur alıram. Portuqaliyaya gedən yol burdan o qədər də uzaq deyil. Yolüstü bura dəyməyi özümə borc bildim.

Donya İzabella. Əlahəzrət, bunu lap yaxşı eləmisiniz, lap yerində olub bura gəlməyiniz. İstəsəniz, ora getməkdən imtina da edə bilərsiniz.

Kral. Danışın görək, Kastiliyada nə var, nə yox?

Donya İzabella. Əmin-amanlıqdır. Sakitliklə azadlıq bir-birinə qovuşub hökmranlıq edir!

Kral. Səbəbi də aydındır. Siz olan yerdə xoşbəxtlik də olar, bolluq da!

Don Manrike. Kalatravanın böyük magistri elə indicə təşrif buyurub. İcazə versəniz, o, özünü hökmdarlara təqdim etmək istəyir.

Donya İzabella. Onunla görüşməyimə çox şadam.

Don Manrike. Onun yaşı az olsa da, aslan ürəklidir. Biz onun döyüşlərdən alnıaçıq çıxdığını dəfələrlə görmüşük. Bundan yaxşı sınaq nə ola bilər?!

Gedir.

İYİRMİ İKİNCİ ŞƏKİL

Magistr daxil olur.

Magistr. İltifat göstərib icazə versəniz, Kalatrava Magistri Rodriqo Telyes Xiron, əbədi şöhrət qazanmış hökmdarlıq tacının qarşısında baş əyər. Axmaq məsləhətə qulaq asıb pis yola düşdüyümü boynuma alıram. Fernandonun məsləhətinə qulaq asmadım, sizin qanunla hesablaşmadım. Şəxsi maraq məni aldatdı. Səhv etdiyimi indi başa düşürəm. Əgər mən bağışlanmaq mərhəmətinə layiqəmsə, ayaqlarınıza döşənib üzr istəyirəm. Ömrüm boyu sizə qulluq etməyə, canımı belə qurban verməyə, sadiq qalmağa hazıram. Mən bunu Qranada divarlarının yanında sübut edəcəyəm. Ordunuz hansı istiqamətə hərəkət etsə qılıncım düşmənə aman verməyən odlu silaha çevriləcək. Düşmənə qarşı amansız olacağam. Mən qorxu ilə dəhşətin nə olduğunu düşmənə göstərəcəyəm! Dəmir libasımın, zirehli qalxanımın, qıpqırmızı xaçımın qırıqları məni qalalar fəth etməyə çağırır. Beş yüzdən çox əsgərlə meydana atılacağam. Son nəfəsimədək əmrlərinizə əməl edəcəyəm! Mənə bundan artıq sevinc, istək lazım deyil!

Kral. Qalxın, Rodriqo, qalxın ayağa! Sizin hər gəlişiniz bizə sevinc, şadlıq bəxş edir. Həmişə bizim istəkli qonağımızsınız.

Magistr. Siz bütün müsibətləri yoluna salır, fəlakətləri dəf edirsiniz.

Donya İzabella. Mən sizin işinizlə sözünüzü bir-birindən ayırmır, həmişə onları bərabər tuturam.

Magistr. Sizin tərifiniz ağızlardan düşməyəcək. Esfir və Kserks![1] Gözəllik və güc!

İYİRMİ ÜÇÜNCÜ ŞƏKİL

Don Manrike daxil olur.

Don Manrike. Senyor, Fuente Ovexunada danışıq aparan hakim qayıdıb. Hesabat vermək üçün sizin sərəncamınızı gözləyir.

Kral (*magistrə*). Sizsiz heç bir ağıllı danışıq, heç bir müdriklik təsəvvürə gətirə bilmirəm.

[1] Esfir və Kserks (e. ə. V əsr) – Bibliya hekayətinə görə Esfirə əri Kserks o qədər hörmət edirmiş ki, o, Esfirin ən kiçik arzularını da yerinə yetirirmiş.

Magistr. Senyor əgər sizin vassalınız olmasaydım, mən komandorları necə öldürdüklərini o qara camaata göstərərdim.

Kral. Bu, nahaq yerə sizi həyəcanlandırır.

Donya İzabella. Mən qayğıkeşliklə etiraf edib deyirəm ki, vəzifə sizin gücünüzdədir. Allah sizin hakimiyyətinizi heç vaxt dar ayağında qoymasın!

İYİRMİ DÖRDÜNCÜ ŞƏKİL

Fuente Ovexunadan qayıdıb gələn hakim içəri daxil olur.

Hakim. Sizin tərəfinizdən göndərilən bir məhkəmə kimi əmrinizi Fuente Ovexunada həyata keçirmək üçün cinayəti var gücümlə, sübutlarla araşdırdım. Məndən təcrübəli adamların biliyinə arxalanıb günahkarları diqqətlə axtardım. Bir dənə olsun belə sübut görmədim. Orada qocadan tutmuş cavana kimi hamı bir sözü deyirdi. Kimi dindirsən, komandorun öldürülməsini kimdən soruşsan, hamı mətin ürək sözləri ilə bir ağızdan "Fuente Ovexuna" deyirdi. And içirəm ki, bu cinayəti açmaq üçün üç yüz adama verdiyim olmazın işgəncə belə onların iradəsini qıra bilmədi. Hamı "Fuente ovexuna" deyib sözlərinin üstündə durdu. Artıq on yaşında uşaqlar da üzə durur. Nə al dillə, nə dünya malına şirnikdirməklə, nə də ağılla onlardan bir kəlmə başqa söz ala bilmədim. Nəhayət, belə qərara gəldim ki, bu cinayəti heç cürə açıb üzə çıxarmağın yolu yoxdur. Siz ya onların hamısını bağışlamalısınız, ya da ki bütün kəndi dar ağacından asmalısınız. Mənim sizə söylədiklərimi bir daha sübut etmək üçün onlar özləri yığışıb gəliblər bura. Şəxsən özünüz dindirə bilərsiniz.

Kral. Buraxın onları, qoyun gəlsinlər!

İYİRMİ BEŞİNCİ ŞƏKİL

Hər iki alkalde, Frondoso, kəndli qadın və kişilərlə daxil olurlar.

Laurensia. Bizim krallar bunlardımı?

Frondoso. Bəli, bütün Kastiliyanın küll-ixtiyarı bunlardır!

Laurensia. Məncə onlar çox xeyirxahdırlar. Müqəddəs Anton özü onlardan xoşbəxtliyi əsirgəməyib.

Donya İzabella. Bunların hamısı da qiyamçılardırmı?

Esteban. Fuente Ovexuna camaatı, senyora, nə gözləyirsə hökmdar əllərinin kölgəsinə sığınmış qəzəbli taledən gözləyir. Mərhum komandoru parçalayıb axırına çıxan ancaq eşidilməmiş zülm, əzab-əziyyət oldu. Başına gələnlərin hamısının günahkarı özü idi, öz hərəkətləri. Bu, onun ən böyük bədbəxtliyi idi. O, bizi soydu, taladı, ac gözləri doymadı, başladı qızlarımıza sataşmağa. Bizə heç yerdə havadar çıxan olmadı.

Frondoso. Bu gənc kəndli qızını görürsünüzmü, bizi Allah özü bir-birimizə qovuşdurub. O, özünü elə aparırdı, elə aparırdı ki... Lovğalanıb deyirdi ki, o, hər yerdə qalib gəlir, ona batan olmaz. Mən evlənməyə hazırlaşırdım, təzəcə toya başlamışdım, əvvəlcə məcbur etdi ki, ilk gecə onunla keçməlidir. Elə bil öz qulu ilə danışırdı. Əgər namusu, vicdanı gözləsəydi, heç kimin vüqarına, mənliyinə toxunmasaydı, bəlkə də, bu iş, bu hadisə baş verməzdi.

Menqo. Bəs mən necə, danışmalıyam, ya yox? Əgər kürəyimə tutduqları toyu danışsam, gözləriniz kəllənizə çıxar. Onlar qızı biabır edib ləkələmək istəyirdilər. Mən, zavallını müdafiə etmək haqqında düşünəndə həmin pisniyyət Neron əmr etdi ki, mənim kürəyimi bəzəsinlər. Elə etsinlər ki, doğranmış qızıl balığın ətinə oxşasın. Gör mənim arxamı nə kökə saldılar. Elə qəzəblə, elə bərkdən vururdular ki, elə bil insan yox, nağara vururdular. İnsafı, mürvəti atmışdılar. Üçü birdən döyürdü. İndi onların dərisi daha xalis, daha bütövdür. At damğaları ilə qalaqlanıb üst-üstə. Sağalmaq mənə çox ağır başa gəldi. Yağlı toz dərmanı ilə sağaltdılar. Görürsünüzmü, mənim də mülkümü belə qarət etdilər.

Esteban. Senyor, biz sənin ixtiyarında olmaq istəyirik. Bizim əsil, qanuni kralımız sənsən! Bir dəfə də olsun səni unutmamışıq. Biz mərhəməti səndən gözləyirik. Bütün camaat da ədaləti, mərhəməti səndən umur. Ədalətlə yanaşsan, deyərsən ki, bu işdə bizim heç bir təqsirimiz yoxdur, günah bizdə olmayıb.

Kral. Hərgah heç bir dəlil, heç bir sübut olmayıbsa, daha mühakimə etməyə lüzum yoxdur. Cəza tədbiri görmək yersizdir! Cinayət ağır deyilsə, bunu bağışlamaq olar! Siz isə mənimlə qalmağı qərara almısınızsa, çox yaxşıdır. Hələlik müvəqqəti də olsa, komandorsuz keçinərsiniz, sonra tapıb göndərəcəyəm!

Frondoso. Senyor, doğrudan da, biz sənin ədalətli məhkəməni əbəs yerə axtarmırdıq! Ey namuslu senyorlar, bununla da Fuente ovexuna sona çatır!

SON

İZAHLAR

SEVİLYA ULDUZU

Tədqiqatçıların fikrincə, əsər 1623-cü ildə yazılmışdır. 1953-cü ildə Azərbaycan dilinə Tələt Əyyubov tərcümə etmiş və həmin ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulmuşdur. Tərcümənin ilk variantı "Azərbaycan" jurnalında çap olunmuşdur (1956-cı il).

Alkald – Ərəbcə əli qazi (Azərbaycan variantı – qazı) sözündəndir. İspaniya və Latın Amerikası ölkələrində icma rəisi, məhkəmə hakimi deməkdir.

Arçidona – Kastiliya və Qranada əmirlikləri sərhəddində, Malağa yaxınlığında qala.

"Bu gözəl sarayda, gözəl salonda".

Mən də şlyapalı gəzərdim" – əyanlar kralın hüzurunda şlyapalarını çıxarmamaq hüququna malik idilər. Burada həmin qaydaya işarə olunur.

San Markos – Sevilyada Müqəddəs Mark kilsəsi. Qədim Mavr (ərəb) məbədinin yerində XIV əsrdə tikilmiş kilsə. "Sevilya ulduzu"nda bunun adının çəkilməsi anaxronizmdir.

Kueva – Sevilya yaxınlığındakı Trianada XV əsrdə tikilmiş kilsə nəzərdə tutulur. Bu da anaxronizmdir.

Tarkvini-Brut – Roma hökmdarı Məğrur Tarkvini, rəvayətə görə, bizim tarixdən əvvəl 510-cu ildə Lyusi Yuni Brut tərəfindən taxtdan salınmış və qovulmuşdur.

Qabil – dini əfsanələrə görə, Adəmin iki oğlundan biri. Qardaş qatili.

Atlant – Qədim mifologiyaya görə, dünyanın qurtaracağında durub, səmanı saxlayan sütunları çiynində tutmuş nəhəng.

Sombrero – Günlüyü enli şlyapa.

Anaksaqor – Qədim yunan filosofu (bizim tarixdən əvvəl 500-428-ci illər). Allahsızlıqda ittiham olunub, Afinadan sürgün edilmişdi.

Serber – Qədim mifologiyaya görə, üçbaşlı, boynunun tükləri və quyruğu ilan yeraltı dünyanı qoruyan köpək.

Alonso – IV Sançonun qardaşı Fernandonun oğlu. Kastiliya taxtını ələ keçirmək fikrində olub, Roma papası IV Martin tərəfindən himayə olunurdu.

Saul-David – Bibliya əfsanələrinə görə, Saul qədim israillilərin ilk hökmdarı, David isə onun varisi, şair və peyğəmbər, həm də Beytülmüqəddəsin (Yerusəlimin) banisi.

VALENSİYA DİVANƏLƏRİ

Əsərin yazılma tarixi mübahisəlidir, təxminən 1590-cı il sayılır. 1963-cü ildə Tələt Əyyubov Azərbaycan dilinə tərcümə etmiş, həmin ildə də M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram teatrında tamaşaya qoyulmuşdur.

Platon – məşhur Yunan filosofu (bizim tarixdən əvvəl 429-347-ci illər), Aristotelin müəllimi, Sokratın şagirdi. Yunan fəlsəfəsində idealist məktəbin başçısı.

Fisba – Qədim Yunan əfsanəsinə görə, Fisba Babil gözəli, Piramın məşuqəsi olub. Piramla görüşməyə gedəndə, yolda Fisbaya bir aslan rast gəlir, qız qaçanda, plaşı çiynindən düşür. Aslan plaşı parçalayır, bir az əvvəl yediyi öküzün qanı plaşı ləkələyir. Fisba ilə görüşə gələn Piram sevgilisinin plaşını qanlı gördükdə, dərdə dözməyib özünü öldürür.

Dukat – XVIII əsrdə Venesiyada işlənən, sonra isə bütün Avropaya yayılan qızıl pul.

Alikante – İspaniyada Aralıq dənizi kənarında liman.

"Göylərin üzündə bir ay deyiləm" – Keçmiş qənaətə görə, guya dəlilərin şüuru, idrakı onlar sağalana qədər Ayda, xüsusi qablarda saxlanırmış.

Pan – Hermesin oğlu. Əvvəllər o, çobanların hamisi və sürülərin Allahı sayılırdı. Sonralar isə bütün təbiətin qoruyucusu hesab olunurdu. Başında keçi buynuzları, keçi ayaqlı və keçi saqqallı insan kimi təsvir olunur.

Apuley – Burada Apeleyin "Qızıl eşşək" adlı nağılındakı bir epizod nəzərdə tutulur.

Apollon – Qədim əsatirə görə, intizam və ahəngdarlıq Allahı, incəsənət hamisi, günəş Allahı.

Mandrikardo, Dolraliçe, Rucero – Ariostonun "Divanə Roland" (1516) poemasının surətləri.

Divanə Roland – Qədim fransız milli eposunun qəhrəmanı, İmperator Böyük Karlın ən cəsur cəngavərlərindən biri.

Dəyirmi masa, Perlər – Burada Dəyirmi masa cəngavərləri nəzərdə tutulur. Bunlar əfsanəvi Britaniya kralı Arturun (IV əsr) yaxın adamları olub, ziyafət zamanı dəyirmi masa arxasında oturardılar ki, aralarında yer fərqi olmasın və hamısı özünü bərabər hüquqlu saysın

Kalainoso, Sanseneto, Urxel – Lope zamanında çox məşhur olan cəgavərlik romanlarının qəhrəmanları.

Xuan de Mena – (1411-1456) İtalyan və latın şairlərinin təqlidçisi olan ispan şairi. Zövqsüz bir şair olduğundan, ispan ədəbiyyatına xeyli ziyan vurmuşdur. Buna görə də burada adı istehza ilə yad olunur.

Rodamonte – İtalyan cəngavərlik poemalarında qəhrəmanın adı.

Merkuri – Allahların elçisi, ticarət, ixtira və hiyləgərlik Allahı.

Diana – Meşə ovu və ay ilahəsi. Məhəbbətə biganə olan əbədi bakirə.

Mafusail – Bibliya əfsanələrinə görə, guya 969 il yaşamış bir qoca. Onun adı uzunömürlülük rəmzi kimi çəkilir.

Sarisinlər – Avropa ölkələrində orta əsrlərdə əvvəlcə ərəblərə, sonra isə, ümumiyyətlə, müsəlmanlara verilən ad.

Posidoni – (bizim tarixdən əvvəl 135-50-ci illər) Roma tarixçisi, filosof, Siseron və Pompeyin müəllimi.

Qalen (131-210) – məşhur yunan həkimi.

İbn-Sina (980-1037) – məşhur Tacik-İran həkimi və mütəfəkkiri.

"Bəli, bu misralar Petrarkanındır,
Bəlkə də, Ovidi yazmış bunları" – Əslində isə bu misralar onlardan heç birinin deyil. Lakin bunlardan sitat gətirmək o zamanlar o qədər adi bir hal almışdı ki, hərə öz kefi istəyəni onların adından qələmə verirdi.

"Siserondan qalıbdır bizlərə bu məsləhət" – Mark Tuli Siseron (bizim tarixdən əvvəl 106-43-cü illər), qədim Romada məşhur natiq, yazıçı və siyasi xadim.

Yeddi möcüzə – Qədimdə gözəllik və əzəmətinə görə başqalarından seçilən memarlıq və heykəltəraşlıq əsərlərindən yeddisi məşhur olub, möcüzə sayılırdı.

Eskudo – Qədim İspaniya qızıl və ya gümüş pulu: üzərində dövlət gerbi həkk olunmuşdu.

"Doqquz mindən çoxkən təkcə şairlər,
Pərilər, nə üçün siz doqquzsunuz?" – bu misralarla Lope da Veqa öz zamanında həddən çox olan şairnumalara istehza edir.

Lanselot – Dəyirmi masa cəngavərlərinin ən məşhurlarından biri olub, bir çox cəngavərlik romanlarının qəhrəmanı kimi şöhrət qazanmış və adı igidlik rəmzinə çevrilmişdi.

Amalteya – Qədim əsatirə görə, Krit adasında öz südü ilə Zevsi bəsləmiş keçinin adı. Bu keçinin buynuzları elə bir möcüzəyə malik imiş ki, ürək istəyən hər şeyi həmin saat hazır elərmiş. Buna görə bu buynuzlar qədim yunanlar arasında bolluq rəmzi sayılırdı.

FUENTE OVEXUNA

Kral don Fernando – ispan kralı Ferdinand (1479-1516).

Kraliça donya İzabella – ispan kraliçası İzabella (1474-1504), Ferdinandın arvadı.

Kalatrava Magistri – Rodriqo Telyes Xiron, Kalatrava ordeninin böyük magistri. İzabella ilə izdivac məsələsinə görə Pedro Xiron (onun atası) 1466-cı ildə magistr vəzifəsindən əl çəkməyə məcbur oldu. Rodriqo Xironun o vaxt səkkiz yaşı vardı. Həddi-büluğa çatanadək ordenin işlərini onun dayısı Xuan Paçeko idarə edirdi.

Don Manrike – Don Rodriqo Manrike de Lara, Paredesin qrafi, Ferdinandın dayısı, 1 noyabr 1476-cı ildə, Fuente Ovexuna qiyamından yarım il sonra 70 yaşında ölüb. Atası görkəmli ispan şairi Xorxe Manrike "Manrikenin atasının ölümünə!.." əsərinin müəllifidir. Rodriqo Manrike Ferdinandın və İzabellanın ən yaxın, ən fəal köməkçilərindən biri olub, feodal anarxiyasına qarşı mübarizədə onlara kömək edib.

Fernan Qomes. Kalatrava ordeninin baş komandoru. Ordenin adından Fuente Ovexunanı idarə edən hərbi dəstənin başçısı. O, ordenə magistr. Pedro Xironun vaxtında daxil olmuşdur. 1476-cı ildə onun yaşı 40-ı keçmişdi.

Esteban. Alkade – böyük, başçı, yerli idarə sədri. (Şəhərdə və kənddə) Bələdiyyə rəisi. Bu vəzifəyə idarə funksiyalarından başqa, inzibati imtiyazlar da həvalə edilmişdir. XV əsrin axırında bu vəzifə seçki yolu ilə olurdu və yalnız senyor tərəfindən təsdiq edildikdən sonra qüvvədə qalırdı. Daha iri yaşayış məntəqələrində hətta məhəllə alkaldelləri də vardı.

Rexidorlar. Məsləhətçilər, şəhər idarə heyətinin üzvləri (kənddə də ola bilərdi). Adətən, daha yuxarıda duran hakimlər tərəfindən təyin olunurdular.

Fuente Ovexuna – Kordova, Estramadura və Lamança (Siudad Real) sərhəddində kiçik bir şəhər, Fuente Ovexuna hadisələri baş verən zaman, 1456-cı ildə Kalatrava ordeni himayəsi altına keçdi. Həmin yerin qədim adı Melyariya imiş. Latınca meltaria – Ballı deməkdir. "Fuente Ovexuna" adı "Fuente" – "bulaq", "Ovexuna" – "quzu" sözlərindəndir. Bunu aşağıdakı kimi izah edirlər: 1. Şəhər gerbinin üzərində arı beçəsinin şəkli varmış; 2. Ovexuna camaatı indi də arıçılıqla məşğul olurlar.

Fuente Ovexuna hadisələrinin davamı: Siudad Realın Kalatrava ordeni tərəfindən zəbt edilməsi 1475-ci ilin əvvəlində baş vermişdir. Fernan Qomesin ölümü 1476-cı ilin aprelində olmuşdur.

"Fuente Ovexuna" dramı ilk dəfə 1619-cu ilin əvvəlində nəşr edilmişdir. Senzura isə 1618-ci ilin 15 avqust, 6 oktyabr, 22 dekabrında icazə vermişdir. İndiyədək bu əsərin yazılma tarixini dəqiqləşdirmək mümkün olmayıb.

Tədqiqatçıların dediyinə görə, əsərin yazılması 1612-1613-cü illəri əhatə edir. Bu nəşr "İspan ədiblərinin kitabxanası" – seriyasından (III cild) nəşr olunmuş mətndən götürülmüşdür. Bu variant həmçinin Menendes və Pelayonun redaktorluğu altında çıxmış akademik nəşrin mətni ilə, həmçinin, müasir nəşrlərlə müqayisə edilmişdir. Hələlik "Fuente Ovexuna" əsərinin tənqidi mətninin nəşri yoxdur.

MÜNDƏRİCAT

Ön söz 4

Sevilya ulduzu (*tərcümə edəni Tələt Əyyubov*) 7
Valensiya divanələri (*tərcümə edəni Tələt Əyyubov*) 139
Fuente Ovexuna (*tərcümə edəni Fərhad Əliyev*) 313

İzahlar 377

LOPE DE VEQA

SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Buraxılışa məsul:	*Əziz Güləliyev*
Texniki redaktor:	*Rövşən Ağayev*
Tərtibatçı-rəssam:	*Nərgiz Əliyeva*
Kompyuter səhifələyicisi:	*Yalçın Şükürov*
Korrektor:	*Hüseyn Şahbəndəyev*

Yığılmağa verilmişdir 14.08.2007. Çapa imzalanmışdır 22.10.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 24. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 196.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.

116 (4)
V-36

